F.N. ƏLİYEVA

# QLOBALLAŞMA VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK FƏLSƏFƏSİ

BAKI 2008

Kitab AMEA-ı Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Şurasının 29 dekabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür. (Protokol №16)

ELMİ REDAKTOR:

AĞAYAR ŞÜKÜROV
Fəlsəfə elmləri doktoru, professor

RƏYÇİLƏR:

HƏSƏN ƏLİBƏYLİ
Tarix elmləri doktoru, professor

LALƏ MÖVSÜMOVA
Fəlsəfə elmləri doktoru

KOMPÜTER TƏRTİBATÇISI
Elnarə Əliyeva

*Kitabda Azərbaycanın milli təhlükəsizliyi, milli təhlükəsizlik konsepsiyasının mühüm müddəaları, eyni zamanda qloballaşma dövründə milli mənəvi dəyərlərimizin, milli təhlükəsizlik kontekstində verilməsi məsələləri öz əksini tapmışdır. Kitab tələbə və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

*ISBN 9852-428-06-05*

© *«Sədə»*
© *«F. Əliyeva»*

## GİRİŞ

XXI əsrdə bəşəriyyətin müasir inkişafının əsas meyarı olan qloballaşma daxili və siyasi mühitin formalaşmasına mühüm təsir gösərir. Qlobal meyllərin gətirdiyi qərbləşmə davranış normaları və streotiplərin səmtini dəyişdirir, milli dövlətin suverenlik anlayışını silib aparır. Buna görə də cəmiyyətin daxili və xarici amilləri arasında tarazlıq yaratmaq bacarığı möhkəm və səmərəli dövlət sisteminin qorunub saxlanmasının mühüm elementidir.

Bu mənada İ.Əliyev demişdir: «Sosial ədalətin bərqərar olması milli mənəvi dəyərlərimizin qorunub saxlanılması ölkə üçün həyati əhəmiyyət kəsb edir».(B,1) Biz Qərb dünyasının müsbət cəhətlərini nəzərə almaqla mədəni dəyərləri qiymətləndiririk. Lakin Azərbaycanda vətəndaş cəmiyyəti qərb nümunələrini olduğu kimi tətbiq etməklə qurula bilməz. Bu gün biz kortəbii şəkildə Qərbdə nə varsa, onu Azərbaycana tətbiq edə bilmərik. Biz öz yolumuzla yeni modernləşmə xətti ilə gələcəyimizin strategiyasının müəyyənləşdirməliyik. Ölkəmizdə demokratiya bərqərar olunur. Azərbaycan demokratik sistemi təakmilləşdirərkən sabit bir ölkədən modernləşməyə doğru inkişaf istiqamətində hərəkət edir. Demokratiya bazar təsərrüfatı və vətəndaş cəmiyyəti idealı tədricn cəmiyyətin inkişaf strategiyasının əsas səmtinə çevrilmiş, beləliklə də müasir milli dövlətin başlıca vəzifələri olmuşdur. Bu gün demokratiya pərdəsi altında «Qərb Yaxın Şərqdə terrorizmlə mübarizədə dəstək», «Asiyaya daha sivil cəmiyyət qurmaq üçün əvəzsiz yardım», «Afrikaya sabitlik yaratmaq naminə siyasi-humanitar kömək siyasəti» adı altında siyasi təfriqələr, silahlı toqquşmalar törədir. Demokratik prinsiplərə yanaşmada buraxılan səhvlər bu gün beynəlxalq terrorizmin güclənməsinə təkan vermişdir. Həmçinin Qərbin demokratiyanın müdafiəsi bəhanəsi ilə suveren ölkələrin daxili işlərinə kobudcasına qarışmaq, onlara siyasi təzyiq göstərmək, seçki proseslərinin, vətəndaş hüquqları və azadlıqlarının vəziyyətinin qiymətləndirilməsində ikili standartların zorla qəbul etdirmək cəhdləri əslində, demokratik dəyərlərə vurulan ən böyük zərbədir. Bu zərbəni halhazırda ABŞ-ı bütün Şərq ölkələrinə qarşı endirir. Demokratiya daim inkişafda olan bir prosesdir. Məhz Azərbaycan bu gün müstəqil şəkildə, heç bir qüvvənin köməyi olmadan varislik ənənələrini davam etdirərək, suveren olan, demokratik prinsiplərə söykənən bir ölkədir. Burada hər şeydən öncə xalqın milli maraqları nəzərə alınır.

Qeyd etmək lazımdır ki, demokratiya Azərbaycan dövlətçiliyinin təməlidir. Belə ki, Sovetlər dağıldıqdan sonra 15 ölkənin hər biri bir-birindən fərqli inkişaf yoluna qədəm qoydu. Məsələn, Baltikyanı ölkələr ilk gündən Mərkəzi və Şərqi Avropa ölkələrinin xüsusiyyətlərinə əsaslanaraq, bu tipli demokratiya modelini əxz edərək, oxşar dövlət quruculuğu prosesinə başladılar. Bu mənada son 15 ildə Azərbaycan Respublikasının hərtərəfli yüksəlişini təmin edən strategiya iqtisadiyyat, sosial, hüquqi, siyasi, mədəni, humanitar və digər məsul sahələrdə həmçinin demokratikləşmə prosesində də öz inkişaf modelinə malik olmuşdur. Bu strategiyanın əsasını onun heç bir digər xətti təkrarlanmaması milli və bəşəri, qlobal faktorları özündə əks etdirərkən, xalqın milli maraqları səviyyəsində sırf milli model kimi biruzə verməsi təşkil edir. Demokratik modernləşmənin əsas strategiyasından biri də sosial siyasətdə qarşıya qoyulan yoxsulluğun azaldılmasıdır. Bu məsələ respublikamızın milli təhlükəsizlik siyasətində öndə duran vəzifələrdən biridir.

Bildiyimiz kimi milli təhlükəsizlik haqqında qanun 1947-ci ildə ABŞ prezidenti N.Trumen tərəfindən imzalanmışdır. Bundan sonra bütün dövlətlər öz milli təhlükəsizlik qanunlarını qəbul etmişlər.

Azərbaycan Respublikasında da «Milli təhlükəsizlik haqqında» (2004-cü il 29 iyun) Qanunun 1-ci maddəsində deyilir: «Azərbaycan Respublikasının milli təhlükəsizliyi dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli mənafelərinin daxili və xarici təzyiqlərdən qorunmasının təmin edilməsidir».(4,2) Deməli, Azərbaycan Respublikası milli təhlükəsizliyinin əsas məqsədi insanların, cəmiyyətin, dövlətin təhlükəsizliyinin təmin edilməsidir.

Bildiyimiz kimi Azərbaycan 70 il Sovet ittifaqının tərkibində olmuşdur. 1990-cı ildən sonra Respublikamız müstəqillik yoluna qədəm qoydu. Bu, 1918-ci ildə qurulmuş müstəqil Azərbaycan Cumhuriyyətinin yenidən bərpası demək idi.

1991-ci ildə öz müstəqilliyini elan etmiş Azərbaycan, 1918-ci ildə Şərqdə ilk demokratik respublika qurmuş və 1920-ci ildə müstəqilliyini itirmiş Cümhuriyyətin varislik ənənələrini davam etdirmişdir. Çoxəsrlik dövlətçilik tarixi olan Azərbaycan özünün milli dövlətçilik Ənənələrinə, tarixi və mədəni irsinə sadiq qalaraq, demokratik hüquqi dövlət quruculuğu yolunu seçmişdir.

Azərbaycan Respublikasının strateji coğrafi mövqeyi onun Avroatlantik məkandakı siyasi və iqtisaidi proseslərdə mühüm enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində özünü biruzə vermişdir. Azərbaycanın təhlükəsizlik mühiti, həmçinin hərbi münaqişələr, beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni miqrasiya, insan alveri və narkotik vasitələrin qaçaqmalçılığı, kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğu ilə səciyyələnir ki, bu da ölkəni bir sıra təhlükəsizlik problemləri ilə üzləşdirir. Məhz buna görə də respublikamızın təhlükəsizliyi onun əsas problemlərindən biri oldu. Biz təhlükəsizlik dedikdə –beynəlxalq təhlükəsizlik və milli təhlükəsizliyi bir-birindən fərqləndirməliyik. Beynəlxalq təhlükəsizlik ümumdünya çərçivədə baş verən iqtisadi maliyyə, hərbi və digər təhlükəsizlik elementlərini özündə birləşdirir. Milli təhlükəsizlik dövlətin suverenliyinin, ərazi bütövlüyünün qorunub saxlanılması, sosial-iqtisadi, mədəniyyət problemlərinin, beynəlxalq dövlətlərarası münasibətlərin həlli deməkdir. Bütün bu elementlər daxili və xarici aspektlərə malikdir.

Milli təhlükəsizlik kateqoriyası siyasi elmlər leksikonunda adətən ABŞ prezidenti T.Ruzveltin adı ilə bağlıdır. Milli təhlükəsizliyin strukturuna siyasi, iqtisadi, hərbi, ekoloji, mədəniyyət və digərləri daxildir.

Siyasi təhlükəsizlik – istənilən hər hansı bir dövlətin milli-ərazi bütövlüyü, idarəetmə funksiyalarının yerinə yetirilməsi, müxtəlif sosial qrupların maraqlarının nəzərə alınması, millətin vahid iqtisadi, sosial-mədəni vəzifələrinin keyfiyyətli həlli deməkdir. Ümumiyyətlə milli təhlükəsizliyin aspektləri haqqında geniş açıqlamalar kitabın ayrı-ayrı paraqraflarında veriləcəkdir.

Qeyd etmək lazımdır ki, XX əsrin sonu XXI əsrin əvvəllərində etibarən bütün bəşəriyyət qloballaşma deyilən bir məfhumla rastalşdı. Qloballaşma heç bir dövlətdən yan keçmədi. Digər dövlətlər kimi respublikamız da istər-istəməz qloballaşmaya daxil oldu. Bu kitabda qloballaşma şəraitində Azərbaycan dövlətinə, onun milli təhlükəsizliyinə edilən təhdidlər və bu təhdidlərə qarşı dövlətin apardığı mübarizə öz əksini tapmışdır. Kitabda həmçinin milli təhlükəsizlik istiqamətində dövlətin apardığı daxili və xarici siyasətin əsas elementləri ayrı-ayrı bölmələrdə işıqlandırılır. Eyni zamanda dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış, sərhədlərinin toxunulmazlığı, beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi, xalqın milli maraqlarını nəzərə almaqla əhalinin həyat səviyyəsinin və fiziki sağlamlığının yüsəldilməsi və s. əhəmiyyətli məsələlr kitabda öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Konsepsiyasında da ölkənin daima dəyişən təhlükəsizlik mühiti respublikanın milli maraqları və təhlükəsizlik siyasətinin əsas istiqamətləri işıqlandırılıb. Konsepsiyada dövlətin daxili və xarici siyasətinə uyğun olaraq ölkənin təhlükəsizliyinin təmin olunmasının əsas elementləri əks etdirilir.

Azərbaycan Reupsblikasının milli Təhlükəsizlik siyasəti respublikanın Milli maraqlarına uyğun olaraq xarici siyasət strategiyasını, iqtisadiyyatı, mədəniyyət, elm, təhsil, səhiyyə və nəqliyyat strategiyaları da daxil olmaqla, dövlət fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir.

Azərbaycanın zəngin yeraltı və yerüstü sərvətləri, dünya dövlətlərinin marağına səbəb olmuşdur. Bu mənada Qərbi Avropa və Asiya dövlətlərinin ən böyük şirkət sahibləri, Azərbaycana sərmayə ayırmaqda çox maraqlıdırlar. Bu səbəbdən milli təhlükəsizliyin qorunması naminə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 24 may tarixli sərəncamı ilə «Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının» təsdiqinin böyük əhəmiyyəti vardır. Kitabda məhz konsepsiyada irəli sürülən müddəalar geniş şəkildə, faktlar və rəqəmlərlə işıqlandırılmışdır.

Həmçinin kitabda qloballaşma, onun müsbət və mənfi cəhətləri, cəmiyyətimizdəki rolu, ayrı-ayrı başlıqlar altında verilmişdir.

Kitabda göstərilir ki, milli maraqlar və onların üstünlüyü ölkənin daxilində və xaricində yaranan vəziyyətdən asılıdır. Milli maraqlar xalqın varlığı, həyat üçün müvafiq şəraitə ehtiyac, habelə onların formalaşması üçün yaradılan dəyərlərdir. Bu maraqlar ölkənin iqtisadi, sosial, siyasi, mənəvi və digər sahələrində nəzərə alınır.



# I FƏSİL

## AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİNİN MAHİYYƏTİ

«Milli təhlükəsizlik» bir termin kimi 90-cı illərdən diskussiyaya çərilmişdir. ABŞ 1947-ci ildə milli təhlükəsizlik haqqında konsepsiyasını Rusiya Federasiyası isə 1992-ci ilin fevralında qanun qəbul edərək, 1997-ci ildə isə bu qanun konsepsiya formasında əlavə və dəyişikliklərlə təsdiq olunmuşdur.

Azərbaycan müstəqil, suveren dövlət kimi formalaşdıqda birinci növbədə öz milli təhlükəsizliyini qoruyub saxlamağı və milli maraqlarının təmin edilməsinə yönəlmiş bir sıra tədbirlər görməyə başladı. Bunların içərisində Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli sərəncamı ən önəmlilərdən biri oldu. Sərəncam müharibə vəziyyətində olan bir dövlət üçün sanki göydəndüşmə oldu. Bu sərəncam milli təhlükəsizlik haqqında konsepsiyanı təsdiq etdi. Xalq bunu çoxdan gözləyirdi. Sərəncamda milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri kimi aşağıdakılar göstərilmişdir:

1.Təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi;
2.Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması;
3.Avropa və Avratlantik strukturlarına inteqrasiya;
4.Beynəlxalq təşkilatlarla əməkdaşlıq;
5.Regional əməkdaşlıq və ikitərəfli münasibətlər;
6.Region və qeyri-region ölkələrlə əməkdaşlıq;
7.Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi;
8.Demokratiyanın möhkəmləndirilməsi;
9.Milli və dini tolerantlıq mühitinin qorunması;
10.Elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması;
11.İqtisadi və sosial inkişaf;
12. Daxili təhlükəsizliyin möhkəmləndirilməsi;
13.Miqrasiya siyasəti;
14.Enerji təhlükəsizliyi siyasəti
15.Nəqliyyat təhlükəsizliyi siyasəti;
16.Fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi;
17.İnformasiya təhlükəsizliyi siyasəti.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji

seçimi kimi Avrotlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorunmağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur [2,4].

## §1. MİLLİ TƏHLÜKƏSİZLİK VƏ MİLLİ MARAQLAR

Azərbaycanın milli təhlükəsizlik siyasətinin əsas istiqamətlərindən biri olan beynəlxalq təhlükəsizlik, beynəlxalq təşkilatlarla əməkdaşlıq siyasətidir. Azərbaycan dünyada sülh siyasəti yeridərək sülhməramlı quüvvələri Serbiyanın Kosovo əyalətində, Əfqanıstanda, İraqda beynəlxalq koalisiyanın tərkibində təklükəsizliyin təmin olunmasında iştirak etmişlər.

Azərbaycan Ermənistanın Rusiya və digər dövlətlər tərəfindən silahlanmasından narahatdır. Beynəlxalq nəzarətdən kənarda qalan Ermənistanın ərazisində silah və sursatın toplanması yuxarı dairələri düşündürməməyə bilməz. Buna görə də, respublikamız milli təhlükəsizliyimiz naminə hər an ayıq-sayıq olmalı, müdafiə qabiliyyətimizi möhkəmləndirməlidir. Bu mənada Azərbaycan beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir. Bu da ki, onun milli təhlükəsizliyi və xarici siyasəti üçün mühümdür. Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığı onun Avropa xalqlarına inteqrasiyasını və Avropa Standartlarından bəhrələnməsini özündə əks etdirir. Məhz buna görə də respublikamız öz milli qanunvericiliyini Avropa standartları istiqamətində aparmağa çalışır. Dövlətimiz təşkilatın əsas sənədlərindən biri olan «İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa konvensiyasını və onun müvafiq protokollarını 2001-ci il yanvarın 25-də imzalamış, 2001-ci il dekabrın 25-də isə ratifikasiya etmişdir.

Beynəlxalq təşkilatlarla əməkdaşlığını genişləndirən Azərbaycan milli təhlükəsizliyini qorumaq üçün xarici siyasətində İslam Konfransı Təşkilatı (İKT) ilə əlaqə yaratması önəmli yerlərdən birini tutur. İslam dünyasının tərkib hissəsi olan respublikamız 1991-ci ildə bu təşkilata üzv olduqdan sonra onun fəal iştirakçısına çevrilmişdir. Burada Azərbaycan milli maraqlarını hər şeydən üstün tutaraq, işğal olunmuş torpaqlarımızın qaytarılması uğrunda haqq və ədalət mövqeyindən çıxış edir. Azərbaycanın haqq işini İKT-a üzv olan ölkələr sözsüz ki, dəstəkləyirlər.

Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığından danışarkən onun sivilizasiyalararası körpü rolunu oynayaraq Şərq və Qərb mədəniyyə-



tindən bəhrələnməklə xalqlar və dövlətlər arasında dialoq aparmasının şahidi oluruq.

Azərbaycan MDB ölkələri ilə də iqtisadi, siyasi, hərbi və humanitar sahələrdə əməkdaşlıq edir. Bu SAhədə də respublikamız milli təhlükəsizlik zəminində çıxış edərək suveren dövlətin milli maraqlarını qoruyur. Azərbaycan, Gürcüstan, Moldova, Ukraynanın üzv olduğu «Demokratiya və iqtisadi İnkişaf Naminə - GUAM» ölkələri ilə respublikamız 1997-ci ildən beynəlxalq əməkdaşlıq çərçivsində ümumi milli maraqlar əsasında təhlükəsizliklə bağlı fəaliyyətini genişləndirmişdir.

Təhlükəsizlik problemlərini analiz edərkən onu aşağıdakı hissələrə ayırmaq olar: Daxili, sabit dövlət təhlükəsizliyi və beynəlxalq təhlükəsizlik, bu da ki, öz növbəsində ümumi təhlükəsizliyə (bütün planet üçün), regional (bir qrup dövlətin) və milli təhlükəsizlik (konkret olaraq bir dövlət və cəmiyyətin) təhlükəsizliyi.

Biz yuxarıda Azərbaycanın milli təhlükəsizliyinin əsas istiqamətləri haqqında az da olsa məlumat verdik. İndi isə Azərbaycanın dünya dövlətləri ilə regional əməkdaşlıq sahəsində apardığı iqtisadi-siyasi işlər barəsində danışaq.

## §2. MİLLİ TƏHLÜKƏSİZLİYİN XARİCİ SİYASƏT VASİTƏLƏRİLƏ TƏMİN EDİLMƏSİ. BEYNƏLXALQ TƏŞKİLATLARLA MƏKDAŞLIQ

Milli təhlükəsizlik terminini milli maraqlardan ayırmaq olmaz. «Milli təhlükəsizlik» anlayışını ilk dəfə 1904-cü ildə ABŞ-ın prezidenti T.Ruzveltin konqresə müraciətində işlədilmişdir. Burada o, Panama kanalı sahəsinin birləşdirilməsini «milli təhlükəsizlik» marağı ilə əsaslandırırda. «Milli təhlükəsizlik» anlayışının mənbəyini Amerika müəllifləri «milli maraq» nəzəriyyəsində görürlər. Bu yanaşma sosioloq Y.Lippman tərəfindən təklif olunmuşdur [24,320].

«Milli maraq» anlayışı elmi dövriyyəyə 1935-ci ildə Oksford Sosial Elmlər Ensklopediyasına daxil edilmiş və bununla da vətəndaşlıq hüququ alınmışdır. Politologiya ensklopedik lüğətində milli maraqlar anlayışına belə tərif verilmişdir. «Milli maraqlar genetik və mədəni homogen qarşılıqlı münasibətlər və spesifik əaqələrlə birləşən milli birliyin və yaxud qrupun mənafeyidir».(59,3) Deməli, milli maraqlar müəyyən tarixi və mədəni əlaqələr, ümumi həyat birliyi əsasında birləşən, sosial qrupların maraqlarıdır. Bu maraqlar onların inkişafını təmin edir.

Milli maraq obyektiv gerçəklikdir. Milli maraq bir tərəfdən dövlətin özünəməxsus coğrafi mövqeyinə və buradan qaynaqlanan iqtisadi, siyasi-mənəvi inkişafına, digər tərəfdən isə insan təbiətinin xüsusiyyətlərinə əsaslanır. Milli maraqlar ölkənin iqtisadi, siyasi, sosial və mənəvi vəziyyətindən asılıdır. Milli maraqlar ölkənin milli təhlükəsizliyindən irəli gəlir. Gərək milli maraq güclü ola ki, milli təhlükəsizliyi də qoruya biləsən. Əgər hər hansı bir dövlət başçısı xalqın milli mraqlarına uyğun siyasət yeritmirsə, onda hansı milli təhlükəsizlikdən danışmaq olar. Milli maraqlar insanları bir-birinə yaxınlaşdırır. Məsələn, tarixdə tanınmış görkəmli sərkərdə və dövlət başçısı Makedoniyalı İsgəndər hansı ölkəyə yürüş edirdisə, birinci növbədə yunan xalqının milli maraqlarına söykənirdi. Hal-hazırkı dövrümüzdə dünyada nüvə silahlarının qadağan edilməsi hər bir xalqın milli maraqLarından irəli gəlir.

Hər bir marağın əsasında yerləşdiyi şəraitdən asılı olaraq subyektin və ya sosial qrupun iqtisadi, sosial, siyasi vəziyyətilə şərtlənən obyektiv tələbatı vardır. Sosial tələbatların dərk edilməsi insan maraqlarını formalaşdırır. Məsələn, Sovet dövlətinin xarici və daxili siyasəti Qərb dövlətlərinin bu ittifaqa etibar etməmələrinə səbəb olmuşdur. Sovet ittifaqının güclü surətdə silahlanması heç də onun əhalisinin rifah və inkişaf tələblərinə cavab vermirdi.

Milli maraqların strukturunda həm də ən müasir informasiya, rabitə və nəqliyyat vasitələrinə uyğunluq yaradan öncül texnologiyanın əldə edilməsi ön plana çıxır. Məs., ABŞ-ın milli maraqları dövlətin yaranması, təhlükəsizliyi və həyat qabiliyyətliliyi üçün birinci dərəcəli əhəmiyyət kəsb edir.

Milli maraqlar milli mənlik şüurunu dərinləşdirrir, möhkəmləndirir və milli vətənpərvərlik hisslərini aşılayır. Milli maraqları aşağıdakı kateqoriyalara bölmək olar:

- dövlətin, onun ərazi bütövlüyünə olan maraq;
- xalqın sosial-iqtisadi rifahının yüksəldilməsinə olan milli maraqlar;
- ordu quruculuğununun möhkəmləndirilməsi
-müstəqilliyimizin, sərhədlərimizin möhkəmləndirilməsinə olan milli maraqlar;
- elmin, təhsilin, mədəniyyətin yüksəldilməsi;

Burada milli maraqlara söykənən – bizim ərazimizin və müttəfiqlərimizlə olan əlaqələrin, vətəndaşlarımızın iqtisadi rifahının yüksəldilməsi təhlükəsizliyinin vacib elementləri işıqlandırılır.

Milli təhlükəsizlik milli ruhla, milli şüurla, milli ideya, milli ideologiya ilə əlaqələndirilir. Milli təhlükəsizlik milli müstəqilliklə başlayır və milli maraqlara söykənir. Milli maraq – milli təhlükəsizlikdən irəli gəlir və onun sinonimii kimi çıxış edir. Bilidiyimiz kimi Şərqdə ilk demokratik respublika Azərbaycanda qurulmuşdur. Lakin gənc respublika 23 ay yaşamış və 1920-ci ildə müstəqilliyini itirmişdir. Sovet İtifaqının süqutundan sonra respublikamız 1991-ci ildən etibarən öz müstəqilliyini bərpa etmişdir. Müstəqil dövlətin müstəqil siyasəti olmalıdır. Buna görə də respublikamız öz dövlətçilik ənənlərinə sadiq qalaraq müasir tipli demokratik hüquqi dövlət qurmağa başlamışdır. lakin Ermənistanın Azərbaycana təcavüzü, torpaqlarımızın işğalı və bir milyondan çox həmvətənlərimizin öz dədə-baba yurdlarından vəhşicəsinə qovularaq, respublikamıza pənah gətirmələri ölkəmizdə Qeyri-sabitliyin, iqtisadi böhranın yaranmasına gətirib çıxarmışdır. Beləliklə, respublikamız müstəqilliyinin ilk illərində çox böyük çətinliklərlə rastlaşdı. Azərbaycan həm daxili, həm də xarici siyasətində bir çox təhdidlərlə üzləşdi. Belə ki, respublikamsıza hər an xaricdən təzyiqlər olurdu. Azərbaycan milli maraqlara söykənərək ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını qorumaq üçün bir çox işlər görməyə başlamışdır. Bir şeyi də qeyd etmək lazımdır ki, Azərbaycan zəngin təbii ehtiyatlara malik bir dövlətdir. Belə ki, zəngin neft yataqlarına, enerji mənbələrinə, beynəlxalq nəqliyyat və kommunikasiya xətlərinə malik respublikamızda milli təhlükəsizlik mühitinin yaradılması əsas məsələlərdən biri olmuşdur. Bu mənada Azərbaycan Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının qaytarılması, beynəlxalq terrorçu-luq, qeyri-qanuni miqrasiya, insan alveri, narkotik vasitələr, qaçaqmalçılıqla mübarizəyə qarşı milli təhlükəsizlik siyasətini möhkəmləndirir. Milli təhlükəsizlik respublikanın xalqın, dövlətin beynəlxalq aləmdə iqtisadi, siyasi imicinin yüksəldilməsinə olan milli maraqlarından irəli gəlir. Bunlar aşağıdakılardır:

1.Dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;

2.Azərbaycan xalqının vahidliyinin qorunub saxlanması, azərbaycançılıq ideyasının təşviqi;

3.Vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və azadlıqlarının təmin olunması;

4.Demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;

5.Beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərin bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi;

6.Bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması.

7. Təbii sərvətlərdən tam istifadə edilməsi; davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elm, texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;

8.Dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi;

9.Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi [2,1].

Bütün bu müddəalar Azərbaycan Respublikasının Milli təhlükəsizlik konsepsiyasında verilmişdir. Konsepsiyada həmçinin milli təhlükəsizliyə olan təhdidlər də öz əksini tapmışdır. Bu təhdidlər Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı qəsdlər şəklində ola bilər. Biz bunu Ermənistan və digər düşmən qüvvələr tərəfindən gözləyə bilirik. Çünki torpaqlarımız neçə ildir ki, işğal altındadır, biz müharibəyə hazır vəziyyətdə olmalıyıq. Bundan başqa bir sıra ekstremist qüvvələr vardır ki, onlar hər an dini və etnik zəmində ixtişaşlar törətməyə çalışırlar. Buna görə də ictimai asayişin qorunması, insanların hüquq və azadlıqlarının müdafiəsi dövlətin ümdə məsələsi olmalıdır. Separatçılıq, dini, etnik, siyasi ekstremizm milli təhlükəsizliyin mənbəyidir. Terrorçuluq, kütləvi qırğın silahlarının yayılması, transmilli cinayətkarlıq, regional münaqişələr ölkənin xarici, iqtisadi siyasətinə güclü ziyan vura bilər. Respublikanın enerji infrastrukturuna qarşı, təhdidlər ola bilər. Azərbaycanın beynəlxalq münasibətlərdə xarici, siyasi, hərbi və ya iqtisadi asılılığa düşməsi onun milli maraqlarına ziyan gətirə bilər. Bununla yanaşı neft və qaz gəlirlərindən həddən artıq asılılıq makroiqtisadi tarazlığı pozar və beləliklə də ölkə qlobal və regional iqtisadi böhranların təsirinə qarşı müdafiəsiz qalar. Bu, sahələrə ayrılan kreditlər də vaxt gələcəkdir ki, respublikanı iflic vəziyyətinə gətirəcək. Elm, təhsil və digər sahələrdə çalışanların xarici ölkələrə miqrasiyası peşəkar insan ehtiyalarının çatışmazlığına və milli intellektimizin itirilməsinə gətirib çıxara bilər ki, bu da milli maraqlara ziddir. Həmçinin regionda silahlanma, hərbi sursatların həddindən artıq çoxalması, bu region ölkələri arasında hərbi tarazlığı poza bilər. Milli təhlükəsizliyin mühüm mənbələrindən biri olan ətraf mühitin çirklənməsi və nəticədə iqtisadi-sosial həyata mənfi təsir göstərərək, insan sağlamlığına ziyan gətirəcək xəstəliklərin artması və s. milli maraqlarımıza cavab vermir.



Azərbaycan Respublikası sərhədlərinin qorunması, ərazi bütövlüyü, milli maraqların inkişafı, xalqın maddi vəziyyətinin yaxşılaşdırılması, mənəvi dəyərlərin qorunub saxlanması üçün məsuliyyət daşıyır. Bildiyimiz kimi biz çətin və mürəkkəb şəraitdə yaşayırıq. Hər tərəfdən bizim dövlətimiz təzyiqlərlə üzləşir. Azərbaycan Qərb və Şərq dünyasının qovuşduğu bir məkanda yerləşir. Biz bir tərəfdən Qərbin yeritdiyi siyasətlə rastlaşır, digər tərəfdən Şərq dünyasının, islamın adət-ənənələrini qoruyub saxlayan bir müsəlman ölkəsi kimi tanınırıq. Azərbaycanın zəngin yeraltı, yerüstü sərvətləri qərbin və digər xarici ölkələrin ölkəyə axınının qarşısını ala bilmir. Bu bir tərəfdən yaxşı haldır. Biz Avropaya inteqrasiya edirik, dünya dövlətləri ilə iqtisadi siyasi əlaqələrimizi gücləndiririk. Azərbaycanın regional və beynəlxalq tərəfdaşlarla birlikdə inkişafı üçün bunun böyük əhəmiyyəti vardır. Belə ki, zəngin təbii ehtiyatlar ölkənin çiçəklənməsi və əhalinin milli rifah halının yaxşılaşması üçün perspektiv imkanlar açır, onun beynəlxalq aləmdə əhəmiyyətli nəqliyyat və kommunikasiya xətlərinin çəkilişi, inkişaf etdirilməsi, neft və qaz (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Kars) və s. boru kəmərlərinin inşası region ölkələrinin əməkdaşlığına gözəl nümunədir. Digər tərəfdən bizim milli təhlükəsizliyimiz üçün təhdidlər yaranır. On bir iqlim qurşağının yerləşdiyi ölkə coğrafi üstünlüklərə malik olmaqla yanaşı, eyni zamanda bir sıra təhlükəsizlik problemləri ilə də rastlaşır. Bu problemlərin ən təhlükəli nümunəsi Ermənistanla ölkənin müharibə vəziyyətində olmasıdır. 1 milyondan çox azərbaycanlının öz dədə-baba yurdlarından qaçqın düşməsi topaqlarının demək olar ki, 20%-dən artığının Ermənistana verilməsi, qloballaşma şəraitində keçid dövrünü yaşayan gənc, müstəqil bir dövlət üçün nə qədər çətin olduğunun şahidi oluruq. Azərbaycan torpaqları işğal olunmuş əhaliyə qarşı soyqırımı siyasəti aparılmışdır. Qədim mədəniyyət abidələri dağıdılmış, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Xalqın heysiyyatı tapdalanmışdır. Məhz Azərbaycanın məruz qaldığı bu təcavüz onun milli təhlükəsizlik siyasətinin əsas amilinə çevrilmişdir. Milli təhlükəsizliyini qorumaq üçün Azərbaycan dövləti terrorçuluğa, narkomaniya, insan alverinə, separatçılıq, etnik, siyasi və dini ekstremizmə qarşı mübarizəni başlıca olaraq qarşısına qoymuşdur. Buna görə də Azərbaycan BMT, Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinə həmçinin ATƏT-in Avropa Şurasının müvafiq sənəd və qərarlarında əks olunmuş beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bu sənədlər Azərbaycan respublikasının suverenliy-

iri, ərazi bütövlüyünü və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq etmişdir.

Azərbaycan milli təhlükəsizliyini qorumaq naminə Avropa və Avratlantik strukturlarına inteqrasiya edir. Bu mənkanda qeyri-sabitliyin, münaqişələrin aradan qaldırılmasında NATO ilə birgə işləyir. Dünyada sülh və əmin-amanlığın qorunması naminə, ərazi bütövlüyünün saxlanması üçün Azərbaycan Avratlantik Tərəfdaşlıq Şurası və NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində NATO ilə mümükün olan tərəfdlaşlıq vasitələrindən istifadə edir. Bu mənada Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı NATO ilə əməkdaşlığın yaxın və orta perspektivdə daha da gücləndirilməsi yolunda mühüm vasitədir. Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planından Azərbaycan Respublikasının təhlükəsizlik sektorunun islahatlar yolu ilə NATO standartlarına yaxınlaşdırılması və siyasi dialoqun inkişaf etdirilməsi üçün bir mexanizm kimi istifadə olunur.

Azərbaycan Respublikası milli maraqları genişləndirərək Avropa məkanına inteqrasiya mövqeyindən çıxış edərək Avropa İttifaqı ilə qarşılıqlı əlaqələr yaradaraq, bu münasibətləri «MDB ölkələrinə Texniki Dəstək» (TACİS), «Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi» (TRASEKA) və digər proqramlar çərçivəsində inkişaf etdirir.

2006-cı ildə Azərbaycanla avropa İttifaqı arasında imzalanmış «Enerji sahəsində Strateji tərəfdaşlıq haqqında» Anlaşma Memorandumu Avropa İttifaqının üzvü olan ölkələrin enerji mənbələri və nəqli yollarının çoxşaxəliliyinin təmiş edilməsi, Azərbaycanın enerji resurslarından səmərəli istifadə olunmasına geniş şərait yaratmışdır.

## §1.2. REGİONAL ƏMƏKDAŞLIQ

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik haqqında qəbul etdiyi konsepsiyada deyilir: «Çoxşaxəli tarazlaşdırılmış xarici siyasət həyata keçirən Azərbaycan respublikası bütün dövlətlərlə suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq kimi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında dost münasibətlərin qurulmasında maraqlıdır və buna nail olmaq üçün səy göstərir» [2,6].

Həqiqətən də bu gün respublikamız dünya dövlətləri ilə regional və beynəlxalq problemləri həll etmək üçün müəyyən istiqamətlərdə xeyli işlər görmüşdür. Respublikamız regional təhlükəsizlik, terrorçuluq, narkomaniya, kütləvi qırğın silahlarının yayılması və s. üçün bir sıra dövlətlərlə birgə



fəaliyyət göstərir. Belə ki, Azərbaycan beynəlxalq müqavilələrə və milli qanunvericiliyə uyğun olaraq region ölkələrin suverenliyini tanıyır və onların daxili işlərinə qarışmır. Respublikamız həmçinin Türkiyə Gürcüstanla iqtisadi, siyasi əlaqələri genişləndirir.

Bu ölkələrlə birgə çəkilən iri, neft-qaz kəmərlərinin və «Bakı-Tbilisi-Kars» dəmir yolu xəttinin çəkilişi müharibə vəziyyətində olduğumuz təcavüzkar Ermənistan dövlətini şok vəziyyətinə gətirib çıxardır. Türkiyə ilə Azərbaycanın bütün sahələrdə bağlamış olduğu müqavilələr son dərəcə əhəmiyyətlidir. Dili bir, dini bir olan iki dövlətin (Türkiyə, Azərbaycan) arasında yaranmış əməkdaşlıq strateji cəhətdən böyük əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycan, Qazaxıstan, Türkmənistan, İranla da Xəzərin bölüşdürülməsi sahəsində ciddi problemlərlə rastlaşır. Bu sahədə Azərbaycan Xəzərdən sülh, əmin-amanlıq məqsədi ilə istifadə olunmasına çalışır. Respublikamız eyni zamanda Baltikyanı, Şərqi və Cənub Şərqi Avropa Ölkələri ilə də siyasi, iqtisadi əməkdaşlığı genişləndirir. Azərbaycan Respublikası bu gün Uzaq Şərqin və Cənub şərqi Asiyanın qabaqcıl dövlətləri olan Çin, Koreya, Yaponiya ilə də qarşılıqlı əməkdaşlıq siyasəti yeridir. Burada dövlətimiz öz milli maraqlarımızı güdür və iqtisadi layihələrə qoşularaq Azərbaycanın gələcəkdə çiçəklənməsi və milli təhlükəsizliyimiz naminə «Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi» (TRASEKA) layihəsinə qoşulmuşdur. Bundan başqa Cənub-Şərqi və Cənubi Asiyada yeni iqtisadi və siyasi güc mərkəzlərinin yaradılması respublikamızın xarici siyasətinin əsasını təşkil edir. Ölkəmizin Yaxın Şərq dövlətləri ilə də iqtisadi, siyasi əməkdaşlığı təqdirəlayiq haldır.

Ölkənin milli maraqlarını nəzərə alaraq müdafiə qabiliyyətinin möhkəmləndirilməsi Azərbaycanın ümdə vəzifələrindən biridir. Milli maraq – bu siyasi kateqoriya olub, dövlətin obyektiv ehtiyaclarının subyektivcəsinə dərk edilməsidir. Bu kateqoriyaya dövlətin xarici-siyasi marağı, onun ümumi və şəxsi tələbatları, sosial-siyasi təbiəti, həmçinin beynəlxalq münasibətlərdə yeri və rolu daxildir. Qeyd etmək lazımdır ki, hər bir dövlətin bü və ya digər dövlətlə beynəlxalq münasibətləri onun milli maraqlarından irəli gəlir. Bu mənada Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında deyilir: «Azərbaycan Respublikasının müdafiə siyasəti milli resurslara və mövcud təhlükəsizlik vəziyyətinə əsaslanan, demokratik nəzarət altında olan müdafiə qabiliyyətinin inkişaf etdirilməsinə və saxlanmasına əsaslanır. Azərbaycan Respublikasının silahlı qüvvələri ölkənin müdafiə qabiliyyətinin əsasını ətşkil edir» [2,6].

Bildiyimiz kimi Azərbaycanın torpaqları işğal altındadır. Məhz buna görə də bizim müdafiəyə ayrılan xərclərimiz daha çox olmalıdır. Heç təsadüfi deyildir ki, dünyanı fəth etməyə çalışan Napaleon deyirdi ki, müharibəni aparmaq üçün üç şey lazımdır: birinci pul, ikinci pul, üçüncü pul. Deməli, respublikamız müdafiə qabiliyyətini möhkəmləndirmək üçün iqtisadiyyatı yüksəltməli, silahlı qüvvələrə ayrılan xərcləri hər il artırmalıdır.

Azərbaycan milli müdafiə siyasətini ərazi bütövlüyü və onun dəyişilməzliyi çərçivəsində həyata keçirir. Buna görə də silahlı qüvvələrin döyüş hazırlığı və səfərbərliyə hazır olması hər an dövlətin nəzarəti altındadır. Azərbaycan buna görə də «NATO-nın Sülh naminə tərəfdaşlıq Proqramı»nın fəal iştirakçısıdır və onunla sıx əməkdaşlıq edir. Hərbi sahədə milli təhlükəsizliyi təmin etmək üçün respublikamız ehtimal olunan müharibə və münaqişələrin xüsusiyyətlərini, təhlükənin miqyasını, ölkənin hərbi sahədə təhlükəsizliyinə rəvac verən hərbi və siyasi qüvvələrin yerini, müəyyən təcavüzün qarşısını vaxtında almaq yollarını müəyyənləşdirir.

Milli müdafiə qabiliyyətinin möhkəmləndirilməsi üçün milli müdafiə siyasətinin mühüm elementlərindən biri olan iqtisadiyyat və müdafiə sənayesinin inkişaf etdirilməsidir. Müharibə vəziyyətində olan bir ölkə üçün müdafiə sənayesinin inkişafı vacibdir. Hələ vaxtı ilə Respublikamızda «Səttərxan adına zavod»da 1941-45-ci illərdə alman faşizminə qarşı müharibədə silah istehsal olunurdu. Demək olar ki, SSRİ-nin müharibədə qalib gəlməsində Bakı nefti və onun silah zavodları əsas rol oynamışdır. Görəsən müdafiə sənayesi torpaqlarımız işğal olunduğu bir zamanda nə vaxt inkişaf etdiriləcəkdir? Silah istehsal edən müəssisələr bizdə mütləq inşa edilməlidir. Milli müdafiə qabiliyyətini möhkəmləndirmək üçün bir sıra xarici ölkələrlə hərbi-siyasi, hərbi-texniki sahədə beynəlxalq əməkdaşlıq əlaqələri yaradılmışdır. NATO dövlətinin qüvvələri ilə qarşılıqlı surətdə hərbi əməliyyat qüvvələrinin yaradılması Avratlantik məkanın təhlükəsizlik sisteminə inteqrasiya, böhanların yatırılmasında sülhməramlı qüvvələrin tərkibində Azərbaycan silahlı qüvvələrinin iştirakı onun müdafiə siyasətinin əsas istiqamətlərindən biridir. Ölkə vətəndaşlarının və onun ərazisinin müdafiəsi respublika konstitusiyasının əsas tələblərindən biridir. Konstitusiyada silahlı qüvvələr, onun qanunlarda təsbit olunmuş hüquqi normaları öz əksini tapmışdır. Konstitusiyada deyilir: «Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə silahlı qüvvələr və başqa silahlı birləşmələr yaradır [7,3]. Azərbaycan Avratlantik məkana inteqrasiya kursunu seçməklə GUAM - Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatla çevik əməkdaşlıq etməyə başlamışdır. GUAM – Gürcüstan,



Ukrayna, Azərbaycan və Moldova dörd respublikanın rəhbərləri Qərb strukturlarına inteqrasiyanı prioritet məqsəd kimi qəbul edərək, Avropa dövlətlərinin, o cümlədən ABŞ-ın təbliğ etdiyi demokratik ideoloji istehkamların postsovet məkanında möhkəmləndirilməsinə çalışırlar. Bu respublikalar Azərbaycanın təbii sərvətlərinin Qərb bazarlarına daşınması ilə bağlı özlərinin tranzit imkanlarının genişləndiyini açıq etiraf edirlər. GUAM müstəvisində nəqliyyat-kommunikasiya və tranzit əlaqələrinin genişlənməsi regionda təhlükəsizlik məsələlərində əməkdaşlığı labüd prosesə çevirir. Bu dövlətlər Avratlantika Tərəfdaşlığı Şurası vasitəsilə qarşılıqlı əlaqələrin genişləndirilməsində, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramının gerçəkləşdirilməsində yaxından iştirak edir. Münaqişələrin və böhran hallarının dinc yolla aradan qaldırılması sahəsində qarşılıqlı fəaliyyət göstərir. Sülhyaratma potensialının möhkəmləndirilməsində, praktiki əməkdaşlığın dərinləşdirilməsində, etnik dözümsüzlüyə, dini ekstremizmə, terrorizmə, nüvə silahlarının yayılmasına qarşı birgə mübarizədə fəal iştirak edirlər. Bundan başqa Avropa-Qafqaz-Asiya nəqliyyat dəhLizinin inkişaf etdirilməsində əməkdaşlığı genişləndirirlər. Eyni zamanda GUAM dövlətləri ABŞ və digər Qərb dövlətlərinin Xəzərin enerji resurslarını mənimsədiyi bir vaxtda dövlətçilik maraqlarını uca tutaraq milli təhlükəsizliyin qorunmasında fəal iştirak edirlər. Bu dövlətlərin bir-birinə yaxından köməklik göstərməsi ABŞ və Qərb dövlətlərini çox maraqlandırır.

2007-ci ildə Bakıda GUAM dövlətlərinin zirvə görüşü keçirilmişdir. Zirvə görüşü GUAM-ın postsovet məkanında əsas güc mərkəzlərindən birinə çevrildiyini nümayiş etdirmişdir. Bu dövlətlər arasında ticarət dövriyyəsinin artması onun səmərəliliyinin sübutudur. Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat–GUAM regionda sülhə, sabitliyə və iqtisadi tərəqqiyə səy göstərən beynəlxalq qurum kimi öz təsdiqini tapmışdır. Hazırda beynəlxalq səviyyədə cərəyan edən geosiyasi proseslər quruma demokratikləşmə, iqtisadi inkişaf və təhlükəsizlik məsələlərində daha fəal mövqe tutmağa imkan qazandırır. Hələ 2000-ci ildə GUAM ölkələrinin Vaşinqtonda keçirilən görüşü zamanı ABŞ administrasiyası qurumun fəaliyyəti üçün 45 milyon dollar vəsait ayırmışdır. Bu da ki, ABŞ-ın GUAM-ın regional beylənxalq təşkilata çevrilməsində marağı olduğunu nümayiş etdirmişdir. Bu mənada qeyd etmək lazımdır ki, respublikamızda milli təhlükəsizliyin qorunması prioritet məsələlərdən biri olmalıdır.

Bu gün Azərbaycan XXI əsrə həm müstəqil bir dövlət kimi qədəm qoymuş və həm də Avropa Şurasının tamhüquqlu üzvü olmuşdur. Bu tarixi qələbə heç də asanlıqla əldə edilməmişdir. Düzgür, biz bunu tarixi qələ-

bə adlandırdıq. Lakin deyərdim ki, əsil tarixi qələbəmizi işğal altındakı torpaqlarımızın, düşmən tapdağından xilasından sonra saymaq olar. Nə isə, Azərbaycan bildiyimiz kimi Avropa ailəsinə üzv olmaq üçün ilk öncə müstəqilliyini möhkəmləndirməli, demokratik, hüquqi cəmiyyət quruculuğu istiqamətində konkret və nəhəng işlər görməli idi. Azərbaycan sözsüz ki, Avropa Şurasının bütün tələblərini müəyyən müddət ərzində yerinə yetirmişdir. Bu müddət ərzində respublikamız bir çox nüfuzlu beynəlxalq təşkilatların tamhüquqlu üzvülüyünə qəbul edilmiş və həmin qurumların yüksək kürsülərindən geniş istifadə edərək ölkəmiz haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmışdır.

Avropa Şurası özündə artıq 47 ölkəni birləşdirir. Bu ölkələrin parlamentlərinin deputatları milli nümayəndə heyəti tərkibində Assambleyanın sessiyalarının və komitələrinin işində iştirak edirlər. AŞPA-nın qəbul etdiyi qərarlar tövsiyə xarakteri daşısa da məqsəd ilk növbədə ölkələri Avropada qəbul edilmiş konvensiya və sazişlərin tələblərinə uyğun fəaliyyət göstərməyə sövq etməkdir. Bu baxımdan hər bir ölkə Avropa Şurasının qəbul etdiyi prinsiplər çərçivəsində həmin konvensiya və sazişlərə uyğun olaraq üzərinə konkret öhdəliklər götürürlər. Azərbaycan da demokratik hüquqi dövlət quruculuğu işini davam etdirmək, müstəqilliyi möhkəmləndirmək məqsədilə Avropa dəyərlərini mənimsəyərək bu birliyə inteqrasiya etmək istiqamətində fəaliyyətini genişləndirir. Azərbaycan Avropa Şurasında ilk növbədə Ermənistanın işğalçılıq siyasətini ifşa etmək vəzifəsini qarşıya qoymuşdur. Sonra isə əsas vəzifələrdən biri olan ölkəmizdə demokratik və hüquqi dövlət quruculuğu işində islahatları davam etdirmək üçün Avropa Şurasının Azərbaycan qarşısında qoyduğu öhdəliklərin yerinə yetirilməsi və vətəndaş cəmiyyətinin inkişafının təmin edilməsi olmuşdur. Respublikamızda kütləvi informasiya vasitələrinin azadlığı və qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyəti təmin edilmişdir.

Hər bir xalqın milli inkişaf tarixi sübut edir ki, millilik zirvəsinə yüksəlmək üçün bəşəri dəyərlərdən istifadə etmək, bu dəyərlərin yaradıcısı və daşıyıcısı olan xalqlarla təmasda olmaq, millətin həqiqətlərini bütün həqiqiliyi ilə dünya ictimaiyyətinə çatdırmaq, inkişaf etmiş sivilizasiyanın layiqli nümayəndəsi olmaq son dərəcə zəruridir. Azərbaycan bu gün, Avropa ölkələri qarşısında duran problemlərin həllində yaxından iştirak edən bir dövlətə çevrilmişdir. Azərbaycana Avropada olan maraq təkcə onun strateji-coğrafi mövqeyi deyil, eyni zamanda, onun beynəlxalq aləmə inteqrasiyası, zəngin yeraltı-yerüstü təbii sərvətləri ilə şərtlənir.



Qeyd etmək lazımdır ki, respublikamız son illər dünya standartlarının tələblərinə tam cavab verən, xalqın milli maraqları əsasında xarici siyasəti durmadan inkişaf etdirir, dünya birliyinə intqerasiyası dərinləşdikcə müstəqilliyimizin əbədiliyi və dönməzliyi təmin edilir.

## §2.1 MİLLİ TƏHLÜKƏSİZLİYİN DAXİLİ SİYASƏT VASİTƏLƏRİLƏ TƏMİNİ (ENERJİ, NƏQLİYYAT, MİQRASİYA, EKOLOGİYA VƏ S.)

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının əsas istiqamətəlrindən biri də milli təhlükəsizliyin daxili siyasət vaistələri ilə təmin edilməsidir. Bu vasitələrdən ən mühümü ölkədə demokratiyanın inkişaf etdirilməsidir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra qanunuvericilik sistemində və iqtisadi sistemdə əsaslı islahatlar aparmağa başlamışdır. Azərbaycan Respublikası milli təhlükəsizliyin təminatı kimi demokratik idarəetmə və vətəndaşlıq cəmiyyətinin inkişaf etdirilməsini alternativsiz yol kimi seçmişdir. Həqiqətən də vətəndaş cəmiyyəti müxtəlif əhali quruplarının maraqlarını əhatə etməklə, onların siyasi həyatda fəal iştirakını təmin edir. Lakin qeyd etmək lazımdır ki, vətəndaş cəmiyyətinin həddindən artıq güclənməsi onun siyasi strukturunda təhlükə yarada bilər. Bu mənada Prinston Universitetinin professoru Şeri Bermanın sözləri ilə desək həddən artıq böyümüş vətəndaş cəmiyyəti Almaniyada demokratiyanın və liberal dəyərlərin qələbəsini nəinki təmin etmədi, hətta onun əsaslarını qırıb dağıtdı. El arasında deyildiyi kimi həddən artıq ziyadə yemək də insana ağırlıq gətirə bilər. Alimin fikrincə, vətəndaş cəmiyyətinin sıxlığı və strukturlaşmış olması nasistlərin xeyrinə işlədi və dinamik siyasi maşın imperiyasının yaradılması prosesini onlar üçün asanlışdırdı. Qeyd etmək lazımdır ki, demokratiyanın da müəyyən həddi vardır. Bu həddi keçdikdə o öz əhəmiyyətini itirir. Məsələn, Fransa və İspaniya tam demokratik ölkələrdir, ancaq bu ölkələrdə dövlətin son dərəcə güclü, birliklər həyatının isə zəif olduğu açıq-aşkardır. Bu ölkələri tənqid etsələr də buna cavab olaraq bildirirlər ki, onlar özlərini vətəndaşla dövlət arasındakı münasibətini, Amerika isə yalnız demokratiyanın amerikan tipli olmasını irəli sürür və ondan başqa heç bir yerdə demokratiya yoxdur fikrini bildirir. Bununla da ABŞ-ın dünyaya öz siyasətini yetirməyinin şahidi oluruq. Lakin bu demokratiya həddini aşdıqda katastrof vəziyyət yarana bilər. Belə ki, demokratiya pərdəsi altında beynəlxalq aləmdə artıq korrupsiya, narkobiznes, terrorizm,

dıni-eksterimizm, uşaq və qadın alveri geniş yayılmışdır. Bütün bunlar demokratiyanı kölgə altında qoyur. Bütün bunalara rəğmən qeyd etmək lazımır ki, milli təhlükəsizlik olmadan milli dövləti qoruyub-saxlamaq olmaz. Milli təhlükəsizlik olmadan milləti, milli dəyərləri qoruyub saxlamaq olmaz. Biz yuxarıda qeyd etdik ki, ölkəmizdə milli demokratikləşmənin bazisi formalaşmaqdadır. Bu bazis hakim elita tərəfindən siyasi, iqtisadi və sosiomədəni gerçəkliyin aşağıdakı amillərinin başa düşülməsilə eyniləşdirilir.

Şəxsiyyətin hüquq və azadlıqlarının dövlət-cəmiyyətlə qarşılıqlı münasibətləri mühüm prioritet məsələdir: Dövlətin demokratik rejim qurulmasına yönəlmiş modernləşmə xətti elə dəyərlər sistemini təcəssüm etdirir ki, orada hər bir vətəndaş keyfiyyətcə yeni aspektdə çıxış edir. Vətəndaşın hüquqlarının təmin edilməsi demokratik inkişafın imperatividir. Azərbaycan Respublikası vətəndaşları Respublikanın Konstitusiya Məhkəməsinə, Avropa İnsan Hüquqları Məhkəməsinə və BMT-nin insan hüquqları üzrə müqavilə-nəzarət orqanlarına müraciət etmək hüququ qazanmışlar. Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qəbul etdiyi konsepsiyada deyilir: «Bütün kütləvi vasitələri üzərində dövlət nəzarəti və senzura ləğv edilməklə söz azadlığını qoruyan müvafiq qanunvericilik tədbirləri görülmüşdür» [2,7]. Konsepsiyada deyildiyi kimi kütləvi informasiya vasitələri üzərində dövlət nəzarəti ləğv edilmişdir. Lakin qeyd etmək lazımdır ki, vətəndaşlar söz azadlığı ilə qismən təmin olunmuşlar.

## §2.2. KORRUPSİYA TƏHLÜKƏSİZLİYİ

Bu gün Azərbaycanda korrupsiyaya qarşı mübarizə milli təhlükəsizliyin əsas məsələlərindən biridir. Korrupsiya bütün bəşəriyyətin fəlakətidir. Korrupsiya şəxsi mAraqlara söykənir. Bu kimlərəsə «xeyir» gətirsə də, heç kimə şərəf gətirmir. Sadə dildə desək, korrupsiya - yüksək vəzifəli şəxslərin və dövlət məmurlarının, siyasi-ictimai xadimlərin satın alınması, satqınlığı və rüşvətxorluğu deməkdir. Korrupsiyada əsas element puldur. Belə ki, tibbi müalicə xərcələrinin ödəmələri, ali təhsil ocaqlarına qəbul, rüşvətxorluq, vəzifə səlahiyətlərindən sui-istifadə, vətəndaşın müllkiyyətinin qeyri-qanuni mənimsəmə, sahibkarlıq fəaliyyətində iştirak etmə, dövlət mülkiyyətinin mənimsənilməsi və s. korrupsiyanın əsas elementləridir.

Biz korrupsiyanın sosial-fəlsəfi cəhətdən araşdırsaq məlum olur ki, o insan mənəviyyatını pozur, onu rəzil, simasız bir insana çevirir.

Korrupsiya dövlətvə cəmiyyətin bütün sahələrinə zərər vurmaqla yanaşı, xüsusilə ən çox iqtisadiyyata zərər vurur. Korrupsiya terrorizmin mənbəyidir. Terrorizm XXI əsrin epidemiyasına çevrilib. Korrupsiya, çirkli banklar və narkoticarət onun əsas bazarındadır. Harada korrupsiya varsa, orada terror var.



Demokratiya xətti Azərbaycan dövləçiliyinin inkişafının əsas sektoru və milli inkişaf strategiyasının həlledici amilidir. Demokratiya və onun ardınca gələn liberallaşma vətəndaşa maksimum azadlıqlar verməklə, azadlıq ideyasının və səmərəli dövlətçilik konsepsiyasının birləşməsinin mahiyyətini müəyən edir. Bununla bərabər, demokratiya dedikdə, hakimiyyət forması başa düşülür və bu baxımdan o, çoxluğun hakimiyyətinin legitimləşməsi haqqında təlimdir.

Ölkədə vətəndaş cəmiyyəti iqtisadiyyatın modernləşməsi, ictimai həyatın demokratikləşməsi, milli məkanın sistemli liberallaşması paradiqması gerçəkləşdikcə formalaşacaqdır. Bu mənada H.Əliyev demişdir: «Biz hesab edirik ki, regionumuzun gələcəyi cəmiyyətimizin nə dərəcədə uğurla müasirləşməsindən asılı olacaqdır. Yəni demokratik islahatların inkişaf etdirilməsi, iqtisadi islahatların həyata keçirilməsi siyasi sistemin, cəmiyyətimizin müasirləşməsi siyasətində daha fəal olmağımızdan asılı olacaqdır» [3,4].

Ölkəmiz demokratiya xətti ilə inkişaf edərək, milli, mənəvi, iqtisadi suverenliyini qoruyub saxlayır. İ.Əliyev AŞPA-nın yaz sessiyasının iclasında (2004-cü ilə 29 aprel) çıxış edərək demişdir: «İqtisadi artım və cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümükün ola bilməz. İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan hüquqları qorunmursa, uğur qazana bilməzsən» [5,2]. Göründüyü kimi demokratiya cəmiyyətin həyatının bir hissəsi, onun üzvlərinin təfəkkür tərzi, cəmiyyət daxilində onun üzvləri arasında qarşılıqlı əlaqənin formasıdır. Həqiqətən indi Azərbaycanda məqsədyönlü və planauyğun şəkildə vətəndaş cəmiyyəti qurulur. Bu cəmiyyət xalqın milli maraqlarına söykənir. Vətəndaş cəmiyyəti tədricən cəmiyyətin inkişaf strategiyasının əsas səmtinə yönəlmiş, beləliklə də müasir milli dövlətin əsas prioritetlərindən biri olmuşdur.

Unutmamalıyıq ki, iki qitənin qovuşağında yerləşən Azərbaycan Avropa ilə Asiyanı əlaqələndirən, onların nəinki mədəniyyətlərini və sivilizasiyalarını, həm də əsas iqtisadiyyatlarını birləşdirə biləcək körpü rolunu oynayır. Yaddan çıxartmamalıyıq ki, tranzitar dövlətlərdə iqtisadiyyat inkişaf etdikcə cəmiyyətin və dövlətin sosial və institusional strukturu da dəyişir. Əhalinin alıcılıq qabiLiyyətinin artması eləcə də ölkəyə investisiyalar axını nəticəsində iqtisadiyyatın daha çox səmərəli olması, təsərrüfat həyatının

mərhələli modernləşməsinə şərait yaradır. Deməli, bazis də baş verən dəyişikliklər sözsüz ki, üstqurumda da dəyişikliklərə səbəb olur. Hazırda sosiomədəni transformasiyanı milli tranzitin iki aspekti – iqtisadi və siyasi modernləşmə müəyyən edir.

Korrupsiya müasir dövrümüzün ən yaralı yerlərindən biridir. Müstəqillik əldə etmiş Azərbaycan üçün bu çox təhlükəlidir. Ölkə daxilindən işçi qüvvəsinin xaricə axını, inhisarçılıq, vətəndaşların maddi vəziyyətinin pisləşməsi, qiymətlərin qalxması və s. korrupsiyanın iqtisadiyyatı bürüməsinə gətirib çıxara bilər. Bu mənada bütün dünyada yayılmış korrupsiya neft və qazın inkişafında da təsirini artırmışdır. Onun üçüncü dünya ölkələrində borclara və demokratik inkişafa təsiri ilbəil güclənir, onun acısını əhalinin kasıb hissəsi çəkir. Bu mənada neftin inkişafı ilə əlaqədar Azərbaycan, Gürcüstan və Türkiyədə də korrupsiyaya yol verilir. Başqa ölkələrdə hörmət qazanmaq və öz siyasətini yeritmək üçün hər il Qərbdə biznesə böyük məbləğdə rüşvət ayrılır. Məsələn, ABŞ bir ildə rüşvətə 80 milyard dollar sərf edir. BMT-nin hesablamalarına görə, bu qədər pula dünyada yoxsulluğu aradan qaldırmaq olar. Rüşvət verənlər, o cümlədən milli transmilli şirkətlər, konstaltinq şirkətləri və hətta milli ixrac kreditləri agentlikləri kimi hökumət idarələri xüsusi tənqidə məruz qalırlar [96,23]. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, rüşvətə görə itirilən pulların həcmi dünyada daha çox təşkil edir. Transmilli İnterneşnıl Transpərənsinin məlumatına görə milli büdcələrin 5%-i korrupsiyaya sərf edilir. Korrupsiya həmçinin inkişaf layihələrinrin seçilməsinə, onların keyfiyyətinə, maliyyə səmərəliliyinə və gəlirinin bölüşdürülməsinə yol tapır. ABŞ-da fırıldaq və korrupsiyaya hər il 400 milyard dollar ayrılır. Bu məsələ Bakı-Tbilisi-Ceyhan neft boru kəmərindən də yan keçməmişdir. Belə ki, dünya bankının və AYİB-ın hesabatında Azərbaycan və Gürcüstanda korrupsiyanın olduğu göstərilir. Bu sahədə dünya ölkələri içərisində Azərbaycan üçüncü yeri tutur. Bu da təsadüfi deyildir. Belə ki, Azərbaycanın neftinə görə dünyanın ən iri şirkətlərinin respublikamıza gəlişi və neftə qoyulan sərmayələr korrupsiyanın inkişafına təkan verir. Məhz bu mənada korrupsiyaya qarşı mübarizə milli təhlükəsizliyimizin daxili və xarici siyasətinin əsas prioritet məsələlərindən biridir. Qeyd etmək lazımdır ki, korrupsiya Azərbaycan dövlətçiliyinə ləkə gətirə bilər. Britaniyalı deputat bildirmişdir ki, rüşvət - pulun kasıbdan birbaşa varlıya köçürülməsidir. Deyərdim ki, rüşvət olan yerdə bin-bərəkət də olmaz. Korrupsiya cəmiyyətin bütün sahələrinə sirayət edir. Onun qarşısı alınmasa cəmiyyət məhvə doğru gedə bilər. Korrupsiya məncə insanı mənəvi cəhətdən alçaldır. Onu yaltaq, ikiüzlü,



qorxaq bir insana çevirir. Beləliklə, qeyd etmək lazımıdır ki, korrupsiya insanın əxlaqına, şərəfinə, ləyaqətinə sirayət edir. Biz qeyd etdik ki, korrupsiya nəinki siyasətdə, həmçinin iqtisadiyyatda da özünü daha çox büruzə verir. Biz yuxarıda göstərdik ki, Azərbaycan zəngin iqtisadi dayaqları olan strateji bir məkanda yerləşir. Sözsüz ki, belə təbii sərvətləri olan bir dövlətə nəinki onun məmurlarının, eləcə də dünya dövlətlərinin marağı vardır. Ümumiyyətlə, demək lazımdır ki, korrupsionerlər şəxsi maraqlarını milli maraqlarından üstün tuturlar. Bu bizim əxlaq normalarımıza ziddir. Belə ki, rüşvət alan və verən hər bir kəs bir-birindən çəkinir, gözü digərinin qarşısında kölgəli olur (Gözü kölgəli – atalar demişkən – Ə.F.).

Bəşəriyyət üçün sosial bəlaya çevrilən korrupsiyaya qarşı mübarizə bütün dünyada aparılır. Bu mənada respublikamızda da «Korrupsiyaya qarşı mübarizə haqqında» qanun qəbul edilmiş, dövlət başçısı tərəfindən isə «Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi barədə» fərman, müvafiq dövlət proqramı, 2007-2011-ci illəri əhatə edən şəffaflığın artırılması və korrupsiyaya qarşı müzakirə üzrə Milli Strategiya imzalanmışdır. Respublikamızda hakimiyyətin üç qolunun nümayəndələrindən ibarət olan Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi yaradılaraq fəaliyyət göstərir. Azərbaycan korrupsiya ilə mübarizədə beynəlxalq əməkdaşlıqdan səmərəli istifadə etməklə BMT-nin və Avropa Şurasının korrupsiyaya qarşı mübarizə sahəsində əsas konvensiyalarına qoşulmuş, bu sahədə Korrupsiyaya Qarşı Ölkələr Qruppu (GRECO), Çirkli Pulların Yuyulmasına Qarşı Avropa Şurasının ekspertlər Komitəsi (MONEYVAL), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edır. Azərbaycanın ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAJD) və Avropa Şurası arasında müvafiq anlaşma memorandumunun imzalanması bu sahədəki əməkdaşlığın bariz nümunəsidir.

Hal-hazırda Azərbaycan Çin hökumətinin təşəbbüsü ilə və BMT-nin dəstəyi ilə yaradılmış Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (İAACA) təşkilatçılarından biri olmuşdur. Təşkilatın əsas məqsədi Korrupsiyaya qarşı BMT Konvensiyasının milli qanunvericilikdə öz təsdiqini tapmış, dünyanın bütün antikorrupsiya orqanları arasında səmərəli əməkdaşlığın qurulmasına yardım göstərməkdir. Ölkəmizdə milli maraqlara uyğun olaraq korrupsiya hallarının aşkar olunması və külli miqdarda dövlət əmlakının mənimsənilməsinə yol vermiş şəxslərin məsuliyyətə cəlb olunması ilə bağlı konkret tədbirlər görülmüşdür. Respublikamız korrup-

siyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığı genişləndirir. Lakin Qərbin neft şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsi nəinki korrupsiyanı yüngülləşdirir, əksinə, ağırlaşdırır və gələcəkdə neftdən gələn gəlirlərə olan şansı korrupsiyaçı zümrənin cibində sürətlə yoxa çıxır.

Korrupsiyaya qarşı mübarizədə maarifləndirmə işinin aparılması böyük əhəmiyyət kəsb edir. Belə ki, maarifləndirmə xalqın korrupsiyaya qarşı mübarizədə fəaliyyətinə böyük təsir göstərir. Yuxarıda qeyd etdik ki, Azərbaycan korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığı genişləndirir. ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi Azərbaycanın Korrupsiyaya qarşı mübarizə strategiyasna dəstək layihəsinin icrası üçün 800 milyon dollar vəsait ayırmışdır [3,2].

Biz yuxarıda qeyd etdik ki, Azərbaycan korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığı genişləndirir. Son illər Azərbaycanın Aİ-ı ilə Fəaliyyət planı korrupsiya ilə mübarizədə böyük rol oynayır. Hökumət korrupsiya və şəffaflıqla bağlı qanun qəbul etmişdir. Bu qanunda korrupsiyaya görə cəza nəzərdə tutulur və rüşvət qanundan kənar hesab olunur. Ancaq cəmiyyətin bütün sahələrində, o cümlədən dövlət qulluğu, hökumət idarələrində və nazirliklərdə korrupsiya çox geniş yayılıb və Beynəlxalq Şəffaflıq Təşkilatının verdiyi məlumata əsasən, ölkə korrupsiya anlayışı indeksi üzrə 2,4 reytinqinə malik olmuşdur. Bu da onu göstərir ki, korrupsiya ölkəmizdə ciddi surətdə yayılmışdır. Baş Prokurorluğun verdiyi məlumata görə il ərzində korrupsiya ilə bağlı cinayət işləri açılmışdır. Burada rüşvət ittihamı ilə bağlı olan cinayət işləri xüsusi yer tutur.

2005-ci ilin yanvar ayında korrupsiya ilə mübarizə üzrə yeni qanun qüvvəyə mindi. Qanunda dövlət rəsmilərindən illik gəlirlərini, gəlir mənbələrini, sahib olduqları əmlakı və maliyyə öhdəliklərini açıqlamaları tələb olunurdu. Qanunda habelə qohumbazlıq qadağan olunur, dövlət rəsmilərinə və üçüncü tərəfə hədiyyələrin verilməsi, birbaşa, yaxud dolayı yolla maliyyə üstünlüklərinin tanınması məhdudlaşdırılır. Hökumət rəsmiləri etiraf edirlər ki, bu qanunun həyata keiçrilməsi yavaş gedir. Qanunda ayrı-ayrı şəxslərin və təşkilatların hökumətin informasiyasına ictimai çıxışı təmin olunur. Ancaq hökumət çox vaxt çıxış imkanları ilə onları təmin etməmişdir. Nazirliklərin məlumat üçün müraciət etməklə bağlı müxtəlif prosedurları olsa da onlar adi qaydada müraciətlərə mənfi cavab vermişlər. Onların əsas iddiası bu olmuşdur ki, bu məlumata malik deyildirlər. İnsanlar məlumatdan imtina ilə bağlı məhkəməyə müraciət etmək hüququna malikdirlər, ancaq məhkəmələr, adətən, nazirliklərin verdikləri qərarları olduğu kimi saxlayırlar.



Respublikamızın milli təhlükəsizliyinin qorunmasında narkobizneslə mübarizə gündəmdə olan məsələlərdən biridir. Narkobiznes demokratiyaya ciddi ziyan vurur. Dünya dövlətləri artıq neçə illərdir ki, insanların həyatını korlayan, minlərlə, on minlərlə ailələrə bədbəxtlik gətirən, eyni zamanda dövlətə, onun daxili və xarici siyasətinə xələl gətirən bu zəhərli, kriminoloji maddəyə qarşı mübarizə aparırlar. Narkobizneslə məşğul olanlar maddi maraqlarını güdərək, bunu iqtisadi problemlərlə əlaqələndirirlər. Belə ki, insanlar pul qazanmaq naminə ən ağır cinayətlərə getməyə hazır olurlar.

Belə adamlar «asan yolla qazanc əldə etmək üçün» narkotik vasitələrdən istifadə edirlər. Hal-hazırda Azərbaycanın işğal olunmuş Qarabağ torpaqlarında narkotik bitkilər əkilir. Lakin təəssüflər olsun ki, bizim səsimizə səs verən yoxdur. Dünya ictimaiyyəti buna göz yumur. Azərbaycan Respublikasının «Narkotiv vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında Qanun»un 1-ci maddəsində göstərilir: «Narkoman-narkotik vasitələri və psixotrop maddələrin sui-istifadəsi nəticəsində narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və fiziki asılılıq vəziyyətinə düşən, barəsində Azərbaycan respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada narkoloji-tibb müəssisəsi tərəfindən «narkomanlıq» diaqnozu təyin edilmiş şəxsdir [80,7].

Göründüyü kimi milli təhlükəsizliyimizin qorunmasına xələl gətirə biləcək narkotik maddələrin sərhədldər keçərək ölkəmizə gətirilməsi müvafiq dövlət orqanlarını ayıq-sayıq olmağa çağırır. Narkotik maddələr dövlət quruculuğuna, onun şəffaflığına xələl gətirir. Milli təhlükəsizliyimizin təmin edilməsində dövlətə zidd olan daxili qüvvələr, xüsusilə korrupsiya, terrorizm, narkotik maddələrlə alver böyük xələl gətirir. H.Kisincerə görə milli təhlükəsizlik millətin həyatı tələbatının ödənilməsindən ibarətdir. Həqiqətən də dövlət birinci növbədə ölkə əhalisinin daxili tələbatını ödəyirsə, onda bu onun milli təhlükəsizliyinin əsas qarantı olacaqdır. Z.Bjezinski isə milli təhlükəsizliyi hərbi qüdrətə, iqtisadi, sosial, siyasi və mənəvi inkişaf sahələrinə aid edirdi. Respublikamız narkotik maddə alverçilərinə qarşı mübarizədə beynəlxalq təşkilatlardan dəstək alır. Belə ki, ölkəmiz BMT-nin 1998-ci il Narkotik və psixotrop maddələrin qeyri-qanuni alverinə dair konvensiyasının bütün müddəalarını yerinə yetirməkdə israrlıdır. Bu Konvensiyanın sənədlərində – narkotik maddələrin təchizatı və ona olan tələbatın azalmasını əhatə edən, profilaktik proqramlar və narkotik maddələrə aludə olmuş şəxslərin müalicəsi üzrə proqramlar da daxil olmaqla narkoik maddələr əleyhinə strategiyanın hazırlanması və milli qanunvericiliyin gücləndirilməsi öz əksini tapmışdır. Bunlar aşağıdakılardır:

- Müvafiq milli hüquq-mühafizə orqanlarının imkanlarının artırılması;
- Əfqanıstan mənşəli narkotik maddələrin daşınmasının qarşısının alınması məqsədilə Qara və Xəzər dənizi ölkələri ilə strateji və operativ əməkdaşlığın genişləndirilməsi və s müddəalar öz əksini tapmışdır.

Təəssüflər olsun ki, BMT Konvensiyasının sənədlərində narkotik maddələr haqqında müddəalar verilərkən təkcə Əfqanıstan deyil, Azərbaycanın işğal altında olan Qarabağ torpaqlarının da adı çəkilsəydi yaxşı olardı. Təəssüflər olsun ki, Qarabağda narkotik mənşəli bitkilərin yetişdirilməsi və emalı geniş vüsət almışdır. Lakin BMT-nin bütün sənədlərində bu haqda bir kəlmə belə danışılmır. Qeyd etdiymiz kimi müasir dövrümüzün ən mühüm məsələlərindən biri narkotik maddələrin alışı və satışıdır. Milli təhlükəsizliyimizin ən ağır problemlərindən biri olan narkotik maddələri satanlar arasında qadınların sayı ilbəil artır. Təkcə, ötən il qeydiyyatda olan narkomanların sayı 21180 nəfər olunmuşdur. 15433 nəfər narkoman dispanser qeydiyyatındadır. Qeyd etmək lazımdır ki, 4772 profilaktik, 975 narkoman isə anonim müalicə olmuşdur. Xəstələrin 400-ə qədəri qadınlardır. 2514 narkoman qadın dispanser qeydiyyatına alınmışdır. Narkomanların 2633 nəfəri 18-29 yaş arası, 5907 nəfəri isə 30-39 yaşındadır. Qadın krizis mərkəzindən «Olaylar» qəzetinə bildirmişlər ki, ötən il 10-dan artıq narkoman qadın müalicədən sonra psixoloji yardım almışdır. Araşdırmalardan məlum olmuşdur ki, narkotika aludəçilərinin yaş həddi azalır. Bölgələrdə aparılan araşdırmalar zamanı narkotik vasitələr satanlar arasında qadınların sayının artıdığı müşahidə edilir. Cənub bölgəsində 200-dən artıq qadın arasında sorğu keçirilmişdir. Bu qadınların əksəriyyəti maddi çətinlik üzündən narkotika alveri etməyə məcbur olduqlarını bildirmişlər. Narkotikaya qarşı mübarizə aparan mərkəz narkotika aludəçilərinin müalicədən sonra cəmiyyətə inteqrasiyası üçün təkliflər hazırlayıbdır. Bu təkliflərdə narkomanların ictimai işlərə cəlb edilməsi, psixoloji reabilitasiya mərkəzlərinin açılması məsələsi bildirilmişdir [83,2].

Milli təhlükəsizliyin qorunmasında nəinki xarici, eyni zamanda əsasən də daxili təhlükəsizliyin möhkəmləndirilməsi dövlətin ümdə məsələlərindən biridir. Daxili təhlükəsizlik təkcə insan hüquq və azadlıqlarına hörmət vətəndaş cəmiyyətinin və sosial rifahın inkişaf etdirilməsi deyil, eyni zamanda ictimai asayişin qorunması, cinayətkarlıq və korrupsiya ilə mübarizə deməkdir. Bu sahədə respublikanın hüquq-mühafizə orqanları öz fəaliyyətlərinin səmərəliliyini ilbəil artırırlar. Məsələn, 2005-ci ildə 18049, 2006-cı ildə isə 19045 hadisə olmuşdur. Narkotik maddələrin qeyri-qanuni hazırlanması, əldə edilməsi, saxlanması və satışı ilə əlaqədar 2005-ci ildə 1961, 2006-cı ildə isə 2140 hadisə olmuşdur. Adam öldürməyə cəhd və qəsdən adam öldürmə 2005-ci ildə 288, 2006-cı ildə 267, oğurluq 2005-ci ildə 2151, 2006-cı ildə 2139, zorlama və zorlamağa cəhd 2005-ci ildə 44, 2006-cı ildə 35, soyğunçuluq üzrə 2005-ci ildə 196, 2006-cı ildə isə 238 hadisə olmuşdur. Nəticədə 2006-cı ildə 595 nəfər həlak olmuşdur [6,302]. Bu rəqəmləri analiz edərkən görürük ki, bu hadisələrin baş verməsinin əsas səbəbi sosial-iqtisadi vəziyyət, işsizlik, əhali arasında maarifləndirmənin haradasa aşağı səviyyədə olması və s.-dir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin nəzdində 24 nazirliyin iştirakı ilə yaradılmış və narkotizmlə mübarizədə onların işini əlaqələndirən «Narkomaniyaya və narkobiznesə qarşı mübarizə üzrə idarələrarası komissiya» yaradılmış və həmin komissiya haqqında əsasnamə təsdiq edilmişdir. DİN-nin müvafiq orqanları bu əsasnamə əsasında xarici dövlətlərlə narkomaniyaya qarşı mübarizədə əlaqələrini birgə müəyyənləşdirir, ikitərəfli razılaşmalar əldə edilir və beynəlxalq təşkilatların proqram və tədbirlərində yaxından iştirak etmək hüququ əldə edirlər.

Azərbaycan Respublikasına onun suverenliyinə qarşı xarici dövlətlər tərəfindən terror aktlarının hazırlanması da müşahidə olunur. Bu aktların hazırlanmasında Əfqanıstan İslam Respublikası, Rusiya Federasiyasının Çeçen İçkeriya Respublikası, Böyük Britaniya, İordaniya Krallığı, Qazaxıstan Respublikasının vətəndaşları iştirak etmişlər. Onlar Respublikamızda terror əməlinin həyata keçirilmə vasitəsi olan partlayış və yanğınlar törədilməsi üçün hazırlıq işlərinin həyata keçirilməsinə rəvac vermişlər. Eyni zamanda müxtəlif silahlı qruplar tərəfindən Azərbaycan Respublikasına partlayıcı maddələrin odlu silahları, döyüş sursatlarını qaçaqmaqçılıq yolu ilə keçirmişdirlər. Bütün bu hadisələrin qarşısı DİN-in əməkdaşları tərəfindən vaxtında alınmışdır.

Milli təhlükəsizliyin ən vacib elementlərindən biri kimi kəşfiyyat və əks kəşfiyyat dövlətin və onun vətəndaşlarının təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Bildiyimiz kimi respublikamız neftilə məşhurdur. Məhz xarici kəşfiyyat idarələri Xəzər dənizində yerləşdirilmiş Hərbi Dəniz Qüvvələrinin, sərhəd qoşunlarının obyektlərini, əsgər və zabitlərin psixoloji durumlarını, istifadə olunan hərbi texnikanı asanlıqla öyrənirlər. Bu işlə «Bakı» gəmisi məşğul olur. Bununla bağlı neft şirktlərində çalışan Piter Rayls yazır: «Gəmi xaricdən alınmış ən yüksək texnologiya ilə təchiz olunub. Alınan və götürülən bütün məlumatlar lentə yazılır» [81,3]. Bütün bunlar respublikamızda milli təhlükəsizliyin qorunmasının vacib olduğunu göstərir və sərhədlərimizdə kəşfiyyat işlərinin gücləndirilməsini

tələb edir. Biz bilirik ki, artıq 20-ildən artıqdır ki, ermənilərlə müharibə vəziyyətindəyik. Ermənistan kəşfiyyat orqanları hər an Azərbaycana qarşı terror aktları törətməkdən əl çəkmir. Bu sahədə öz ərazimizdə yaşayan erməni xislətli, lakin əgər ona azərbaycanlı demək olarsa, məsələn, Əlizadə Babayev kimi əslən Neftçala rayonundan olan ermənilərin Aşot adlandırdığı satqın haqqında danışmaq istəyirəm. Bu alçaq insan 1990-cı ildən erməni kəşfiyyat orqanlarının əlaltısına çevrilmişdir. O, ermənilərin Azərbaycan xalqına törətdikləri bütün vəhşiliklərin – 20 yanvar, Xocalı soyqırımı, 20 noyabr vertolyot qəzasını və s. kimi terror hadisələrindən xəbərdar imiş. Özü şəxsən Ermənistandakı əsirlərimizə qarşı törədilən cinayətlərdə iştirak etmişdir. Bundan başqa o, Bakıdakı metroların, Qaqarin körpüsünün, çörək zavodunun, hərbi obyektlərin və digər strateji əhəmiyyətli yerlərin partladılması üçün erməni xüsusi orqanlarının planlarını həyata keçirməyə başlamışdır. Bunun üçün ona 25 min dollar pul təklif etmişlər. Lakin MTN-i əməkdaşlarının çevikliyi nəticəsində o tutularaq həbs edilmişdir. Təəssüflər olsun ki, belə satqınlara ölüm hökmü yox, iş kəsilir. Belə vətən xainləri deyərdim ki, işgəncələrlə ölümə layiqdir. Bu cür satqınlara elə cəza vermək lazımdır ki, digərlərinə ibrət dərsi olsun.

## §2.3. SƏRHƏD TƏHLÜKƏSİZLİYİ

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin qorunmasında sərhd təhlükəsizliyinin möhkəmləndirilməsi mühüm amillərdən biridir. Azərbaycanın coğrafi vəziyyəti, onu (Ermənistanla müharibə vəziyyətində olması) beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik maddələrin qaçaqmalçılığı, kütləvi qırğın silahlarının yayılması kimi bir sıra transsərhəd təhdidlərlə üzləşdirir.

Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan Respublikasının İran İslam Respublikası ilə 132 km və Ermənistanla 733 km uzunluğunda olan beynəlxalq sərhədləri Ermənistan tərəfindən işğal olunmuşdur. Bu sərhədlərin nəzarətdən kənarda qalması nəticəsində respublikamızda yuxarıda göstərilən cinayətlərin baş verməsi üçün əlverişli şərait yaranmışdır. Bütün bunlar sərhəd təhlükəsizliyinə xüsusi diqqət yetirməyi tələb edir. Sərhəd təhlükəsizliyi siyasətinin effektli həyata keçirilməsi üçün mərkəzi dövlət orqanı kimi Dövlət Sərhəd Xidməti yaradılmışdır. Ölkədə aparılan demokratik dövlət quruculuğu xüsusilə də təhlükəsizlik sektorunun islahatı prosesi çərçivəsində sərhəd təhlükəsizliyinə yenidən baxılmış və



Dövlət Sərhəd Xidmətinin hərbi qurumdan hüquq mühafizə orqanına keçidi məqsədi ilə əsaslı struktur islahatları aparılır. NATO və digər xarici dövlətlərlə əməkdaşlıq nəticəsində Silahlı Qüvvələrin və digər təhlükəsizlik strukturlarının sərhəd təhlükəsizliyi sahəsindəki dəstəkləyici rolu və fəaliyyətinin koordinasiyası mexanizmi daha da təkmilləşdirilir.

Sərhədlərin təhlükəsizliyi mühüm strateji bazaların xüsusilə də neft və qaz yataqlarının təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Sərhəd təhlükəsizliyinin daha keyfiyyətli təmin olunması üçün dövlət beynəlxalq standartlara uyğun idarəetmə sistemini təkmilləşdirir və büdcə sistemini yaradır.

Azərbaycan Respublikası sərhəd təhlükəsizliyi sahəsində NATO, Avropa İttifaqı, Beynəlxalq Miqrasiya Təşkilatı, Enerji üzrə Beynəlxalq Agentlik, Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfrans və digər beynəlxalq təşkilatlar çərçivəsində ikitərəfli və çoxtərəfli sayda dövlətlərarası əməkdaşlığı genişləndirir.

Bu istiqamətdə islahatları inkişaf etdirmək üçün havada və dənizdə nəzarət, axtarış-xilasetmə, təlim sistemi təkmilləşdirilir, quru sərhəd nəzarət məntəqələri müasir texniki avadanlıqlarla təmin olunur və peşəkar heyətə keçid sürətləndirilir. Ermənistan-Azərbaycan müharibəsi nəticəsində Azərbaycan sərhədlərinin nəzarətdən kənarda qalmış hissəsinin Azərbaycan Respublikasının ümumi sərhəd təhlükəsizliyi sisteminə daxil edilməsi və həmin ərazilərdə ən müasir tələblərə uyğun təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi ümdə məsələlərdən biridir [2,3].

Bildiyimiz kimi Azərbaycan Ermənistanla artıq 1988-ci ildən etibarən müharibə vəziyyətindədir. Buna görə də güclü ordunun yaradılması Azərbaycan dövlətçiliyinin ümdə problemlərindən biridir. Son bir neçə ildə hərbi və təhlükəsizlik məsələlərinə büdcədən ayrılan vəsaitin bir neçə dəfə artması respublika rəhbərliyinin böyük xidmətlərinin nəticəsi kimi qiymətləndirilir. Ölkəmizdə Silahlı Qüvvələrin gücləndirilməsi, döyüş hazırlığının müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılması prioritet vəzifə kimi qarşıya qoyulmuşdur. Məsələn, müqayisə üçün qeyd etmək lazımdır ki, əgər 2003-cü ildə Azərbaycanda hərbi xərclərə 135 milyon dollar xərclənirdisə, 2007-ci ildə bu məbləğ 1 milyard ABŞ dollarına çatdırıldı [5,2]. Bu gün Azərbaycanın dövlət büdcəsində hərbi xərclər birinci yeri tutur. 2003-cü ildən sonra hərbi məqsədlər üçün büdcədən ayrılan vəsaitlərin təxminən 8 dəfə artırılması Azərbaycan hökumətinin ordunun möhkəmləndirilməsinə olan diqqətinin və ölkəmizin təhlükəsizliyi, xarici təhdidlərin aradan qaldırılması kimi məsələlərdə göstərdiyi həssaslığın təzahürüdür. Hərbi xərclərin

artırılması ilə bərabər, hərbi qulluqçuların – generalların, baş və kiçik zabitlərin, gizirlərin, miçmanların, çavuşların, əsgərlərin, matrosların, müddətdən artıq hərbi qulluqçuların sosial təminatının gücləndirilməsi, maaşların artırılması, mənzil şəraitinin daha da yaxşılaşdırılması, ordunun maddi texniki bazasının möhkəmləndirilməsi ölkənin müdafiə sisteminin gücləndirilməsi deməkdir. Bu da ki, təbiidir. Çünki müharibə vəziyyətində olan bir ölkə üçün bu azdır. Belə ki, Rusiyanın təkcə 22 min tankı vardır. Sözsüz ki, bu tankların çoxu Ermənistan ərazisində yerləşdirilərək bizə qarşı yönəldilmişdir. Bizim iqtisadi qüdrətimiz artdıqca, hərbi qüdrətimiz də artır. Azərbaycanda həmçinin ordumuz üçün lazım olan avadanlığın, silah-sursatın istehsalı üçün də böyük işlər görülür. Bu məqsədlə Müdafiə Sənayesi Nazirliyi yaradılmışdır. Yaxşı olardı ki, respublikamızda silah istehsalına başlanılsın. Çünki biz hər an müharibə ilə üzləşə bilərik. Ona görə də atalar demişkən qonşudan gələn payla dolanmaq olmaz. Onu biz özümüz yaratmalıyıq.

Respublika prezidenti İ.Əliyev Nazirlər Kabinetinin 2007-ci ilin 9 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında bəyan etmişdir ki, 1 milyard dollar son hədd deyil və orduya ayrılan vəsait gələn il də artırılacaqdır. «Bu il hərbir xərclər 1 milyard dollar səviyyəsində idi. Gələn il yenə də artırılacaq, təxminən 1,2, 1,3 milyard dollar səviyyəsinə qaldırılacaqdır. Biz bunu edirik və etməliyik. Çünki Azərbaycan müharibə şəraitində yaşayır, bizim torpaqlarımız işğal altındadır və işğalçı tərəfin qeyri-səmimi davranışı, danışıqlar prosesinin ləngidilməsi və süni əngəllər yaradılması, əlbəttə bizi vadar edir ki, ordu məsələlərinə daha böyük diqqət göstərək. Biz bunu edəcəyik, heç kəs bizi bu yoldan çəkindirə bilməz. Bu bizim suveren hüququmuzdur və Azərbaycan hazır olmalıdır ki, istənilən yolla öz torpaqlarını işğalçı qüvvələrdən azad etsin» [3,3].

Qeyd etmək lazımdır ki, 2008-ci ildə respublikamızın müdafiə xərcləri 25,4% artacaqdır.

Azərbaycan NATO ilə hərbi əməkdaşlığı genişləndirir. Belə ki, Azərbaycan Ordusunun həyata keçirilən islahatlarda, hərbi hissələrin komplektləşdirilməsində NATO standartları əsas götürülür. 2009-cu ilə qədər bu islahatların ilkin mərhələsi başa çatdırılacaqdır. Azərbaycan Ordusunda aparılan islahatlar Azərbaycan-NATO əməkdaşlığının perspektivləri barədə nikbin düşünməyə əsas verir. NATO ilə əməkdaşlığın əhəmiyyəti hərbi təhsilin yüksəldilməsində də özünü büruzə verir. Belə ki, hərbi təhsil müəssisələri Şimali Atlantika Alyansının standartlarını əsas götürür. Bu sahədə NATO-nun üzvü olan qardaş Türkiyə də öz kömək əlini əsirgəmir.



Azərbaycan Ordusunun zabitləri ölkəmizin NATO ilə əlaqələri çərçivəsində təşkilatın üzvü olan bir çox ölkələrin hərbi məktəblərində təhsil alır. Onlar NATO-nun təşkilatçılığı ilə ixtisasartırma kurslarında, hərbi təlimlərdə iştirak edirlər. Azərbaycan işğal altında olan torpaqlarımızı yalnız güclü Ordunun sayəsində xilas edə bilər. Bu mənada son dörd ildə Milli Ordunun müdafiə qabiliyyəti əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 2008-ci ildə Milli Ordunun büdcəsi bir milyard iki yüz milyon ABŞ dollarına bərabər olacaqdır [3,2].

## §2.4. NƏQLİYYAT TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ

Azərbaycanın zəngin enerji ehtiyatlarına malik olması iqtisadiyyatın əsaslı və sürətli inkişafına müsbət təsir göstərir.

Müxtəlif dövlətlərin Azərbaycana olan maraqları onun milli təhlükəsizliyinin qorunmasını şərtləndirən əsas amillərdən biridir. Azərbaycan müstəqillik əldə etdikdən sonra öz enerji sektorunu daha da inkişaf etdirmiş və müxtəlif növ nəqliyyat şəbəkələri yaratmışdır. Bütün bunların təhlükəsizliyini təmin etmək dövlətin əsas vəzifələrindən birinə çevrilmişdir. Beynəlxalq nəqliyyat dəhlizlərinin və boru kəmərlərinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Respublkası aşağıdakı vəzifələri həyata keçirir:

Nəqliyyatın və nəqliyyatda təhlükəsizliyin təmin edilməsi:

Avropa-Qafqaz-Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması məqsədilə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi nəqliyyat infrastrukturlarının mühafizə sisteminin etibarlılığının təmin edilməsi;

Nəqliyyat infrastrukturlarının təhlükəsizliyinə kənardan təhdid yarada biləcək amillərin aşkarlanması və qarşısının alınması;

Nəqliyyat vasitələri və infrastrukturlarında, o cümlədən boru kəmərlərində terror aktlarının törədilməsində istifadə oluna biləcək vasitələrin dövriyyəsinin qadağan olunması və ya bu dövriyyəyə ciddi nəzarətin həyata keçirilməsi, nəqliyyat obyektlərinin tikintisi və istismarı zamanı sosial və ekoloji mühitə ziyan vurulmasının qarşısının alınması və s. [2,7]. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında nəqliyyatın təhlükəsizlik məsələləri, bir sıra aidiyyatlı orqanlar qarşısında, o cümlədən Silahlı Qüvvələr və digər təhlükəsizlik strukturlarının fəaliyyətlərinin bu istiqamətə yönəldilməsi barədə məsələ işıqlanıdırılmışdır.

Azərbaycanın nəqliyyat təhlükəsizliyi siyasətinin əsas istiqamətlərindən biri də onun Avrasiya nəqliyyat sisteminə, TRACECA porqramına qoşulmasıdır. Azərbaycan neftinin dünya bazarına çıxarılmasında Avrasiya nəqliyyat dəhlizi və onun tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin böyük rolu vardır.

Azərbaycanın əlverişli məkanda yerləşməsi və onun bütün nəqliyyat vasitələrinin Avrasiya nəqliyyat sisteminə qoşulması, iqtisadi müstəqilliyimizin möhkəmlənməsinə və milli maraqlarımıza tamamilə uyğundur. Bu eyni zamanda Avropanın Asiya ilə daha ucuz və təhlükəsiz nəqliyyat və kommunikasiya xətləri ilə birləşdirməklə region dövlətləri, o cüməl.dən də Azərbaycanın iqtisadi inkişafına güclü təkan verir. Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsinin və inteqrasiya proseslərinin intensivləşməsində nəqliyyatın milli təhlükəsizliyinin qorunması dövlətin prioritet məsələlərindən biridir. Qərb-Şərq xətti üzrə Avropadan, Qara dənizdən, Qafqazdan sonra Xəzər dənizindən keçərək Mərkəzi Asiya və əks istiqamətdə maneəsiz hərəkət edən nəqliyyat sisteminin təhlükəsizliyinin təmin olunması hər bir dövlətin, o cümlədən respublikamızın əsas vəzifələrindən biri olmalıdır. "Bakı-Tbilisi-Qars,, dəmiryol xəttinin inşası bir çox dövlətləri, o cüməldən Ermənistanı şok vəziyyətinə gətirmişdir. Belə ki, Avropa və Asiya qitələrini birləşdirəcək bu dəmiryolu yükdaşımalarında böyük rol oynayacaqdır. Hər üç dövlət bu nəqliyyat xəttindən tranzit ölkə kimi böyük vəsait əldə edəcəkdir. Bu yol vasitəsilə ölkəmizə import prosesi ucuz başa gələcək. Eyni zamanda, istehsal olunan malın dünya bazarına çıxarılmasında dəmir yolunun əvəzsiz rolu olacaqdır. Gürcüstan üçün Bakı-Tbilisi-Qars dünya deməkdir, çünki Abxaziya münaqişəsi səbəbindən bu ölkənin əsas dəmir yolu qovşaqlarına çıxışı məhdudlaşdırılıb. Türkiyə yeni xətlə Şərqə – Qafqaza və oradan da bütün türk dünyasına yol əldə edəcəkdir. Azərbaycan isə həm Avropa, həm də qardaş Türkiyə ilə dəmir yolu xətti əldə edir, həm də Dağlıq Qarabağ müharibəsinin həlli prosesində yeni, səmərəli və təsirli «rıçaq» qazanır. Ona görə ki, bu nəqliyyat xətti Bakının inadkarlığı, maliyyə və siyasi müstəqilliyi hesabına həyata keçirilir. Bu dəmir yolu xəttinin xeyirli və rentabelli olduğunu artıq dünya birliyi görür. Erməni lobbisi dəfələrlə hay-küy salaraq bu xəttin çəkilməsi əleyhinə çıxış etmişlər. «Bakı-Tbilisi-Qars» xətti Ermənistanı yarımdairəvi şəkildə əhatəyə alır. Həmçinin yolun ermənilərin sıx məskunlaşdıqları və Tbilisidən çox Yerevana bağlı olan Cavaxetiyanın içindən keçməsi, burada türk və Azərbaycan amillərinin güclənməsi deməkdir. Gürcüstan hökuməti artıq axıska türklərinin əzəli torpaqlarına qayıtmasını öz üzərinə götürmüşdür.



Bu iki amil erməni faktorunu burada zəiflədir. Azərbaycanla Aİ-ı arasında bağlanmış tərəfdaşlıq müqavilələrində nəqliyyat infrastrukturunun inkişafı da daxil olmaqla, milli nəqliyyat strategiyasının işlənib hazırlanması və yerinə yetirilməsi öz əksini tapmışdır. Bunlar aşağıdakılardır:

- məqsədəuyğun hesab olunan yerlərdə əsas diqqəti qanunverici və tənzimləyici çərçivənin Avropa və beynəlxalq standartlara daha da yaxınlaşdırılmasına imkan verməklə milli davamlı nəqliyyat siyasətinin hazırlanması və tətbiqi (bütün nəqliyyat vasitələri);
- prioritet sahələr üçün xüsusi planların hazırlanması məqsədilə lazımi müstəqil tənzimləyici qurumların və idarəetmə strukturlarının gücləndirilməsi və zərurət olduqda həmin qurum və strukturların yaradılması, həmçinin institusional islahatların aparılması;
- mövcud dövlət yol şəbəkəsinin davamlı istismarının təmin edilməsi məqsədilə yolların maliyyələşdirilməsinin uzunmuddətli və şəffaf sisteminin yaradılması;
- peyk naviqasiyasında əməkdaşlığın inkişaf etdirilməsi (birgə tədqiqat fəaliyyəti və tətbiqlər daxil olmaqla);
- nəqliyyat xətləri və müvafiq üfüqi tədbirlərlə bağlı başlıca Trans-Avropa nəqliyyat xətlərinin qonşu ölkələrə doğru genişləndirilməsi üzrə Yüksək Səviyyəli Qrupun tövsiyyələrində tətbiqi, yol nəqiliyyatı sektorunda seçilmiş tədbirlər və islahatların yerinə yetirilməsi;
- yol təhlükəsizliyinin təkmilləşdirilməsi üçün yol təhlükəsizliyi fəaliyyət planının hazırlanması və yerinə yetirilməsi (təhlükəli malların daşınması və istsimara hazırlıq daxil olmaqla) xüsusi diqqət sərnişin nəqliyyatına yönəldilməlidir;
- beynəlxalq nəqliyyat sektorunun peşəkarlıq nöqteyi-nəzərindən tənzimlənməsinin təmin edilməsi; Beynəlxalq nəqliyyat sektorunda beynəlxalq standartlara uyğun olan məcburi sürmə və istirahət müddətinin təqdim edilməsi və həyata keçirilməsi;
- Müvafiq beynəlxalq konvensiyaların tətbiqinin gücləndirilməsi; dəmir yolu nəqliyyat sektorunda seçilmiş tədbirlər və islahatların yerinə yetirilməsi;
- Yükdaşıma nəqliyyat xidmətləri üzrə səmərəliliyin (sərhəddi keçmə prosedurları daxil olmaqla) artırılması. Milli model xidmətlərin təşviqi: qarşılıqlı fəaliyyət məsələlərinin həlli;
- Dəmir Yolu Əməkdaşlığı Təşkilatı (OSJD) və Dəmir Yolu vasitəsilə beynəlxalq yükdaşımaları üzrə Hökumətlərarası təşkilat ilə (OTİF) əmək-

daşlığın daha da inkişaf etdirilməsi; Avrasiya sektorunda seçilmiş tədbirlər və islahatların yerinə yetirilməsi;

- Aİ ilə hava xidmətlərinin müəyyən aspektləri üzrə (üfuqi) razılaşmanın tətbiqi;

- Təhlükəsizlik məsələləri daxil olmaqla, yeni tənzimləyici mexanizmlərin tətbiqi;

- Dəniz nəqliyyatı sektorunda seçilmiş tədbirlər və islahatların yerinə yetirilməsi;

- Dövlət mülkiyyətində olan donanma və liman sektorunun yenidən formalaşdırılmasının təşviq edilməsi (tənzimləyici əməliyyat və kommersiya funksiyalarının ayrılması);

-Tənzimləyici qurumun fəaliyyətinin gücləndirilməsi:

- BDT (Beynəlxalq Dəniz Təşkilatı) müvafiq beynəlxalq konvensiyalarının yerinə yetirilməsi; Limanlara Dövlət Nəzarəti və Dövlət Bayrağının tətbiqi sahəsində, eləcə də tanker təhlükəsizliyi üzrə Dəniz Ətraf Mühitin Mühafizəsi Komitəsinin qətnamələrinin səmərəli şəkildə həyata keçirilməsi. Tək gövdəli neft tankerlərinin BDT-nin Marpol Konvensiyası tərəfindən müəyyən edilmiş müddət ərzində istismardan kənarlaşdırılması.

Nəqliyyat üzrə regional əməkdaşlıq

- TRACECA prosesinin dəstəklənməsinin davam etdirilməsi;

- 2004-cü ilin noyabrında Bakıda keçirilmiş Avropa İttifaqı, Qara dəniz və Xəzər hövzəsi ölkələrin Nəqliyyat nazirləri Konfransının davamı olaraq Xəzər dənizi və Qara dənizdə regional nəqliyyat məsələlərində əməkdaşlığın genişləndirilməsi [10,8].

Bütün bunlardan aydın görünür ki, respublikamızda nəqliyyatın milli təhlükəsizlik baxımından qorunmasında, onun beynəlxalq təşkilatlarla əlaqəsi genişlənir. Bu da ki, təbii bir haldır. Çünki müstəqil dövlətimizə hər tərəfdən təzyiqlər göstərilir, məkrli düşmənlərimiz tərəfindən terror aktları törədilməyə cəhdlər göstərilir. Bir daha qeyd etmək istərdik ki, enerji ehtiyatlarının istehsalında iqtisadi və siyasi əhəmiyyət kəsb edən məsələlərdən biri də müvafiq nəqliyyat sistemi ilə əlaqədar infratrukturun yaradılmasıdır. Beynəlxalq neft sənayesində nəqliyyat sistemləri arasında təhlükəsizlik nöqteyi-nəzərindən boru kəməri böyük üstünlük təşkil edir. Boru kəməri nəqliyyat vasitəsi kimi də haradasa, məhsulun daşınmasını sürətləndirir. Kommersiya məqsədilə ilk neft kəmərinin tikintisi 1859-cu ildə Pensilvaniyada həyata keçirilmişdi [24,287]. Bu boru kəmərinin təhlükəsizliyi beynəlxalq səviyyədə qorunur.



## § 2.5 MİQRASİYA TƏHLÜKƏSİZLİYİ

Son illər Azərbaycanın sosial-iqtisadi əlaqələrinin genişlənməsi miqrasiya proseslərinin intensivləşməsinə güclü təsir etmişdir. 16 iyul 2004-cü ildə Azərbaycan hökuməti Dövlət Miqrasiya İdarəetmə siyasəti konsepsiyasını təsdiq edib. Baş Nazirin Fərmanı ilə təsdiq edilən konsepsiya hökumət daxilində əsaslı müzakirələrdən sonra Beynəlxalq miqrasiya təşkilatı ilə əməkdaşlıq nəticəsində tərtib edilib.

Milli təhlükəsizliyimizin qorunub saxlanılmasında Azərbaycanın həyata keçirdiyi miqrasiya siyasəti mühüm rol oynayır. Azərbaycan müstəqillik əldə etdikdən sonra onun sürətli sosial iqtisadi inkişafı energetika və nəqliyyat sahələrində beynəlxalq kommunikasiyaların genişlənməsi, eyni zamanda ölkəmizin geosiyasi mövqeyi miqrasiya proseslərinin intensivləşməsinə gətirib çıxarmışdır. Bu da öz növbəsində ölkənin inkişafı və milli təhlükəsizliyinin təmin edilməsi baxımından milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, onun əsasında miqrasiya proseslərinin tənzimlənməsi məsələlərinin təkmilləşdirilməsini irəli sürür.

Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, milli təhlükəsizliyimizin və sosial-iqtisadi, demoqrafik inkişafın təmin edilməsi, əmək ehtiyyatlarından səmərəli istifadə edilməsi, ölkə ərazisində əhalinin mütənasib yerləşdirilməsi, miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, tənzimlənməyən miqrasiya prosesinin mənfi təsirinin aradan qaldırılması, insan alveri də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınması məqsədilə 2006-2008-ci illər üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı qəbul olunmuşdur. Miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Dövlət Miqrasiya xidməti yaradılmışdır. Azərbaycanda miqrasiya proseslərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi hal-hazırki dövrümüzdə keyfiyyətli immiqrasiya siyasətinin formalaşdırılmasını, beynəlxalq əməkdaşlığın gücləndirilməsini, emiqrasiya proseslərinin nəzərdə saxlanılmasını və vahid informasiya bazasının yaradılmasını zəruri edir. Azərbaycanda əhalinin miqrasiya tarixindən danışarkən qeyd etmək lazımdır ki, bu köçürülmə bütün ictimai-iqtisadi formasiyalarda baş vermişdir. Belə ki, belə köçürülmələr orta əsrin əvvəllərindən Avropada, sonralar Avropadan

Amerikaya miqrasiyanı, Afrikadan zəncilərin Amerika qitəsinə kütləvi şəkildə aparılması baş vermişdir. Azərbaycanda miqrasiya proseslərinin tarixinə nəzər salsaq, görərik ki, onun ərazisinə müxtəlif dilli xalqların köçməsi XIX əsrin 20-30-cu illərindən başlamış və üç istiqamətdə həyata keçirilmişdir. (20,316)

Birinci axın XIX əsrin əvvəllərində Avropada baş verən siyasi və dini çaxnaşmaların məntiqi nəticəsi kimi meydana çıxan almanların köçməsidir ki, bu da Azərbaycanın Yelizavetpol (indiki Gəncə) quberniyasında xeyli alman koloniyalarının yaranmasına səbəb oldu. Azərbaycanda məskən salmış alman icmaları Birinci Dünya müharibəsi illərində onlara qarşı Rusiyanın yürütdüyü diskriminasiya siyasətinə baxmayaraq özlərini qoruyub saxlaya bildi. Bunun əsas səbəblərindən biri müxtəlif cəhətlərə görə bir-birindən fərqlənməsinə baxmayaraq, hər iki etnosun – azərbaycanlıların və almanların dözümlülük, qarşılıqla anlaşma və hörmət nümayiş etdirmələri idi. (14,122)

İkinci axın XIX əsrin 30-40-cı illərində Rusiyadan azərbaycana rus ailələrinin köçürülməsi ilə başlandı. Bu köçürülmə siyasəti 1917-ci ilə oktyabr inqilabı ərəfəsində və İkinci Dünya müharibəsi və ondan sonrakı illərdə başlandı.

Üçüncü axın isə Rusiyanın ermənilәri 1813-cü il Gülüstan və 1928-ci ildə İranla Türkmənçay müqaviləsinə əsasən Azərbaycana özlərinin dayağı kimi köçürməsi başlandı. Bu illərdən etibarən ermənilər rus qardaşlarının köməyi sayəsində Azərbaycan ərazilərini zəbt edərək Böyük Ermənistan dövləti yaratdılar. Beləliklə, bizim başıbəlalı xalqımızın faciəli günləri başlandı. Bu siyasət həm Rusiyanın, həm İranın, həm də yerli satqınların xəyanəti nəticəsində həyata keçirildi. Beləliklə də Azərbaycan xalqının milli maraqlarını məhv edərək onun təhlükəsizliyinə heç bir dövlət təminat vermədi. Nəhayət, Azərbaycanlılar əsrin əvvəllərindən bu günlərimizə kimi, yəni 1988-cü ilə kimi öz dədə-baba yurdlarından vəhşicəsinə qovuldular. Başqa millətləri öz ağuşuna alan, onu qonaqpərvərliklə qarşılayan xalqımızın milli faciəsi, qara günləri başladı, dövlətimizin müharibə şəraitində yaşamasına gətirib çıxartdı.

Miqrasiya proseslərinin tarixinə nəzər yetirərək Azərbaycan xalqının ən qabaqcıl nümayəndələrinin xarici ölkələrə deportasiyasının şahidi oluruq. Onlardan bəzilərinin ictimai-siyasi fəaliyyətinə, əqidəsinə görə, digərlərinin isə sosial-iqtisadi, maddi vəziyyətlərinə görə xarici ölkələrə üz tutduqlarının şahidi oluruq. Əgər 1937-ci ildə ən çox Azərbaycanın qabaqcıl ziyalıları, bizim mənəvi dəyərlərimiz, erməni və «sapı özündə olan baltalı»ların sa-



yəsində sürgün edilib öldürülürdüsə, indi XXI əsrdə isə maddi vəziyyətə görə xarici ölkələrə gedirlər. Həm də hal-hazırda oxumuş, intellektual səviyyəsi yüksək olan beyin axını daha çox xarici ölkələrə üz tuturlar. Onların içərisində azəbaycana, onun iqtisadi-siyasi potensialının yüksəlməsinə böyük töhfələr verə biləcək gənclərimiz daha çoxdur. Sözsüz ki, belə savadlı kadrlarımız yaşadıqları dövlətə daha çox xeyir verəcəklər. Halbuki, hal-hazırda müstəqil, suveren Azərbaycanın belə savadlı kadrlara böyük ehtiyacı vardır. Nəyə görə respublikamızda onların yaşayışı üçün şərait yaradılmır? Hər halda bir neçə ilə respublika vətəndaşlarının sosial-iqtisadi vəziyəti normal hala düşməsə, biz çox itkilərə yol verə bilərik. Milli təhlükəsizliyimizin qorunub saxlanılmasında dövlətimiz öz vətəndaşlarının qayğısına qalmalı, ziyalılarımızın xaricə axınının qarşısını almalıdır.

Statistik məlumatlara görə 2000-ci ildə 4 min Azərbaycan vətəndaşı Avropa ölkələrində sığınacaq almaq üçün müxtəlif səfirliklərə müraciət etmişlər. Onların əksəriyyəti işsizlərdir. Təəssüflər olsun ki, Azərbaycan kimi yeraltı, yerüstü sərvəti qızıl olan bir ölkədə onlar iş tapa bilmirlər. Yüksək ixtisaslı mütəxəssislərimiz əmək haqqının aşağı olması nəticəsində İrana, Türkiyəyə və digər xarici ölkələrə köçüb gedirlər. Statistik məlumatlara görə emiqrantların sayına görə birinci yerdə Rusiya 13 milyondur, ikinci yerdə isə Almaniya 10 milyondur.

Çox qəribə haldır ki, hal-hazırkı dövrümüzdə xarici ölkələrdən Azərbaycana xeyli miqrant gəlir. Bu da ki, xarici şirkətlərin ölkəmizdəki fəaliyyəti ilə bağlıdır. Belə ki, bu şirkətlərdə işləyən xarici vətəndaşlar həm yaxşı işlə təmin olunur, həm də bizimkilərdən xeyli yüksək əmək haqqı alırlar. Bunun nəticəsində Azərbaycanda işsizlik yaranır. Miqrasiyanın əsas səbəblərindən biri də flora və faunamıza mənfi təsir göstərən Qəbələ radialakasiyasının fəaliyyətidir. Qəbələ radiolakasiya stansiyasının işləməsi ətraf rayonlarda yaşayan əhalinin sağlamlığına mənfi təsir göstərir. Müxtəlif xəstəliklərin yaranmasına səbəb olur.

Ölkə sərhdlərindən kənara miqrasiya proseslərində çox böyük dövlətlər iştirak etdiyinə görə o, xarakterinə görə beynəlxalq problemə çevrilir. Ona görə də beynəlxalq miqrasiya milli və beynəlxalq normalara əsaslanır. Dünya miqyasında bu miqrasiya ilə beynəlxalq təşkilatlar Birləşmiş Millətlər Təşkilatı (BMT) və onun ixtisaslaşdırılmış idarələri olan Qaçqınların işləri üzrə Ali Komissarlığı (QAK) və Beynəlxalq əmək təşkilatıdır (BƏT). BMT 88 suveren üzv dövlətlərin nadir beynəlxalq təşkilatıdır. Avropada isə Avropa Şurası və Avropa Birliyi əsas normaların hazırlanmasında iştirak edir. Avropa Şurası 1949-cu ildə yaradılmışdır. Sonralar onun adı dəyi-

şilərək Avropa İttifaqı adlandırılmışdır. Hal-hazırda Avropa Şurasının baş katibi Terri Devisdir. İnsan alveri hazırda bütün dünyanı narahat edir. Avropa köləliyə 200 il bundan əvvəl son qoysa da, lakin o, tamamilə məhv edilməmişdir. Avropanın müxtəlif yerlərində cinayətkar dəstələr insan alveri vasitəsilə varlanır və bir çox hökumətlər bunun qarşısını almaq üçün kifayət qədər səy göstərmirlər. İnsan alveri cinayətin heç də gizli forması deyil. Belə ki, onun qurbanlarına Avropanın, eləcə də Azərbaycanın bütün şəhərlərində rast gəlmək olar. Cinayətkar insan alverçiləri bir tərəfdə varlandıqları halda, digər tərəfdə bunun dəyərini onun qurbanları ödəyirlər. İnsan alverinin ən çox rast gəlinən motivi cinsi istismar olsa belə, məcburi əmək, katorqa işləri və orqanların alınıb-satılması bu cinayətin motivləri arasındadır.

Bu ikrah doğurucu və utancverici vəziyyətə son qoymaq üçün Avropa Şurası 2005-ci ildə insan alverinin qarşısını almaq cinayətkarları məsuliyyətə cəlb etmək, qurbanlara kömək etmək və hökumətlərin imza atdıqları öhdəliklərə əməl etmələrindən əmin olmaq üçün manitorinq mexanizmləri yaratmaq məqsədilə olduqca mühüm əhəmiyyət kəsb edən Konvensiya yaratmışlar. Konvensiya fevralın 1-dən etibarən qüvvəyə minib və bu sənədi ratifikasiya edən on ölkədə (Albaniya, Avstriya, Bolqarıstan, Xorvatiya, Kipr, Danimarka, Gürcüstan, Moldova, Rumıniya və Slovakiya) elə həmin gündən hüquqi təsirə malikdir. Konvensiyanı yanvarda Bosniya və Herseqovina, ratifikasiya etmiş Fransa və Norveçdə isə sənəd mayın 1-dən etibarən qüvvəyə minmişdir.

Konvensiya insan alverindən zərər çəkənləri cinayətin günahkarları kimi yox, qurbanları olaraq dəyərləndirən ilk beynəlxalq sazişdir. Bu sənəd qurbanların hüquqlarını və şəxsi ləyaqətlərini qorumaq, həyatlarını yerində qura bilmələri üçün, onlara həqiqətən şans vermək və bu müasir köləliyi dəmir barmaqlar arxasına salmaq üçün hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, insan alveri ilə mübarizə beynəlxalq əməkdaşlıq tələb edir. Bu istiqamətdə mübarizə həm cinayətin mənbəyi olan ölkəni, həm tranzit ölkəsini, həm də son çatım ölkəsini əhatə edir. Konvensiya təkcə Avropa Şurasına üzv olan 47 ölkəyə deyil, qeyri Avropa ölkələrinə də şamil edilir və beləliklə də qlobal problemə qlobal cavabın verilməsinə şərait yaradır. BMT-nin 1949-cu ildə qəbul etdiyi insan Alverinin və digərlərinin Fahişəliyinin istismar edilməsinin Dayandırılması üzrə Konvensiya qadın alveri probleminə hələ 50 il bundan əvvəl müraciət edib.

Miqrasiya ilə bağlı Azərbaycanla Avropa birliyi arasında əməkdaşlıq genişlənir, tranzit miqrasiya üzrə məlumat mübadiləsi aparılır. Sığınacaq və



miqrasiya sahəsində fəaliyyətləri dəstəkləmək məqsədilə, üçüncü ölkələrdə miqrasiya və sığınacaq sahələrində maliyyə və texniki yardım üzrə proqram (AENEAS) və onu davam etdirəcək proqramlar daxil olmaqla, mövcud birlik proqramlarından istifadə edilməsi zəruridir. Bundan başqa qeyri-qanuni miqrasiyanın qarşısının alınması və dövlətlər arasında miqrasiya məsələləri üzrə dialoqun gücləndirilməsi milli təhlükəsizliyin qorunmasının əsasını təşkil edir. Həmçinin Aİ-i ilə Azərbaycan arasında beynəlxalq standartlara uyğun olaraq, səyahət sənədləri və vizaların təhlükəsizliyinin təkmilləşdirilməsi üçün əməkdaşlıq genişlənir. Eyni zamanda Aİ-i ilə Azərbaycan beynəlxalq standartlara uyğun olaraq, özünü təmin edən və müvafiq meyarlara cavab verən şəxslər üçün inteqrasiya imkanları yaradan müasir və səmərəli milli sığınacaq müdafiə sisteminin yaradılmasında birbirilə əməkdaşlıq əlaqələri yaratmışlar.

Qurbanların milliyyətinə gəldikdə isə burada 5 millətin nümayəndələrinin (azərb-97, rus-3, ləzgi-4, talış-1, kürd-3) iştirakını görürük. Ancaq əksəriyyət qadınlar azərbaycanlıdır. (91,3%)

**Cədvəl 1**

| Millət | Bakı | Bərdə | Tərtər | Naxçıvan | Ümumi |
|---|---|---|---|---|---|
| Azərb | 70 | 27 | 47 | 78 | 222(91,71%) |
| Rus | 3 | - | - | - | 3 |
| Ləzgi | 4 | - | - | - | 4 |
| Talış | 1 | - | - | - | 2 |
| Kürd | - | 3 | - | - | 3 |

Qurbanların çoxu Türkiyədə və BƏƏ-də olduqlarını bildirirlər.

**Cədvəl 2.**

| | Bakı | Bərdə | Tərtər | Naxçıvan | Ümumi |
|---|---|---|---|---|---|
| Rusiya | 16 | - | 15 | 78 | 36(14,8%) |
| BƏƏ Abu-Dabi | 2 | - | - | - | 2 |
| BƏƏ Dubay | 41 | - | - | - | 69(28,4%) |
| Türkiyə | 33 | - | 20 | - | 134(55,1%) |
| İran | - | - | - | 12 | 12 (4,9%) |

Cədvəldən göründüyü kimi qadınlar ən çox Türkiyədə insan alveri qurbanına çevrilmişlər. Qurbanların 55,1% məhz bu ölkənin (Türkiyə) payına düşür. Türkiyədə qurbana çevrilmiş qadınlar arasında Naxçıvan-

dan olan qadınlar üstünlük təşkil edir. (50%). Bu rəqəm Bakılı qadınlar üçün 24,6%, Tərtər qadınları üçün 14,9%, Bərdə qadınları üçün 100%-dir.

Azərbaycan 1992-ci ildə qaçqınların statusuna dair 1951-ci il Cenevrə Konvensiyasına və 1967-ci il Protokoluna qoşuldu. Respublikamız qaçqınlar və məcburi köçkünlər üzrə milli qanunvericiliyi onların milli maraqları nəzərə alınmaqla Aİ-ı standartlarına uyğun olaraq həyata keçirir.

Miqrasiya prosesinin öyrənilməsi və tənzimlənməsi istiqamətində genişmiqyaslı iş aparan beynəlxalq təşkilatlardan biri də Beynəlxalq Miqrasiya Təşkilatıdır.(73,3) Bu təşkilat 1951-ci ilə dekabrın 5-də Belçikanın paytaxtı Brüssel şəhərində keçirilən miqrasiya məsələləri üzrə konfransda yaradılmışdır. Avropa Şurasının katibi Terri Devis deyir: «Avropada insan alverinə son qoymağın vaxtıdır və konvensiyanın qüvvəyə minməsi daha effektli şərait yaradır. Məhz buna görə də konvensiyanı hələ də ratifikasiya etməyən, hətta imzalamayan ölkələr artıq gecikmədən bu addımı atmalıdırlar». (5,7) Göründüyü kimi bəzi dövlətlər bunu qeyri-qanuni miqrasiya ilə bağlayaraq, konvensiyanın tələblərinə cavab vermirlər.

Müasir dövrümüzdə insan alverinin dinamikası kəskin şəkildə fərqlənir və bu da insan haqqının pozulmasının qarşısını almaq üçün yeni yanaşmaların tətbiq olunmasını tələb edir. Əsas tədbirlər olaraq birinci növbədə cinayətin mənbəyi olan ölkələrdə gələcək qurbanlarını axtaran cinayətkarlar tərəfindən manipulyasiya və yalan məlumatın yayılmasının qarşısını almaq üçün maarifləndirmə işlərini genişləndirmək lazımdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanla Ermənistan arasında müharibə nəticəsində işğal olunmuş rayonlarımızdan 1 milyon qaçqından başqa, 45 azərbaycanlı ermənilər tərəfindən əsir götürülmüşdür. 455 əsir öldürülmüşdür. Əsir götürülmüş qadın, uşaq və qocalar işgəncələrə məruz qalmışdırlar. Onlardan çoxu xarici ölkələrə satılmışdır. ABŞ hökumətinin hesablamalarına əsasən hər il beynəlxalq sərhədlərdən keçməklə 800.000-dən 900.000-dən insan (ölkə daxilində aparılan alver daxil deyil) alverin qurbanına çevrilir. 2005-ci ilin insan alveri üzrə hesabatında bu rəqəmin 80%-ə qədərini qadınlar və qızlar, 50-i isə azyaşlıların təşkil etdiyi bildirilir. Bundan başqa dünyada milyonlarla insan zorakı əmək və cinsi istismara məcbur edilirlər. BMT-in əhali Fondunun daxili insan alveri ilə bağlı apardığı hesablamaları da əlavə etsək onda il ərzində 4 milyon insanın alverin qurbanına çevrildiyinin şahidi oluruq. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı çərçivəsində tərtib olunmuş Cənub Şərqi Avropa ölkələri üçün Regional İnsan alverinə Qarşı Hüquq Mühafizə Dərsliyinin müəllifi Paul Houlmsun hesablamalarına görə insan alverindən bir ildə 7



milyard ABŞ dolları gəlir əldə olunur ki, bu da narkotik və silah alverindən sonra dünyada üçüncü cinayət biznesidir. Bəzi hallarda müasir dövrümüzdə insan alveri qloballaşma və transmilli səyahət və ticarətin ikinci dərəcəli məhsulu kimi özünü göstərir.

İnsan alveri haqqında danışarkən bu, məsələnin Azərbaycanda geniş vüsət alması sözsüz ki, bizim milli mentalitetimizə uyğun olmayan bir prosesdir. Lakin çox təssüflər olsun ki, bu gün insan alveri hər bir azərbaycanlını düşündürməyə bilməz. Axı, öz qəhrəmanlığı, igidliyi ilə fərqlənən, namuslu, izzəti ilə tanınan, xarüqələr yaradan Azərbaycanın döyüşkən, mərd, mübarizkeş, Həcər qeyrətli, Nigar cəsarətli qadınlarımız nəyə görə alqı-satqı alətinə çevrilmişlər? Onları nə vadar edir bu işlərə? Günah kimdədir? Cəmiyyətdə yoxsa, zəmanədədir. Yoxsa sosial-iqtisadi vəziyyətin aşağı səviyyədə olmasındadır, yaxud da ki, bütün bunlar ailə tərbiyəsindən irəli gəlir. Bütün bu hadisələri yazarkən insan dəhşətə gəlir. Belə ki, məsələn, «Təmiz dünya» təşkilatı Bakı, Bərdə, Tərtər və Naxçıvan şəhərlərində sorğu keçirilmişdir. Əsasən 3 qrupda və 300 nəfər arasında keçirilən sorğuların hədəf qrupları aşağıdakılar olmuşdur.

1.Xarici ölkələrə satılmış qadınlar;

2.Ölkə daxilindən mərkəzə gətirilərək fahişəliyə məcbur edilən qadınlar;

3.Dilənçiliyə məcbur edilən uşaqlar;

Sorğular keçirilərkən yeni versiyalar ortaya çıxdığına görə əlavə qruplar arasında da sorğular keçirilmişdir;

1.Pornofilmlərə cəlb edilən uşaqlar haqqında;

2.2001-2003-cü illərdə aparılan qadınların marşurutları haqqında.

3.Son günlər səfərə hazırlaşan qadınlar haqqında.

Ən çox Bakı şəhərində sorğu keçirilmişdir. 128 nəfər arasında Tərtərdə 52, Bərdədə 33, Naxçıvanda 92 qadın arasında sorğu keçirilmişdir. Ümumiyyətlə sorğuda 309 nəfər iştirak etmişdir. 87 nəfər qadını xarici ölkəyə satılmağa aparmışlar. Bu bizim milli mentalitet təhlükəsizliyimizə vurulan ən böyük zərbədir. Təkcə bərdədən xaricə 30 nəfər aparılmış, 3 nəfəri isə həmin regiona gətirilərək fahişəliyə cəlb edilmişdir. 47 nəfər Tərtərdən xaricə aparılmış, 5 nəfər isə bölgələrdən Tərtərə fahişəliyə cəlb edilmişdir. Naxçıvandan 79 nəfər xaricə aparılmış, 7 nəfər isə ölkə daxilində Naxçıvana gətirilmişdir. (106,1)

Qeyd etmək lazımdır ki, «Qadın alveri» transmilli cinayət, qeyri-qanuni miqrasiya və əmək standartlarının pozulması kimi çoxsaylı qeyri-qanuni fəaliyyət növlərini özündə birləşdirir. Qadın alveri ilə məşğul olan təşkilatların mərkəzi Bakı şəhərindədir. Bu təşkilatın cəlbediciləri sosial-iqtisadi

vəziyyəti ağır olan azərbaycanın bütün regionlarında vardır. Dəllallar müxtəlif marşurutlarla qadınları, xüsusilə cavan qızları xarici ölkələrdə satırlar və külli miqdarda pul qazanırlar. Qeyd etmək lazımdır ki, budur qloballaşmanın mənfi nəticələri. Sərhədlərin açılması, müxtəlif əqidəli insanların sanki əl-qolunu açır. Maneəsiz gediş-gəlişlər insan alverinin genişlənməsinə şərait yaradır. Bir də ki, qeyd etmək istərdim ki, bütün bu hadisələrin geniş vüsət almasının əsas səbəblərindən biri də respublikamızın keçid dövrünə qədəm qoyması ərəfəsində zavod, fabriklərin, müəssisələrin iş prinsipinin dayandırılması, daha doğrusu dağıdılması oldu. Bunun nəticəsində minlərlə, bəlkə də ondan da çox qadın və qızlarımızın işsiz qalması oldu. Bu bir reallıqdır. Nəticədə işsiz qalan qadınlarımızın bəziləri maddi vəziyyətin ağırlığı ucbatından alverə çevrildilər. Bütün bunları ürək ağrısı ilə də etiraf etmək lazımdır ki, xarici ölkələrə satılan qadınların 120 nəfəri 25 yaşınadək, 123 nəfəri isə 26-30 yaşlarında olan qadınlardır. Bəs nə etməli? Bütün bunların qarşısını necə almalıyıq? Milli təhlükəsizliyimizin əsas ünsürlərindən biri olan qadın və uşaq alverinə qarşı necə mübarizə aparmalıyıq? Son vaxtlar birləşmiş millətlər Təşkilatı, Avropa Şurası və Avropa ittifaqı kimi beynəlxalq təşkilatlar insan alverinə, milli maraqlara uyğun olmayan və beynəlxalq qanunların pozulması zəminində baş verən gender ayrı-seçkiliyi və gender zorakılığının bir forması kimi baxırlar. Keçid dövrünü yaşayan ölkələrdə özəlləşdirmə prosesi və qlobal iqtisadiyyata keçid qadınlara bir sıra iqtisadi çətinliklər yaratdı. İnsan alveri ilə məşğul olanlar isə bütün dünyada, o cümlədən Azərbaycanda qadınların sosial-iqtisadi çətinliklərindən istifadə edərək onlardan gəlir mənbəyi olaraq milyonlar qazanırlar. Əlbəttə ki, bu nə bizim dini qanun-qaydalarımıza, nə də ki, etik normalarımıza uyğundur. Bu sahədə respublikamızda maarifləndirmə işi aparılır, eyni zamanda, beynəlxalq təşkilatlarla da əlaqələr yaradılır. Qadınları namuslu əməyə cəlb etmək, təhsil almaları üçün tədbirlər görülür.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Meri Robinzonun bəyan etdiyi kimi «insan alveri irsən ayrı-seçkilikdir. İnsan alverinin qlobal seks industriyasına aparan yolundan danışarkən söhbət nisbətən çiçəklənmiş ölkələrdə yaşayan kişilərin daha az inkişaf etmiş ölkələrdən olan qadın və qızlara cinsi xidmətə görə pul ödəməsindən gedir. Bu, əmək hüquqları və ya qeyri-bərabər inkişaf problemindən daha artıq məsələdir. Bu başlıca insan hüquq və azadlıqlarıdır çünki burada irqi-ayrı seçkiliyin kütləvi və ağrılı forması baş verir». (52,87)



İnsan alverinə qarşı mübarizə üçün Azərbaycan beynəlxalq təşkilatlarla əlaqə yaradır. Bu sahədə avropa ittifaqı ilə insan alverinə qarşı mübarizədə deyilir: «Mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik maddələr və pulların yuyulmasına qarşı mübarizə». Ai-nin hüquqi mühafizə orqanları və beynəlxalq təşkilatlarla yeni cinayətkarlıq sahələrində məsələn, xüsusilə uşaq pornoqrafiyası sahəsində informasiya və komunikasiya ilə bağlı cinayət sahəsində əməkdaşlıq edilməsi.

İnsan alveri, xüsusilə də qadın və uşaqların alverinə (o cümlədən bu cür alverin qurbanlarının inteqrasiya edilməsi üzrə fəaliyyət) və qeyri-qanuni miqrantların daşınmasına qarşı mübarizənin gücləndirilmə\si.

- ATƏT-in İnsan Alverinə qarşı mübarizə üzrə fəaliyyət Planında (2003-cü ilin dekabr ayında Mastrixtdə təsdiq olunmuşdur; III IV və V fəsllər) tövsiyə edilən tədbirlərin həyata keçirilməsi və müvafiq beynəlxalq təşkilatlar (ATƏT, BMT) çərçivəsində əməkdaşlığın gücləndirilməsi;
- Müvafiq hüquq-mühafizə orqanları (polis, sərhədçilər, gömrük və məhkəmə) arasında regional əməkdaşlığın təşviq edilməsi;
- Qurbanların müdafiəsi, rabilitasiyası və onlara yardım göstərilməsi üzrə mexanizmlərin inkişaf etdirilməsi.

Xüsusilə narkotik maddələrə aludə olmuş şəxslərin reabilitasiyası və aludəçiliyinin qarşısının alınması vasitəsilə narkotik maddələrin alveri, o cümlədən narkotik maddə və rekurslardan sui istifadəyə qarşı mübarizənin gücləndirilməsi. (10,62)

Bütün bunlar göstərir ki, respublikamızda qeyri-miqrasiya xarakterli insan alverinə qarşı mübarizə, beynəlxalq səviyyədə aparılır. Məsələn DİN-i İnsan Alverinə Qarşı Mübarizə İradəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində insan alveri ilə məşğul olan 5 nəfərlik qrup yaxalanmışdır. (20 fevral 2008-ci il) DİN-dən verilən məlumata görə, araşdırılma zamanı İnsan Alveri ilə məşğul olan qrupun, qadınları Dubaya apardığı müəyyən edilmişdir.

Onlar gəlir əldə etmək məqsədilə bir qrup şəxslə cinayət əlaqəsinə girərək, qadınları Dubay əmirliyinə satmışlar. (89,2)

Biz yuxarıda qeyd etdik ki, miqrantlar qanuni və qeyri-qanuni miqrantlara bölünürlər. Məsələn, Almaniyada qeyri-qanuni miqrantlar insan alverinin qurbanlarıdır. Onlar bu ölkəyə qanunsuz yollarla gətiriliblər, qanunsuz yaşayır, əmək fəaliyyəti ilə məşğuldurlar. Lakin onların əməkləri düzgün qiymətləndirilmir. Onlar yerli dili, adət-ənənəni, qanunvericiliyi bilmədiklərindən susmağa məcbur olurlar. Qanunsuz əmək fəaliyyəti ilə məşğul olanlar kriminal qrupların təsiri altına tez düşürlər. Qanuni bilmə-

diklərinə görə belə miqrantlar aşkar olunduqda ya həbs olunurlar, ya da deportasiya olunurlar. Məsələn, Almaniyada əvvəllər qanunsuz miqrantlar aşkarlananda hökumətin hesabına vətəninə yola salınırdı. İndi isə onlar öz hesablarına geri qaytarılırlar. Əgər həmin şəxsdə pul yoxdursa, müvəqqəti saxlama məntəqələrinə gətirilirlər. Burada işlə təmin olunurlar. İşləyib xərcləri toplayandan sonra geri yola salınırlar. Qanunvericilikdə nəzərdə tutulub ki, qanunsuz miqrantın fəaliyyəti zamanı əməyi istismar edilibsə, kriminal qruplaşmadan təzminat tələb edə bilər. Əgər hər bir insan qanunları bilərsə, başa düşər ki, bunun çıxış yolu hüquq-mühafizə orqanlarına, məhkəmələrə müraciət etməkdədir. Biz miqrantlarla bağlı məsələləri, bir ölkənin – Almaniyanın timsalında onlara olan münasibəti açıqladıq.

Bəs Avropada, Rusiyada azərbaycanlı miqrantlarla bağlı vəziyyət nə yerdədir?

Onların taleyi haqqında müxtəlif məlumatlar verilir. Qərbi Avropada olan miqrantların sayı sabit olaraq qalmaqdadır. Yəni nə azalma, nə də çoxalma meyilləri müşahidə edilmir. Azalma meyilləri Rusiyada hiss olunurdu. Ukraynada əməkçi miqrantların sayı artmışdır. Lakin ilin əvvəlində Rusiyada miqrantların tənzimlənməsilə bağlı qərardan sonra azalma tendensiyası müşahidə edilirdi. Kimsə satış nöqtələrinə nəzarətini itirməmək üçün müxtəlif qeydiyyata düşmüşdür. Kimsə də Rusiyadan başqa ölkəyə köçmüşdür. Həmin vaxtlar Azərbaycana da çox axın gözlənilirdi. Lakin sonradan aydın oldu ki, Azərbaycana güclü axın olmayacaqdır. Əksəriyyət Rusiyadan müvəqqəti köçməklə aranın nisbətən sakitləşməsini gözləyirdi. Buna görə də 2007-ci ilin ikinci yarısından etibarən Rusiyaya yenidən axın müşahidə edilir. Yəni müəyyən dövr keçdi, miqrasiya xidmətinin əməkdaşlarının aktiv fəaliyyəti, millətçi gənclər təşkilatının sərt mövqeyi yumşaldı. Vaxt gözləyənlərin hamısı geri qayıtdı. Miqrantların sayına görə azərbaycanlılar birinci yerlərdə olsalar da əslində belə deyildir. Rusiya mətbuatında azərbaycanlılar tərəfindən iş yerlərinin mənimsənilməsi kimi qərəzli məlumatlar da yayılır. Lakin bu bildiyimiz kimi ağ yalandır. Rusiya tədqiqat mərkəzlərinin yazdıqlarına görə, qanunun qəbulu Çinlilərə qarşı yönəldilib. Hazırda Rusiya bazarlarında ən çox Çindən gələnlər təşkil edir. Yəni qeyd etmək lazımdır ki, əsas hədəf azərbaycanlılar deyildir. Azərbaycanlılar yerli əhali ilə yaxın təmasdadırlar. Onlar seçki prosesində miqrasiya kartından istifadə edirlər, yəni ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Bəs miqrasiya sahəsində Azərbaycanda vəziyyət necədir? Azərbaycandakı qaçqın və miqrantların sayı çox deyildir. Gələnlərin əksəriyyəti fərdi qaydada ticarətlə məşğul olanlardır. Onlar ölkə ərazisinə qanuni gəlməklə və ticarətlə məşğul olmaqla əmək miqrantı statusunu qazanırlar. Azərbaycanın iqtisadi vəziyyəti inkişaf edir, ölkədə əcnəbilərin fəaliyyəti üçün qanunverici baza yaradılmışdır. Buna görə də əcnəbi vətəndaşlar normal fəaliyyətlə məşğul ola bilirlər. (10,61) Burada görkəmli satirik şairimiz M.Ə.Sabirin bir Şer parçası yadıma düşür.



Məzlumların göz yaşlarına dözməyən, görkəmli inqilabçı, satirik şairimiz M.Ə.Sabir yazır:

Artıqca həyasızlıq olur el mütəhəmmil,<br>
Hər zülmə dözən canları neylərdin, ilahi?! (91,34)

Bu şer müasir dövrümüzdə insan alveri ilə məşğul olanlara qarşı bir üsyandır.

Dövlət statistika komitəsinin məlumatına görə 2006-cı ildə cins və yaş qruplarından asılı olaraq miqrantların şəhər yerlərinə gedənlərdən ən çoxu gənclər olmuşdur.

| Onların yaş həddi | Kişi | qadın |
|---|---|---|
| 20-24 | 53 | 101 |
| 25-29 | 102 | 109 |
| 30-34 | 70 | 85 |

Cədvəldən göründüyü kimi bu yaşda gedənlərin ən çoxunu qadınlar təşkil etmişdir. Əlbəttə ki, bu da gələcəkdə ana olacaq qadınlarımızın milli genefondumuza nə dərəcədə təsir edəcəyini qabaqcadan xəbər verir. Bu, məsələ həm də sosial problemlər doğurur. Belə ki, gənclərimizin xarici ölkələrə axını azərbaycanda əhali artımının azalmasına səbəb ola bilər. Buna görə də vətəndaşların milli maraqlarına uyğun olaraq onların işlə təmin olunmasına şərait yaratmaq lazımdır.

Miqrasiya proseslərindən danışarkən insan alveri haqqında dövlətin yeritdiyi siyasətdən bəhs etməmək qeyri mümkündür. Belə ki, respublikamızda insan alverinə qarşı mübarizə idarəsi yaradılmışdır. Bu idarə müxtəlif yaşlı uşaqların və qadınların xarici ölkələrə satılması məsələləri ilə məşğuldur. Aparılan araşdırmalardan məlum olur ki, müxtəlif yaşlı uşaqları xarici ölkələrə sataraq onlardan varlanmaq mənbəyi kimi istifadə edirlər. Məsələn, hər il cənub zonasından İran istiqamətinə təqribən 40-50 uşaq qeyri-qanuni yolla ötürülür. Təkcə 2001-2002-ci illər ərzində Cənub zonasından 117 uşaq yoxa çıxıb. Təhsildən birdəfəlik qalan həmin uşaqların taleyi haqqında hələlik heç bir məlumat yoxdur. 2003-cü ildə Cəlilabad ara-

zisindən 11, Salyandan 7, Yardımlıdan 9 uşaq İran tacirlərinə könüllü satılıb (2003-cü il oktyabr məlumatı). (79,180)

Bəs bu uşaqları valideyinləri nəyə görə xarici ölkələrə satırlar? Ona görə ki, onların yaşayışları, maddi durumları çox pis halda olmuşdur. Uşaq və qadınların xarici ölkələrə satılması sözsüz ki, milli təhlükəsizlik maraqlarına vurulan ciddi mənəvi-psixoloji strateji məsələdir. Bu eyni zamanda bizim mənəvi dəyərlərimizə, əxlaqi normalarımıza dəyən ciddi bir zərbədir. Azərbaycandan oğurlanan və qeyri-qanuni yolla çıxarılan uşaqların bir qismi isə xarici ölkələrin hərbi sənaye komplekslərindəki elmi-tədqiqat mərkəzlərində, laboratoriyalarında təcrübə obyektinə çevrilir. Bütün bunları nəzərə alaraq yaxşı olardı ki, uşaq və doğum evlərindəki uşaqlara nəzarət gücləndirilsin, onların həyatına biganə qalmasınlar. Axı, onlar bizim gələcəyimizdir.

Əgər, görkəmli şairimiz M.Ə.Sabir öz üsyankar şerləri ilə daş qəlbli insanlara qarşı XIX əsrin sonu XX əsrin əvvəllərində mübarizə aparırdısa, indi XXI əsrdə Azərbaycan hökuməti bu mübarizəni qanun çərçivəsində aparır. Belə ki, 2005-ci ildə qəbul olunan İnsan Alverinə Qarşı Mübarizə Haqqında Azərbaycan Respublikasının Qanunu həm seksual istismar, həm də məcburi əməyə cəlb etmək məqsədi ilə insan alveri cinayəti üzrə 5-15 ilə qədər həbs cəzasını nəzərdə tutur və kifayət qədər sərt olaraq seksual zorakılıq kimi başqa növ ağır cinayətlərin cəzasına uyğun gəlir. Hökumət 2006-cı ildə ilk dəfə olaraq yeni İnsan Alverinə Qarşı Mübarizə haqqında Azərbaycan Respublikasının qanunu əsasında İnsan Alveri cinayətini törədən şəxsləri təqib və məhkum etmişdir. Hökumət 2005-ci ildən fərqli olaraq (160), 2006-cı ildə isə insan alveri ilə bağlı 192 cinayət işi açmışdır. Azərbaycanda ötən ilin göstəricisindən fərqli olaraq (153) hökumət 164 nəfəri insan alveri cinayəti törətmiş şəxsləri mühakimə etmişdir. 2006-cı ildə isə 155 insan alverçisi məhkum olunmuşdur ki, bu göstərici də ötən ilin göstəricisindən (93) yüksək olmuşdur. Məhkum olmuş 155 nəfərdən 47-si azadlıqdan məhrum olmuşdur. Qalan 107 nəfərlə bağlı müxtəlif növ ictimai işlər üzrə ya inzibati cəza, cərimə, ya azadlıqdan məhrum etmənin sınaq müddəti ilə əvəz edilməsi kimi cəza növləri tətbiq edilmişdir. (52,4) Bütün bunlara baxmayaraq, hüquq-mühafizə orqanlarının əməkdaşları bəzi hallarda insan alverçilərindən rüşvət belə alırlar? Belə ki, hüquq mühafizə orqanlarfı çox vaxtlar qadın alverçiləri ilə əlaqədar olurlar. Müasir dövrdə qloballaşmanın bizə gətirdiyi ən eybəcərliklərdən biri də qadın alveridir. Bəs nə etmək lazımdır? Bunun qarşısını necə almaq olar? Leqal və yaxud da ki, qeyri-leqal yollarla buna qarşı mübarizə aparmaq lazımdırmı? Mən deyərdim ki, leqal mübarizə daha düzgündür. Çünki leqal yolla faktlar aşkar olunur və dövlət qanun çərçivəsində onlara qarşı mübarizə aparır. Leqallaşdırmaq yolu ilə fahişələr və ona məsul olan şəxslər cinayət məsuliyyətinəç cəlb olunurlar. Müəyyən edilmiş maddə üzrə insan alverçiləri həbs olunmalıdırlar. Bu sözsüz ki, kişilərə də aid edilməlidir. Qeyd etmək lazımdır ki, insan alveri özü də korrupsiyadır. Bu da biznesin bir növüdür. Onları narkotik maddə alverçiləri də adlandırmaq olar. Çünki insan alveri ilə məşğul olanlar, qadın və uşaqları özlərinə cəlb etmək üçün narkotik maddələrdən istifadə edirlər. Təəsüflər olsun ki, bizim qanunlarda boşluqlar vardır. Məhz bunun nəticəsidir ki, 2007-ci ildə 283 cinayətkar fahişə qadın tutulmuşdur. Lakin bunlara qarşı heç bir ciddi tədbir görülməmişdir. Bu qadınların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün iş yerləri açılmalıdır. Onların qarşısı alınmadığına görə, təkcə, hal-hazırda 1232 nəfər qadın qıds xəstəliyinə tutulmuşdur. Sözsüz ki, onlar gənc qızları da öz tərəflərinə asanlıqla cəlb edirlər. Məsələn, Gəncədəki kafelərdən birində bir neçə qız uşağı yaxalanmışdır. Bunu aşkar etmək asandır. Lakin onları açıq-aşkar televiziya ekranlarında göstərməklə, milli mentalitetimizə zərbə vurmuş oluruq. Bəs xarici ölkələrdə bu vəziyyət necədir? Məsələn, Hollandiyada fahişəlik leqallaşdırıldıqdan sonra insan alverçilərinin sayı azalmışdır. (106,3) İsveçrədə isə insan alverində iştirak edən kişilər məsuliyyətə cəlb edilirlər. Qeyd etmək lazımdır ki, respublikamızda qadın və uşaq alverinə qarşı ciddi mübarizə aparılmaqdadır.

Burada görkəmli şairimiz M.Ə.Sabirin bir şeri yadıma düşdü.

Nuri - çeşmanımmısan, ey pul, ya canımmısan?
İsmətim, namusum, irzim, qeyrətim, qanımmısan?
Hörmətim, fəxrim, cəlalım, şövkətim, şanımmısan?
Müshəfim, Məkkəm, Mədinəm, qibləm, ərkanımmısan?
Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan? (91,210)

Gəlin pula, vara-dövlətə görə namusumuzu, ismətimizi heç bir əcnəbiyə satmayaq.

Uşaqların alınıb xarici ölkələrə satılması milli təhlükəsizlik maraqlarına vurulan ciddi mənəvi-psixoloji zərbədir. Azərbaycan dövlətçiliyinə təhlükədir. Bu uşaqlar bəlkə də bir neçə ildən sonra bizim əleyhimizə olacaqdır. Çünki, onları məhz bu ruhda tərbiyə edirlər.

Bu gün Azərbaycan onun üçün xaricdə hazırlanmış iqtisadi təhlükələrdən daha çox ictimai-siyasi, mənəvi-əxlaqi, demoqrafik təhlükələrlə üzləşir.

Buna görə də biz çalışmalıyıq ki, xarici dövlətlərdən, onların yardım təşkilatlarından asılı olmayaq, yoxsa bu bizi axırda fəlakətə aparacaqdır. Biz həm iqtisadi, həm də siyasi cəhətdən irəli getməliyik.

Bu gün qadın və uşaq alveri ilə məşğul olan heysiyyatsız insanları, sabah allah bilir ki, hansı məkrli siyasətlə məşğul olacaqlar. Onlar vətəni belə satmağa qadir olan insanlardır. Bu eyni zamanda, milli təhlükəsizlik maraqlarına vurulan ciddi zərbədir. Burada M.Ə.Sabirin bir şer misrasını xatırlatmaq istəyirəm:

Daş qəlbli insanları neylədin, ilahi?!
Bizdə bu soyuq qanları neylədin, ilahi?!
Məzlumların göz yaşı dərya olacaqmış,
Dəryaları, ümmanları neylərdin, ilahi?! (91,110)

Bəli, bu gün XXI əsrdə insan alveri ilə məşğul olan insanları mən milli mənlik şüuru olmayan, cəmiyyətdə kimliyini unudan nəfsin qulu, hiylənin əsiri olan, saxtakar, yaltaq, yaramaz, millətin genofonduna ləkə gətirənlər adlandırardım

Beynəlxalq miqrasiya (nəfər)

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycana gələnlərin cəmi | 6222 | 4361 | 2574 | 1257 | 2500 | 2407 | 2013 | 232 |
| MDB ölkələrindən | 6002 | 4250 | 2486 | 1205 | 2453 | 2349 | 1974 | 207 |
| Rusiya Federasiyasından | 2968 | 2710 | 677 | 82 | 656 | 466 | 158 | 394 |
| Ukrayna | 367 | 291 | 77 | 6 | 65 | 60 | 04 | 27 |
| Belarus | 51 | 29 | | | 19 | 21 | 10 | 28 |
| Özbəkistan | 336 | 142 | 82 | 42 | 109 | 110 | 0 | 111 |
| Qazaxıstan | 341 | 150 | 107 | 44 | 96 | 116 | 8 | 94 |
| Gürcüstan | 942 | 307 | 210 | 135 | 204 | 300 | 79 | 238 |
| Moldovadan | 6 | 2 | 9 | 4 | 7 | 7 | 2 | 12 |
| Qırğızıstandan | 38 | 35 | 22 | 9 | 15 | 5 | 12 | 12 |
| Tacikistandan | 31 | 6 | 8 | 7 | 15 | 5 | 6 | 7 |
| Türkmənistandan | 165 | 175 | 151 | 68 | 162 | 138 | 115 | 171 |
| Ölkəsi göstərilməyənlər | 708 | 386 | 27 | 16 | 4 | 6 | 19 | 13 |
| MDB ölkələri istisna olmaqla | 220 | 111 | 88 | 52 | 41 | 58 | 39 | 25 |
| Almaniyadan | - | 2 | 6 | - | 1 | 2 | - | - |
| ABŞ-dan | - | 5 | 7 | 1 | - | - | 1 | 1 |
| İsraildən | 6 | 25 | 9 | 4 | 1 | 8 | 5 | 1 |
| İrandan | 31 | 44 | 30 | 16 | 12 | 22 | 13 | 4 |
| Türkiyədən | 23 | 17 | 19 | 21 | 13 | 22 | 13 | 7 |
| Estoniyadan | 9 | - | 1 | 1 | - | - | 1 | 1 |
| Litvadan | 5 | 16 | 1 | 1 | - | 8 | 5 | 4 |
| Latviyadan | 35 | 1 | 7 | 1 | 7 | 7 | 5 | 4 |
| Pakistandan | 2 | 1 | 3 | 3 | 5 | 2 | 3 | - |
| Polşadan | - | - | - | - | - | - | - | - |
| Yunanıstandan | - | - | - | - | - | - | - | - |
| Digər xarici ölkələrdən | 159 | 17 | 14 | 7 | 9 | 2 | 4 | 3 |



Azərbaycanın statistik göstəriciləri 2007. s. 83

**Beynəlxalq miqrasiya (nəfər).**

| İllər | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycandan gedənlər cəmi | 16033 | 9947 | 7288 | 4320 | 3754 | 2900 | 2906 | 2644 |
| MDB ölələrindən | 13685 | 9521 | 7008 | 4229 | 3634 | 2697 | 2856 | 2608 |
| Rusiya Federasiyasından | 11312 | 8393 | 6230 | 3691 | 3140 | 2285 | 2495 | 2160 |
| Ukrayna | 860 | 513 | 339 | 221 | 181 | 152 | 102 | 162 |
| Belarus | 151 | 148 | 118 | 88 | 95 | 80 | 88 | 101 |
| Özbəkistan | 144 | 46 | 32 | 18 | 13 | 12 | 7 | 8 |
| Qazaxıstan | 204 | 174 | 170 | 125 | 149 | 121 | 138 | 153 |
| Gürcüstan | 179 | 97 | 53 | 37 | 10 | 20 | 7 | 10 |
| Moldovadan | 12 | 7 | 5 | 8 | 6 | 9 | 9 | 3 |
| Qırğızıstandan | 41 | 31 | 16 | 15 | 25 | 2 | 4 | 4 |
| Tacikistandan | 7 | 31 | 1 | - | 1 | 1 | 1 | 1 |
| Türkmənistandan | 118 | 63 | 40 | 21 | 13 | 8 | 5 | 6 |
| Ölkəsi göstərilməyənlər | 644 | 42 | - | - | - | - | - | - |
| MDB ölkələri istisna olmaqla | 2349 | 426 | 280 | 91 | 120 | 103 | 50 | 36 |
| Almaniyadan | 74 | 62 | 110 | 40 | 46 | 32 | 9 | 4 |
| ABŞ-dan | 570 | 103 | 42 | 8 | 18 | 34 | 19 | 10 |
| İsraildən | 1688 | 199 | 88 | 29 | 31 | 16 | 4 | 7 |
| İrandan | 3 | 24 | 2 | - | 3 | - | - | 1 |
| Türkiyədən | 3 | 23 | 14 | 3 | 6 | 11 | 4 | 8 |
| Estoniyadan | 2 | 1 | 1 | 2 | - | 1 | - | - |
| Litvadan | 7 | 2 | 3 | 3 | 1 | 6 | - | - |
| Latviyadan | 5 | 1 | - | - | - | - | - | 1 |
| Pakistandan | - | - | - | - | - | - | - | - |
| Polşadan | 3 | - | 1 | - | - | - | - | - |
| Yunanıstandan | 3 | 3 | - | - | - | - | - | - |
| Digər xarici ölkələrdən | 4 | 12 | 23 | 11 | 16 | 10 | 4 | 5 |

Azərbaycanın statistik göstəriciləri 2007. s.84

## § 2.6 ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏTİN TƏHLÜKƏSİZLİYİ

XX əsrin sonu XXI əsrin əvvəllərində Azərbaycanın milli təhlükəsizliyinin əsas elementlərindən biri elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunmasıdır. Elm, təhsil və mədəniyyətin inkişafı, gələcək nəslin genofondunun genişləndirilməsi, onun intelektual səviyyəsinin yüksəlişi maddi və mənəvi dəyərlərimizin mühafizəsidir. Artıq 20 ildir ki, Azərbaycan xalqı öz dədə-baba yurdlarından qovulmuşlar, tarixi mədəniyyət abidələrimiz məhv edilmişdir. Azərbaycanın maddi-mənəvi sərvətləri erməni qəsbkarları tərəfindən dağıdılmışdır. Məhz milli təhlükəsizliyimizin qarantı olan elm, təhsil və mədəniyyətin qorunması üçün respublikamızda elm və təhsilin dünya standartlarına uyğunlaşdırılması, yeni texnologiyalardan istifadə etmək üçün inkişaf etmiş ölkələrlə əlaqələrin genişləndirilməsi, onların təcrübələrinin öyrənilməsi respublikamızın gündəmdə olan məsələlərindən biridir. Bu məqsədlə xarici dövlətlərdə təhsil almaq üçün hər il respublikamızdan yüksək səviyyəli, savadlı gənclərimiz oxumağa göndərilir. Azərbaycan inkişaf etmiş qara qızılına görə xarici ölkələri özünə cəlb edir. Hər il bizə xarici ölkələrdən müxtəlif ixtisaslı mütəxəssislər gəlir. Ona görə də biz xarici mütəxəssislərə yox, öz yerli kadrlarımıza üstünlük verməliyik. Bu mənada hər il respublikamızdan xaricdə təhsil almağa xeyli gənc göndərilir ki, gələcəkdə onlar öz elmi potensialından elm, texnika və sənayenin müxtəlif sahələrində istifadə etsinlər. Azərbaycanda təhsil haqqında qanun işlənmişsə də hələ öz təsdiqini tapmamışdır. Məhz təhsil haqqında qanunun gecikməsi elm, təhsil sahəsində axşamlara səbəb olur. Buna baxmayaraq Azərbaycanda elmi potensialın qorunması və inkişafı üçün dövlət siyasətinin uzun müddətli proqramları hazırlanıb həyata keçirilir.

Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanununda maddə 22-də deyilir: Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində milli təhlükəsizliyin təmin olunması zəruridir.

Maddə 22.1. Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində milli təhlükəsizliyinin təmin olunması Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin, mədəni tələbatlarının, ödənilməsi vasitələrini və elmi-texniki, potensialının daxili və xarici təhdidlərdən qorunması və inkişaf etdirilməsidir.

22.2 Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün əsas tədbirlər aşağıdakılardır:



22.2:1. Azərbaycan xalqının tarixi və mədəni irsinin, dilinin, adət-ənələrinin, milli özünüdərkinin xarici təhdidlərdən qorunması və inkişaf etdirilməsi;

22.2:2. Ümumdünya mədəniyyətinin qloballaşması prosesində milli mədəniyyətimizin özünəməxsusluğunun qorunması;

22.2:3. Dünyanın mədəni nailiyyətlərindən milli mədəniyyətiimzin tərəqqisində istifadə üçün imkanların yaradılması;

22.2:4. Beylənxalq müqavilələrə uyğun olaraq Azərbaycan Respublikamızın tarixi və mədəni abidələrinin qorunmasının təmin edilməsi;

22.2:5. Elmi potensialın qorunmasına və inkişafına dair dövlət siyasətinin uzunmüddətli proqramlarının hazırlanıb həyata keçirilməsi;

22.2:6. Elm və təhsil səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması məqsədilə inkişaf etmiş ölkələrlə əməkdaşlıq əlaqələrinin genişlənməsi, beynəlxalq təcrübənin öyrənilməsi;

22.2:7. İctimai mənəviyyat əleyhinə cinayətkarlığa qarşı mübarizə. (4,5) Bütün bunları həyata keçirmək üçün elm, təhsil sahəsində ciddi islahatlar aparılmalı, gənclərimizin xaricdə təhsilini davam etdirib, ölkəmizə savadlı kadr kimi qayıtmaları üçün dövlət müəyyən tədbirlər proqramı işləyib hazırlamalıdır. Biz milli təhlükəsizlikdən danışarkən adətən sərhədlərin qorunması, terrorizmə qarşı mübarizə və s. kimi problemlərin həll edilməsindən bəhs edirik. Lakin yaddan çıxartmaq olmaz ki, müharibə vəziyyətində olan bir ölkə üçün bu bir təbii haldır. Qeyd etmək lazımdır ki, düşmən hər an bizim iqtisadi, mədəni, elm, təhsil və ümumiyyətlə, mənəvi dəyərlərimizə zərbələr endirməyə çalışır. Bildiyimiz kimi iqtisadiyyatı zəif olan ölkələr həmişə, güclü dövlətlər tərəfindən istismara məruz qalır.

Biz Milli Təhlükəsizlik haqqında dövlət konsepsiyasının əsas istiqamətlərindən danışarkən qeyd etdik ki, Azərbaycan öz milli dövlətçiliyi iqtisadi, mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılması üçün milli maraqlara xidmət edir və bu istiqamətdə xeyli irəliləyişlər əldə etmişdir. Məhz respublikamızın milli təhlükəsizliyinin qorunması naminə həyata keçirdiyi strateji əhəmiyyətli sahələrdən biri də təhsildir. Elm və təhsil sahəsində Azərbaycan dövlətinin ümdə məsələlərindən biri milli maraqları nəzərə alaraq ölkədə elm və təhsilin yeni istiqamətdə təkmilləşdirilməsindən ibarətdir. Bildiyimiz kimi Azərbaycan iqtisadi, siyasi sahədə olduğu kimi elm və təhsil sahəsində də bir sıra xarici ölkələrlə əməkdaşlıq edir. Qeyd etmək lazımdır ki, bu əməkdaşlığın təhsildə böyük maraqları olmaqla yanaşı, çox böyük təhlükəsi də vardır. Belə ki, hər il bizim gənclərimiz xarici ölkələrə oxumağa gedir. Eyni zamanda həmin ölkələrin məsələn, Rusiyanın Azərbaycanda bəzi ali

məktəblərinin filialları açılmışdır. Etiraf etmək lazımdır ki, bəzi hallarda bu ali məktəblərə qəbul olunan savadsız gənc birdən-birə, bir neçə aydan sonra respublikamızın ali məktəblərinin ikinci kursunda oxumağa başlayırlar. Yaxşı olardı ki, biz də başqa ölkələrdə öz ali məktəblərimizin filiallarını açardıq. Nəyə görə bizim diplomlar xaricdə təsdiqini almır? Halbuki, bizim ali məktəblərdə oxuyan savadlı gənclərimiz xaricdə oxuyanlardan heç də geri qalmırlar. Mən deyərdim ki, təhsil sahəsindəki bu siyasətin özü bizim mədəni-mənəvi dəyərlərimizə olan bir diversiyadır, təxribatdır? Məsələn, Rusiyadan gələn professorun oxuduğu mühazirə Azərbaycanda fəaliyyət göstərən ali məktəbin filialında oxuyan hər hansı tələbənin (mühazirəliri) milli maraqlarına sözsüz ki, cavab verməyəcəkdir. Türkiyədə heç bir Qərb Universitetinin filialı yoxdur. Çünki erməni genosidindən mühazirə oxuyan fransızların hazırladığı kadrlar Türkiyənin milli maraqlarına cavab verməyəcəkdir.

Qeyd etmək lazımdır ki, son illər təhsil sahəsində bir sıra islahatlar keçirilməyə başlanmışdır. Belə ki, bunlardan ən başlıcası odur ki, ali məktəblərdə bal sisteminə keçirilmişdir. *Bunun üçün dünya bankı qrant və ya kredit* ayırmışdır. Bəs bu bizim ali məktəblərimizə hansı üstünlükləri gətirmişdir? Əlbəttə ki, heç nə. Bəlkə də gələcəkdə müvəffəqiyyət qazanacağıq, lakin hər şey göz qabağındadır. Təhsil strateji sahədir. Xalqın gələcəyi, dövlətin taleyi ondan asılıdır. Azərbaycanın haqq sözünü deyən dövlətçiliyini qoruyan məhz ixtisaslı kadrlardır. Bu mənada hər hansı qrant bizim təhsilimizi məhvə doğru apara bilər. Məhz buna görə də millətin bütün intelektual potensialını müdafiə etmək, milli təhlükəsizliyimizin qorunması dövlətimizin ümdə məsələlərindən biridir. Heç təsadüfi deyildir ki, H.Cavid yazırdı: «Bir millətin halını tədqiq etmək üçün ən doğru meyar, ən kəsdirmə yol o millətin məktəbləridir. (43,30) Bəli, məktəb, elm, təhsil milləti gələcəyə aparan işıqlı yoldur. Bir milləti məhv etmək üçün onun düşünən beynini, əqlini məhv etmək lazımdır. Bu sözlər heç də təsadüfi deyilməmişdir. Belə ki, 1937-ci ildə Stalin Azərbaycanın ən savadlı, elmli, kamil alim, yazıçılarını məhv etməklə, *azəri xalqını məhv etmək istədi. Lakin xalqımızın içə*risindən 1937-ci ilin qurbanlarının ən ləyaqətli davamçıları ortalığa çıxdı. Bildiyimiz kimi XXI əsr elm-texniki, kompüter əsridir. Biz XXI əsrin tələblərinə uyğun təhsil sistemimizi qorumalıyıq. Biz nə üçün Qərbdən öyrənməliyik? Qərbin özünün də təhsil sahəsində çatışmamazlıqları var. Biz Qərbdən öyrənərkən onu yaradıcı surətdə, milli maraqları nəzərə almaqla öyrənməliyik. Nəyə görə Azərbaycanın təhsil sahəsində yeni «Təhsil modeli» hazırlanmasın? Təhsil sahəsində beynəlxalq əməkdaşlıq qarşılıqlı maraqlar əsasında olmalıdır. Əgər hər hansı bir ölkənin təhsil sistemində çatışmamazlıqlar varsa, biz onu Azərbaycanın təhsil sisteminə şamil etməməliyik.



Respublikamızda təhsilin səviyyəsinə gəlincə qeyd etmək lazımdır ki, (statistik rəqəmlərə görə) təhsilin tam və natamam səviyyəsi 15 və yuxarı yaşda əhalinin hər 1000 nəfərinə 2006-cı ildə 912, 2007-ci ildə isə 913 nəfər düşmüşdür.

Hal-hazırda *respublikamızda təhsil sistemində kəmiyyət yox*, keyfiyyət dəyişmələrinə üstünlük verilir.

Azərbaycan Respublikasının 1995-ci ilin 12 noyabrında qəbul edilmiş Konstitusiyasında elm, təhsil və mədəniyyət haqqında maddə verilmişdir. Konstitusiyanın 40-cı malddəsində göstərilir ki, hər kəsin ölkənin mədəni həyatında iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Bu mədəni həyatda iştirak etmək, eyni zamanda xalqın əldə etdiyi mədəniyyət sərvətlərindən bəhrələnməklə, hər bir kəsin özünün bəşəriyyətə verə biləcəyi mədəni nailiyyətləri əhatə edir. Bunun üçün respublika dövləti hər kəsin öz istəyi və bacarığına əsaslanaraq mədəniyyət sahəsində onlara geniş imkanlar yaradır. Respublikamızda yaşayan hər millət öz milli mədəniyyətlərini yaradırlar. Milli təhlükəsizliyin ümdə məsələlərindən biri budur ki, Azərbaycanda yaşayan hər bir millətin nümayəndəsi milli mədəniyyətdən bəhrələnmək hüququna malikdirlər. Buna görə də *respublikamızda milli mədəniyyət* mərkəzləri, klublar, milli mədəniyyət sarayları vardır. Azərbaycan Respublikasının Konstitusiyasının qanununa görə milli mədəniyyətdən istifadə edilməsinə maneçilik törədilməsinə qəti surətdə icazə verilmir. Azərbaycan Cinayət məcəlləsinin 67-ci maddəsi irqi və milli mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarını birbaşa və ya dolayısı ilə məhdudlaşdırmaya, yaxud da birbaşa və ya dolayısı ilə üstünlüklərin müəyyən edilməsinə görə ciddi cinayət məsuliyyəti nəzərdə tutur.

Konstitusiyanın 40-cı maddəsinin ikinci bəndində göstərilir ki, hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır. Bu o deməkdir ki, hər bir xalq öz mədəni abidələrini göz bəbəyi kimi qorumalı, ona qəsd edənlər məsuliyyətə cəlb olunmalıdır. (6,69)

Cinayət məcəlləsinin 231-1 maddəsində göstərilir ki, dövlət tərəfindən *mühafizə edilən tarix və mədəniyyət* abidələrini, yaxud təbiət abidələrini qəsdən məhv etmə, dağıtma və korlamaya görə 2 ilədək azadlıqdan məh-

rumetmə və ya eyni müddətdə islah işləri ilə və ya miniumum əmək haqqı miqdarının üç mislindən cərimə ilə cəzalandırılır.

İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikası məcəlləsində həmçinin tarixi və mədəni abidələrə qarşı qanunsuz hərəkətlərə yol verilməsinə görə məsuliyyət nəzərdə tutulur.

Lakin təssüflər olsun ki, artıq 16 ildən çoxdur ki, torpaqlarımız erməni təcavüzkarları tərəfindən işğal olunmuşdur. Nəticədə çoxlu sayda tarixi mədəni abidələrimiz, elm, mədəniyyət ocaqlarımız, təhsil mərkəzləri, ümumiyyətlə, mədəni-mənəvi sərvətlərimiz dağılıb talan edilmişdir. Buna qarşı heç kəs məsuliyyətə cəlb edilmir. ATƏTİN Minsk qrupunun nümayəndələri buna qarşı heç bir tədbir görmürlər. Ermənilər işğal etdikləri Azərbaycan ərazilərindəki qədim memarlıq daş heykəltaraşlıq abidələrini vəhşicəsinə dağıtmış və yerində öz abidələrini ucaltmışlar. Onlar nəinki abidələrimizi, eyni zamanda musiqimizi də öz dillərinə çevirib oxuyurlar. Dünyada köçəri həyat sürən, yerli musiqisi və mədəniyyəti olmayan ermənilər, Azərbaycanın bütün mədəni sərvətlərini mənimsəyərək özününküləşdirmişlər. Bu mənada biz elmimizi, mədəni sərvətlərimizi erməni vandalizmindən qorumaq üçün dünyada mədəni-mənvi sərvətlərimizi təbliğ etməliyik.

Qeyd etmək lazımdır ki, işğal edilmiş Dağlıq Qarabağ və digər ərazilərimizdəki 1200 tarixi memarlıq abidəsi tamamilə məhv edilmiş, 2,7 muzey və Şəkil Qalereyası qarət edilib, 100 mindən çox eksponat Ermənistana daşınmışdır.

Tarixi olmayan bir köçəri xalq Azərbaycanın torpaqları hesabına Ermənistan dövləti yaradaraq əlbəttə ki, Rusiya və İrandan dəstəklənərək, həm tariximizi, həm mədəniyyət və incəsənətimizi mənimmsəyərək, dünyada özününkü kimi təbliğ etmişdirlər. Mən deyrədim ki, tarixdə bəlkə də heç bir xalqa bu qədər təcavüz olunmamışdır. Burada Əli Rza Xələfinin bir şeri yadıma düşdü: şair yazır:

İllər ayrıcıyam, qərib sahildən,<br>
Araz muştuluğa bir ah gətirib.<br>
Təbriz ağrısına ürəkdən, dildən,<br>
Qarabağ ağrısı Pənah gətirib.

Həqiqətən də Qarabağ bizim ağrılı yerimizdir. Budur bizim təhlükəsizliyimiz. Biz maddi-mədəni və mənəvi sərvətlərimizi silah gücünə xilas etməliyik.

Azərbaycan Respublikası Konsititusiyasının 42-ci maddəsində göstərilir ki, hər kəsin təhsil almaq hüququ vardır.



Konstitusiyanın 42-ci maddəsinin 3-cü bəndində deyilir: «Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir». Göründüyü kimi təhsil dövlətin əsas strateji fəaliyyət növlərindən biridir. Belə ki, respublikamızın yeni iqtisadi (bazar iqtisadiyyatına – Ə.F.) siyasətə keçməsi, xüsusi mülkiyyətin bərqərar olunması, yeni, müasir informasiya cəmiyyətinin tələblərinə uyğun yüksək ixtisaslı kadrların hazırlanmasını tələb edir. Bu da ki, dövlətin mühafizəsində, ümumiyyətlə, milli təhlükəsizliyimizin qarantı kimi yüksək tələblərə cavab verən kadrların hazırlanmasını sürətləndirir. Müharibə vəziyyətində olan ölkəmiz üçün milli maraqlara uyğun zabitlərin hazırlanması dövlətin əsas məsələlərindən biridir. Buna görə də bizim əsgər və zabitlərimiz Qərb standartlarına uygun, lakin milli ruhda təhsil almalıdırlar. Heç təsadüfi deyildir ki, ən ləyaqətli və bacarıqlı gənclərimiz xarici ölkələrdə hərbi təhsil alaraq, vətənin müdafiəsi üçün respublikamıza qayıdırlar. Onlara dövlət tərəfindən hərtərəfli qayğı göstərilir. Hərbi təhsil almış gələ tələbələr bizim vuran əlimiz, döyünən ürəyimizdir.

Elm və təhsil sanki bir məhək daşıdır. Bu daş nə qədər möhəm olsa, bir o qədər əzilməz, sınmaz. Bizim elm və təhsil sistemimiz nə qədər möhkəm olsa bir o qədər biz düşmən qarşısında əyilmərik, qalib gələrik. Şair, filosof Əbu Turxan demişdir: «Bütün elmlərin bünövrəsi təhsillə qoyulur». (243,60)

Bu gün müstəqil Azərbaycanın dünya standartlarına cavab veriləcək müstəqil təhsil sistemi olmalıdır. bu haradasa bir qədər də olsa bizdə vardır. Lakin təhsil sisteminə pulun yol açması ürəkbulandırıcıdır. Sovet dövründə təhsil sisteminin əsasını kommunist ideya-siyasi tərbiyəsi təşkil edirdi. Şükürlər olsun ki, gec də olsa biz öz kökümüzə, milli ruhumuza qayıtmışıq. Savadlı gənclərimiz də çoxdur. Lakin məktəblərə pulun yol açması bəzi hallarda gənclər də elmə qarşı olan həvəsi, marağı öldürür və onsuz da «pul verib qiymət alacağam» sindromu onlarda yaranır. Azərbaycan bütün sahələrdə olduğu kimi elm, təhsil, mədəniyyət sahəsində də Qərbə inteqrasiya edir.

Məhz buna görə də elm, təhsil sahəsində də pulun kökü kəsilməlidir. Biz yüksək intelektual səviyyəli gənclər tərbiyə etməliyik. Bunu bizdən qədəm qoyduğumuz XXI əsrin (kompüter) elmi-texnikası tələb edir. Elmi pulla qiymətləndirmək mənəvi dəyərlərimizə bir zərbədir. Dahi şairimiz M.Fğzuli demişdir: «Elm pis adamların əlində hiylədərlik alətidir». Amandır, hiylədər şəxslərə bilik öyrətmə. Fəsad əhlinə elm öyrətmək xalqı qorumaq üçün cəlladın əlinə iti qılınc vermək deməkdir. (38,86) Lakin təssüflər olsun ki, bizdə bu fəsad əhlinə tez-tez rast gəlmək olur. Onlar gələcək nəsil-

lərin tərbiyəsinə pis təsir edə bilərlər. Xalq özü belə adamların geniş ictimaiyyətə yol tapmasına yol verməməlidir. Elm o vaxt keyfiyyətli olar ki, praktikada öz təcəssümünü tapa və xalqa, dövlətə xeyir verə bilər.

Bu gün respublikamızın sosial-iqtisadi və mənəvi həyatında böyük irəliləyişlər baş verir. Azərbaycanın dünyaya inteqrasiyası onun elm, təhsil və mədəniyyətinin inkişafına da ciddi təsir göstərir. Dövlət büdcəsindən iqtisadi sosial-mədəni tədbirlərə, o cümlədən təhsil, mədəniyyət, incəsənət, informasiya və s. 2005-ci ildə 2140,7 milyon manat, 2006-cı ildə isə 3790,1 milyon manat ayrılmışdır. Dövlət büdcəsinin gəliri isə 2005-ci ildə 2055,2 milyon manat, 2006-cı ildə 3868,8 milyon manat olmuş-dur. (6,102) Göründüyü kimi dövlətimiz təhsilə, elmə, mədəniyyətə yüksək qiymət verərək, sağlam düşüncəli, savadlı gənclərin hərtərəfli inkişafına hər cür şərait yaratmağa çalışır.

Hal-hazırda biz qloballaşma şəraitində yaşayırıq. Qloballaşma təhsilə də təsir göstərir. Bu mənada respublikamızda da qlobalaşma ilə bağlı təhsil, elm, mədəniyyət sahəsində milli maraqları nəzərə almaqla bir sıra işlər görülmüşdür. Məsələn, respublikamızda bakalavr, magistır təhsilinə keçmək, müasir dövrün tələblərinə uyğun olaraq kadrların hazırlanması, elm və mədəniyyətin inteqrasiyası bu sahədə dioloqların aparılması, gənclərimizin ideya-siyasi tərbiyəsində böyük rol oynayır. Bizim gənclərimizin Qərbdə, Şərqdə təhsil almaları çox yaxşı haldır. Lakin istər təhsil, istər mədəniyyətdə öz mənəvi dəyərlərimizin qorunub saxlanılması gənclərimizin ümdə vəzifəsi olmalıdır. Bu gün təhsilimiz milli mənafeyə xidmət etməlidir. bunu informasiyanın artım sürəti, texniki tərəqqi, Azərbaycanın dünyaya inteqrasiyası tələb edir.

Bu gün ictimai tərəqqinin gedişi göstərir ki, cəmiyyət müəyyən qanunauyğunluqlar əsasında inkişaf edir. Bu qanunauyğunluqlardan biri olan cəmiyyətin bütün sahələri bir-biri ilə qarşılıqlı vəhdət halında inkişaf edir. Cəmiyyətin sosial-iqtisadi həyatında baş verən dəyişikliklər, irəliləyişlər mənəvi mədəniyyətin inkişafına güclü təsir göstərir. Deməli, iqtisadi, sosial-siyasi həyatı mənəvi mədəniyyətdən ayırmaq olmaz. Mədəniyyət hər bir xalqın ümumi ictimai inkişaf səviyyəsini, onun nəyə qadir olduğunun göstəricisidir. Mədəniyyət insanların mənəvi həyatına təsir edir, ona yüksək bəşəri əxlaqi keyfiyyətləri aşılayır, bədii-estetik zövq verir, insanları mənəvi cəhətdən zənginləşdirir, əmək fəaliyyətinin yüksəlməsinə mühüm təsir göstərir. Milli təhlükəsizliyimizin qarantı kimi mənəvi mədəniyyətimizin qorunması, müharibə şəraitində olan bir ölkə üçün əsas məsələdir. Belə ki, hal-hazırda erməni qəsbkarları nəinki, torpaqlarımızı işğal edərək qədim mə-



dəni və memarlıq abidələrimizi dağıtmışlar, eyni zamanda bizim qədim musiqi alətlərimizə, muğam və musiqimizə yiyələnmək istəyərək, özününküləşdirirlər. Məsələn «Sarı gəlin» və digər müğənilərimizin oxuduqları xalq mahnılarını həyasızcasına öz ifalarında səsləndirirlər. Bu gün H.Əliyev Fondunun təşəbbüsü ilə təşkil olunmuş «Muğam müsabiqəsi» bir daha təsdiq edir ki, muğam bizimdir və dünya ictimaiyyəti dərk etməlidir ki, bu Azərbaycan xalqının qədim el sərvətidir. Heç bir düşmən qüvvə (ermənilər) bunu öz malına çevirə bilməz. Ermənilərin həyasızlığı o dərəcəyə çatıb ki, onlar nəinki musiqimizi eyni zamanda maddi məndəniyyətimizin mühüm sahəsi olan kulinariyamıza da yiyələnmək istəyirlər. Belə ki, Azərbaycanın qədim milli mətbəx xörəklərini də öz adlarına çıxardırlar. Respublikamız bununla bağlı dünya ictimaiyyətinə müəyyən məlumatlar çatdırmalı və təbliğat, təşviqat işini genişləndirməlidir.

Hal-hazırda biz qloballaşma şəraitində yaşayırıq. Xarici dövlətlər Azərbaycana kapital qoyuluşunu ilbəil artırırlar. Yaxşı olardı ki, bu gün respublikamızın yuxarı dairələri xarici ölkələrdə mədəni sərvətlərimizin təbliğini genişləndirəydilər. Bütün bunlarla bərabər, eyni zamanda xaricdə təhsil almağa gedən gənclərimiz də milli təhlükəsizliyimizin qarantı kimi diqqət mərkəzində olmalıdırlar. Belə ki, bəzi gənclərimiz müxtəlif dini təriqətlərin təsiri altına düşərək respublikamıza qarşı təbliğat törətməyə çalışırlar. Məsələn, Kolumbiyanın Farize şəhərində nəşr olunan «Al-Cumhuriya» qəzetində məlumat verilir ki, 2000-ci ildə ərazidə islam institutu istifadəyə verildikldən sonra keçmiş sovetlər ittifaqının müsəlman respublikalarından dini təhsil almaq üçün gənclərin sayı 2 dəfə artıb. Özbəkistan, Qazaxıstan, Türkmənistan və Azərbaycandan Sanaya dini bilik qazanmaq üçün gələnlərin sayı artır. Pakistan, Səudiyə Ərəbistanının, Birləşmiş Ərəb Əmirliklərinin, Misirin, İordaniyanın dini məktəblərində oxuyan azərbaycanlı tələbələrin taleyi hələlik qeyri-müəyyəndir. Onlar bu məktəblərdə oxuyarkən sözsüz ki, azərbaycanlı olduqlarını bir müddət unudurlar. Bəlkə də müəyyən dini qurumların təsiri altına düşərək onlara işləyir, öz simalarını itirirlər. Belə ki, vətənə qayıtdıqdan sonra islam mənəvi dəyərlərindən bəhrələnmək əvəzinə, onlar ya ayrı-ayrı dini sektarların təsiri altına düşür ya da ki, vəhabilərin nökərinə çevrilirlər. Bu son zamanlar respublikamızın Şimal bölgəsində onların göstərdikləri pozucu fəaliyyətlərində özünü biruzə verir. Vəhabi ərəblərinin (Orta Asiya, Azərbaycan, Rusiya Federasiyası ərəb şeyxləri «kiçik» «böyük» «nökər» sözlərini işlədirlər), Azərbaycanda nəzərdə tutduqları «kiçik nökərlər» xaricdə təhsil alıb Bakıya qayıdan azərbaycanlı tələbələrə aiddir. Bu «kiçik nökərlər» respubli-

kamızda tez-tez çaxnaşmalar salır, piket təşkil edir, dini ekstremist ədəbiyyatları təbliğ edir, xalqın zəif təbəqələrindən (xüsusilə gənclərdən) istifadə edərək onları öz təsirləri altına alırlar. Onlar bəzi hallarda silahdan istifadə edirlər. Bütün bunlar sübut edir ki, müxtəlif dini qurumların təsiri altına düşən gənclərimizin mənəvi-əxlaqi saflığı pozulur, vətənə, xalqa olan münasibəti düşmənçiliyə çevirilir. Onların həm gələcəyi puç olur, həm də ki, xalqın gözündən düşürlər. Onların öz əqidəsi, hər birinin özünə məxsus «mənəvi təkamül nəzəriyyəsi» var. Sözsüz ki, belə gənclərimiz respublikada gedən dini islahatlarla razılaşmayacaqlar. Onlar mənəvi dəyərlərimizə dini adət-ənənələrimizə, ziyarətgahlarımıza qarşı çıxırlar.

Amerikalı politoloq S.Xantinqton 1992-ci il aprelin 19-da Nyu-Yorkda nəşr edilən «Foreiqen affairs» Jurnalında yazırdı: «Mənim məlumatım Cənubi Qafqaz haqqında az deyil. Orada xüsusən bir çox regionun strateji maraq dairəsinə düşmüş Azərbaycanda yeni bir dini cəbhə yetişir. Təbii ki, hələ çoxları üçün nə görünür, nə də dərk olunur və bu cəbhənin əsgərləri bir qayda olaraq ölkədən kənar yerlərdə qurulmuş dini ocaqlarda, universitet və strateji mərkəzlərdə hazırlanır. Sivilizasiyaların toqquşmasında bu cəbhənin əsgərləri, sadəcə katalizator olmayacaq. Baxın və tanıyın. Sabahkı faciənizi dərk edin». (37,5) S. Hanqtinqton artıq bu günümüzdə baş verən faciələrdən danışır. Belə ki, bu həmin gənclərdir ki, artıq vəhabilərin təsiri altına düşərək respublikamızda kriminal hadisələrin baş verməsinə səbəb olurlar.

Nyu-Yorkda nəşr olunan «Nevstay» qəzeti 2002-ci ilin iyun nömrəsində qəzetin müxbiri Layema Plivenin bir yazışını dərc etdirmişdir. Müəllif yazır: Əbu-Bəkir məscidi islam terrorçu təşkilatları üçün ən gözəl, düşünülüb- daşınılmış «VERBOVKA» mərkəzidir. Lakin Bakı neft mərkəzidir. Azərbaycan dövləti və Qərb (xüsusən ABŞ) Azərbaycandakı bu radikalizmdən çox narahatdır. (18,46) Düzdür Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsində bu işlə əlaqədar məsələ qaldırıldı və bildirildi ki, milli təhlükəsizliyimizə bu ciddi ziyan gətirə bilər. İş məhkəməyə verilərək cinayətkar öz cəzasına çatdı. Bu misalları gətirməkdə məqsədimiz odur ki, milli təhlükəsizliyimizin qorunmasına ciddi zərbələr vuracaq heysiyyatsız, mənəviyyatsız gənclərin cəmiyyətdə yaşamağa hüquqları yoxdur. Onlara sərt cəza tədbirləri verilməlidir.

Son illər Respublikamızda təhsilin, elmin, mədəniyyətin səviyyəsinin yüksəldilməsi və onun Avropa standartların uyğunlaşdırılması sahəsində bir sıra irəliləyişlər əldə edilmişdir. Belə ki, Azərbaycan Avropa İttifaqı ilə iqtisadi, siyasi, milli təhlükəsizlik, o cümlədən elm, təhsil və mədəniyyət sa-



həsində əməkdaşlıq əlaqələrini genişləndirir. Aİ-Azərbaycan Fəaliyyət Planı, Azərbaycan və Aİ arasındakı əməkdaşlığın strateji hədəflərini əhatə edən siyasi bir sənəddir. Beş il müddəti əhatə edən bu sənəd 2004-cü ilin may ayından imzalanmışdır. Onun həyata keçirilməsi tərəfdaşlıq və əməkdaşlıq sazişinin (TƏS) müddəalarının icrasına yardım edəcək və Azərbaycanın Avropaya elm, təhsil və mədəniyyət sahəsində inteqrasiyasını dəstəkləyəcəkdir. Sənəddə təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi haqqında müddəalar aşağıdakılardır:

Azərbaycanın islahatlar proqramı çərçivəsində təhsil və təlim sisteminin islahatı və təkmilləşdirilməsi.

Kifayət qədər maliyyə vəsaiti ayırmaqla, təhsil üçün hüquqi bazanı hazırlamaqla gender, məsələlərinə yer ayırmaqla, sözügedən sektorda şəffaflığı və məsuliyyəti təmin etməklə, peşə təhsili və təlim də daxil, olmaqla təhsil və təlim sistemlərinin islahatını aparmaqla, uzunmüddətli təhsili təşviq etməklə və xüsusilə də 2003-2013-cü illər üzrə milli təhsil islahatı strategiyasının həyata keçirilməsi vasitəsilə Minilliyin İnkişaf Məqsədlərinə uyğun olaraq hamı üçün davamlı olaraq keyfiyyətli təhsil alma imkanının təmin edilməsi;

- TEMPUS proqramının təklif etdiyi vasitələrlə akkreditasiya sisteminin və ali təhsil müəssisələrində idarə etmənin təkmilləşdirilməsi;
- Boloniya Prosesinin prinsiplərinə uyğun olaraq ali təsil sektorunda islahatların aparılması, eləcə də siyasətin hazırlanması və həyata keçirilməsi üçün yerli imkanların gücləndirilməsi;
- TEMPUS proqramı vasitəsilə ali təhsildə islahatın təşviq edilməsi;
- TEMPUS proqramının təklif etdiyi vasitələrdən istifadə etməklə, təhsil və təlim sahəsində keyfiyyətin təmin edilməsinə cəlb olunmuş müəssisə və təşkilatların keyfiyyət imkanlarının gücləndirilməsi; (10,1)

Qeyd etmək lazımdır ki, son bir neçə ildə Azərbaycanla Asiya-Pasifik regionu arasında müxtəlif sahələrdə münasibətlər inkişaf etməkdədir. Qərb və Şərqin qovşağı kimi Azərbaycan Avropa və Amerikaya inteqrasiya etməklə, Asiya-Pasifik ölkələri ilə də əlaqələrini genişləndirir.

Belə ki, bu sahədə ABŞ Dövlət Departamentinin, Avropa Birliyinin, Avropa Şurasının, BMT-nin, NATO-nun və digər inkişaf etməkdə olan ölkələrin təhsilin həm elmi, həm tədris, həm idarəçilik, həm də infrastruktur bazasının inkişafını dəstəkləyən çoxsaylı proqramları mövcuddur. Həmin proqramlardan universitetlər həm fərdi şəkildə, həm də konsersium yaratmaq yolu ilə eləcə də öz əməkdaşlarını ayrı-ayrı proqramlara cəlb etmək yolu ilə yararlana bilirlər. Məsələn. Azərbaycan Texniki Universiteti,

Azərbaycan Dillər Universiteti TEMPUS layihəsi çərçivəsində fəaliyyət göstərir. Dillər Universiteti ABŞ Dövlət Departamentinin xətti ilə həyata keçirilən proqramlardan, İtaliya və İspaniya hökumətlərinin ayırdığı maliyyə dəstəyindən istifadə edərək bir neçə irimiqyaslı layihələr həyata keçirmişdir.

Qeyd etmək lazımdır ki, təhsil müəssisələrinin həm Qərb, həm də Şərqi-Asiya istiqamətində inteqrasiyası gənclərimizə müxtəlif dəyərləri-tolerantlıq və digər xalqların dilini, mədəniyyətini öyrənmə arzusunu aşılayır. Respublikamızın universitetlərinin Qərblə yanaşı, Şərq ölkələri ildə də sıx əlaqələr qurması, öz tələbələrini hər iki dünyanın dəyərləri ilə tanış etməsi güclü, ləyaqətli və vətənpərvər, peşəkar, elitar mədəniyyətə, yüksək zövqə malik Azərbaycan gəncliyinin formalaşmasında mühüm rol oynayır. Göründüyü kimi son illər respublikamızın Qərbə inteqrasiyası təhsilin beynəlmilləşməsinə və qlobal rəqabət şəraitində intelektual səviyyəsinin daim artırılmasına geniş imkanlar yaradır. Məhz gündəmdə duran ümdə məsələlərdən biri, müasir dünyada informasiya-kommunikasiya texnologiyasının geniş vüsət aldığı bir vaxtda azərbaycanın bu yarışda iştirak etməsi zərurətini yaradır. Bildiyimiz kimi təhsil və elm lazimi səviyyədə olmasa, milli inkişafın prespektivlərindən Azərbaycan dövlətçiliyinin davamlı inkişafından danışmaq olmaz. Məhz millətin intelektual bazisinin yeniləşdirilməsi və genişləndirilməsi üçün onun maddi, mənəvi və iqtisadi durumunu yüksəltmək lazımdır.

## § 2.7 İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ

Milli təhlükəsizlik istiqamətində dövlətin daxili siyasətinin apardığı mühit sahələrdən biri də informasiya təhlükəsizliyi siyasətidir. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Respublikamızda informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması üçün dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir. İnformasiyanın çatdırılmasında KİV böyük rol oynayır. KİV siyasi proseslərin tərkib hissəsi olmaqla sosial-siyasi hadisələrin mərkəzində durur. Siyasi hadisələrdə onun fəaliyyəti çoxcəhətlidir. O, həm təşkilati, həm təbliğatı, həm də maarifçilik vəzifələrini yerinə yetirir. İnformasiyanın düzgün



verilməsi şəxsiyyətin siyasi şüurunun və siyasi mədəniyyətinin formalaşmasına müsbət təsir göstərir. İnformasiyanın dəqiq verilməsi bəzi hallarda bir dövlətin ölümlə-dirim məsələsini həll etmiş olur. Məsələn, 1938-ci ildə Staliṅə dəqiq məlumat göndərilmişdir ki, 1941-ci ildə Almaniya Sovetlərə qarşı müharibə edəcəkdir. Lakin İ.V.Stalin buna inanmadı və nəticədə qəflətən (1941-1945-ci illər) müharibəsi başlandı. Qeyd etmək lazımdır ki, informasiya ölkənin hərbi-siyasi və iqtisadi gücünü tənzimləyən mühüm məlumatlardır. İnformasiya bəzi hallarda xeyir, bəzi hallarda isə ziyan gətirə bilər. İnformasiya vasitəsilə hər bir dövlətin, onun daxili strukturu, yeritdiyi siyasət haqqında məlumat almaq olar. Həqiqət və dəyərli informasiya kimdədirsə, hakimiyyətdə ondadır. Məsələn, Vaşinqton Azərbaycanla informasiya müharibəsini udmaq üçün «Carnivore» deyilən elektron kommunikasiya və kompüter şəbəkəsindən istifadə edir. Bu şəbəkə vasitəsilə ABŞ-ı Azərbaycanın istər daxili, istərsə də xarici siyasəti, dövlət quruluşu haqqında məlumat toplayır. Ayrı-ayrı nazirliklərin, dini idarələrin, diaspor təşkilatlarının iş prinsipləri haqqında məlumatlandırılır. Hər bir dövlət bu və ya digər dövlət haqqında informasiya almaq üçün kompüter şəbəkəsi yaradır. Məsələn, Rusiya Federasiyası «SORM» və «Sənədli elektro əlaqə» xətti, Yaponiya «Müvəqqəti poçt qutusu» və s. adı ilə həyata keçirilir. Yerevan, Tehran, Ankara, Azərbaycan istiqamətində öz informasiya və müharibələrini hərbi kommunikasiya sistemində aparır. (79,22)

Azərbaycanda MTN-ı xarici dövlətlərlə informasiya mübadiləsi aparır, lazımı məlumatlar alır. İnformasiyalar bəzi hallarda böhtan xarakteri daşıyır. Məsələn, «Astsax» telekanalında çıxış edən ABŞ konqresinin Beynəlxalq əlaqələr və İnsan Hüquqları Komisiyasının sədri Kristofer Smit Azərbaycanı ittiham edir:

«Azərbaycan milli maraqları, öz fikri, məramnaməsi olmayan bir respublikadır. Azərbaycan liderlərilə (siyasi partiya liderlərlə) etdiyim söhbətlərdə və keçirdiyim görüşlərdə bunun şahidi oldum. Onlar Qarabağ haqqında danışmadılar, Qarabağ haqqında düşünmədilər» (12,2) bu da yalandır. Respublikamıza, onun siyasi liderlərinə qarşı atılmış növbəti böhtandır, iftiradır. Göründüyü kimi xaricin informasiya agentləri respublikamıza qarşı yalan məlumatlar uydurmaqla məşğuldur. Bu da ki, bizim milli təhlükəsizliyimizə zərbə endirə bilər. Azərbaycanın Milli Təhlükəsizlik konsepsiyasında deyilir: «Dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və mühüm məlumatlar toplanır». (2,3)

İngilis diplomatı yazıçı Volter Peter «Siyasi portretlər» əsərində yazır: «O dövlətdə ki, şayələr, yalanlar baş alıb gedir, orada həqiqət axtarmayın. Çünki bütün bunlara imkan və şərait yaradanlar var (maliyyə mənbələri: banklara, şirkətlərə, yığılan çirkli və haram pullardır). O müxalifətdə ki, yalan və uydurmalar üçün düşünənlər, proqram yazanlar çoxalır, onlarda səxavət və dəyanət axtarmayın, milli qürur axtarmayın. Yalan və şayələr həm dövləti, həm iqtidarı, həm də müxalifəti və nəhayət xalqı, cəmiyyəti parçalayıb, nəsillərə, tayfalara ayırır». (104,28)

Yalan və şayələrə görə müxtəlif partiyalar xaricdən xeyli miqdarda qrant alırlar. Məsələn, Gürcüstanda yalan məlumatların hazırlanmasına 147 min, Ermənistanda 176 min, Azərbaycanda 210 mil dollar xərclənibdir. (97,3)

Həqiqətən də yalan və uydurma xəbərlər həm dövlətə, həm də onu təmsil edən qüvvələrə xeyir gətirməz. Dövləti daxilindən parçalayır. Buna görə də qərəzli məlumatlar iqtisadi təhlükəsizlik strategiyasını, beynəlxalq neft müqavilələrini, Neft Fondunun strukturlarını, daxili və xarici siyasətimizi təhlükə altına ala bilər. Milli təhlükəsizliyimizin əsas qayəsini milli maraqlar təşkil edir. A.Volfers yazır: «Milli maraqlar, praktiki olaraq milli təhlükəsizliyin sinonimidir». (106,151)

Milli maraqlar- millətin mənafeyini, müdafiə edən mədəni və genetik ənənələrə əsaslanaraq, dünya miqyasında onun birliyini ifadə edir. Heç bir dövlət öz milli maraqlarını başqa xalqlara zorla təlqin etdirməməlidir.

İlk dəfə «milli maraqlar» terminini siyasətə gətirən Amerika tədqiqatçısı, filosof C.Smit olmuşdur. O, yazır: «Milli maraqlar o vaxt güclü və məqsədli olur ki, o əsaslı məntiqli və əhəmiyyət kəsb edən məlumat və informasiyalara söykənmiş olsun». (101,49) O, informasiyanı milli maraqların və təhlükəsizlik konsepsiyasının mayası adlandırır. Digər politoloq R.Keohan isə qeyd edərək yazır: «Ərazi bütövlüyünün saxlanılması, müstəqil siyasətin yeridilməsi, azadlıq … bütün bunlar milli maraqların resurslarıdır. Bu resursları tənzimləyən isə informasiyalardır. Əgər bir ərazidə və yaxud bir regionda məlumat satılırsa, informasiya oğurlanırsa, onda milli maraqlar üçün dövlətin yaşaması üçün saydığım komponentlər arasında tarazlıq pozulur, boşluq yaranır. Nəticədə bu boşluğu yalan və şayələr doldurur. Yalan və şayələrin tüğyan etdiyi bir cəmiyyət demokratiyanın ən iyrənc fəslini yaşayır». (56,19) Məhz bu mənada respublikamızın qəbul etdiyi Milli təhlükəsizlik konsepsiyasında deyilir: «Kəşfiyyat və əks kəşfiyyat qabiliyyətinin uzlaşdırılması və səmərəliyinin artırılması, habelə məxfi informasiyaların mühafizə olunmasının koordinasiyası milli təhlükəsizlik sektorunun bu sahəsində əsas məsələlərdəndir. Azərbaycan respublikası öz milli kəşfiyyat və əks kəşfiyyat qabiliyyətini artıracaq və dövlət sirrinə aid edilmiş məlumatların mühafizəsi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsini davam etdirəcəkdir». (2,7)



Həqiqətən də respublikamızda milli təhlükəsizlik konsepsiyasının müddəalarına uyğun olaraq informasiya təhlükəsizliyi siyasəti fəal surətdə həyata keçirilir. Belə ki, MTN-nin əməkdaşlarının çevikliyi nəticəsində dövlətçiliyimizə əngəl törədə biləcək bütün yalan və böhtanların qarşısı vaxtında alınır. Məsələn, 2001-ci ildə MTN-ə belə bir informasiya çatdırılır ki, Azərbaycanda avarları sıxışdırırlar, Şeyx Şamilin abidəsinin azərbaycanlılar tərəfindən partlandılmasına cəhd edilmişdir. (11,26) Bütün bunlar göründüyü kimi dövlətçiliyimizə zərər gətirmiş olardı.

ABŞ-ın Federal Tədqiqat Bürosunun mütəşəkkil cinayətkarlığa qarşı mübarizə şöbəsinin başçısı polkovnik Tomas Fuentes belə\ bir təklif irəli sürür ki, Xəzəryanı ölkələrdə, o cümlədən Azərbaycanda strateji mərkəzlərin məxfilik prinsipi öyrənilsin. (Bura prezident sarayı, güc nazirləri, xüsusi xidmət departamentləri idarələri, komitələri, diplomatik korpuslar, neft şirkətləri daxil edilir). Aparılan araşdırmalar belə bir nəticə verir: Qazaxıstanda güc nazirlərində məxfilik prinsipinə 26%, dini ekstremizm, islam və xristian fundamentalizmilə bağlı informasiyaların məxfilik prinsipinə 11% əməl olunur. Bu rəqəm Özbəkistanda uyğun olaraq 28 (9%), Türkmənistanda 34 (14%), Ermənistanda 33,6 (9%), Gürcüstanda 14.6 (7%). Azərbaycanda isə 21 (3%) təşkil edir. (57,22)

Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, xüsusilə neft və neft məhsullarına tələbatın artması, dünya ictimaiyyətinin bu ölkəyə marağının yönəlməsinə səbəb olur. Onlar informasiya toplamaq üçün məxfi yollarla buraya gəlirlər. Onlar Azərbaycanın neft və ordu quruculuğu, ümumi siyasi və iqtisadi strateji məsələləri haqqında informasiyalar toplayır və bəzi hallarda ölkəmizdə sabitliyi pozmaq məqsədilə ixtişaşlar törətməyə çalışırlar. ABŞ kəşfiyyat admiralı Tomas Uilson yazır: «Kəşfiyyat materiallarını tapşıranda icraçılara fikir verin. Kəşfiyyat özü məsuliyyətdir. İnformasiyanı məsuliyyət hiss edən adamlara tapşıranda o informasiyanın qiyməti iki dəfə artır. MDB ölkələrində, xüsusən Cənubi Qafqaz regionlarında bu məsələ qaranlıq qalır». (82,3) Bütün dünya informasiyalarla hərəkət edir və hakimiyyətlər onun üzərində qurulur. Bu gün, XXI əsrdə ölkəmizdə milli təhlükəsizlik informasiyasında demokratik prinsiplərin yerinə yetirilməsi regionda sülh və sabitliyin təmin olunması deməkdir. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında deyilir: «İnformasiya təhlü-

kəsizliyini tənzimləmək məqsədilə dövlət sirri təşkil edən məlumatların mühafizəsinin hüquqi mexanizmi təkmilləşdirilir və informasiya azadlığı təmin olunur. Hüquqi və inzibati mexanizmlər vətəndaşların hüquqlarını və dövlət strukturlarının fəaliyyəti üzərində demokratik nəzarəti təmin edəcəkdir». (2,7)

Bu gün informasiya təhlükəsizliyi bütün dünyanı bürümüşdür. Çünki yaşadığımız kompüter əsri bəzən yalan və ya doğru məlumatlarla insanların psixikasına təsir edir, onların sağlamlığına zərər vurur. Bəzən bir yalan məlumat bu və ya digər dövlət, onun sosial-siyasəti haqqında yanlış təsəvvür yaradır.

Bu mənada beynəlxalq informasiya təhlükəsizliyi günü 1988-ci ilin 30 noyabrından qeyd olunur. Həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olunmaqla ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompüter virusu meydana gəldi və nəhəng itgilərə səbəb oldu. Yaradıcısının adı ilə Morris «Soxulcanı» adlandırılan bu virusun vurduğu ziyan təxminən 100 milyon dollar həcmində qiymətləndirilmişdir. Bütün bunlardan sonra dünya ictimaiyyəti informasiya təhlükəsizliyi haqqında düşünməyə başladı və bir sıra tədbirlər həyata keçirməyə başladı. Belə ki, 1988-ci ildən etibarən kompüter avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabr beynəlxalq informasiya təhlükəsizliyi günü elan etdi. Ona görə ki, informasiya təhlükəsizliyi bir ölkəni yox, bütün bəşəriyyəti təhdid edən problemdir.

Assosasiya bu üsulla dünya ictimaiyyətinə kompüter sistemləri və şəbəkələrində informasiyanın etibarlı mühafizəsi zərurətini xatırlatmaq, aparat və proqram vasitələri istehsalçılarının və istifadəçilərinin diqqətini təhlükəsizlik problemlərinə yönəltmək məqsədi güdürdü. Artıq dünyanın 50-dən artıq ölkəsi bu təşəbbüsə qoşulmuşdur.

İnformasiya təhlükəsizliyi dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Biz informasiya vasitəsi ilə bütün dünyada gedən proseslərin şahidi oluruq. İnformasiya sülhün, təhlükəsizliyin və sabitliyin təmin olunmasında demokratiyanın gücləndirilməsində mühüm rol oynayır. İnformasiya ilə respublikamızda baş verən hadisələrlə cinayət və terror məqsədli görüləcək işlərlə onların qarşısının alınması, söz azadlığı haqqında müddəalara əməl olunması və s. ilə bağlı taleyüklü məsələlərlə məlumatlanırıq. İnternet də terrorizmin bütün formaları və təzahürlərinə qarşı mübarizənin vacibliyi, dövlətçiliyimizə əngəl törədə biləcək hər hansı məlumata qarşı dözümsüzlüyü işıqlandırılır.



Bildiyimiz kimi müxtəlif informasiya və telekommunikasiya sistemləri cəmiyyətin iqtisadi, siyasi həyatını, elmini, təhsilini və dövlətin inkişaf səviyyəsini əhatə edir. Buna görə də informasiyadan cinayətkar qruplar bəzi hallarda öz məqsədləri üçün də istifadə edirlər. Bu mənada respublikamızın milli maraqlarına uyğun olaraq «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər) ölkə başçısı İ.Əliyev tərəfindən 2005-ci ilin oktyabrında təsdiq edilmiş Elektron Azərbaycan «Dövlət proqramında nəzərdə tutulan fəaliyyət planı» və vəzifələri müəyyən edilir. Elektron Azərbaycan Dövlət proqramın da milli informasiya fəzasının təhlükəsizliyinin beynəlxalq tələblərə uyğun qurulması və idarə olunması sisteminin yaradılması, eyni zamanda milli standartlara uyğun proqramların yaradılmasını nəzərdə tutan xüsusi müddəalar vardır. Respublikamızda informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasının yaradılması və inkişaf etdirilməsi üçün bir sıra qanun və normativ aktlar, sərəncamlar qəbul edilmişdir.

«İnformasiya, inforsiyalaşdırma və informasiyanın mühafizəsi haqqında», «Dövlət sirri haqqında», «Elektron sənəd və elektron imza haqqında», «Elektron ticarət haqqında», «İnformasiya əldə etmək haqqında», «Telekommunakasiya haqqında» qanunlar qəbul edilmiş, kompüter cinayətlər ilə bağlı məsələlər Azərbaycan Respublikası Cinayət-Prosessual məcəlləsində öz əksini tapmışdır. (3,4)

Araşdırmalar göstərir ki, informasiya təhlükəsizliyinin əsas mənbəyi insanlardır. Çünki yalan və şaiyələri informasiya orqanlarına çatdıran məhz insanlardır. Bu mənada respublikamızdakı yalan və şayələrin mənbələrini təsdiq edən və araşdıran «Post-Sovet prospekts» bülleteni (Vaşinqtondakı Beynəlxalq Araşdırmalar və Strateji tədqiqatlar Mərkəzi) 2004-cü il mayın 7-də yazır: Keçid dövrünü yaşayan MDB ölkələri üçün sağ ekstremist «azarı» təbiidir. Lakin onlara imkan vermək lazım deyil ki, birləşsinlər. Hər hansı bir siyasi məsələni müzakirə etsinlər. Onlar dar düşüncəli, məhəlli fikirli adamlardır. Belə adamlar qruplara ayrılır: birincilər yalan ötürür, ikincilər bu yalanı maliyyələşdirir, üçüncülər isə onu yayırlar. MDB ölkələrinin bir qismi, xüsusən Cənubi Qafqaz regionları bu kökdədir. Mənim məlumatıma görə, təkcə Tiflisdə 71, Yerevanda 104, Bakıda isə 151 yalan və şayə mənbəyi var. (85,10)

Bu yalan və şayələrin əksəriyyəti ölkənin iqtisadi infrostrukturlarını əhatə edir. Respublikamıza qarşı yönəldilmiş böhtan xarakterli yalanlar ölkənin daxili və xarici siyasətini təhlükə altında qoyur. Ölkəmizə qarşı qə-

rəzli xarakterli yalanlar, böhtanlar sözsüz ki, onun əlverişli bir iqlim qurşağında yerləşdiyindən, zəngin yeraltı, yerüstü təbii sərvətlərə malik olduğundan irəli gəlir. Son illər müstəqillik qazanan, suveren dövlət olan Azərbaycanın dünyaya inteqrasiyası gözü götürməyənlərin sayını artırır. Bu sahədə müntəzəm olaraq Rusiya, Vaşinqton, İran hər an Azərbaycana diversiya xarakterli məlumatlar yayır, böhtanlar atırlar. Bu dövlətlər millətlər arasında çaxnaşmalar yaratmaq, onları bir-birinə qarşı qoymaq istəyirlər. Təsadüfi deyildir ki, ermənilərə maliyyə yardımı göstərərək onları dəstəkləyən də bu, dövlətlərdir. Belə ki, işğal altında olan Qarabağ torpaqlarında RF-dan istefaya çıxmış 9 kəşfiyyat zabiti, İrandan 11, Bolqanstandan 5, Çindən 3 hərbiçinin gəlməsi erməni kütləvi informasiyalarının nəzərindən qaçmayıb. (79,74)

Ümumiyyətlə qeyd etmək lazımdır ki, böhtan xarakterli informasiyalar milli qüruru olan insanların əsəblərinə toxunaraq, onların səhhətində problemlər yaradır. Milli təhlükəsizliyimizin qarantı olan informasiya təhlükəsizliyi milli şüurun, milli mənlik şüurunun inkişafına təkan verir. Respublikamıza qarşı yayımlanan böhtan xarakterli məlumatlar sözsüz ki, milli mənliyi, vənətpərvərliyi olan hər bir azərbaycanlıda nifrət hissi oyatmalıdır. Bu bizim qanımızda, canımızda olmalıdır. Biz həm daxili, həm də xarici düşmənlərimizə qarşı mübarizədə bir olmalıyıq. Alınan informasiya məlumatlarından aydın olur ki, işğal altında olan Kəlbəcər, Laçın rayonlarına Hindistandan xeyli işçi qüvvəsi gətirilmişdir. Onlar Kəlbəcərin qızılını, Laçının qədim ağaclarını kəsib aparırlar.

Bildiyimiz kimi müasir dövr kompüter əsridir. Biz internet vasitəsilə dünyanın istənilən yeri ilə çox qısa zaman ərzində informasiya əlaqələri yarada bilirik. İnformasiya əlaqələri dövlətlər arası münasibətlərin tənzimlənməsində elmi biliklərin yayılmasında, fərdlərarası ünsiyyətin təşkilində böyük rol oynayır. Artıq qloballaşma ilə bağlı dövlət sərhədləri arasındakı sədlər görünmür. Orta əsrlərdə nə ekoloji, nə də informasiya təhlükəsizliyi problemləri aktual deyildir. Haz-hazırki dövrümüzdə isə KİV cəmiyyətin hər bir təbəqəsinə təsir edə bilir. Burada bəzi hallarda informasiya xarakterli məlumatlar nəinki dövlətçiliyimizə eyni zamanda insanların sağlamlığına, psixoloji durumuna təsir edə bilir. Bəzən bu cür informasiyalar cəmiyyətin sosial sistemində böyük dəyişikliklərə səbəb olur. Buradan isə sosial sistemlərin təhlükəsizliyinin təmin edilməsində informasiya təhlükəsaizliyinin rolu məsələsi meydana çıxır. İnformasiya təhlükəsizliyi isə KİV sistemində informasiya dinamizmi anlayışını daxil etməyi zəruri edir. İnformasiya dinamizmi konkret cəmiyyətin struktur özəlliklərinə uyğun gəlməyəndə effektsiz olur. Müasir informasiya savaşında cəmiyyətin təsir edilən sahəsində müqavimət gücü böyükdürsə, istənilən dinamizmin səmərəsi az olacaq. Cəmiyyətin psixoloji və mental hisslərinə az təsir belə sistemi sıradan çıxara bilər. Qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyi cəmiyyətin böyük həyatı ilə bağlı olan cəhətlərin nəzərə alınmasını tələb edir. Bu mənada informasiya təhlükəsizliyi dövlət təhlükəsizliyi, o cümlədən siyasi təhlükəsizliklərlə sıx bağlıdır. Bəzi hallarda məsələn, 90-cı illərdə Azərbaycanda dövlət çevrilişi ilə bağlı KİV-i çoxlu sayda təxribat xarakterli informasiyalar yayırdılar. Həmin informasiyalar sözsüz ki, mövcud hakimiyyət haqqında xalq kütlələrində yanlış təsəvvür yaradırdı. Burada əsas hədəf dövlətçiliyimizin təhlükəsizliyidir. Dövlətçiliyimizin təhlükəsizliyi isə cəmiyyətin təhlükəsizliyindən qaynaqlanır. Məsələn, internetdə təxribat xarakterli materiallar çıxır. Azərbaycanlıların siyasi mədəniyyəti aşağıdır və s. səpkidə bu kimi sözlər sözsüz ki, respublikamıza onun xalqına qarşı təhqirdir. (24,203) Buradan belə çıxır ki, dövlətçiliyimizin, milli mənəvi dəyərlərimizin, mədəniyyətimizin yad ünsürlərdən qorunmasında ölkəmizdə informasiya təhlükəsizliyinin böyük rolu vardır. Dövlətçiliyi qorunya bilmək millətin tarixini, mənəvi dünyasını, əxlaqını və nəhayət bütövlüyünü qorumaq deməkdir.

Milli mənəvi dəyərlərimizə toxunaraq, Qərb mətbuatında Məhəmməd Peyğəmbərin karikaturasının verilmə\si sözsüz ki, bütün müsəlman aləminin çaxnaşmaya salmışdır. Bütün bunlar göstərir ki, söz azadlığının da həddi vardır. Belə məlumatların verilməsi həddin aşdıqda Şərqlə Qərb arasında ziddiyyətlər yaradır.

Müasir dövrümüzdə, bu kimi qlobal xarakterli informasiylar, dövlətlər, xalqlar arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb olur. Məhz böuna görə də informasiya təhlükəsizliyi müasir Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi ilə bağlıdır.

*İnformasiya təhlükəsizliyindən danışarkən kompüterlər vasitəsilə törə*dilən cinayətkarlıqdan danışmamaq qeyri-mümkündür. Məsələn, 1996-cı il 11 sentyabrın internet sistemi ilə qiymətli kağızların katirovkasını yayan İnfoart sisteminin istifadəçiləri ekranda iqtisadi informasiya əvəzinə erotik məzmunlu şəkillər almışdılar. (22,3)

Qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyi sahəsində baş verən cinayət hadisələri haqında xeyli sayda misal gətirmək olar. Lakin göstərmək lazımdır ki, yuxarıda misal gətirdiyimiz yalnız rəsmi qeydiyyata alınan cinayətlərdir və bu sahədə qeydə alınmayan cinayətlərin sayı daha çoxdur. ABŞ kompüterləri Müdafiə İnstitutu 1996-cı ildə Federal İstintaq Bürosu

ilə birgə kompüter cinayətkarlığının yayılması və onun qarşısının alınması ilə bağlı tədqiqatlar aparmışlar. Sorğularda 428 təşkilat iştirak etmişdir. Bu təşkilatların 42%-i iki ay ərzində kompüter sistemlərindən qanunsuz istifadənin bu və ya digər formasına məruz qaldıqlarını qeyd edirdilər. İnternet şəbəkəsindən informasiya sistemlərinə icazəsiz müdaxilələr də geniş yayılmışdır. Belə ki, bəzi hallarda internet saytlarında kəşfiyyat xarakterli materiallar dərc olunur. Bundan başqa ölkənin iqtisadi-siyasi, hərbi vəziyyəti ilə bağlı yalan informasiyalar da verilir. Qeyd etmək lazımdır ki, belə informasiyalar geniş xalq kütlələrində çaşqınlıq yaradır. lakin elə informasiyalar da vardır ki, onu heç internetdə vermək düzgün deyildir. V.Putin (Rusiya Federasiyasının keçmiş prezidenti demişdir: Kimin çox informasiyası varsa, əsl kəşfiyyat və həqiqət də ondadır). (79,377)

Göründüyü kimi elə məsələlər var ki, onu internetə vermək olmaz. Çünki bununla dövlətə xəyanət etmiş olursan. Onu məxfi saxlamaq lazımdır.

Qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyi sahəsində cinayətlərlə mübarizə milli səviyyədə aparılmaqla yanaşı, həm də beynəlxalq səviyyədə həyata keçirilir. Bunu Avropa Şurası tərəfindən 27 aprel 2000-ci ildə qəbul edilmiş «Kompüter informasiyası sahəsində cinayətlər haqqında» Konvensiya təsdiq edir. Bu Konvensiya kompüter informasiyası sahəsində aşağıdakı cinayətlərə görə məsuliyyət nəzərdə tutulur:

1. Məlumata qanunsuz giriş buna hüququ olmadan bütün kompüter sisteminə və ya onun bir hissəsinə qəsdən daxil olma. Bu cinayət kompüterdəki məlumatın dəyişdirilməsi və ya digər cinayətkar məqsəd üçün təhlükəsizlik tədbirlərinin pozulması ilə bağlı ola bilər.

2. Məlumatın ələ keçirilməsi – ictimai yayım üçün nəzərdə tutulmayan məlumatın texniki vasitələrdən istifadə etməklə bilavasitə kompüter sistemində və ya bu cür məlumatı daşıyan elektromaqnit şüalar vasitəsilə qəsdən qeyri-qanuni ələ keçirilməsi.

3. Məlumatın modifikasiyası – kompüterdəki məlumatların qəsdən qeyri-qanuni zədələməsi, silinməsi, dəyişdirilməsi və ya dağıdılması, yəni onların kompüter sisteminə daxil olmasının qeyri-mümkün edilməsi başa düşülür.

4. Sistemdə modifikasiya – kompüterdəki məlumatların qəsdən qeyri-qanuni ötürülməsi, daxil edilməsi, zədələnməsi, silinməsi, yararsızlaşdırılması, dəyişdirilməsi və ya dağıdılması yolu ilə kompüter sisteminin fəaliyyətinə ciddi manelərin yaradılması.

5. Qeyri-qanuni qurğuların yaradılması



a) kompüterdəki məlumata qanunsuz giriş məqsədi üçün yaradılan və ya bu məqsədin həyata keçirilməsi üçün uyğunlaşdırılan kompüter proqramlarından ibarət olan qurğuların;

b) məlumata qanunsuz giriş, məlumatın ələ keçirilməsi, məlumatın və ya sistemin madifikasiya məqsədi ilə kompüter sisteminə və ya onun bir hissəsinə giriş hüququ verən parollarının, giriş kodlarının və ya bu kimi məlumatların – qanunsuz hazırlanması, satılması, istifadə olunması, yayılması.

BMT tərəfindən hazırlanmış «Kriminal polisin beynəlxzalq təhlili – kompüterlərdən istifadə olunması yolu ilə törədilmiş cinayətlərin qarşısının alınması və onlara nəzarət edilməsi üzrə dərslik» də kompüter informAsiyası sahəsində cinayətləri beynəlxalq qlobal problem adlandırırlar. Bu sənəddə göstərilir ki, «qanunvericilik və məhkəmə sistemi texniki proqresin inkişafı ilə ayaqlaşa bilmir. Bu sahədə çox az bir sayda dövlətlərdə adekvat qanunvericilik mövcuddur, lakin onlarda da hüquqi və hüquqi tətbiqedici çatışmazlıqlara rast gəlinir». (58,230)

Göründüyü kimi informasiya təhlükəsizliyi sahəsində törədilən cinayətlər və onlarla beynəlxalq səviyyədə mübarizə milli təhlükəsizliyimizin ümdə vəzifələrindən biridir.

## § 2.8. ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ

Milli təhlükəsizliyin əsas daxili siyasət vasitələrindən biri də respublikamızda enerji təhlükəsizliyinin həyata keçirilməsidir. Xəzərin Azərbaycana mənsub sektorunda yerləşən mövcud neft və qaz yataqlarının, habelə perspektivli strukturların işlənməsi, istismarı, əsas neft və qaz ixrac boru kəmərlərinə, terminallarına olan təhdidlərin aşkar edilməsi, qiymətləndirilməsi və adekvat tədbirlərin görülməsi respublikamızın milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindən biridir.

«Bakı-Tibilisi-Ceyhan» əsas neft ixrac boru kəməri və Cənubi Qafqaz «qaz boru» kəməri Xəzər dənizi ilə Qara dəniz və Aralıq dənizi arasında enerji nəqlinin, Xəzəryanı ölkələri, geostrateji və iqtisadi maraqlarını təmin edən mühüm obyektlərin təhlükəsizliyinin qorunması və bununla əlaqədar artan risqlərin idarə olunması və azaldılması Azərbaycanın milli təhlükəsizliyinin ən vacib vəzifələrindən biridir.

2006-cı ildən Bakı-Tiblisi-Ceyhan neft ixrac boru kəmərinin istifadəyə verilməsi dünya bazarında Azərbaycan neftini məhşurlaşdırdı. Lakin bununla yanaşı, neftin Türkiyənin Ceyhan limanına, qazın isə Türkiyənin

Ərzurum qaz terminallarına çıxaran boru kəmərlərinin keçdiyi ərazilərdə müəyyən təhlükəsizliklər yaradır. Belə ki, Azərbaycanın Türkiyə ilə bu cür əlaqəsi bir çox dövlətləri, xüsusilə Rusiya, Ermənistan və İranı çox qıcıqlandırır. Xəzəryanı ölkələrdəki enerji yanacaq ehtiyatları, xüsusilə «Bakı Ceyhandan gələcək gəlir bu dövlətləri çox narahat edir. Buna görə də bu kəmərlərə təhlükənin olacağına inanmamaq qeyri-mümkündür. İran və Rusiya Ermənistanın ən yaxın silahdaşıdır. Təsadüfi deyildir ki, Rusiyanın Gürcüstandan çıxartdığı bütün hərbi bazası Ermənistanda yerləşdirilmişdir. İran isə Yaxın Şərqlə-Orta Asiya dövlətləri arasında körpü rolunu oynamağa can atır. Rusiyanın isə Dağlıq Qarabağda iki strateji marağı vardır. Belə ki, bir tərəfdən Türkiyə ilə NATO-nun və digər ölkələrin (Türkiyəni ayrılıqda götürürük) Cənubi Qafqazda və Orta Asiyadakı maraq dairələrinə zərbə endirmək, digər tərəfdən həm Azərbaycan və həm də Ermənistan ərazisindəki hərbi bazaların yaradılması. Həmçinin onlar ermənilərin işğal etdikləri ərazilərdə Kürdüstan respublikasının yaranmasına cəhd edirlər. Kürdlərin nəinki Azərbaycanın ərazilərində, eyni zamanda onun neft və neft məhsullarına da maraqları vardır. Azərbaycan Respublikası enerji ehtiyyatlarının istehsalı və nəqli ilə bağlı yaradılan və istismar olunan infrastrukturun təbii fəlakətlərə, texnogen xarakterli fövqəladə hadisələrə və təxribatlara məruz qalma ehtimalına qarşı böyük tədbirlər görür, XXI əsrdə dünyada enerji daşıyıcıları ilə bağlı böhran gözlənildiyindən respublikamızda alternativ enerji mənbələrindən istifadə edilməsi qərara alınmışdır. Azərbaycan küləkli və günəşli günlərin sayına görə ölkənin əlverişli şəraitdə malik olduğunu nəzərə alaraq, enerjiyə olan ehtiyacının müəyyən hissəsini külək, dəniz, günəş, kiçik dağ suları və su elektrik stansiyaları hesabına təmin edir.

Bu gün ölkəmizin Avropanın enerji təhlükəsizliyində rolu getdikcə artır. Belə ki, Azərbaycanda hasil edilən neft və qaz ehtiyyatlarının dünya bazarına çıxarılması ölkəmizin regionda əsas söz sahibinə çevrilməsini bir daha təsdiq etmişdir. Azərbaycan bütünlükdə, avropa regionunun enerji təhlükəsizliyinə də mühüm töhvə verməkdədir. Azərbaycan zəngin neft və qaz ehtiyyatlarının Avropa bazarlarına çıxarmaqda böyük imkanlar əldə etmişdir. Təkcə «Şah dəniz» yatağından çıxarılan qaz Azərbaycan xalqının ehtiyatını ödəməklə yanaşı, qonşu ölkələrə də ixrac olunacaqdır. Azərbaycanda avropa ittifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorondomu imzalanmışdır. Bu, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolu bir daha təsdiq etmiş



olur. Bütün bunlar Azərbaycanın enerji təhlükəsizliyinin yad ünsürlərdən, hər cür təxribatdan qorunmasını tələb edir.

Məlumdur ki, son illər enerji təhlükəsizliyi avropanı düşündürən ən vacib məsələlərdən biridir. Azərbaycanın zəngin karbohidrogen ehtiyatları və dünya bazarlarına çıxış yolları vardır. Buna görə də hazırda enerji təhlükəsizliyi məsələsi Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığının mühüm tərkib hissəsini təşkil etməyə başlamışdır. Qərbin Azərbaycanı özünün enerji təhlükəsizliyinin əsas təminatçılarından biri kimi qəbul etməsi Aİ-Azərbaycan əlaqələrini strateji səviyyəyə yüksəltmişdir. Azərbaycanın milli maraqlarını hər şeydən üstün tutaraq Respublikamızın prezidenti Avropa İttifaqı ilə ölkəmiz arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığı genişləndirmişlər. Belə ki, Azərbaycanın Aİ-ın enerji bazarlarına sürətli inteqrasiyası, Avropanın enerji təhlükəsizliyini daha da gücləndirəcək. Avropa bazarları çox böyük olduğundan onun enerjiyə olan tələbatının ödənilməsi üçün yeni nəql sistemlərinin yaradılması vacibdir. Bu mənada Türkiyə_Yunanıstan qaz kəməri Azərbaycan-Avropa-İttifaqı enerji əməkdaşlığı çərçivəsində mühüm hadisədir. Azərbaycan qazının Gürcüstan və Türkiyədən keçməklə Avropa bazarlarına çatdırılması, respublikamızın dünyada tanınmasına bir örnəkdir. Bu mənada respublikamızın prezidenti İ.Əliyev demişdir: «Bu gün Türkiyə ilə Yunanıstan arasında qaz xətlərinin birləşməsi bölgəyə yenilik, yeni əməkdaşlıq imkanları gətiribdir. Enerji sahəsində mövcud əməkdaşlığın yeni formatı yaranıb və mən əminəm ki, bu başlanğıc çox uğurlu olacaqdır. Bu, birinci addımdır. Mən şübhə etmirəm ki, bundan sonra yeni addımlar atılacaq və bölgədə sabitliyin, əməkdaşlığın, təhlükəsizliyin, o cümlədən enerji təhlükəsizliyinin təmin olunması üçün bütün lazimi tədbirlər görüləcəkdir». (3,1)

Göründüyü kimi Azərbaycan nəinki öz enerji təhlükəsizliyini həll edir, eyni zamanda qonşu ölkələrin və beynəlxalq təşkilatlara üzv olan dövlətlərin də enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bu gün dünyada mövcud olan enerji təhlükəsizliyi bütün ölkələrin enerji təhlükəsizliyi ilə sıx bağlıdır. Azərbaycan xalqının milli maraqlarına uyğun olaraq enerji sahəsində tam müstəqil siyasət aparır. Respublikamızdakı iqtisadiyyatın yüksəlişi onun Cənubi Qafqazda lider rolunun oynadığını əyani surətdə sübut edir. Bu da ki, onun regionda aparıcı rola olan iddiaları davamlı müttəfiqlik münasibətləri sisteminin formalaşmasını tələb edir.

Bildiyimiz kimi ən yaxşı müttəfiq sərfəli tərəfdaşdır. Buna müvafiq olaraq müttəfiqlik gələcəyə sərmayələrin qoyuluşu deməkdir. Bir qayda olaraq sərmayə qoyuluşu respublikamızda mehriban qonşuluq siyasətinin

formalaşdırmağının yeganə, düzgün yoludur. Xarici siyasi fəallığın artırılması strategiyası son illərdə Şərqə yönəlir, bu da ki, təbii olaraq Asiya-Sakit okean regionunu XXI əsrin siyasi hadisələrinin cərəyna edəcəyi meydana çeviriləcəkdir. Bununla bərabər, Azərbaycan nəinki Avropanın enerji təhlükəsizliyi amili kimi çıxış etməyə, həm də Şərqdə təhlükəsizliyin qorunmasının müdafiəçisi rolunda iştirak edir.

XXI əsrin ən uğurlu siyasəti olan Azərbaycanla Aİ-ı arasında enerji sahəsində Strateji Tərəfdaşlığın təsis edilməsi barədə Anlaşma Memoerondomunun müddəaları aşağıdakılardır:

- Azərbaycanın enerji bazarında struktur islahatları və bazarın uyğunlaşdırılması;
- Azərbaycan və Aİ üçün tranzit sisteminin və enerji təminatının təhlükəsizliyinin artırılması;
- Enerji tələbatının idarəedilməsi üzrə müfəssəl siyasətin işlənilməsi;
- Texniki əməkdaşlıq və təcrübə mübadiləsi;

Aİ daxili elektrik və qaz bazarlarının prinsiplərinə tədricən uyğunlaşma və enerji sektorunda struktur islahatlarının aparılması;

- Vaxt cədvəlləri ilə müşayət olunan Aİ-nin daxili elektrik və qaz bazarlarının prinsipləri istiqamətində qanuni və tənzimləyici uyğunlaşma tədbirlərinin siyahısının tərtib edilməsi;
- Bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq daxili enerji qiymətlərində uyğunsuzluğun davamlı olaraq aradan qaldırılması istiqamətində iş aparılması və ödənişlərin toplanması göstəricisinin artırılması;
- Elektrik və qaz sektorlarının maliyyə səmərəliyinin təkmilləşdirilməsi üçün müvafiq mexanizmin hazırlanması;
- 2003/54 və 2003/55 Elektrik və Qaz Dirəklərinin prinsiplərinə uyğun olaraq enerji sektoru tənzimləyicisinin təsis edilməsi yönündə işlərin davam etdirilməsi;
- Enerji şirkətinin yenidən qurulmasının davam etdirilməsi və korporativ idarəçiliyin təşviq edilməsi; Enerji şəbəkələri ilə bağlı irəliləyiş;
- Enerji təchizatında Azərbaycanın milli təhlükəsizliyinin artırılması üzrə ümumi çərçivədə enerji şəbəkələrinin bərpası və onların etibarlığının artırılması və şəbəkə itkilərinin azaldılması baxımından invenstisiyaların cəlb olunması üçün addımların atılması;
- Aİ və onun qonşu bazarlarına Mərkəzi Asiya və Xəzər hövzəsinin enerji ehtiyyatlarının ixracı ilə bağlı Azərbaycanın tranzit imkanlarının inkişafı üçün əməkdaşlıq edilməsi;



- Enerji infrastrukturunun, o cümlədən BTC neft ixrac boru kəməri daxil olmaqla daxili enerji infrastrukturun təhlükəsizliyinin təkmilləşdirilməsi və bu istiqamətdə Aİ ilə məlumat mübadiləsinin gücləndirilməsi.

Enerjinin səmərəliyi və bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı irəliləyiş.

- 2004-2013-cü illər üzrə «Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı»-nın həyata keçirilməsi və onun icrası üçün Fəaliyət Planının tərtib edilməsi məqsədilə addımlar atılması;
- Enerjinin səmərəliyi və bərpa olunan enerji mənbələri ilə əlaqədar təsisatların gücləndirilməsi.

Texniki əməkdaşlıq və təcrübə mübadiləsi sahəsində «İntelliqent Energy-Europe» proqramında Azərbaycanın mümkün iştirakı imkanlarının araşdırılması;

- Azərbaycanın enerji sektorunda islahatların dəstəklənməsi və onun Aİ-nin enerji bazarına proqressiv inteqrasiyası üçün Aİ-nin texniki yardım proqramları çərçivəsində əməkdaşlıq edilməsi xüsusilə də tvininq layihələrində.

Redikativ mənbələrin bütün növləri üzərində nəzarətin gücləndirilməsi üçün tədbirlər görülməsi, o cümlədən onların və digər radiaktiv maddələrin qeyri-qanuni daşınmasının qarşısının alınması. Bundan başqa Azərbaycanla Aİ-i arasında enerji üzrə regional əməkdaşlıq da genişlənir.

- Regional inteqrasiya və Ai-nin enerji bazarları ilə proqressiv inteqrasiya baxımından Şah dəniz yatağından Aİ bazarlarına qaz ixracı üçün zəruri infrastrukturun inkişafı da daxil olmaqla Xəzər dənizinin enerji resurslarının inkişafı ilə bağlı çeşidli infrastrukturların inkişafının təşviq edilməsi və tranzitin asanlaşdırılması;

2004-cü ilin noyabrında Bakıda keçirilən Aİ Qara dəniz və Xəzər hövsəzi ölkələrinin Energetika Nazirləri konfransının davamı olaraq Xəzər dənizi və Qara dəniz regional enerji məsələləri üzrə əməkdaşlığın davam etdirilməsi. (10,5)

Göründüyü kimi Azərbaycanın enerji sahəsində xalqın milli maraqları nəzərə alınmaqla Avropaya inteqrasiyası milli təhlükəsizliyin əsasını təşkil edir.

Biz yuxarıda Avropa İttifaqı ilə enerji təhlükəsizliyi ilə bağlı görülən işlərdən, dövlətlərarası müqavilələrdən danışdıq. Göründüyü kimi müharibə vəziyyətində olan bir dövlət üçün enerji təhlükəsizliyi ölüm-dirim məsələsidir. Bu mənada respublikamız üçün enerji müstəqilliyi, enerji təhlükəsizliyi

həyati əhəmiyyətli bir məsələdir. Hazırda Azərbaycanda ümumi gücü 5 min, faktiki gücü isə 4 min MV olan istehsal konfiqurasiyası 83:17 nisbəti 6 İES və 5 Su Elektrik Stansiyası qismində fəaliyyət göstərərək illik 20-23 milyard KV saatlıq elektrik enerjisi istehsal olunması müqabil və perspektivi təmin edən keyfiyyətdə deyildir. Ümumiyyətlə, elektrik enerjisinə görə Azərbaycan Ermənistan və Gürcüstandan 2,5-3 dəfə çox olsa da yenə azdır. Məhz buna görə də xaricdən elektrik enerjisi idxal olunur. Energetik təhlükəsizliyini aradan qaldırmaq, xalqın enerjiyə olan tələbatını tam ödəmək üçün respublikamızda yeni elektrik stansiyalarının qurğusu inşa edilir. Enerji təhlükəsizliyi milli məsələdir.

## § 2.9. MİLLİ TOLERANTLIQ VƏ DİNİ SEPARATİZM TƏHLÜKƏSİZLİYİ

Azərbaycan dövlətinin ümdə məsələlərindən biri də ölkədə milli tolerantlıq mühitinin qorunmasıdır. Respublikamızda dilindən, dinindən asılı olmayaraq bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər. Azərbaycan Respublikasının milli təhlükəsizlik haqqında konsepsiyasında deyilir: «Hazırki mərhələdə ölkədə bərqərar edilmiş milli və dini tolerantlıq mühitinin qorunması və inkişafı dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Azərbaycan dövlətinin milli siyasət kursu Konstitusiyanın əsas prinsiplərindən birinə əsaslanır». (2,6)

Azərbaycan Respublikası həmişə müxtəlif millətlərin və dinlərin sülh şəraitində birgə yaşayışına nümunə olmuşdur. Azərbaycan dövləti cəmiyyətin milli maraqlarına uyğun milli siyasət yeridərək, dini tolerantlıq mühitinin qorunması və inkişafına xidmət edir, müxtəlif məzhəbli vətəndaşların hüquq və azadlıqlarını, həmçinin bu hüquq və azadlıqlarından sərbəst istifadə etmələrinə şərait yaradır.

Tarixən əsrlərin sınağından çıxmış, mənəvi dəyərlərini adət-ənənələrini qoruyub saxlayan Azərbaycan xalqı eyni zamanda ümumbəşəri dəyərlərə tolerant münasibət bəsləməklə, daim müasirliyə can atmışdır. Son 15 il ərzində Azərbaycan dünyada böyük nailiyyətlər qazanmaqla yanaşı, həm də Avropa dövlətlərindən fərqli olaraq dini sivilizasiyaların qovuşduğu tolerant bir məkan kimi tanınmışdır. 1993-cü ildə mərhum prezidentimiz H.Əliyevin hakimiyyətə gəlişindən sonra respublikamızda milli, dini və etik münasibətlər bərqərar olmuş, vicdan azadlığının təmin olunması üçün bir sıra tədbirlər həyata keçirilmiş, xalqın milli təhlükəsizlik maraqları naminə xeyli işlər görülmüşdür. «Dünyada bir çox böyük dinlər mövcuddur. Hər



dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu tarix, boyu Azərbaycanda da Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı xristian dini də yəhudi dini də əsrlər boyu yaşayır və indi də yaşamaqdadır». (30,210) Lakin bizim bu mehriban qonşuluq siyasətimizə qarşı nankor ermənilər bizim torpaqlarımızı neçə illərdir ki, işğal altında saxlayırlar.

Həqiqətən də respublikamızda başqa dinlərin inkişafına tolerant mühitin yaradılması təmin olunmuş, dini konsepsiyalar arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlər yaranmışdır. Milli dini mənsubiyətindən asılı olmayaraq hər bir vətəndaşın Azərbaycan üçün milli qürur hissilə yaşaması tolerantlığın bariz nümunəsidir. Azərbaycançılıq ideologiyası dini tolerantlığın qarantı kimi çıxış edir. Ölkəmizdə müxtəlif dini icmaların fəaliyyətinə geniş imkanlar açılmış və bu sahədə dövlət tənzimlənməsinin həyata keçirilməsi məqsədilə Dini işlər üzrə Dövlət Komitəsi yaradılmışdır. Respublikamızda insanların dini inanclarının, vicdan azadlığının əleyhinə heç bir addım atılmamışdır. Dini tolerantlıq azərbaycanlıların qanındadır. Bu özünü milli adət-ənənələrimizdə, başqa dinlərə, millətlərə dözümlü münasibətdə özünü biruzə verir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, hər bir demokratik ölkədə tolerant durumun formalaşması vacibdir. Tolerantlıq düşüncə tərzi, cəmiyyətin müəyyən inkişaf mərhələsində, müxtəlif mədəniyyət və lokal insan birliklərinin birgəyaşayışı nəticəsində əldə olunmuş tarixi nailiyyətidir. Tolerantlıq bir dövlətin deyil, hazırda bütün dünyanın qlobal, sosial-mədəni problemi statusunu almışdır. Azərbaycanda tolerantlıq-etnik, milli və bəşəri müstəviləri əhatə etmək baxımından yekcisliyin təsdiqi deyil, müxtəlifliyin vəhdəti kimi bu günün həm lokal, həm də qlobal tələblərinə cavab verir. Bu gün Azərbaycan tolerantlığın gerçəkləşdiyi bir məkandır. Belə ki, respublikamızda müxtəli milli, dini etnik qruplar vardır. Tarix boyu onlar Azərbaycanda yaşamış və müxtəlif dünyagörüşlərinə baxmayaraq, şərait onları bir-birindən ayırmamışdır. Bildiyimiz kimi respublikamızda üç dünya dininin nümayəndələri – müsəlmanlar, xristianlar, indiustlər dözümlülük şəraitində yaşayırlar. SSRİ-nin dağılmasından sonra respublika vətəndaşlarının dini hisslərinin gerçəkləşdirilməsinə zəmin yaranmışdır. Belə ki, hər kəs öz dininə münasibətdə tam azad oldular. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda məscidlərin sayı 1300-ə çatmışdır.

Azərbaycan dünyəvi dövlətdir. Tolerantlıq milli eyniyyəti qoruyub saxlamağa və onun postindustrial epoxaya keçməsinə şərait yaradır. Azərbaycanda tolerentlıqla bağlı tez-tez iclas və konfranslar keçirilir. Bu sahədə Qeyri-hökumət təşkilatları xüsusi fəallıq göstərirlər. Məsələn, 2007-ci il noyabrın 16-da «Azərbaycan tolerantlıq nümunəsidir» mövzusunda konfrans keçirilmişdir. Konfransda Beynəlxalq Tolerantlıq gününü xüsusi əhəmiyyəti qeyd edilmiş, göstərilmişdir ki, müxtəlif əqidəli insanların bir araya gəlməsində, dünyanın şər və zorakılıqdan xilas edilməsində, böyük sülhyaratma potensialına malik olmasında, tolerantlıq kimi yüksək bəşəri dəyərlər böyük rol oynayır. (3,2) Azərbaycanda müxtəlif dini əqidəli insanların ictimai şüurundan tolerantlıq ənənələri möhkəm bərqərar olmuşdur. Lakin, qeyd etmək lazımdır ki, işğalçı Ermənistan Azərbaycanın sülhyaratma missiyasını dərk etmir, zorakılıq siyasəti yeridir. Toerantlıq sahəsində Azərbaycanın uğurları dünya ictimaiyyətinin nəzərində ölkəmizin nüfuzunu qat-qat artırır. Sözsüz ki, bu da bədxah düşmənlərimizi narahat edir.

Bu mənada Azərbaycan dövləti, onun rəhbərliyi milli maraqlara söykənərək milli təhlükəsizliyimizin qorunmasında mühüm addımlar atır. Azərbaycan iqtisadiyyatının sürətli inkişafını gözü götürməyənlər milli adət-ənənəlimizə, dünyagörüşümüzə, zidd olan bir çox mənfi halları təlqin etməyə çalışırlar. Bu mənada Şərqlə Qərb arasında tranzit yolu kimi mühüm əhəmiyyət kəsb edən Azərbaycana bu ölkələrdən gəlmiş müxtəlif emissarlar təxribat törətməyə çalışırlar. Radikal təriqət nümayəndələrinin təlqin etdiyi dözümsüzlük, vətəndaş qarşıdurmasına çağırışlar, cəmiyyəti daxildən parçalamaq cəhdləri və bütün bunların müqabilində zor, terrora haqq qazandırılması islam dininin dəyərlərinə tamamilə ziddir. Bu mənada radikal vəhabilər, nurçular və digər cinayətkar təriqətlər və onların nümayəndələri respublikamızda müxtəlif dini ədəbiyyatları təbliğ etməklə ixtişaş törətməyə çalışırlar. Məsələn, azərbaycanda 1988-ci ildən fəaliyyət göstərən «Şeytan Bibliyası»nın əsgərləri hökumət və dövlət strukturlarında, yenicə formalaşan gənc demokratik qüvvələrin cərgəsində, güc strukturlarında öz mövqelərini möhkəmləndirirlər. Onlar bir çox ölkələrdə o cümlədən. Litvada, Latviyada, Estoniyada, Ermənistanda, Qazaxıstanda, Gürcüstanda və digər ölkələrdə təxribat törədirlər. Bu səpkidə Vaşinqtonda tədqiqat aparan prokuror Con Harrinson yazır: «Təkcə 1992-ci ildən 1999-cu ilə kimi Azərbaycana 73 nəfər (22 nəfər qadın olub) «Şeytan Bibliyasının» əsgərləri qədəm basıb. Sonradan bu əsgərləri dini icma və qurumlarda, ayrı-ayrı məxfi mərkəzlərdə, təbliğat və informasiya vasitələrində, səhiyyə və təhsil sistemində qərar tutublar. Bu əsgərlər az vaxt içərisində aztəminatlı həkimləri, tibb bacılarını, din xadimlərini, müəllimləri ələ alır, şirinlikləndirir və istədiklərinə nail olurlar». (49,47) Başqa bir tədqiqatçı Mayki Beyement göstərir ki, «Şeytan Bibliyası»nın Cənubi Qafqazda 9, Orta Asiyada 12, RF-da isə 28 filialı açılıb. Məlumata görə Bakıdakı Erməni kilsəsini (bu kilsə məlum səbəblərə görə indi işləmir) San-Fransıskodakı «Şeytanlar kilsəsini icarəyə götürmək fikrində olub. Onlar (yəni əsgərlər -FN) Moskvadakı Qavrilov məbədini, Düşənbədəki Əbu-Səlam binasını, Kiyevdəki Qriqori kitabxanasını artıq icarəyə götürüblər». (111,57) Göründüyü kimi «Şeytan Bibliyası»-nın əsgərləri bütün dünya üçün təhlükəlidir. Onlar məlum mənbələrə görə 2003-cü ilin sentyabrında Azərbaycanın təhsil sisteminə də nüfuz etmək istəmişlər. Şübhəsiz ki, belə gedərsə bu plan reallaşsa idi bizim milli təhlükəsizliyimizə, insan genofondumuza böyük zərbələr dəymiş olardı. MTN-i üzvlərinin sayıqlığı nəticəsində belə halların həyata keçirilməsinə imkan verilməmişdir. Tolerantlıq sahəsində Azərbaycanın uğurları dünya ictimaiyyətinin nəzərində ölkəmizin nüfuzunu qat-qat artırır. Heç təsadüfi deyildir ki, 2006-cı ildə Moskvada Dini rəhbərlərin ümumdünya sammitinin keçirilməsi təşəbbüsü məhz Azərbaycan tərəfindən irəli sürülmüşdür. Sonra isə ölkəmiz BMT yanında dünya din xadimlərinin məşvərət şurasını yaratmağı təklif etmişdir. Bu, o deməkdir ki, Azərbaycan bütün xalqların dininə, adət-ənənələrinə hörmətlə yanaşır. Qeyd etmək istərdik ki, tolerantlıq dövlətçiliyi, xalqın birliyini və sıralarını möhkəmləndirən bir amildir. Təbii ki, bu bizim milli sərvətimizdir və buna görə də düşmənlərimizi bu çox narahat edir. Məhz buna görə də biz var qüvvəmizlə çalışmalıyıq ki, aramıza nifaq toxumu səpənlərə qarşı ayıq və mübərizkeş olaq.

Bu gün Qərb dünyası islamı ekstremizmdə, terrorçuluqda günahlandırır. Lakin tarix göstərir ki, islam sülh və tolerantlıq dinidir. İslam bütün xalqları birliyə, dözümlülüyə çağırır. Tolerantlıq o demək deyildir ki, başqalarının dini baxış və etiqatlarını özününkü kimi doğru hesab edəsən. Tolerantlıq o deməkdir ki, başqalarının etiqatları səninkindən fərqlənsə də, sən onlara səbr və təmkinlə yanaşmalısan. Məsələn, ölkəmizdə müxtəlif dini etiqadlı insanlar yaşayır və çalışırlar. Lakin heç kəs onların dini adət-ənənələrinə pis gözlə baxmır, əksinə hörmət edirlər. Din insanların, inam və iman yeridir, onların bu zəif hisslərinə toxunmaq olmaz. Ona görə də respublikamızda müxtəlif əqidəli, dini etiqadları bir-birindən fərqlənən insanlar mehriban yaşayır və bir-birlərini yaxşı dərk edirlər. Azərbaycanda dinin xalqın milli maraqlarana cavab olaraq, hər cür xarici müdaxilələrdən qorunması dövlət rəhbərliyinin ümdə vəzifəsidir.

İslam hər cür savaş və hərbi yürüşlərin əleyhinədir. İslam dini nəinki müsəlmanlara ixtiyar insanları, qadın və uşaqları, hətta silahsız, yaralı düşmən əsgərlərini də öldürməyi qadağan etmişdir. İbadətgahlara, hətta ibadət zamanı ölümdən qaçaraq oraya sığınmış insanlara zərər verilməməsi də islamın başlıca tələblərindəndir. İslamın dini dözümlülük anlayışına çoxlu misallar gətirmək olar. Belə ki, müsəlmanlar məscidin bir tərəfində ibadət edərkən, digər tərəfində də xristianların ibadət etmələrinə razılıq vermişlər. Bütün bunlara baxmayaraq, bir sıra islam ölkələrində əsas mübarizə üsulu terrorçuluq olan təşkilatlar vardır ki, din pərdəsi altında mübarizə aparırlar.

Məsələn, 1953-cü ildə onlar Fələstində yaradılmış «Hizbut-təhrir» təşkilatının Bakıda gizli şəkildə özəyini yaratmış, həmin partiyanın ideyalarına sadiq qalacaqlarına and içmişlər. Onlar yığıncaqlarında Azərbaycanın Konstitusiya quruluşuna, idarəetmə formasına, siyasi rejiminə, ərazi bütövlüyünə və beynəlxalq imicinə təhlükə törədən üzv olduqları «Hizbut-təxrir» partiyasının ektremist məzmunlu «Hizbut-təxrir» «Proqramma Hizbut-təxrir» və s. ədəbiyyatlarını özək üzvləri və digər şəxslər arasında yaymış partiya ideyalarının təbliğatçıları hazırlamağa başlamış, açıq mübarizə üsulu «Cihad yəni silahlı mübarizə yolunun vacibliyi barədə çağırışlar etmişdirlər. (11,3) Onlar eyni zamanda zor gücünə demokratik hakimiyyəti devirmək, Azərbaycanda islam dövləti qurmaq və onu şəriət qanunları əsasında idarə etməyi qarşılarına məqsəd qoymuşlar. Sözsüz ki, xaricdən dəstəklənən bu ekstremist qüvvələr əsasən gəncləri aldadaraq öz təsirləri altına almış, və parklarda, məscidlərdə, kirayə tutduqları evlərdə təbliğat xarakterli ədəbiyyatlardan istifadə edərək öz məqsədlərinə nail olacaqlarına ümid etmişlər. Məsələn, Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi tərəfindən təqsirləndirilən şəxs Məhəmmədov Elçin Əhməd oğlu bir qrup şəxslərlə Azərbaycanda cinayət əlaqəsinə girib, mövcud olan konstitusion demokratik, dünyəvi dövlət quruluşunu devirib, Azərbaycanı bir dövlət kimi suverenlikdən məhrum edib, şəriət qrumları ilə idarə olunan islam fundamentalizminə əsaslanan yeni yaradılacaq teokratik xilafətin tərkibinə daxil etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmək və bu cür materiallar yaymaqla məşğul olmuşdur. Sonra o, bir sıra şəxslərlə cinayət əlaqəsinə girərək, yuxarıda qeyd etdiyimiz kimi 1953-cü ildə Fələstində yaradılmış «Kuzbutəxrir» təşkilatının Bakıdakı özəyi ilə fəaliyyətə başlamışdır. Azərbaycanın Avropaya inteqrasiyası və sivil dövlətlər səviyyəsinə yüksəlişi prosesində bütün bu təhdidlər sözsüz ki.



Azərbaycan dövlətçiliyinə təhlükə yarada bilər. MTN-i əməkdaşlarının sayıqlığı nəticəsində onların Azərbaycanda dövlət strukturunu dəyişmək planları baş tutmamışdır və onlar məhkəməyə verilmişdir.

Bütün bu hadisələr göstərir ki, Azərbaycanın milli təhlükəsizliyinin qorunması onun ərazi bütövlüyünün, dövlət quruluşunun, suverenliyinin hər cür dini ekstremistlərdən mühafizəsi diqqət mərkəzində olmalıdır. Qeyd etmək lazımdır ki, 2005-ci ildə bir qrup şəxs tərəfindən dövlət quruluşunu silahlı yolla devirməyə çalışan, dini mötivlərə əsaslanan, siyasi cinayətkar dəstə terror törətməyə çalışarkən hüquq mühafizəsi orqanları tərəfindən tutulmuşdur. Onlar Azərbaycandakı sabitliyi pozmaq, müxtəlif dini əqidəli insanlar arasında iğtişaş törətməklə respublikamızın suverenliyinə zərbələr endirməyə çalışmışlar. Yadda saxlamaq lazımdır ki, yalnız birgə səylərlə dini qarşı durmanın, dini ekstrimistlərin qarşısını almaq olar. Biz islamdan bir mübarizə vasitəsi kimi istifadə edən terrorçu təşkilatlara qarşı, islamın sevgi və dini dözümlülük anlayışını təbliğ etməli və sübut etməliyik ki, heç bir dövlətin və ya heç bir şəxsin islam adından çıxış etməyə haqqı yoxdur. Bunu bu gün reallıq göstərir. Məlumdur ki, Azərbaycan ərazisində xristian, yəhudi, lüteran, katolik, provaslav və digər dini, müxtəlif təriqətlərin vətəndaşları neçə əsrdir ki, dostluq şəraitində yaşayırlar. Hələ 1854-cü ildə Azərbaycanın Xanlar rayonunda almanlar tərəfindən tikilmiş lüteran kilsəsi 20-08-ci ildə bərpa edilərək, istifadəyə verilmişdir. Bu onu göstərir ki, Azərbaycan xalqı həmişə digər dinlərə qarşı dözümlük nümayiş etdirmiş və onlara hörmətlə yanaşmışdır. Bu, bizim xalqın milli mentalitetinə xas olan bir xüsusiyyətdir.

Biz XXI əsri tolerantlığın möhkəmlənməsi əsri hesab edə bilərik. Belə ki, məşhur din xadimlərinin-bütün Rusiya Patriarxı II Aleksin iki dəfə, Gürcü Provaslav Kilsəsinin başçısı Katalikos Patriarx II İlyanın iki dəfə Azərbaycana gəlişi bu tolerantlığın bariz nümunəsidir. 2002-ci ildə isə Roma Papası II İohann Pavel Azərbaycana gəlmişdir. Bütün bunlar, islamın bizə öyrətdiyi müstəqil və azad yaşamaq prinsiplərindən irəli gəlir. Bu mənada mərhum prezidentimiz H.Əliyev 1994-cü il avqust ayının 26-da Məhəmməd Peyğəmbərin mövludu günü münasibətilə Təzəpir məscidində çıxış zamanı demişdir: «İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-

Talanın buyurduğu. Bizim yolumuzdur». (33,85) Prezidentimizin bu çıxışı bir daha sübut edir ki, Azərbaycan dövləti bütün xalqların dininə rəğbətlə yanaşır, dini ayrı-seçkiliyə son qoymuşdur.

Bütün bunlara baxmayaraq bəzi ekstremist qüvvələr yuxarıda qeyd etdiyimiz kimi dindən dövlətimiz əleyhinə istifadə edərək, gənclərimizə fanatizm əhval-ruhiyyəsi aşılayır, onları cinayətlər törətməyə təhrik edirlər. Xarici havadarların dəstəyi ilə respublikamızda cinayət xarakterli terror aktları törədənlər sözsüz ki, islam dünyasının qatı düşmənləridir. Qurani-Kərimdə belə cinayətlər lənətlənir. Bu mənada H.Əliyev deyirdi ki, müsəlman xalqlarının təhlükəsizliyini və ölkəmizin bütövlüyünü təmin etmək, müsəlman azlıqlarının və icmalarının hüquqlarını qorumaq, müsəlman aləminin sabit inkişafını təmin etmək bizim müqəddəs vəzifəmizdir».

Azərbaycan Respublikası milli təhlükəsizlik siyasətində müxtəlif xalqların dini baxışlarına onların milli maraqları mövqeyindən hörmət edir. Bu səpkidə Roma Papası II İohan Pavel 2002-ci ilin mayında Bakıda olarkən demişdir: «Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir». Həqiqətən də respublikamızdakı bu sabitlik uzun illər müstəqillik uğrunda mübarizə aparan bir dövlətin nailiyyətidir.

Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənən bir dövlət olmuşdur. Belə ki, respublikamızda 83 millət və azsaylı xalqlar yaşayır. Bu mənada vaxtilə cənab H.Əliyev demişdir: «Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə, dinindən dilindən irqindən, siyasi mənsubiyyətdən asılı olmayaraq azadlıq, hüriyyət imkanları verir». (29,282) Göründüyü kimi Azərbaycan xalqı həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə çalışır, insanların dini mənsubiyyətindən asılı olmayaraq onların arasında sülh və əmin-amanlıq siyasəti yaradır. Hal-hazırda müharibə vəziyyətində olduğumuz təcavüzkar Ermənistanda yalnız, ermənilər və bir də ki, az sayda rus diviziyası əsgərlərinin ailə üzvləri olduğu halda, Azərbaycanda erməni ailələri hələ də yaşayırlar. Bu da ki, bizim dinimizin, humanistliyindən irəli gəlir. Bu gün Azərbaycanda 1300 məscid fəaliyyət göstərir. Onlardan 370-i islam təmayüllü, 20-i qeyri islam təmayüllüdür. 406 dini qurum rəsmi olaraq dövlət qeydiyyatından keçib. Hal-hazırda Azərbaycanda müxtəlif xarici ölkələrin səfirlikləri, beynəlxalq təşkilatların nümayəndəlikləri müxtəlif dini əqidəli iş adamları fəaliyyət göstərir. Bəzi dini cərəyanlar da vardır ki, onlar müxtəlif yollarla insanları ələ alır, onların şüurunu korlayırlar. Bu məqsədlə dövlət milli maraqlara uyğun olaraq, milli təhlükəsizliyin qorunmasında bir sıra tədbirlər görür. Məsələn, Gəncədə, Şamaxıda və Azərbaycanın bəzi rayon və şəhərlərində bəzi dini cərəyanlar zəif xarakterli insanları öz təsirləri altına alaraq düşmənimiz olan ermənilərlə dostluq və qardaşlığa çağırır, mübarizədən əl çəkməyi tövsiyə edir, dini xarakterli ədəbiyyatları yayırlar.



Bu gün dindən sui-istifadə edərək, bütün insanlığa düşmən kəsilən, terrorizmi dəstəkləyərək, bəşəriyyəti məhvə doğru aparan qüvvələrə qarşı mübarizə aparılmalıdır. Məhz bəşəri mədəniyyətlərin, insanlığın qorunması naminə biz hamımız əlbir olub, ekstrimizmə, terrorizmə və separatizmə qarşı aqressiv olmalı və onların cəhdlərini puça çıxarmalıyıq. Yadddan çıxarmamalıyıq ki, bizim qatı düşmənimiz olan ermənilər və onu dəstəkləyən qüvvələrə qarşı mübarizədə ayıq-sayıq olmalıyıq. Unutmamalıyıq ki, Azərbaycanın müstəqilliyi onun xaricə inteqrasiyası məkrli düşmənlərimizi narahat edir. Bu mənada Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin – «TRASEKA» proqramının həyata keçirilməsi, Xəzərin enerji ehtiyyatlarından birgə istifadəyə dair imzalanmış «Əsrin müqaviləsi» (24.09.1994) kontraktlarının, «Bakı-Tibilisi-Ceyhan» ixrac neft kəmərinin, «Bakı-Tibilisi-Ərzurum» qaz kəmərinin, «Bakı-Tibilisi-Qars» dəmir yolunun çəkilməsi Azərbaycanın, Gürcüstanın milli təhlükəsizliyinin qorunması mənfur düşmənlərimizi vəlvələyə salmışdır. Ona görə də respublikamıza qarşı hər an xaricdən təxribat törətmək cəhdləri gözlənilir. Tarixən tolerantlığın mərkəzi olan Azərbaycan bir çox millətlərin və dini konfensiyalıran dinc birgə yaşamasının və sərbəst fəaliyyət göstərməsini unikal nümunəsidir.

Lakin işğalçı Ermənistan bu tolerantlığın əsasları üçün təhlükəyə çevrilmişdir. Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcavüzkar siyasət nəticəsində, 1 milyondan artıq soydaşımız öz dədə-baba yurdundan qaçqın düşmüş, qədim ibadət yerlərimiz dağıdılmışdır. Hazırda bu ölkənin gizli hərbi düşərgələrində minlərlə qoca, uşaq və qadın təcavüzə məruz qalmış, onların üzərində dəhşətli eksperimentlər aparırlar. Ermənistanın bu vandalizm hərəkətləri regionda və dünyada dinlərarası dioloqun möhkəmlənməsinə ciddi zərbələr vurur. Buna baxmayaraq, Azərbaycan dünya ictimaiyyətinə özünün haqq işini nümayiş etdirməyə çalışır və Şərq-Qərb ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə böyük töhfələr bəxş edir. Respublikamızda dövlət-din münasibətləri xalqın milli maraqlarına uyğun olaraq həyata keçirilir. Milli azlıqların, millətlərarası əməkdaşlığın bariz nümunəsi olan

Azərbaycan, bütün ölkə vətəndaşlarının milli maraqlarına əsaslanaraq, etnik mənsubiyyətlərini nəzərə alaraq, konstitusiyada nəzərdə tutulmuş hüquq və azadlıqlarla onları təmin edir. Belə ki, tolerant ölkə kimi Azərbaycan ərizisində yaşayan xalqların digər ölkələrlə əlaqələrinə mane olmur. Onlar sərbəst olaraq başqa ölkələrə gedib gəlirlər. Qeyd etmək lazımdır ki, respublikamızda yaşayan yəhudilərin 4 ibadət evi, bazar günü məktəbləri, yəhudi dövlət məktəbi və mədəniyyət mərkəzi fəaliyyət göstərir. Onlar milli dini adət-ənənələrini sərbəst surətdə yerinə yetirirlər. Təsadüfi deyildir ki, Azərbaycanda və bütün regionda ilk dəfə 16 noyabr Beynəlxalq tolerantlıq günü kimi qeyd edilmiş və bu əlamətdar gündə H.Əliyev tolerantlıq anlayışının mənasını açaraq demişdir: «Tolerantlıq dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. O, təkcə dinlərin bir-birinə dözümlülüyünü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərinə dözümlülük deməkdir». (29,424)

Azərbaycan xalqı əsrlər boyu bu tarixi missiyanı yerinə yetirmişdir. Belə ki, xalqımızın əsrlər boyu formalaşdırmış olduğu sosial-siyasi, əxlaqi-mənəvi, dəyərləri, tarixi, dili, mədəniyyəti və dini məhz azərbaycançılıq anlayışında öz əksini tapır. Bu aspektlər-milli tarix Azərbaycan dili, ənənələrə və mədəniyyətimizin özünəməxsusluğuna ehtiram, eləcə də dini tolerantlıq dünya siyasətinin suveren subyekti kimi qlobal inteqrasiya dövründə ayrıca bir vahid kimi Azərbaycan dövlətçiliyinin, bu gününü və gələcəyini formalaşdırır. Bütün bunlar getdikcə daha çox ehtiraslar oyununa çevrilən siyasəti canlandırmağa, estetikləşdrməyə, ona dərin məna kəsb etdirməyə imkan verən siyasət və mədəniyyəti birləşdirməyə kömək edir. Bu milli ideya, milli birliyin bərpasına və təbii ziddiyyətlərin birləşdirilməsinə imkan verəcəkdir. Dahi alman alimi A.Moelle demişdir: «millət dedikdə dəyərlərn ümumiliyi, millətçilik dedikdə isə bu dəyərlərin əhəmiyyətinin dərk edilməsi nəzərdə tutulur». (75,57)

Bu gün Azərbaycanda yalnız kilsə və sinaqoqlar deyil, eyni zamanda bir çox xristian yəhudi dini tədris müəssisələri sərbəst, heç bir maneə olmadan fəaliyyət göstərir və onlara dövlət tərəfindən qanun çərçivəsində lazimi dəstək verilir. Çünki dinlərə və dini fəlsəfi cərəyanlara münasibətdə tolerantlığı ilə seçilən Azərbaycan xalqı bu keyfiyyətinə görə nəiniki Şərqdə, hətta bütün dünyada fərqlənmiş və bu gün də fərqlənməkdədir. Bu mənada H.Əliyev deyirdi: «İnsanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar. Dini nöqteyi-nəzərdən ədavət, münaqişə, müharibə yolverilməzdir». (29,84)



Müxtəlif dini liderlərin, din xadimlərinin Azərbaycana səfərləri, ölkədəki tolerantlıq mühiti ilə yaxından tanış olmaları, respublikamızda dinlərə, mənəvi dəyərlərə olan hörmətdən irəli gəlir. Azərbaycanda tolerantlığın yüksək səviyyədə olmasını xarici diplomatlar da etiraf edirlər. Bu mənada ATƏT-in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosunun keçmiş rəhbəri Jeror Ştudman etiraf etmişdir ki. «Azərbaycanda dini dözümlülük heç də yeni konsepsiya deyildir. Bu ölkə yüz illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına, dözümlülüyə bariz nümunə ola bilər. Biz onu ümumi mədəni irsimizə münasibətdə nümunə göstərə bilərik». (29,88)

Tolerantlığın Azərbaycan xalqının spesifik keyfiyyəti olduğunu bütün dünya bilir. Vaxtilə dağıdılmış tarixi-dini abidələrimizin mücəssəməsi olan məscidlərimiz, ziyarətgahlarımız indi yüksək keyfiyyətdə bərpa olunur. Açıq etiraf etməliyik ki, Azərbaycan nəinki öz xalqının, eyni zamanda bütün xalqların mənəvi dəyərlərini yüksək qiymətləndirir. Bu gün ərazisinin 20%-dən çoxunun işğal altında olan Azərbaycan terrorizmdən, zorrakılıqdan və separatizmdən əziyyət çəkir. Lakin dünyada sülhün və tolerantlığın bariz nümunəsi kimi tanınan respublikamız, dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar qarşısında ərazi bütövlüyünün və milli-mənəvi dəyərlərinin qoruyucusu kimi çıxış edir.

## § 2.10 ÖLKƏNİN SOSİAL-İQTİSADİ TƏHLÜKƏSİZLİYİ

Azərbaycan respublikasının son illərdə həyata keçirilən sosial siyasətinin əsas istiqamətlərindən biri də məşğulluğa dair siyasətin formalaşdırılması və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir.

2006-cı ildə ölkədə iqtisadi cəhətdən fəal əhalinin sayı 1995-ci illə müqayisədə 622,9 min nəfər artaraq 4264,2 min nəfər olmuş, onların da 3973,0 min nəfərini iqtisadiyyatda məşğul olanlar, 291,2 min nəfərini isə işsiz əhali təşkil etmişdir.

Son illər ölkə iqtisadiyyatında aparılan islahatlar nəticəsində xüsusilə dövlət mülkiyyətində olan müəssisə və təşkilatların özəlləşdirilməsində, məşğul olan əhalinin dövlət və qeyri-dövlət sektoru üzrə bölüşdürülməsində, əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərə nail olunmuşdur. Belə ki, 1995-ci ildə dövlət sektorunda çalışanların xüsusi çəkisi iqtisadiyyatda məşğul olanların ümumi sayının 56,1%-ni təşkil edirdisə, 2006-cı ildə bu

göstərici 32,6%-ə enmiş, qeyri-dövlət sektorunda işləyənlərin sayı isə bu dövrdə 1,7 dəfə artmışdır. Qeyri-dövlət sektorunda çalışanlar arasında 696,5 min nəfər sərbəst məşğul əhali qeydə alınmışdır ki, bu da ümumi iqtisadiyyatda çalışanların 17,5%-ni təhkil etmiş və 1995-ci il səviyyəsindən 15,8% çox olmuşdur.

Ölkə əhalisinin məşqulluq və işsizlik problemlərini həll etmək üçün vacib məsələlərdən biri də ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi strategiyasının həyata keçirilməsidir. Bu mənada Azərbaycan iqtisadiyyatına yönəldilmiş xarici kapitalın ölkə əhalisinin məşğulluq və işsizlik probleminin həllindəki rolunun müəyyən edilməsi ən mühüm vəzifələrdən biridir. 1996-cı ildən başlayaraq 2006-cı ilə kimi ölkədə fəaliyyət göstərən xarici investisiyalar və birgə müəssisələrdə məşğul olanların sayı 11,6 dəfə artaraq 5,6 min nəfərdən 65,2 min nəfərə çatmışdır.

2006-cı ildə istehsal sahələrində (kənd təsərrüfatı, balıqçılıq, sənaye və tikinti) 2055,3 min nəfər və ya iqtisadiyyatda məşğul olanların ümumi sayının 51,7%-ə qədər işçi çalışmış, xidmət sahəsində isə məşğul olanların sayı 1917,7 min nəfər olmuşdur ki, bu da məşğul əhalinin 49,3%-ni təşkil etmişdir. 2006-cı ildə iqtisadiyatda məşğul olan əhalinin ümumi sayından 1337,5 min nəfəri və yaxud 33,7%-i muzdla işləyənlərin payına düşmüşdür. Muzdla işləyənlərin əksəriyyəti iri və orta müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur.

Hal-hazırda ölkə üçün ən mühüm sosial-iqtisadi məsələ işsizlik probleminin həllidir. Bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində yeni iş yerləri, müəssisələr, infrostruktura obyektləri və s yaradılır.

Məşğulluq xitdməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı və 2006-cı ildə əhalinin dövlət məşğulluq xidməti orqanları tərəfindən işlə təmin edilməsi aşağıdakı cədvəldə verilmişdir.

| İş axtaran əhali | İşlə təmin olunmaq üçün müraciət etmiş vətəndaşların sayı | | İşlə təmin olunmuşlar |
|---|---|---|---|
| cəmi | 49220 | 1001,0 faizlə | 29076 |
| Əmək fəaliyyəti ilə məşğul olanlar | 141 | 0,3 | 69 |
| Əmək fəaliyyəti ilə məşğul olmayanlar | 49079 | 99,7 | 29007 |



| | | | |
|---|---|---|---|
| Onlardan əmək qabiliyyəti yaşdan yuxarı yaşda olanlar | 1070 | 22 | 273 |

Azərbaycanın statistik göstəricisi 2007, s 94

Cədvəldən göründüyü kimi respublikamızda 2006-cı ildə məşğulluq orqanları tərəfindən müxtəlif qrup vətəndaşlar işlə təmin olunmuşlar.

2007-ci ilin yanvar ayının əvəlinə bu rəqəm artaraq 53,9 min nəfər olmuşdur. Son illər ərzində işsizlər arasında qadınların xüsusi çəkisi azalaraq 1995-ci ildəki 59,7%-ə nisbətən 2006-cı ildə 51,1% təşkil etmişdir. Hazırda dövlətin ən mühüm qayğılarından biri də əhalinin sosial müdafiəsinin gücləndirilməsidir. Sosial müdafiə sahəsində dövlətin əsas məqsədi əhalinin əmək və təsərüffatçılıq fəaliyyətini stimullaşdıraraq ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəltməkdir. Son on bir il ərzində (1995-2006-cı illər) muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 12 dəfədən çox artaraq 149,0 manat təşkil etmiş və 2005-ci illə müqayisədə 20,6% artmışdır.

Azərbaycan Respublikasının Prezidenti 22 yanvar 2007-ci il tarixli 1895 nömrəli fərmana uyğun olaraq, miniumum əmək haqqı aylıq əmək haqqının məbləği 2007-ci il fevral ayının 1-dən 50 manat müəyyən edilmişdir.

2006-cı ildə müəssisə və təşkilatlarda əmək mühafizəsi üzrə tədbirlərə çəkilən xərclər 1995-ci illə müqayisədə təxminən 3,9 dəfə artaraq 27,9 milyon manat olmuşdur. Bu vəsaitin 77 milyon manatı əmək şəraitinin yaxşılaşdırılmasına sərf eldilmişdir.

Respublikamızda sənayenin inkişafından danışarkən qeyd etmək lazımdır ki, əgər 2005-ci ildə dövlət sektorunda sənaye məhsulu 2727 milyon manat olmuşdursa, 2006-ci ildə 4090 manat qeyri-dövlət sektorunda isə 2005-ci ildə 6564, 2006-cı ildə isə 11429 milyon manat olmuşdur.

Sənaye məhsulunun ümumi həcmi 2005-ci ildə 133,5%, 2006-cı ildə isə 136,6% olmuşdur. Əsas kapitala yönəldilən investisiyaların həcmi 2005-ci ildə 116,6%, 2006-cı ildə isə 115,2% olmuşdur. Bu onu göstərir ki, respublikamıza ayrılan investisiyaların həcmi nə qədər çox olarsa, bir o qədər əhalinin yaşayış tərzinə, sənayenin inkişafına müsbət təsir göstərər. Bunun müqabilində əhaliyə göstərilən püllü xidmətlərin həcmi 2005-ci ildə 126,1% olmuşdursa, 2006-cı ildə 142,1% olmuşdur. Orta aylıq əmək haqqı 2005-ci ildə 124,3%, 2006-cı ildə isə 120,6% olmuşdur. Respublikada minimal əmək haqqı əgər 2005-ci ildə 30,0 manat olmuşdursa, 2007-ci ildə 50,0 manat olmuşdur. Düzdür əmək haqqı hər il artır. Lakin bununla bərabər bazarda

qiymətlər də qalxır. Bu da ki, sözsüz əhalinin bəzi hallarda kasıb təbəqələrinin haqlı narazılıqlarına səbəb olur. Respublikamızda bunun qarşısını almaq üçün dövlət milli maraqlara uyğun müxtəlif tədbirlər görməyə başlamışdır. Belə ki, işsizliyin qarşısını almaq və əhalinin maraqlarına görə 2006-cı ildə dövlət məşğulluq xidməti orqanları tərəfindən xeyli sayda vətəndaş işlə təmin olunmuşdur. Belə ki, dövlət məşğulluq orqanlarına 49220 nəfər müraciət etmiş və nəticədə 28076 nəfər işlə təmin olunmuşdur. Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və səmərəli əmək fəaliyyətinə cəlb olunması və istirahət etmələri üçün turizm və sanatoriya müəssisələrinin sayını artıraraq, əgər ilin əvvəlinə dövlət sanatoriya, istirahət və turizm müəssisələri 2006-cı ildə 84 idisə, 2007-ci ildə 80 olmuşdur. Həmçinin bu tikinti müəssisələrinin keyfiyyətinə də dövlət ciddi nəzarət edir. Milli təhlükəsizliyin əsas məsələlərindən biri əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün gəlirlərin artırılmasıdır. Əgər 2005-ci ildə əhalinin, gəliri 8063,6 milyon manat olmuşdursa, 2006-cı ildə bu rəqəm 9949,8 milyon manat olmuşdur. Onların xərcləri isə cəmi 2005-ci ildə 6508,7 milyon manat, 2006-cı ildə isə 8006,7 milyon manat olmuşdur. Deməli, respublikamızda əhalinin işlə təmin olunması yaxşı nəticələrə gətirib çıxardır. Vətəndaşların tələbatları bazar iqtisadiyyatına uyğunlaşdırılır.

Respublikamızda vətəndaşların mədəni istirahətləri üçün 2007-ci ildə kitabxanaların sayı 4021 klubların isə sayı 2759 olmuşdur. Bu da onu göstərir ki, xalqın milli maraqlarını nəzərə alaraq dövlət onlara hər cür mədəni xidmət göstərməyi təşkil edir. Axı biz XXI əsrdə qloballaşma şəraitində yaşayırıq. Bizim dünyagörüşümüz hərtərəfli inkişaf etməli, dövrün tələblərinə cavab verməlidir.

Biz yuxarıda qeyd etdik ki, Azərbaycan neft və təbii qazına görə dünyada məşhurdur.Buna görə xarici dövlətlər bu ölkənin sənaye istehsalına investisiyaları ilbəil artırırlar. Bu mənada istehsal və qeyri istehsal təyinatlı obyektlər üzrə əsas kapitala yönəlmiş investisiyalar məsələn, 2005-ci ildə istehsal təyinatlı müəssisələrə 86,9%, 2006-cı ildə qeyri-istehsal təyinatlı müəssisələrə 14,7% ayrılmışdır.

Respublikada milli təhlükəsizliyimizin qarantı kimi sənaye istehsalı fondları olan xam neft, təbii qaz və s. 2005-ci ildə 118,5%, 2006-cı ildə isə 115,5% olmuşdur. Respublikamızdan ixrac və idxal artdıqca, xarici ölkə investorlarının sayı artıqca yeni iş yerlərinin sayı da artır. Məsələn, 2005-ci ildə ixrac 4347,2 milyard ABŞ dolları həcmində, 2006-cı ildə 6372,2 milyard ABŞ dolları olmuşdur. Azərbaycana idxal isə 2005-ci ildə 4211,2 milyard dollar, 2006-cı ildə isə 5267,6 milyard dollar olmuşdur. Nəticədə respublikada 1 oktyabr 2003-cü ildən 1 yanvar 2007-ci ilə kimi 496493 iş yeri açılmış, 2005-ci ildə bu rəqəm 169013, 2006-cı ildə isə 173886 olmuşdur.



Əhalinin gəlirləri və xərcləri (milyon manat)

| Gəlirlər və xərclər | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| Gəlir cəmi | 4047,3 | 4301,6 | 5018,1 | 5738,1 | 6595,1 | 8063,6 | 9949,8 |
| Xərclər cəmi | 3272,2 | 3498,4 | 4171,2 | 4793,8 | 5549,9 | 6508,7 | 8006,7 |

Azərbaycanın statistik göstəriciləri. 2007, s 119

Cədvəldən göründüyü kimi 2006-cı ildə əhalinin gəliri, əvvəlki illərə nisbətdə xeyli artmışdır. Bu da ki, yoxsulluğun aşağı düşməsinə, yəni onların 28%-dən 3%-ə enməsinə səbəb olmuşdur.

Respublikamızda əhalinin ərzaq məhsulları istehsalına olan tələbatının ödənilməsi ərzaq təhlükəsizliyinin əsasını təşkil edir. Müharibə vəziyyətində olan bir ölkə üçün ərzaq ehtiyyatlarının saxlanması əsas məsələdir. Məsələn, respublikamızda ərzaq məhsulları istehsalının həcmi 2007-ci ildə 9,6% artmışdır. Əhalinin 3 ay ərzində (2007-ci ildə) ümumi gəliri 20,8% olmuşdur. Əhalinin sayı 1,1% artmışdır. 2006-cı ildə xarici və müştərək müəssisələrin sayı 863-ə çatmışdır. Bu da ki, işsizlərin sayının azalmasına səbəb olmuşdur. 2006-cı ildə 291,2 min nəfər işsiz olmuşdur.

Əhalinin qismən də olsa maddi və mənəvi tələbatlarının ödənilməsi demoqrafik göstəricilərə də təsir etmişdir. Belə ki, əhalinin hər 1000 nəfərinə doğulanlar 2005-ci ildə 17,2%, 2006-cı ildə 17,8%, ölənlər 2005-ci ildə 6,3%, 2006-cı ildə 6,2% olmuşdur. Təbii artım 2005-ci ildə 10,9%, 2006-cı ildə 11,6% olmuşdur. Bu da o deməkdir ki, dövlət əhaliyə əgər yaxşı şərait yaratmış olarsa, onlara maddi və mənəvi cəhətdən köməklik göstərərsə bir o qədər əhalinin sayı artar, ölümün səviyyəsi azalar.

Qeyd etmək lazımdır ki, sahibkarlıq fəaliyyətində mühüm inkişaf müşahidə olunur ki, bu da iqtisadiyyatın liberallaşmasının dərinləşməsində böyük nailiyyətlər əldə edilməsinə səbəb olmuşdur. İqtisadiyyatın artım tempi əhalinin rifah səviyyəsinin yüksəlməsi üçün konkret tədbirlər görməyi tələb edir. Xarici investorların ölkəmizə ayırdıqları kapital sosial-iqtisadi inkişafda yeni nailiyyətlərin əldə edilməsinə, yeni texnologiyaların müəssisələrə yol

açmasına, iqtisadiyyatın müasirləşməsinə, qeyri-neft sahələrinin inkişafına böyük təsir göstərmişdir.

Yaddan çıxartmaq olmaz ki, bu çətin qloballaşma şəraitində Azərbaycan dünya iqtisadiyyatında öz milli maraqları naminə daxili və xarici siyasətini müdafiə etmək sosial iqtisadiyyatla bağlı təxribatlara qarşı ayıq-sayıq olmalı, nəhayət əməyə və intellekt səviyyəyə verilən dəyrləri qorumalıdır.

Biz yuxarıda qeyd etdik ki, ərzaq təhlükəsizliyi əsas sosial məsələdir. Bazar iqtisadiyyatına keçid dövründə iqtisadi təhlükəsizlik təhdidlərinə ən çox məruz qalan geniş əhali kütləsidir. Orta aylıq əmək haqqının hər il artırılmasına baxmayaraq, infilyasiya da artır. Hesablamalara görə əhalinin 29%-i yoxsul təbəqələr təşkil edir. (24,370) Lakin təssüflər olsun ki, onların sayı daha çoxdur. Aztəminatlı əhalinin sosial müdafiəsini gücləndirmək üçün ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ölkənin ərzaq təhlükəsizliyi ilə bağlı aşağıdakı nəticələrə gələ bilərik.

1. Ümumdünya Səhiyyə təşkilatı (ÜST) tərəfindən gün ərzində adambaşına 2100 kkal həcmində ərzaq istehlakı tövsiyyə edilir. ETBTŞ (ev təsərrüfatının büdcəsinin tədqiqatı şöbəsi) məlumatlarının təhlili göstərir ki, Azərbaycanda adambaşına gün ərzində 2001-ci ildə 2221 kkal, 2002-ci ildə 2393 kkal, 2003-cü ildə 2422 kkal, 2004-cü ildə 2425 kkal və 2005-ci ildə 2445 kkal ekvivalentində ərzaq məhsulları istehlak edilmişdir. Əhalinin adambaşına istehlak etdiyi məhsulların kəmiyyət və keyfiyyətində xeyli yaxşılaşma baş vermişdir.

2. Ev təsərüffatlarının tədqiqatı əsasında müəyyən edilmişdir ki, əhalinin desil qrupları arasındakı fərq xeyli azalmışdır. 2005-ci ildə ev təsərüffatları üzrə adambaşına orta aylıq gəlirlər 21,5 % artmış və son üç ildə ən yüksək artım sürəti əldə edilmişdir. İlin nəticələrinə görə, şəhər və kənd yerləri üzrə tədqiq edilən ev təsərüfatlarında yaşayan şəxslərin 3,6faizinin orta aylıq gəlirləri 30 manata qədər, 57,7 faizininki 30-50 manat, 33,1 faizininki 50-80 manat və 5,6 faizininki 90 manatdan olmuşdur. Ərzağa çəkilən xərclərin xüsusi çəkisi azalmışdır. Əgər 2001-ci ildə şəhər əhalisi istehlak xərclərinin 63 faizindən çoxunu, kənd əhalisi isə 74 faizə qədərini ərzaq məhsullarının alınmasına sərf edirdilərsə, 2005-ci ildə bu göstəricilər 52 və 56 faizə enmişdir. Yəni şəhər və kənd əhalisinin qeyri-ərzaq məhsullarına xərcləri xeyli artmışdır.

3. Ərzağın əldə edilməsi mənbələri də dəyişmişdir. Belə ki, öz təsərrüfatlarındakı məhsulların, qohum və yaxınların yardım göstərmələri hesabına, ev təsərrüfatının ərzaq məhsulları əldə etmək imkanlarını yaxşılaşdırmışdır:



4. Dünya birliyi sistemində ölkənin ərzaq müstəqilliyi xeyli güclənmişdir. İdxal olunan əsas növ ərzaq məhsullarının xüsusi çəkisi azalmış və ixracatda onun çəkisi xeyli artmışdır.

2004-cü illə müqayisədə 2005-ci ildə ərzaq məhsulları idxalının xüsusi çəkisi 11,8 faizdən 10,7 faizə düşmüş və onun mütləq həcmi 7,9 faiz artmışdır. Mühüm növ məhsullardan olan konservləşdirilmiş tərəvəz, şəkər, buğda, makaron məmulatları mal əti, quş əti, kərə yağı və s. idxalı artmışdır. (6,85)

Biz yuxarıda qeyd etdik ki, ərzaq təhlükəsisliyi əsas sosial-iqtisadi məsələdir. Son illər dünyada baş verəcək ərzaq təhlükəsizliyini aradan qaldırmaq üçün dünya dövlətləri bir sıra tədbirlər görməyə başlamışlar. Bu mənada respublikamız ərzaq təhlükəsizliyini aradan qaldırmaq üçün kəndli fermer təsərüffatının genişləndirilməsini və yüksək səviyyədə inkişaf etdirilməsini qarşısına bir məqsəd olaraq qoymuşdur.

Ölkəmizdə iqtisadiyyatın davamlı inkişafı hökumətin iqtisadi siyasətinin əsas prinsiplərindən biridir. İqtisadiyyatı möhkəm olan dövlət heç vaxt basılmaz. Azərbaycanda sahibkarlığın inkişafı yeni-yeni müəssisələrin açılmasına şərait yaradır. Bu da ki, işçilərin iş yerləri ilə təmin olunmasına ölkəmizdə işsizliyin qismən də olsa azalmasına səbəb olur. Qeyri-neft sahələrinin inkişafı istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə ixrac olunan məhsul istehsalının artırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına, gənclərin faydalı əməklə məşğulluğuna şərait yaradır. Ölkəmizə xarici kapitalın axını, şirkət sahiblərinin respublikamızın müxtəlif rayonlarında açdıqları yeni istehsal sahələri xalqımızın, yerli camaatın maddi durumunun inkişafına güclü təkan verir. Eyni zamanda yerli şirkətlərin xarici ölkələrdəki şirkətlərlə qarşılıqlı əlaqələri və beynəlxalq layihələrdə iştirakı Azərbaycan iqtisadiyyatının inkişafına. Önəmli təsir göstərir. Bütün bunlar Azərbaycanın müstəqillik əldə etdikdən sonra nail olmuşdur. Azərbaycan respublikası xarici şirkətləri sahibkararları və iş adamlarını respublikamıza dəvət edərək beynəlxalq əlaqələrə girmiş və dünya iqtisadiyyatına inteqrasiya etmişdir. Xüsusilə də «Böyük İpək Yolu»-nun bərpası əslində onun TRASEKA proqramı ilə sıx bağlılığını göstərir. Asiya ilə Avropanı, Şərqlə Qərbi bağlayan qədim «İpək Yolu» bu gün də öz aktuallığını saxlayıbdır. Bu yol başqa yollara nisbətən Şərqlə-Qərb arasında ən qısa yoldur. Bu fakt bir daha onu təsdiqləyir ki, Azərbaycan tranzit ölkənin «Şərq-Qərb» «Şimal-Cənub» nəqliyyat dəhlizində potensial ölkə imkanlarına malik kimi böyük yol oynayır. Bunun sayəsində ölkəmizə investisiya qoyuluşu artmışdır. Belə ki, bütün maliyyə

mənbələri hesabına investisiya qoyuluşu (xarici investisiyaları da nəzərə almaqla 1995-ci ildəki 2503 milyard manatdan 1997-ci ildə 6250 milyard manata və ya 544 min ABŞ dollarına çatmışdır. Həmin dövrdə Azərbaycan iqtisadiyyatına xarici investisiyaların yönəldilməsi 3,3 dəfə artmış və bu neft sənayesindən başqa digər sahələrə də xarici investisiya axını güclənmişdir. Təkcə 2003-cü ildə iqtisadiyyata 3856,3 milyon ABŞ dolları həcmində investisiya qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatımıza yönəldilmiş, 12,5 milyard miqdarında investisiya qoyuluşunun 84,2% istehsal sahəsinə istiqamətləndirilmişdir. Ümumiyyətlə, istehsala ayrılmış investisiyaların yarısı neft-qaz sənayesinə və iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsinə yönəlmişdir. Bütün bunların sayəsində sənayenin bəzi sahələrində neft emalı, metalurgiya, ağac emalı, şüşə və çini saxsı qablar istehsalında artım daha yüksək olmuşdur. Deməli, Azərbaycan iqtisadiyyatının yüksəlişində xarici investorlar böyük rol oynayırlar. Bu eyni zamanda ölkəmizin beynəlxalq aləmdə tanınmasına, iqtisadi əlaqələrin genişləndirilməsinə stimul yaradır. Lakin qeyd etmək lazımdır ki, təbii sərvətləri xammal mənbələri ilə zəngin olan bir ölkənin öz daxilində xırda şirkətlərin yox, iri, ağır metalurgiya müəssisələrinin, zavod və fabriklərin tikintisinə böyük ehtiyac vardır. Axı, sovetlər dövründə xammal mənbəyi kimi bütün yüngül, yeyinti, ağır sənaye müəssisələri Azərbaycanda yerləşirdi. Lakin təssüflər olsun ki, həmin zavodlar hal-hazırda tam gücü ilə işləyə bilmir. Biz bu müəssisələri yenidən bərpa etməklə işsizliyi aradan qaldıra bilərik.

Xarici ölkələr Azərbaycana investisiya qoyarkən birinci növbədə öz məqsədlərini güdürlər. Onlar azərbaycanlıların xeyli az hissəsinin işçi qüvvəsindən istifadə edərək onlara işlədiklərinin miqdarından aşağı əmək haqqı verirlər. Bir də ki, açdıqları şirkətlərdə yuxarı vəzifələrə öz işçilərini qəbul edərək, onlara yüksək əmək haqqı verirlər və nəhayət yerli fəhlələr heç bir şirkət tərəfindən sığortalanmırlar.

Biz müharibə vəziyyətində olan bir dövlətik. Azərbaycan iqtisaldiyyatına kapital ayıran dövlətlər çalışırlar ki, ölkədə sabitlik olsun. Çünki xarici şirkətləri bizim torpaqlarımızın işğalı maraqlandırır. Onları kapital yığımı, bizim təbii sərvətlərimiz maraqlandırmır. Məhz buna görə də bizdə milli maraq, vətəndaşlıq hissi milli şüur yüksək olmalıdır. Xarici ölkələrlə iqtisadi əlaqələr müasir texnologiyaların ölkəmizə gətirilməsinə, informasiya və telekommunikasiya sistemlərinin inkişafına böyük təsir göstərir. Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyası sahəsində GUÖAM mühüm yer tutur. GUÖAM beynəlxalq təşkilat kimi əhatə etdiyi məsələlərin aktuallığı



ilə seçilir. Bu təşkilatın üzvü olan dövlətlərin iqtisadi imkanları və iqtisadi əməkdaşlıq dairəsi ilbəil genişlənir.

Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrində aparıcı yerlərdən biri də İqtisadi Əməkdaşlıq Təşkilatı ilə yaratdığı əməkdaşlıqdır. Vaxtı ilə böyük Atatürk demişdir: «Sosial və iqtisadi həyatımız mədəni millətlərin çatdığı dərəcəyə görə nizamlaşdırılmalıdır». (67,134)

Həqiqətən də biz yüksək mədəni dövlətlər səviyyəsinə çatmaq üçün sosial-iqtisadi sahədə dünya dövlətləri ilə beynəlxalq əməkdaşlığımızı genişləndirməliyik. Bu mənada zəngin resurslara malik olan böyük strateji əhəmiyyət kəsb edən İƏT-ın daxilində olan ölkələrin imkanları hər il artır. İqtisadi əməkdaşlıq təşkilatına üzv olan ölkələrin VII zirvə görüşündə mərhum prezidentimiz H.Əliyev demişdir: «İlk illərini yaşadığımız yeni əsrdə bəşəriyyətin qarşısına dünyada sülhün bərqərar olunması və insanların firavanlıq, əmin-amanlıq şəraitində yaşaması kimi mühüm vəzifələr durur. Bu vəzifələrin öhdəsindən gəlmək üçün dünya dövlətlərinin ayrı-ayrılıqda göstərdikləri səylərlə yanaşı, regional təşkilatların məqsədyönlü fəaliyyəti də zəruridir. Bu səbəbdən İƏT-in üzərinə böyük tarixi missiya düşür». (98,484)

Azərbaycan respublikasının qoşulduğu beynəlxalq iqtisadi qurumlardan biri Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatıdır. Bu təşkilat yalnız iqtisadi deyil, eyni zamanda ticarət, sosial, texnoloji, elm, mədəniyyət, ekaloji, təhsil sferası çərçivəsində də əməkdaşlıq əlaqələri aparır.

XXI əsrin ən aktual problemlərindən biri də terrorizmə qarşı, narkotik maddələrin alınıb-satılmasına qarşı mübarizədə QİƏT-ı öz səylərini quruma daxil olan ölkələrlə birləşdirir.

Mərhum prezidentimiz H.Əliyev bu qurumun yaradılmasını zəruri edən tarixi şəraiti səciyyələndirərək belə deməşdir: «Bizim ölkəmiz müxtəlif beynəlxalq təşkilatların və qurumların üzvüdür. Onların sırasında QİƏT-ın öz yeri var. Çünki əvvəla, bu təşkilat ümumi bir regiona daxil olan dövlətləri birləşdirir. İkincisi və ən əsası isə onun iqtisadi əməkdaşlıq təşkilatı olması, region xalqları arasında sosial və iqtisadi tərəqqiyə, qarşılıqlı iş birliyinə nail olmağı özünün əsas məqsədlərindən birinə çevrilməsidir. Təşkilatın yaşı ilə onun sıralarında birləşən bir çox dövlətlərin yaşı arasında yaxınlıq var. Bu da onu göstərir ki, biz müstəqillik qazandıqdan sonra problemlərimizi birlikdə həll etmək, iqtisadi əməkdaşlığımızı dərinləşdirmək qərarına gəlmiş və QİƏT-ı qurmuşuq». (33,55)

QİƏT region dövlətlərlə əməkdaşlıq sahəsində sosial-iqtisadi inkişafa böyük töhfələr bəxş etmiş və xüsusilə Azərbaycanın siyasi müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynamışdır. Azərbaycan beynəlxalq

iqtisadi əlaqələr sferasına inteqrasiya etmişdir. Xarici iqtisadi əlaqələr Azərbaycanın dünya miqyasında tanınmasına və beynəlxalq aləmdə nüfuz dairəsinin artırılmasına səbəb olmuşdur. Eyni zamanda bir sıra beynəlxalq layihələrdə fəallıq göstərərək, beynəlxalq iqtisadi strukturların yaradılmasında fəallıq göstərmişdir. Azərbaycan əməkdaşlıq etdiyi ölkələrin adət-ənənələrinə hörmətlə yanaşaraq, dövlət quruculuğunun dönməzliyini və ardıcıllığını beynəlxalq aləmdə nümayiş etdirmişdir. Azərbaycan eyni zamanda dünyanın əsas maliyyə təşkilatları ilə əlaqələrini müvəfəqiyyətlə qurur. Belə ki, respublikamızın əməkdaşlıq etdiyi beynəlxalq maliyyə banklarından biri Asiya İnkişaf Bankıdır. Bu Bank Mərkəzi Asiyada və Sakit Okean ölkələrində yoxsul insanların tələbatlarına cavab olaraq onlara maliyyə yardımı göstərir yoxsulluğun azaldılmasına xidmət edir.

1966-cı ildə yaradılmış bu təşkilatın proqnozlarına görə Azərbaycanda inflyasiyanın səviyəsi 2005-ci ildə 5,5%, 2006-cı ildə 4,5, 2007-ci ildə isə 4% təşkil edəcəkdir. Asiya İnkişaf Bankının həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində yoxsulluğun azaldılmasına, korrupsiyaya qarşı mübarizədə dövlət iqtisadi inkişaf üzrə proqramında nəzərdə tutulmuş məsələlərə müsbət mənada nail olmuşdur.

Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq maliyyə institutları içərisində Avropa Yenidənqurma və İnkişaf Bankı xüsusi yer tutur. Bu Bank Azərbaycanda həyata keçirilən layihələrə 148 milyon dollar vəsait ayırmışdır. AYİB-ın respublikada həyata keçirdiyi bir yenilik də ilk dəfə olaraq Azərbaycanın özəl Bankı olanUni banka beynəlxalq sindikatlaşdırılmış kredit ayırmasıdır. Bu layihə Azərbaycanın bank sektorunda rəqabətin gücləndirilməsinə və iqtisadiyyatımızın qeyri-neft sektorunun hərtərəfli inkişafına kömək məqsədilə tərtib olunmuşdur. Həmçinin AYİB kiçik firmalara özəl korporativ müəssisələrə də kreditlər ayırmışdır.

Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrində Dünya Bankı mühüm yer tutur. Dünya bankı respublikamızın elektroenergetika sahəsində islahatların aparılmasında böyük rol oynayır. Dünya Bankının Azərbaycana verdiyi kredit ilk kommersiya krediti olmuşdur. Bütün bunlar bir tərəfdən ölkəmizin sosial-iqtisadi inkişafına, digər tərəfdən isə dünya dövlətlərinin Azərbaycana olan maraqlarından irəli gəlir. Burada bizim dövlətimiz milli maraqları hər şeydən üstün tutmalıdır. Eyni zamanda milli təhlükəsizliyimizi hər cür təhdidlərdən qorumalıdır.

Hal-hazırda Dünya Bankı iqtisadiyyatla əlaqədar respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərir. Dünya Bankının əsas layihələrindən biri kredit ittifaqının yaradılmasıdır. Artıq respublikamızda 26 kredit ittifaqı yaradılmışdır.



Bundan başqa respubliamız İslam İnkişaf Bankı ilə də əməkdaşlıq edir. İstər İİB-ı, istərsə də DB-ı Azərbaycanda yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması ilə əlaqədar xüsusi əhəmiyyət kəsb edir.

Biz kitabın əvvəlində qeyd etdik ki, Azərbaycan yeraltı, yerüstü sərvətləri ilə zəngindir. Bu zənginlik bütün sahələrdə olduğu kimi neft sahəsində də üstünlük təşkil edir. Heç təsadüfi deyil ki, ikinci dünya müharibəsində (1941-1945-ci illər) Hitler Bakıya bir güllə, bir bomba atmayacağını bildirmişdir. Çünki o yaxşı bilirdi ki, Bakının hər tərəfli neft mədənləridir. Əgər bir bomba düşsə hamısı alışacaqdır. Onu sözsüz ki, Bakının qara qızılı maraqlandırırdı. O deyirdi ki, analar, bacılar arxayın olun, mən Bakıya qarşı heç bir güllə atmayacağam. Bunu yazmaqda məqsədim odur ki, hal-hazırda Azərbaycana gələn xarici şirkətləri məhz Bakının nefti maraqlandırır. Bakı nefti milli təhlükəsizliyimizin əsas məğzidir. Məhz buna görə XXI əsrin ilk illərindən etibarən «Əsrin müqaviləsi» adı ilə tarixə daxil olan ilk beynəlxalq neft müqaviləsi imzalandı. Neft bir tərəfdən bizim xoşbəxtliyimizdir. Ona görə ki, iqtisadiyyatımızın yüksəlişinin təməl daşıdır. Digər tərəfdən bədbəxtliyimizdir. Ona görə ki, xarici dövlətlər neftə görə Azərbaycanı əsrin əvvəllərindən bu günlərimizə kimi çəkişmə meydanına çevirmişlər. Bu mənada «Əsrin müqaviləsi» adi ilə tarixə daxil olan ilk beynəlxalq neft müqaviləsi imzalandı. «Əsrin müqaviləsi» Azərbaycanı dünyaya tanıtdırdı. Belə ki, artıq xarici dövlətlər Azərbaycana investisiya qoymağa başladılar. 1994-2000-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafına 6 milyard dollar həcmində xarici investisiya cəlb edilmişdir. Bu investisiyaların 56% neft sektoruna, qalan hissəsi iqtisadiyyatın başqa sahələrinə yönəldilmişdir.

Biz yuxarıda qeyd etdik ki, Azərbaycanın (Bakının) neftinə görə xarici şirkətlərin bu ölkəyə maraqları ilbəil artır. Bu bizim milli təhlükəsizliyimizə təhdidlər gətirməyə bilməz. Xəzər nefti Səudiyyə Ərəbistanında xüsusi maraqla izlənilir. Əmirliyin təhlükəsizlik xidmətində iqtisadi kəşfiyyata baxan palkovnik Məhəmməd ibn Südeyf deyir: «Xəzər regionu bizim üçün ciddi bir regiondur. Bizi ən çox maraqlandıran – Azərbaycanın regionda mövcud nefti, qazı çıxarmaq, onun təhlükəsiz daşınmasını təmin etmək iqtidarında olub-olmamasıdır. Biz Bakının neft siyasətinə etinasız ola bilmirik. O, bizim üçün bu gün də olmasa, sabah təhlükə yarada biləcək gücə malikdir. Biz isə həm xarici siyasətdə, həm də iqtisadi siyasətdə itirmək yox, qazanmaq istəyirik. Bunun üçün bütövlükdə Xəzər regionunu öyrənmək baş-

lıca işimiz olub. Digər tərəfdən, vaxtilə müqavilələrinə razılıq vermədiyimiz xarici neft şirkətlərini yenidən dəvət edir, razılaşmalara təzədən baxırıq. Çünki onlar Xəzərdə xüsusi yer tuturlar». (79,116)

Göründüyü kimi Azərbaycan nefti, Qərb ölkələrinin bu neft sənayesinə ayırdığı sərmayələr bir sıra ölkələri narahat edir. İstər Qərb, istərsə də Şərq ölkələri Bakı neftinə, Azərbaycana olan maraqlarını gizlədə bilmirlər. Məsələn, Səudiyyə Ərəbistanın neft kəşfiyyatı ermənilərlə 14 yanvar 2000-ci ildə Bakı nefti ilə bağlı proqram-sənədi imzalamış və lazimi informasiyaların bir-birinə ötürülməsi haqqında müqavilə bağlamışlar. Beləliklə, ermənilərin Bakı nefti ilə bağlı əldə etdikləri informasiyalar sərbəst surətdə ərəb şeyxlərinə ötürülür. Onlar işğal etdikləri Qarabağ torpaqlarının strateji nöqtələrindən öz məkrli siyasətlərini həyata keçirirlər. Bakı neftinin isə buradan çox asanlıqla müşahidə edirlər.

Müsəlman aləmindəki insan artımı da Avropanı, xüsusilə ABŞ-ı çox narahat edir. Məhz buna görə də ABŞ hal-hazırda bütün islam dünyasına qarşı demokratiya adı altında səlib yürüşünə keçmişdir. Məsələn, İraq dövləti göz qabağındadır. Beynəlxalq oliqarxiyanın baş strukturu Karnegi fondunun Nyu-Yorkdakı ofisindjə yerləşən Beynəlxalq Münasibətlər Şurasının üzvlərindən biri olan N.Kissincer əhali artımına səbəb olaraq sənayenin tərəqqisinə, iqtisadiyyatın inkişafına həmişə mane olmağa çalışmışdır. Roma klubunun üzvü N.Klivlend demişdir: «Əhalinin hansı hissəsinin azaltmağı lazım olduğunu üçüncü dövlətlər öz aralarında özləri ayırıd etməlidirlər». (79,6) Bu Qarabağdan azərbaycanlı əhalinin çıxarılmasında öz təsdiqini tapdı.

ABŞ-ı kompüter sənayesi və xidmət sahəsi istisna olmaqla qalan bütün sənaye sahələrini ucuz qul əməyi olan Latın Amerikası ölkələrinə köçürür. İşsiz qalanlar isə ya məhv olacaqlar, ya da ki, narkomanlara çevriləcəklər. (79,10)

## § 2. 11 ƏTRAF MÜHİTİN VƏ ƏHALİNİN SAĞLAMLIĞININ MÜHAFİZƏSİ

Milli təhlükəsizliyin əsas məsələlərindən biri ətraf mühitin mühafizəsi, onunla bağlı təbii fəlakətlər və insanların fəaliyyəti nəticəsində baş verən qəzalər, əhalinin sağlamlığına, rifahına və əmlakına ziyan vuran amillər və s-dir.

Bütün bunlar milli təhlükəsizliyimizə zərər vura bilər. Respublikamızda fövqəladə halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması



üzrə tədbirlərin hazırlanması və əlaqələndirilməsinə məsul olan ayrıca qurum – Fövqəladə Hallar Nazirliyi yaradılmışdır. Azərbaycan Respublikası böhranların və fövqəladə halların qarşısının alınması üçün müəyyən tədbirlər planı hazırlayır. Bununla bağlı respublikamız təcrübə və informasiya mübadiləsi apararaq bir sıra dövlətlərlə ikitərəfli əməkdaşlıq edir. Bu sahədə çoxtərəfli əməkdaşlıq isə NATO mexanizmləri vasitəsilə inkişaf etdirilir və respublikamız bu imkanlardan fəal surətdə istifadəni davam etdirir.

Ölkəmizdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi və bunların həll edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən konkret tədbirlər müəyyənləşdirilir və həyata keçirilir.

Respublikamızda ölkə əhalisinə, ərazisinə və iqtisadiyyatına radiaktiv, bakterioloji və kimyəvi vasitələrlə göstərilən zərərli təsirin qarşısını almaq üçün bir sıra tədbirlər həyata keçirilir.

Milli təhlükəsizliyin qorunması üçün strateji əhəmiyyətli dövlət obyektlərinin xüsusilə neft, qaz hasilatı və emalı müəssisələrinin, magistral boru kəmərlərinin, içməli su mənbələrinin və s-nin terror təhlükəsindən müdafiəsi dövlətin ümdə vəzifələrindən biridir.

Ölkə ərazisinin böyük bir hissəsinin işğal altında olması və insanların yaşayış yerlərindən didərgin düşməsi ətraf mühitin qorunması sahəsindəki onsuz da qənaətbəxş olmayan ekoloji vəziyyəti daha da kəskinləşdirmişdir. Bu ekoloji problemlər aşağıdakılardan ibarətdir:

a) Su hövzələrinin, o cümlədən Xəzər dənizinin məişət və sənayedən atılan sirkab suları ilə çirkləndirilməsi.

b) Torpaqların eroziyaya uğraması və şoranlaşdırılması.

v) Atmosfer havasına zərərli qazların normadan artıq atılması və s.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında deyilir: «Ətraf mühitin çirkləndirilməsinə səbəb olan mənbələrin ləğv olunmasına, Xəzər dənizinin ekoloji problemlərinin aradan qaldırılmasına, onun biomüxtəlifliyinin qorunması və bərpa olunmasına və bununla bağlı digər məsələlərə xüsusi diqqət yetirilir». (2,7)

Respublikamızda mövcud ekoloji problemlərin dövlət səviyyəsində, dayanıqlı inkişaf prinsiplərinə müvafiq qaydada yerinə yetirilməsi məqsədilə respublika Prezidentinin 18 fevral 2002-ci il tarixli 1152 saylı Sərəncamı ilə «Ekoloji cəhətdən dayanaqlı sosial-iqtisadi inkişafa dair milli proqram» və Meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlarda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi yuxarıda qeyd olunan ekoloji problemlərlə yanaşı, cəmiyyətimizi narahat edən digər problemlərin də həll edilməsinə imkan verəcəkdir. Su ehtiyyatlarının, o cümlədən Xəzər dənizi

üzrə respublikamızda Xəzər Milli Fəaliyyət Planı hazırlanmışdır. Həmin planda Xəzər dənizinin bütün ekoloji problemləri tədqiq olunmuş, onların həll ilə əlaqədar layihə təklifləri hazırlanmışdır. Məsələn, balıqların təbii kürü tökmə imkanlarının artırılması üçün Kür çayında dibdərinləşdirmə işlərinin aparılması, Xəzər sahil zolağında meşəsalma, Abşeron gölləri ilə bağlı ekoloji problemlərin həlli və digər layihə təklifləri bu qəbildəndir. Bütün bunlar Nazirlər Kabinetinə təqdim olunmuş və maliyyələşdirilərək həyata keçirilmişdir.

Lakin respublikamızın yaşayış məntəqələrinə tullantı məişət sularının axıdılması üçün kanalizasiya sistemi kifayət dərəcədə deyildir. Belə ki, təmizləyici qurğular çatışmadığından çirkab suların müəyyən hissəsi təmizlənmədən su mənbələrinə axıdılır. Belə ki, respublikamızın 75 şəhərindən yalnız 35-də təmizləyici qurğular vardır. Qeyd etmək lazımdır ki, Bakı şəhərində məişət tullantı sularının yalnız 50%-ə qədəri təmizlənir. Mövcud təmizləyici qurğuların vəziyyəti qeyri-qənaətbəxşdir. Sənaye və məişət tullantılarının tam təmizlənmədən su mənbələrinə, o cümlədən Xəzər dənizinə axıdılması su mənbələrinin çirklənməsinə gətirib çıxarır. Eyni zamanda Ermənistanın Molibden və digər zavodlarından zəhərli maddələr Həkəri və Bərgüşad çaylarımıza axıdılır və bu da həmin çaylardakı balıq sərvətimizin məhvinə səbəb olur. Təəssüflər olsun ki, işğal altında olan bu ərazilərimiz erməni qəsbkarları tərəfindən dağıdılmış və biz heç bir tədbir görə bilmirik. Su mənbələrinin çirkab sularından təmizlənməsi milli təhlükəsizliyimizin prioritet məsələlərindən biridir. Bu həm də əhalinin sağlamlığının təhlükə altına alınması deməkdir. Xəzər dənizinə axıdılan tullantı və axıntı mənbələrinin, dənizin monitorinqi müasir beynəlxalq standartlara uyğun təşkil olunması üçün tullantı mənbələrinin kəmiyyət və keyfiyyət göstəriciləri qeydə alınmalı, mütəmadi monitorinq təşkil olunmalıdır. Strateji əhəmiyyətli olan Xəzər monitorinqinin yüksək səviyyədə təşkil edilməsindən ötrü və müasir cihaz, avadanlıqlarla təmin edilməsi üçün maliyyə vəsaitinin çatışmamazlığı əsas problemlərdən biridir. Təkcə 2002-ci il ərzində 1378 monitorinq işi həyata keçirilərək, 22739 fiziki-kimyəvi, kimyəvi, bioloji və ekotoksikoloji təhlillər aparılmışdır. İdarənin (Xəzər Kompleks ekoloji Monitorinq idarəsi) nəzdində olan, müasir avadanlıqlarla təchiz olunmuş lobaratoriyanın imkanları hesabına suda, havada, torpaqda, qruntda, qazma məhlulu və şlamda 70-dən çox məhlulu təhlil etmək mümkündür. Aparılmış tədqiqatlar nəticəsində bir sıra zəhərli kimyəvi maddələrin ətraf mühitə atılmasının qarşısı alınmış, müfəttişlər tərəfindən cərimələnmiş,



dəymiş ziyana görə iddia işləri qaldırılmış və ödəniş məbləğləri hesablanaraq ətraf mühiti mühafizə üzrə Dövlət Fonduna köçürülmüşdür.

Respublika Konstitusiyasının 39-cu maddəsində deyilir: «Hər kəsin sağlam mühitdə yaşamaq hüququ vardır. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquq pozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır». (27,20)

1992-ci il fevralın 25-də «Təbiəti mühafizə və təbiətdən istifadə haqqında» Azərbaycan respublikasının qanunu qəbul edilmişdir. Bu qanun təbii ehtiyatların ekoloji cəhətdən əsaslandırılmış istifadəsinin, bərpasının təmin edilməsi və bununla yanaşı ətraf mühitin kimyəvi, bioloji, radiaktiv maddələrin və digər çirklənmələrdən qorunması vəzifələrini irəli sürmüşdür.

Respublikamız müstəqillik əldə etdikdən sonra yaranmış keçid dövrü ilə əlaqədar iqtisadi əlaqələr pozulmuş və bunun nəticəsində bir çox sənaye müəssisələri öz fəaliyyətlərini dayandırmışdırlar. Bu baxımdan stasionar mənbələrdən atmosfer havasına atılan maddələrin miqdarı 1990-cı illə müqayisədə xeyli azalmışdır. Belə ki, 1990-cı ildə atmosfer havasına 2,1 mln ton zərərli maddə atıldığı halda, 2002-ci ildə 577,1 min ton olmuşdur.

Avtomabil nəqliyyatından atılan zərərli qazların miqdarının artması xüsusi narahatlıq doğurur. Belə ki, köhnə istismar müddəti çoxdan başa çatmış, ucuz qiymətə xarici dövlətlərdən alınıb gətirilmiş, nasaz nəqliyyat vasitələrinin istismarı nəticəsində şəhərlərin havasına küllü miqdarda normadan artıq zərərli qazlar buraxılır.

Şəhər sərnişindaşınma sistemində son illər baş verən proseslər də ekoloji baxımdan qənaətbəxş deyildir. Belə ki, iri sərnişin avtobuslarının yerinə bir çox sayda mikroavtobuslar buraxılır ki, bunun da nəticəsində yollarda tıxaclar yaranır və havaya buraxılan zəhərli qazların miqdarı daha da artmış olur. Düzdür 2006-cı ildə prezident İ.Əliyevin sərəncamı ilə respublikamızın bir neçə yerində geniş körpülərin tikintisinə başlanmışdır ki, bu da tıxacların qarşısını alacaqdır. Vətəndaşların milli maraqlarını nəzərə alaraq sənaye müəssisələrindəki qaz-toz tutucu qurğuların əsaslı təmir edilməsi və ya yeniləri ilə əvəz edilməsi, nəqliyyatda qurğuşunsuz benzindən istifadə olunmasına keçilməsi, tələblərə cavab verməyən köhnə nəqliyyat vasitələrinin isə istismarının qadağan edilməsi, ekoloji baxımdan təmiz sərnişin nəqliyyat növlərinin respublikamıza gətirilməsi, şəhər daxilində «piyada» zonalarının genişləndirilməsi, bu sahədə mövcud problemlərin qismən də həll edilməsinə köməklik göstərmişdir.

Son illər respublikamızda meşələrin sahəsinin azaldılması, onların seyrəkləşməsinə səbəb olmuşdur.

Ermənistanın respublikamıza təcavüzü nəticəsində 250928 ha (və ya meşə ilə örtülü sahənin 25%-i) meşə sahəsi işğal altında qalmış, 10233 ha meşə sahəsi isə təsərrüfat dövriyyəsindən çıxmışdır. Bunun nəticəsində respublikamızda, yəni ermənilərin meşələrimizi vəhşicəsinə qırması nəticəsində Ermənistanda onlarla ağac emalı sənayesi böyük sürətlə inkişaf etməyə başlamışdır.Ermənilər nəinki, meşələrimizi, eyni zamanda Kəlbəcərin qızılını da xarici ölkələrə satır. Torpaqlarımızın Ermənistan tərəfindən işğalı ətraf mühitimizi korlamış, təbii sərvətlərimiz, zəngin bitki örtüyü məhv edilmişdir. Sözsüz ki, bütün bunlar bizim iqtisadiyyatımıza, əhalinin sağlamlığına mənfi təsir göstərir. Ermənilər tərəfindən işğal altında olan ərazilərimizdə hərbi manevrlərin aparılması atmosferin çirklənməsinə və müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

Azərbaycan zəngin neft ölkəsidir. Burada ekoloji tarazlıq tez-tez pozulur və nəticədə ekoloji qəzalar baş verir. Bu da ki, insanlara ayrı-ayrı fərdlərə ziyan vurur. Xarici ölkələrdə, xüsusilə neft ölkələrində əhalinin müdafiəsi üçün adambaşına müəyyən məbləğ ayrılır. Məsələn, Səudiyyə Ərəbistanında 1156 dollar,Birləşmiş Ərəb Əmirliklərində bu məbləğin həcmi 1137 dollardır. Omanda 1089, Küveytdə 1025, Bəhreyndə 1020, Misirdə 62. Tibilisidə 39, Mavritaniyada 9 dollar edir». (53,12)

Xəzərin neft regionlarında isə əhalinin adambaşına müdafiəsinə ayrılan məbləğ belədir:

a) İran İslam Respublikası – 6 dollar.

b) Rusiya Federasiyası – 19 dollar.

c) Türkmənistan – (ayrılmayıb).

ç) Qazaxıstan – (ayrılmayıb). (54,3)

Şübhəsiz ki, biz də neft ölkəsiyik. Dünyada nefti ilə məşhurlaşan Azərbaycan da da adambaşına neftdən gələn gəlirdən cüzi olsa da belə dollarlar ayrılsa daha yaxşı olardı. Şübhəsiz ki, bu cür layihələrin işlənməsi xalqın milli maraqlarına cavab verərək Azərbaycanda milli təhlükəsizliyin qorunmasında böyük əhəmiyyət kəsb edər.

Dünyada ekoloji tarazlığın pozulmasından sonra dağılmış yaşayış məntəqələrində, təhsil və səhiyyə sistemində baş verən fəlakətlərlə bağlı Marakeşdə keçirilən simpoziumda 4 fevral 2003-cü ildə zərərçəkənlərlə iş üzrə komitənin eksperti Nezqa Hekruni belə bir xəbərdarlıq edir: «Qitələr ildə 1 mm həcmində bir-birinə yaxınlaşır. Qitələr bir-birinə meyl etdikcə iqlim dəyişir, məcralar sıxılır, isti küləklər çoxalır tufanlar, qasırğalar artır. Gözlənilmədən gah gün çıxır, gah qar yağır, gah da dağıntılar törədən dolu. Təbiətin bu hücumlarına qarşı, dünyanın hansı proqramı var? Biz məğlub oluruq. Təbiət qarşsında törətdiyimiz cinayətlərin cəzasını çəkirik». (110,3)



Biz hal-hazırda Qloballaşma şəraitində yaşayırıq. Həqiqətən qitələr, millətlər bir-birinə yaxınlaşır. Təbiətdə böyük dəyişikliklər baş verir. Buna görə də hər bir dövlətin buna qarşı milli proqramı olsa daha yaxşı olardı. (Azərbacanı nəzərdə tuturam).

Azərbaycan neft yataqlarına görə zəngin bir ölkədir. Neftə görə dünya ölkələrinin buraya maraqları ilbəil artır. Neft ixrac edən ölkələrin (Bakı-Tibilisi-Ceyhan) həm mənfəət baxımından, həm də geostrateji cəhətdən böyük əhəmiyyəti vardır. Lakin bu kəmər «Bakı-Tibilisi-Ceyhan» qədim arxeoloji abidələrin, qəbirstanlıqların, şəhər və qəsəbələrin yanından keçir. Sözsuz ki, bu da həmin ərazilərdə təhlükə yaradır. O.D.Pastuxovun fikrincə, bir qram, bir damcı neft təbiət üçün əsl fəlakətə çevrilə bilər. Hər çəkilən kəmərin və qazılan neft quyusunun ətraf mühitə nə qədər ziyan vurduğu hamıya bəllidir.

Məsələn, «Ekzon» neft şirkətinin Xəzərin «Zəfər meşəli» yatağında apardığı tədqiqat-qazma işləri zamanı çıxan tullantılar, zəhərli kimyəvi maddələr yenidən xəzər dənizinə axıdılır. Bu da nəticədə dənizin toksik maddələrlə zəhərlənməsinə, çirklənməsinə səbəb olur. Bu toksik maddələr müxtəlif yoluxucu xəstəliklərin yayılıb artmasına səbəb olur. (79,320)

Xəzərin çirklənməsi, nəinki müxtəlif xəstəliklərin yaranmasına eyni zamanda dənizdə olan 124 balıq növünün çoxusunun məhvinə səbəb olmuşdur.

Ekoloji tarazlığın pozulması Azərbaycanın bitki və heyvanat aləmindən də yan keçməmişdir. Belə ki, ekologiyanın korlanması Qızılağac qoruğundakı müxtəlif quş və bitki kol növünün məhvinə səbəb olur.

Azərbaycanın «Ətraf mühitin mühafizəsi» haqqında qanunun 61-ci maddəsində göstərilir ki, qoruqda hər hansı təsərrüfat fəaliyyətli işlərin aparılması qadağan olunur. Halbuki, «Salyan Yol TD» neft şirkəti Şirvan Dövlət qoruğunun ərazisində neft istehsalını genişləndirmək məqsədilə «Xüsusi proqramm işləyib hazırlamışdır. Bu proqrama əsasən xarici neft şirkətləri 25 il ərzində qoruğun ərazisindən 220 milyon barel neft çıxaracaq».

Əlbəttə ki, Azərbaycana xammal mənbəyi kimi baxan xarici şirkətləri kapital maraqlandırır. Onları əhalinin sağlamlığı, gələcək nəslin genefondu deyil, neft və digər sərvətləri maraqlandırır. Gərək, gələcək nəslin fiziki cəhətcə möhkəm və sağlam inkişafı üçün biz düşünək. Belə ki, biz yuxarıda

qeyd etdiyimiz kimi qoruqdakı neft qazıntısını aparan şirkətlər, sabah böyük iqlim dəyişikliklərinə, ətrafda iri bataqlıqların və gölməçələrin yaranmasına səbəb olacaqlar. Avropa Yenidənqurma və İnkişaf Bankı qoruğa 60 milyon dollarlıq kredit ayırıbdır. Əgər 1984-cü ildə qoruqda 11 min ceyran qeydə alınmışdırsa, 2002-ci ildə bu 2186 olmuşdur. «Tronterq Resaurss» şirkəti tərəfindən qazılmış 800-dən çox quyudan artıq 300-ü hazırdır. 150 quyu isə qazılacaqdır. Kür, Araz çayları Ermənistan tərəfindən çirkləndirilir. Belə ki, Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdən keçib Kürə tökülən çaylar vardır. Bu çaylara tökülən radiaktiv və digər zəhərli maddələr onu çirkləndirir. Nəticədə ətrafda yaşayan əhali müxtəlif xəstəliklərə tutulurlar. Atmosfer havası zəhərlənir. Bunun qarşısını almaq milli təhlükəsizliyimizin qorunmasının əsasını təşkil edir. Xarici ölkələrdə bu məsələlərlə bağlı dövlətin xüsusi proqramı vardır. Məsələn, Fransada bu sahədə milli təhlükəsizlik məsələlərini və millətin genefondunu qoruyan dövlətin «İqtisadi kəşfiyyat və şirkətlərin strateji xətti proqramı vardır. Rusiyada bu məsələlərə xaricdə nəzarət edən Xarici İqtisadi kəşfiyyat idarəsi fəaliyyət göstərir. ABŞ bu iqtisadi kəşfiyyatın zəifliyi ucbatından hər il 63 milyard dollar itirir».

Son illər respublikamızda ağacların kütləvi şəkildə kəsilməsi, yerində hündür mərtəbəli binaların tikilməsi gələcəkdə oksigen çatışmamazlığına səbəb ola bilər. Qoruqlarda nadir heyvanların azalması ekologiyamız haqqında bizi düşünməyə sövq edir. Təbrizli bioloq, professor Davud Ziyadi yazır: «Biz alimlər, sellərin, daşqınların məcrasını aşan çayların törətdikləri fəsadların yaratdığı çox məsələlərin qarşısında hələ ki, acizik. Ölənlərin ölüm səbəblərini araşdıra bilmirik. Xəstəliklərə qarşı vaksinlərimiz yoxdur. Görünür, biz baş verən fəlakətlərə tam hazır deyilik». (54,3)

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik konsepsiyasında deyilir: «Əhalinin sağlamlığının qorunması üçün dərmanların keyfiyyətinə nəzarət mexanizmlərinin və saxta dərmanlara qarşı mübarizənin gücləndirilməsi zəruridir». (2,3)

Biz saxta dərmanların ölkəmizə gətirilməsinə qarşı mübarizə apararkən çalışmalıyıq ki, ən əvvəl ətraf mühitin təhlükəsizliyini qoruyaq. Bu mənada Azərbaycanın Xəzər dənizindəki neft və qaz yataqlarını, boru kəmərlərini əhatə edən müqavilələrin bağlanmasının bizim ətraf mühitə nə kimi ziyanlar verəcəyini qabaqcadan nəzərdən keçirməliyik. Bu mənada AGT boru kəmərinin tikintisi sosial dağıntı ilə yanaşı maddi ziyan da gətirmişdir. Belə ki, boru kəmərinin tikintisi zamanı tikinti texnikası otlaqları və zəmiləri zədələmiş, kənd yollarını dağıtmışdır. Belə ki, məhsulun bölünməsi (MB)



müqavilələrini iki tərəf imzalamış, Azərbaycan Parlamenti ratifikasiya etmişdir. Beləliklə, həmin müqavilələr təkcə dövlətin qanuni deyil, həm də beynəlxalq qanun gücünü almışdır. Azərbaycan, Gürcüstan və Türkiyə dövlətləri də MB tipli müqavilələr imzalamışlar. Burada ilk MB müqavilələri sərmayələrin cəlb edilməsi üçün üstünlüyü neft şirkətlərinə vermiş olacaqdır. Bu müqavilənin strukturuna müvafiq olaraq Az\ərbaycan dövləti neft gəlirlərinin əsas hissəsini görməli olacaqdır. Məsələn, «Əsrin müqaviləsi» xərclər çıxıldıqdan sonra 2,5 milyard dollarlıq məhsulu 2000-ci ildə əldə etmişdir. 1994-cü ilin «Əsrin müqaviləsi» zəmanət verir ki, Azərbaycan BP-ni işinə görə lazimi ərazi ilə təmin edəcəkdir. Lakin MB müqaviləsi şirkətləri görək ekoloji qanunlara riayət edirmi? Əlbəttə ki, yox. Sözsuz ki, BTC kəmərinin keçdiyi ərazidə «Təbiətin qorunması haqqında qanun» pozulacaqdır. (17,183)

Bu gün AGT boru kəməri PKK-ın çox fəal olduğu Ərzurum yaxınlığındakı \ərazilərdən keçir. Bu da ki, boru kəmərinin keçdikləri ərazilərin hərbiləşdirilməsini tələb edir. Belə ki, 1999-cü ildən Gürcüstan artıq Bakı-Supsa boru kəməri boyunca hərbi keşik dəstələri yerləşdirərək borunun təhlükəsiliyini artırmaq üçün Azərbaycan ilə birlikdə hərbi təlim keçirir.

Göründüyü kimi boru kəməri dövlətlərə mənfəət gətirməklə bərabər ətraf mühitə və orada yaşayan əhalinin həyatını təhlükə altında qoyur. Məsələn, Bakı-Novorossiyski və Bakı-Supsa neft kəmərlərinin korroziya və texniki hazırlığı nəticəsində dənizə dəfələrlə neft axmışdır. Türkiyədə tez-tez zəlzələ baş verir. (17,172) AGT boru kəməri 40 il işləyə bilər və bu illər ərzində kim zəmanət verə bilər ki, ona ciddi ziyan dəyməyəcəkdir? Eyni zamanda AGT boru kəmərləri ekoloji fəlakətin səbəbi olacaqdırmı? Milli təhlükəsizlik standartlarına cavab verəcəkmi?

Göründüyü ekimi respublikamızdan keçən neft, qaz boru kəmərləri bizə nə qədər xeyir gətirirsə, bir o qədər də təhlükə gətirəcəkdir. Məhz buna görə də həmin ərazilərdə təhlükəsizlik tədbirləri görülməli və nəzarət altına alınmalıdır. Çünki bu ərazilərdə terror hadisələri də baş verə bilər.

Respublikamızda milli təhlükəsizliyin əsası kimi «Qəbələ radiolakasiya»sıdır. Bu stansiya 10 min km məsafədə kəşfiyyat işi görmək qabiliyyətinə malikdir. Qəbələdəki radiolakasiyanın dalğası ətraf rayonlara Oğuz, Ağdaş, Göyçay eləcə də digər şimal rayonlarına da təsir edir. Eyni zamanda Cənub zonasını, Bakı ətrafı ərazilərini də iflic vəziyyətinə gətirə bilər. Bu bizim genefondumuza edilən hücum və terrorun nəticəsidir. «Qəbələ» radiolakasiyası nəinki torpaq, hava və suyu zəhərləyir, eyni zamanda insanlar arasında müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Qeyd etmək la-

zımdır ki, bu strateji mərkəz beynəlxalq terrorizmin mərkəzidir. Ona görə də heç kəs zəmanət verə bilməz ki, sabah müstəqil Azərbaycana qarşı məkrli düşmənlərimiz bundan istifadə etməyəcəklər. Bu məsələ ilə əlaqədar MTN-i müəyyən tədbirlər görməlidir. Bir məsələni də qeyd etmək istərdim. Belə ki, BTC boru kəmərləri Xəzər neftinin Qərbi Avropanın, ABŞ-ın və Uzaq Şərqin elektrik stansiyalarında və avtomobil mühərriklərində yanmasını, Cənubi Qafqaz boru xətti isə Xəzər qazınun Türkiyənin və qərbin elektrik stansiyalarında yanmasını təmin edəcək. 2008-ci ildə BTC boru kəməri tam gücü ilə işləyib gündə 1 mln barrel neft daşıyacaq. Nəticədə hər il atmosferə 160 mln ton karbon iki oksid (SO2) qazı atılacaq. Bu bütün Britaniyanın 2000-ci il ərzində atmosferə buraxdığı 557 milyon ton karbon iki oksid qazının təxminən 30%-ə bərabərdir». (17,220) Cənubi Qafqaz qaz kəməri tam gücü ilə 2007-ci ildə işləməyə başladıqda 6,6 milyard kubmetr qaz daşıyacaq və onun yandırılmasından hər il 13 milyon ton SO2 qazı atmosferə tullanacaq. Göründüyü kimi boru kəmərləri nə qədər çox mənfəət gətirsə də bir o qədər də çox atmosfer havasını zəhərləyir.

Hələ onu da qeyd etmək istəyirəm ki, qaz kəməri deşilsə və atmosferə bu qaz qatılsa daha pis nəticələri ola bilər. Bundan başqa, Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik stansiyası tamamilə respublikamız üçün təhlükə mənbəyidir.

Respublikamızda ətraf mühitin mühafizəsinə ayrılan invesitisiyaların sayı ilbəil artır. Belə ki, ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadəyə yönəlmiş əsas investisiya qoyuluşu əgər 2005-ci ildə 2912,3 min manat təşkil edirdisə, 2006-cı ildə 8879,4 min manat olmuşdur. (16,129)

Son illərdə Azərbaycanla Aİ-ı arasında ətraf mühitin mühafizəsi və milli təhlükəsizliyin qorunması ilə bağlı əməkdaşlıq müqavilələri bağlanmışdır. Bu mənada \ətraf mühitin yaxşı idarə olunması ilə bağlı şərtlərin hazırlanmasının təmin edilməsi məqsədilə müəyyən addımlar atılması və onun tətbiqinə başlanması ilə bağlı aşağıdakı müddəalar irəli sürülmüşdür:

- Ətraf mühit məsələlərinin strateji planlaşdırılmasına və müvafiq iştirakçılar arasında əlaqələndirilməsinə təminat yaratmaq məqsədilə idarəetmə struktur və prosedurların gücləndirilməsi;
- Ətraf mühitlə əlaqədar inforomasiyanın əldə olunması və ORXUS Konvensiyasının tətbiqi daxil olmaqla ictimaiyyətin iştirakı ilə bağlı prosedurların təkmilləşdirilməsi;



- Ətraf mühitin vəziyyəti ilə bağlı mütəmadi olaraq hesabatların hazırlanması;
- Müvafiq qanunvericiliyin qəbulu və tətbiqi daxil olmaqla ətraf mühitə təsir göstərən amillərin dəyərləndirilməsi üçün prosedura və sturkturların təkmilləşdirilməsi;
- Ətraf mühitlə bağlı siyasətin faydaları uzrə kommunikasiya strategiyalarının tətbiq edilməsi; Sivill cəmiyyətin iştirakçıları və yerli hakimiyyət orqanlarının dəstəklənməsi;
- Ətraf mühitin mühafizəsi üzrə yeni Faliyyət Planının işlənib hazırlanması və qəbul olunması;

Bundan başqa Yohanannesburq Sammitinin öhdəliklərinə uyğun olaraq. Ətraf mühitin çirklənməsinin qarşısının alınması, insan sağlamlığının qorunması və təbii sərvətlərin rasional istifadəsinə nail olunması üçün aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulmuşdur:

- Milli ətraf mühitinin fəaliyyət planında təsnif olunmuş havanın keyfiyyəti, suyun keyfiyyəti, tullantıların idarə olunması, təbiətin mühafizəsi sektorları üçün planlaşdırmanın təmin edilməsi və Avropa tələblərinə uyğunlaşma prosesinin davam etdirilməsi;
- Təcrübə və məlumat mübadiləsi vasitəsilə xüsusən də şəhər tullantılırı ilə bağlı olaraq, tullantıların idarə olunması təcrübəsinin və planlaşdırılmasının təkmilləşdirilməsi üçün addımlar atılması;
- Ətraf mühit sahəsində espertiza və təlimlərin gücləndirilməsi və s. Həmçinin Aİ-ı ilə Azərbaycan arasında ətraf mühitlə bağlı monitorinqlərin keçirilməsi, trans-sərhəd su çirklənməsinin qarşısının alınması, mövcud milli plan və proqramların qəbul edilməsi və həyata keçirilməsi məsələləri işıqlandırılmışdır. Bu fəaliyyət Planında milli strategiyanın işlənib hazırlanması iqlim dəyişikliyi haqqında BMT-nin Çərçivə Konvensiyasının müddəalarının tətbiq edilməsi, Aİ-nin Su Təşəbbüsünün Şərqi Avropa və Mərkəzi Asiya komponentində fəal iştirak etmək, xüsusilə su ilə bağlı məsələlərdə qonşu ölkələrlə bağlanmış regional əməkdaşlığın genişləndirilməsi, Avropa Ətraf Mühit Agentliyinin fəaliyyətində iştirak etmək kimi məsələlər öz əksini tapmışdır. (10,15)

Bütün bu əməkdaşlıqlar göstərir ki, Azərbaycan ətraf mühitin qorunmasında milli maraqlara söykənərək Avropa dövlətlərit ilə əlaqələrini genişləndirir. Bu da təsadüfi deyildir ki, erməni terrorçuları təkcə Azərbaycan torpaqlarına deyil, eyni zamanda onun genefonduna qarşı da elan olunmamış müharibə aparır. Onu dəstəkləyən, xaç qardaşı Rusiya isə İrana azoton nüvə yanacağı satmışdır. (79,108) Bildiyimiz kimi Ermənistana

fars qardaşları olan İran da yaxından köməklik göstərir. Ermənilər işğal olunmuş Qarabağ torpaqlarını toksikoloji terror mərkəzinə çevirmişlər. Belə ki, burada onlar insanı zəhərləyib məhv edəcək toksinlərin kəşfi istiqamətində ciddi araşdırmalar aparırlar. Ermənistanın Azərbaycan istiqamətində layihələşdirdiyi zəhər proqramı üç istiqamətdə qurulub: a) havada, b) suda, c) quruda. Əldə olunan məlumata görə erməni tədqiqatçıları Azərbaycana ünvanlanmış bu «toksikoloji terror proqramı»nı 2002-ci ilin iyulun 2-dək mülki qaydada apardılar. 2003-cü ilin martın 19 da bu proqram demək olar ki, hərbiləşdirilirdi. Xankəndinin şərqində və Qubadlının şimalında qurulmuş laboratoriyalar hərbi hissəyə verilmişdir. İllik büdcəsi cəmi 2 milyon 114 min dollar olan və 2104 saylı hərbi birləşmənin sənədlərində «Fauna 1» kimi açıqlanan bu toksikoloji proqramı Ermənistanın hərbi-sənaye kompleksi kimi də qəbul etmək maraqlı olardı. (79,120)

Almaniya hökumətinin investisiyası ilə qurulan Ağcabədi qoruğu isə ekoloji tarazlığın pozulması təhlükəsi altındadır. Belə ki, ermənilər işğal olunmuş torpaqlarımıza yaxın olan rayonlarımızı da zəhərləmişlər. İşğal altında olan Həkəri və Bərgüşad çayları artıq öz rəngini itirmiş, çaydakı balıqlar zəhərlənmişdir. Çayların ətəklərindəki yaşıl zolaqların böyük bir hissəsi (İran ekoloqlarının məlumatına görə), yəni 780 hektarı zəhərdən çat verib, çürüyüb. (78,85) Bütün bunlar sözsüz ki, Ermənistanla sərhəd rayonlarının iqliminə güclü təsir göstərir. Həmçinin müxtəlif infeksion xəstəliklərin yayılmasına səbəb olur. 2003-cü il sentyabrın 12-də Ermənistan Toksikoloji institutunda keçirilən müşavirədə ölkənin hərbi sənaye kompleksində infeksion bakteriyanın qeydə alınması məsələsi xatırlanıb. (81,93) Bununla da Ermənistan qəsdən Ümumdünya Səhiyyə Təşkilatının qanuni və nizamnaməsini pozmuş olur.

Göründüyü kimi bütün bu hadisələr Ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün daim mübarizə aparmağı tələb edir.

Biz yuxarıda göstərdik ki, neft bizim başımızın tacıdır. Bizim repsblikamız onunla dünyada tanınır. Lakin gəlin görək bu, qara qızıl bizə hansı qara günləri gətirir. Məsələn, 1997-ci ildə Şimal kəmərində paslanmış borunun deşiyindən 7000 barrel neft ətrafa axmışdır. Boruların yaranması və torpaq sürüşmələri kimi texniki qəzalara görə Şimal və Qərb boru kəmərlərində 1998-1999-cu illərdə neftin nəqli bir neçə günlüyə dayandırılmışdır. Bildiyimiz kimi Azərbaycanın neftdən gələn gəliri ümumi gəlirin yarısını təşkil edir. Məsələn, 1998-ci ildən etibarən neft hasilatının artması neft sektorunun ağalığına və emal sənayesinin tənəzzülünə gətirmişdir ki, bu da 2000-ci ildə Azərbaycanın ümumi ixracatının 86,8%-nin neft məhsullarının



payına düşməsi ilə nəticələnmişdir. Çıraq bir platforması işə düşdükdən sonra istifadə olunmuş sular birbaşa Xəzərə tökülməyə başlamışdır. Lakin ətraf mühitə ziyan vurmamaq üçün əslində bu sular 50 metr dərinliyə axıdılmalı idi. Təəssüflər olsun ki, bu belə olmadı. Nəticədə qızıl və nərə balıqlara çox ziyanlar vurulmuş oldu. Həmçinin, əlavə suların axıdılması xeyli suitinin məhv olmasına gətirib çıxartdı. Xarici şirkətlər çox vaxt neftlə bağlı qəbul edilmiş sənədlərə tam riayət etmirlər. Məsələn, istehsalat tullantılarının zərərsizləşdirilməsi və neftin axmasının qarşısının alınması kimi problemlərə xarici şirkətlər yol vermişdilər.

Bu gün atmosferə tullanmış karbon iki oksid qazının 50 ildən 100 ilə qədər ömrü var. Beləliklə, bu gün yandırılmış qazıntı yanacaq bundan iki əsr sonra qlobal istiləşməyə təsir göstərəcəkdir. AGT boru kəmərlərinin ömrü 40 ildən artıq olacaq. Deməli, neft və qaz kəmərlə dünya bazarına 2040-ci ilə qədər daşınacaq. BP-nin bir gün ərzində işlətdiyi qazıntı yanacaq infrostrukturu Yer kürəsinin iqliminə 2240-cı ilə qədər təsir göstərəcək. AGT boru kəmərlərinin iqlim dəyişməsinə təsiri uzunmüddətli olacaqdır.

Qeyd etmək lazımdır ki, təbii qaz və ya metan istixana qazı kimi SO 2-dən 20 dəfə güclüdür. Deməli, təbii qaz yandırılmadan atmosferə düşürsə, onun iqlimə təsiri yandığı zaman alınan karbon iki oksid qazından daha ziyanlıdır. 1 kubmetr metan qazı 20 kubmetr karbon iki oksid qazı qədər iqlimə təsir edir. Nəticədə iqlim dəyişir. İnsan fəaliyyəti xüsusilə də yanacağın yandırılması və bundan təsiri heç də az olmayan torpaqdan istifadəni çətinləşdirir. Belə ki, meşələrin qırılması yer üzərində daha çox istixana effekti yaradan SO2 (karbon iki oksid) qazının konsentrasiyasını gücləndirir. Son nəticədə bu qaz günəş şüalarını udaraq onları yerə buraxmır, beləliklə də ümumdünya orta temperatur yüksəlir və bütün dünyada iqlimin dəyişməsinə səbəb olur. Belə ki, son illərin tədqiqatları göstərir ki, axırıncı 50 ildə yer kürəsində istiləşmənin əsas səbəbkarı insanların fəaliyyətidir. Amansız müharibələr, atmosferin dərin qatlarına raketlərin buraxılması, səmada baş verən partlayışlar sözsüz ki, iqlimə də təsir göstərir. Ehtimallara görə 1990-cı illə 2100-cü il arasında qlobal temperatur 1,4-lə 5,8 dərəcə arasında yüksələcək. Nəticədə, güman edilir ki, son on min il ərzində tayı bərabəri olmayan istiləşmə olacaqdır. (17,220) Bunun nəticəsində yağıntıların miqdarı artacaq, bir çox heyvan və bitki növləri məhv olacaqdır. Həmçinin bu bir çox xəstəliklərin yaranmasına səbəb olacaqdır. Eyni zamanda iqlim dəyişməsi əhalinin yoxsullaşmasına səbəb olacaqdır.

Biz yuxarıda qeyd etdik ki, atmosferə buraxılan qazlar və digər zəhərləyici maddələr planetin havasını dəyişir. Bütün sənaye müəssisələri xüsusilə

də neft və qaz sənaye müəssisələri hər il yerin atltından çıxarılan 7 milyard ton kömürün hesabına işlədilir. Kömürün yanması nəticəsində karbon qazı ayrılır atmosferi korlayır. Bu mənada Prinston Universiteti yanında Ekologiya İnstitutunun direktoru Stiven Pakala yazır: «Biz yaxın yarım əsr ərzində baş verəcək hadisələrin iki variantını təklif etmişik. İlkin varianta görə, atmosferə karbon qazının buraxılması son 30 ildəki sürətlə davam etdiriləcək və 2056-cı ildə onun atmosferdəki tərkibi XVIII əsrdəkindən 3 dəfə çox olacaq, yəni 14 milyard ton təşkil edəcək. Belə olan halda, kömürlə və qazla işləyən stansiyalara nisbətən havaya iki dəfə çox karbon buraxan və köhnələşmiş elektrik stansiyalarının sayının azaldılması da vəziyyəti xilas etməyəcək. İkinci varianta görə isə XXI əsrin ortalarına qədər karbon qazı ayrılmaları ildə 7 milyard ton qalacaq, növbəti yarım əsrdə isə yarıbayarı azalacaq». (24,406) Əgər müasir avtomabil il ərzində 16 min km gedərək, 100 km-ə 7,5 litr yanacaq işlədirsə, onda havaya 1 ton yanma məhsulu daxil olur. Nəqliyyat mütəxəssislərinin fikrincə 2056-cı ildə dünya yollarında 2 milyard avtomabil şütüyəcək və bunlar havaya 2 milyard ton karbon buraxacaq. Lakin mühərriklər qənaətcil olarsa, onda 100 km-ə 3,7 litr benzin işlədilər, zərərli tullantılar isə 1 milyard ton təşkil edər. (24,407)

Bütün bunlar bizim respublikamızda da həyata keçirilərsə atmosferə zəhərli qazlar az tullanar. Hal-hazırda respublikamızda svetafor vasitəsilə hərəkətin düzgün tənzimlənməsi, avtomobil yollarının keyfiyyətinin yaxşılaşdırılması şəhər yaşıllıqlarının artırılması da atmosfer havasının yaxşılaşdırılmasında mühüm rol oynayır. Köhnələşmiş elektrik stansiyalarının da dəyişdirilməsi atmosferə böyük təsir göstərə bilər. Bir də onu qeyd etmək lazımdır ki, Bakı şəhərində yaşıllıqların məhv edilərək, yerində göydələnlərin tikilməsi bir tərəfdən atmosfer, havasını korlayır, digər tərəfdən rayonlardan əhalinin Bakıya axınını gücləndirir və şəhərdə sıxlıq yaradır. Kəndlərimiz isə getdikcə boşalır. Bu çox çətin bir sosial məsələdir. Nəticədə ekologiyanın korlanması Bakı şəhərinin müxtəlif rayonlarında xəstəliklərin yaranmasına gətirib çıxardır. Məsələn, məlumata görə «Ekologiya İnformasiya Mərkəzi» Qaraşəhərin xəritəsini hazırlayıb.

Bu tibbi-ekoloji «Atlas» Qaraşəhərin ərazilərini - Nizami, Xətai və Nərimanov rayonunun yaşayış məntəqələrini əhatə edir. «Atlas»ın yaradıcılarına görə, Bakı yaxın illərdə ciddi «nəzarət zonası» elan edilə bilər. Məlumata görə bu rayonların sakinləri arasında xərçəng xəstəliyi əsl mənada tüğyan edir. Səbayıl rayonunda əhalinin 48, Sumqayıtda 48.31, Xətai rayonunda 42,35, Nərimanov rayonunda 35, Əzizbəyov rayonunda 28,24,



Nizami rayonunda 34, Qaradağ rayonunda isə 45,75% həzm orqanlarının iltibahından, mədə-bağırsaq yarasından əziyyət çəkir. (15,2)

Qeyd etmək lazımdır ki, bu xəstəliklərin yaranmasına təkcə atmosfer havası deyil, eyni zamanda ekoloji cəhətdən aşağı keyfiyyətli qida məhsulları da təsir göstərir. Ümumiyyətlə, göstərmək lazımdır ki, keyfiyyətsiz ərzaq məhsulları insanların genefonduna belə güclü təsir edir.

Dünyanın əşrəfi adlandırdığımız insanlar təbiətə elə ziyanlar vururlar ki, onu bərpa etmək qeyri mümkün olur. Məsələn, hər il Xəzər dənizinə 518,2 ton neft məhsulları, 78,728 ton sulfat, 92,067 ton xlorid, 3.412,8 ton fenol tökülür. Xəzər dənizinə 45 müəssisənin çirkab suyu axıdılır. Yaxud adambaşına düşən əkin sahəsi 0,92 hektar olduğu halda bu gün 0,20 hektarı əhatə edir. Amerikalı psixoloq Maykl Herisston «Özünü unudanlar» əsərində yazır: «Təbiət və ətraf mühitin çirklənməsi insan mənəviyyatının çirklənməsi deməkdir. Təbiətdə tarazlıq pozulubsa, insan orqanizmindəki tarazlıq da pozulub. O ya dəli olub qışqırır, ya da sakit bir guşəyə çəkilib ölümünü gözləyir». (79,227)

Göründüyü kimi təbiətdəki ekstremal şərait cəmiyyətə də həmişə nüfuz edərək ya onların məhvinə, ya da ki, dahilərin, görkəmli şəxsiyyətlərin meydana çıxmasına, iqlim, coğrafi relyefin dəyişməsinə səbəb olub. Məsələn, Azərbaycanın təbiətində tarazlığın pozulması, mövcud 9 iqlimdən 3-nün məhvinə səbəb olub. (88,223) Rus psixoloqu, Moskvadakı Elmi tədqiqatlar və araşdırma mərkəzinin əməkdaşı, professor Leonid Davidoviçin fikrincə, Azərbaycanın cənub bölgəsində stress vəziyyətində yaşayanların sayı regiondakı ekstremal şəraitə uyğun dəyişir. Professor «Elmi məcmuədə yazır: Stress vəziyyətlərə səbəb var: a) iqlim, b) həyat tərzi, c) yaşayış səviyyəsi, ç) münasibət, d) intellekt düşüncə. Mən bir-birinin ardınca iki dəfə Azərbaycanın cənub və şimal rayonlarında olmuşam. Ərazilərdəki stress hal məni düşündürdü. Belə stress mənzərələr Rusiya Federasiyasının subyektlərində də çoxdur. Fikrimizcə, cənub bölgəsinin təqribən 47 faizi stress vəziyyətdə yaşayır». (90,6)

Göründüyü kimi ətraf mühit insanların yaşayış tərzinə hərtərəfli təsir edir. Bu mənada bu gün ölkəmizdə sosial-iqtisadi sahələrlə yanaşı, ətraf mühitin sağlamlaşdırılması sahəsində də böyük işlər görülür. Belə ki, son illər aparılmış məqsədyönlü dövlət siyasəti, beynəlxalq təcrübədən istifadə və həyata keçirilmiş ardıcıl tədbirlər nəticəsində ətraf mühitin mühafizəsi və təbiətdən səmərəli istifadə edilməsi sahəsində uğurlu nailiyyətlər əldə olunmuşdur. Ekoloji problemlərin həllinə böyük qayğı göstərən prezident İ.Əliyev bildirib ki, ekoloji məsələlərə diqqət, eyni zamanda ölkənin ümumi

siyasətinin, ümumi mədəniyyətinin təzahürüdür. Son nəticədə ən önəmli sahə budur. Bildiyimiz kimi neft-qaz tükənən sərvətdir. Onların müvəqqəti önəmi var. Ancaq təbiət ətraf mühit bu, daimi sərvətdir. Əsrlər boyu, minilliklər boyu təbiət olub, kainat olub, dünya olubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, bunu qoruyaq. Özümüz üçün. Gələcək nəsillər üçün, ölkəmizin yaşaması üçün qoruyaq. Ona görə biz bu məsələlərə çox böyük önəm veririk. Çalışırıq ki, ekoloji proqramların icrasında Azərbaycan qabaqcıl yerlərdə olsun. Bu baxımdan 2006-2007-ci illər Azərbaycanda ətraf mühitin sağlamlaşdırılması sahəsində irimiqyaslı layihələrin həyata keçirilməsi ilə fərqlənir. Belə ki, 2006-cı il iyulun 3-də prezident yanında keçirilən respublikanın ekoloji durumuna həsr olunmuş müşavirədə ətraf mühitin sağlamlaşdırılması sahəsində prioritetlər müəyyən edildi. Bu tapşırıqlar əsasında «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı» prezident tərəfindən təsdiq edildi. Bunun əsasında Bakı şəhərində və Abşeron yarımadasında ətraf mühitin sağlamlaşdırılması istiqamətində müəyyən tədbirlər həyata keçirilməyə başlanıldı.

Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Xəzər dənizinin sahil sularının çirklənmədən qorunması məqsədilə Azərbaycan prezidentinin «Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında» sərəncamına əsasən bu sahədə qlobal işlərin görülməsi məqsədilə bütövlükdə 4,2 milyon manat vəsait ayrılıb. Bu vəsait hesabına dəniz sularının sahildən çirklənməsinin qarşısını almaq üçün hazırda modul tipli, çox müasir təmizləyici qurğular şəbəkəsindən ibarət lokal sistem yaradılır. Bu da ki, dənizə bu və ya digər formada düşən çirkab suların miqdarını sıfra endirəcək və bu da həm dəniz biomühitinin sağlamlaşmasına, həm də bu sahədə yerləşən reaksiya obyektlərinin təhlükəsiz fəaliyyət göstərməsinə şərait yaradacaqdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan təkcə ekoloji cəhətdən keçmişdə yaranan problemlərin həlli ilə yox, həm də qonşu ölkələrdə əmələ gələn və respublikamızın təbiətinə təsir edəcək problemlərin qarşısını almaq üçün də təsirli tədbirlər görür. Bu mənada 50 kənd ən müasir modul tipli su təmizləyici qurğularla təmin olunacaqdır.

Ümumiyyətlə, iri şəhərlərdə su təchizatı sistemlərinin yenidən qurulması əhalinin böyük bir hissəsinin suya olan tələbatının 2009-cu ilədək ödənilməsinə imkan verəcəkdir.

Ölkəmizdə tikiləcək «Oğuz-Qəbələ-Bakı» su kəmərinin tarixi bir layihə olmasını qeyd edərək İ.Əliyev demişdir: «Biz müasir ölkə qururuq, ölkəmizi hərtərəfli inkişaf etdirmək istəyirik. Ona görə də bu sahə həmişə diqqət mərkəzində olmalıdır. Həm ətraf mühitin qorunması, çirklənmənin qarşısının alınması, həm də əhalinin təmiz su ilə təmin olunması məsələləri diqqət mərkəzində olmalıdır. (3,2) Qeyd etmək lazımdır ki, ekoloji məsələlərə diqqət, qayğı ölkəmizin ümumi siyasətinin və mədəniyyətinin təzahürüdür. Ümumiyyətlə, ölkədə ekoloji məsələlərin həlli ekoloji mədəniyyətin yüksəlişi deməkdir.



## § 2.12. ƏRAZİ BÜTÖVLÜYÜNÜN QORUNMASI MİLLİ TƏHLÜKƏSİZLİYİN ƏSASINI TƏŞKİL EDİR

Azərbaycan dövlətinin müstəqilliyinin qorunması onun ümdə vəzifəsidir. Müstəqilliyimizin əsasını ərazi bütövlüyünün saxlanılması təşkil edir. Bildiyimiz kimi Azərbaycan torpaqları Erməni işğalçıları tərəfindən neçə illərdir ki, zəbt edilmişdir. Axı Ermənistan respublikası qeyd etmək lazımdır ki, kimin ərazisi hesabına və kim tərəfindən bir dövlət kimi yaranmışdır? Əlbəttə ki, tarixi vərəqləsək görərik ki, heç erməni dövləti olmayıbdır. Azərbaycan torpaqlarına ruslar tərəfindən köçürülmüş bu, azsaylı xalq ərazimizdə yerləşdikdən sonra özlərini dövlət elan etmişlər. Əzəli Azərbaycanın qədim xanlıqlarından biri olan İrəvan xanlığında 1918-ci ilə kimi 80%-ə qədər azərbaycanlı yaşamışdır. Erməniləri İran və Türkiyədən ruslar, Cənubi Qafqazda özlərinə bir dayaq kimi yerləşdirmişlər. Onlar bu torpaqlarda yerləşdikdən sonra tədricən azərbaycanlıları sıxışdırmağa başlamışlar. Qeyd etmək istəyirəm ki, Azərbaycan rəhbərliyinin zəifliyi və yaxud xalqına qarşı laqeyidliyi, etinasızlığı ucbatından qədim dədə-baba yurdlarından xalqımız vəhşicəsinə qovulmuşlar. 1918-ci ilə kimi Azərbaycanın 100-dən çox kəndi ermənilərə satılmışdır. Ermənilər aldıqları kəndlərin adlarını dəyişdirərək erməni adı qoymuşlar. 1988-ci ilə kimi isə bir azərbaycanlı belə Ermənistanda qalmamışdır. 1918-ci ildən etibarən «sapı özümüzdən olan baltalılar» qədim azəri torpaqları olan İrəvan və onun ətrafındakı rayonları ermənilərə bağışlamaqla, gələcək həyatımızı təhlükəyə atdılar. Onların etdikləri səhflər indiki dövlətimizin təhlükəsizliyinə səbəb oldu. Qeyd etmək lazımdır ki, o zaman yəqin ki, milli idealogiyamız hazırki dövrümüzdəki kimi formalaşmamışdır. Milli ideologiya milli təhlükəsizliklə qarşılıqlı əlaqəlidir. İdeologiya anlayışının şərhi dəfələrlə dəyişmişdir. İndi ideologiyaya cəmiyyətin mənəvi həyatının fenomeni, ictimai şüurun spesifik səviyyəsi kimi baxılır. İdeologiya mövcud reallıqlara haqq qazandırır, insanların fərdi və kollektiv davranışı kimi çıxış edir. Bizim ide-

ologiyamız azərbaycançılıqdır. Bu ideologiya Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanmasına xidmət edir. Bu ideologiya bütün xalqlara, etnoslara sülh əmin-amanlıq aşılayır, qarşılıqlı əməkdaşlıq və bərabərliyin əsasını təşkil edir.

Bu ideologiya milli dövlətin suverenliyini qorumağa, milli rifah səviyyəsinin yüksəlməsinə çalışır. Azərbaycançılıq güclü dövlət hakimiyyətinin və milli intizamın, milli maraqların və milli özünüdərkin olmasını istəyir. Azərbacan dövləti öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyə, ölkəni tərəqqiyə, firavanlığa doğru aparmağa qadirdir. Azərbaycançılıq-Azərbaycanın dilini, mədəniyyətini, adət-ənənələrini, milli mənəvi dəyərlərini hər cürə milli təhlükəsizlikdən qoruyur.

Azərbaycan Avropa ilə Asiyanın qovşağında yerləşir. Bu da onun iki sivilizasiyanın təsiri altında formalaşmağa imkan yaradır. Bu, Şərq təməli və Qərb təsiridir. Bu gün Azərbaycana istər Qərbdən, istərsə də Şərqdən təzyiqlər göstərilir, terror aktları hazırlanır. Bu sahədə Azərbaycanın daxilində yaşayan müxtəlik etnik qruplardan istifadə edirlər. Məsələn, 2002-ci ildə Mahaçqalada yaşayan bir neçə nəfər ermənilərlə danışıqlar aparmışlar ki, guya avarlar Azərbaycanda sıxışdırılır, onlara muxtariyyət verməк lazımdır. Bunun üçün avarların Azərbaycanda muxtariyyət uğrunda mübarizəyə qalxacağı təqdirdə onlara 300.000 ABŞ dolları məbləğində pul, 1.000 ədəd avtomat silah ilə kömək edəcəyini ermənilər söz vermişdilər. (11,7)

Bu kiçik epizoddan göründüyü kimi respublikamıza qarşı ermənilər tərəfindən hər an terror törətmək halları biş verə bilər. Təcavüzkar Ermənistan öz ərazisini Azərbaycan torpaqları hesabına genişləndirmək məqsədilə respublikamızda yaşayan digər azsaylı xalqları da öz mənfur siyasətlərinə cəlb etmək istəyirlər. Onlar Zaqatala və Balakən rayonları ərazilərində ictimai təhlükəsizliyi pozmaq, əhalini qorxutmaq, vahiməyə salmaq, adamların həlakı ilə nəticələnən terror aktları, yəni partlayışlar, yanğınlar törətmək istəyirlər. Ermənistan işğal altındakı ərazilərimizdə narkotik bitkilər becərir, xarici şirkətlərlə əlaqə saxlayaraq, Azərbaycanın yeraltı-yerüstü sərvətlərini talan edirlər. Azərbaycanın qədim yer adlarını dəyişərək erməniləşdirirlər. Belə vandalizm şübhəsiz ki, dinlərarası dioloqun yaranmasına maneçilik törədir. Bu mənada Türkiyə dövlətinin biş naziri R.T.Ərdoğan 2008-ci ilin fevralın 9-da Almaniyanın Münxen şəhərində keçirilən 44-cü «Münxen təhlükəsizlik» konfransında ermənilərin Qarabağı tərk etmələrini bildirmişdir. O, demişdir: «Kimin kimi yurdundan qovduğunu, kimin soyqırım törətdiyini Dağlıq Qarabağ hadisələri açıq-aydın göstərir?» (77. wap/ mob)



Türkiyənin baş naziri Münxen təhlükəsizlik konfransında Ermənistanın xarici işlər naziri V.Oskanyanın verdiyi suala sərt cavab vermişdir. Türkiyə vətəndaşı olmayan 40 min ermənininin bu ölkədə yaşadığını bildirən Ərdoğan, görəsən ermənilər niyə ermənistandan və başqa ölkələrdən qaçıb mənim ölkəmə gəlirlər? Bu sualı öz-özlüyündən soruşun. Niyə gəldilər? Çünki Türkiyə sülh ölkəsidir? - deyə R,T,Ərdoğan Oskanyanın sualına sərt reaksiya veribdir! Ermənilərdən Dağlıq Qarabağı tərk etmələrini tələb edən Ərdoğan bütün dünyanın Ermənistanı işğalçı dövlət kimi tanıdığını vurğulayıb. Baş nazir Minsk qrupunun Qarabağla bağlı heç bir qərarın verilmədiyini və prosesin ləngidiyini vurğulayıb. Çıxın Qarabağdan! Tərk edin o yerləri! Orada yaşayan minlərlə, on minlərlə, yüz minlərlə azərbaycanlı öz yurduna, yuvasına qayıtsın. Onlar hamısı bizim soydaşlarımızdır. Bu fikrə müsbət yanaşın, sizin də sülh prosesində dəstəyiniz olsun. Ərdoğan daha sonra 1915-ci il qondarma erməni soyqırımı hadisələrindən də bəhs edərək, bununla bağlı əlimizdə hansı sənədlər var? Mən 2005-ci ildən bəri arxivləri açmışam və 1 milyondan yuxarı sənəd ortaya çıxarmışam. Siz də arxivlərinizi açın və tarixçilər bunu qarşılıqlı surətdə açıqlasın demişdir.

Ərdoğan çıxışı ilə bir daha dünya ictimaiyyətinə çatdırmışdır ki, ermənilərin əzəli torpaqları olmamış, onlar türk torpaqları hesabına Ermənistan respublikası yaratmışlar. Həqiqətən də bu belədir. Belə ki, rəsmi məlumatlara əsasən, 1928-30-cu illərdə Şimali Azərbaycana İrandan 40 min, Osmanlı imperiyasından isə 90 minə qədər erməni köçürülmüşdür. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə isə onların sayı 200 mini ötmüşdür ki, bunların da bir qismi İrəvanda məskunlaşmışdır. Faktlara nəzər salsaq görərik ki, Ədirnə sülh müqaviləsinə görə, rusların Ərzurumu boşaltmasından qorxan 14 mindən artıq erməni ailəsi (84600 nəfər) Rusiya ərazisinə köçür. 1928-29-cu illərdə İrandan 6946 erməni ailəsi (35560 nəfər), 1830-cu ilə qədər isə Türkiyədən 3682 erməni ailəsi (21666 nəfər), rusların yaratdığı erməni vilayətinə köçürülmüşdür. 1928-29-cu illərdə isə bu əraziyə İrandan 4559 ailə (23563 nəfər), Türkiyədən isə 3674 ailə (21639 nəfər) köçürülmüşdür. Təkcə iki il ərzində yalnız İran və Türkiyədən İrəvan xanlığının ərazisində yaradılmış İrəvan əyalətinə 8233 erməni ailəsi (45202 nəfər) köçürülmüşdür. 1830-cu ildə bu vilayətdə erməni ailələrinin sayı 15059-a (82377 nəfər) çatır. Həmin illərdə yerli əhali arasında azərbaycanlı ailələrinin sayı 9196 (49875 nəfər), erməni ailələrinin sayı isə 3498 (20073 nəfər) olmuşdur.

Beləliklə, ermənilərin İrəvanda azlıqda qalması faktı XX əsrin əvvəllərinə qədər davam etdi. Tarixi mənbələrdən aydın olur ki, İrəvan xanlığının

95%-ə qədəri azərbaycanlı olmuşdur. Belə ki, erməni alimi Zaven Korkotyan 1931-ci ildən çap etdirdiyi (1931-ci ildə) «Sovet Ermənistanının əhalisi «1831-1931» adlı kitabında göstərirdi ki, 1883-cü ildə isə 27.246 nəfərindən 23.626 nəfəri yəni 85,2% azərbaycanlı olmuşdur». Rus alimi N.N.Şavrov isə 1911-ci ildə Sank-Peterburqda nəşr etdirdiyi «Novaya uqroza russkomu delu v Zaqafqazye» kitabında yazırdı: «1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənisi köçürülmüş və onların Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi. 124 min rəsmi köçürülən erməni ilə yanaşı, qeyri-rəsmi köçən ermənilərin sayı 200 mindən artıqdır. Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənin bir milyonu yerli erməni deyildir. Onlar vilayətə bizim tərəfimizdən köçürülüb». Erməni alimi Jorj Burmusyan 1983-cü ildə Fransada çap olunmuş «Qafqaz: millətçilik və sosial imkan» kitabındakı «XIX əsrin birinci yarısında Ermənistanın etnik tərkibi və sosial-iqtisadi şəraiti» məqaləsində göstərirdi: «XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan vilayətinin əhalisinin əksəriyyəti müsəlman olub».

1830-cu ildə İrəvan və Naxçıvan xanlıqlarının ərazisi hesabına təşkil edilən «Erməni vilayəti» 1840-cı ilin inzibati islahatları vaxtı ləğv edildi və İrəvan quberniyası adlandırıldı. Erməni vilayətinin ləğvi ermənilərin müstəqil dövlət yaratmaq planlarına ağır zərbə vurdu.

Ermənilər XIX əsrin sonlarından başlayaraq Azərbaycan torpaqlarında «böyük Ermənistan» ideyasının reallaşdırılması uğrunda açıq mübarizəyə başladılar. Belə ki, ermənilərin 1890-cı ildə Osmanlı dövlətinə qarşı qaldırdıqları xəyanətkar qiyamlar uğursuzluqla nəticələndi. Buna görə də 400 minə qədər erməni Türkiyədən Qafqaza köçürüldü. Bu o zamanlar idi ki, onların erməni dövləti yaratmaq məqsədi qarşıya qoymuş «Armenian» (1885), «İnçak» (1887), «Daşnakstyun» (1890) kimi siyasi təşkilatları fəaliyyət göstərirdi. Bu təşkilatların əsas məqsədi azərbaycanlılara qarşı terror törətmək idi. Onların azrbaycanlılara qarşı soyqırım siyasəti həmin dövrdən başlandı.

1918-cu ildə isə Xalq Cumhuriyyəti tarixi bir səhvə yol verdi. Belə ki, F.Xoyski başda olmaqla Cumhuriyyətin Milli Şurası İrəvanın mərkəzi kimi Ermənistana güzəştə gedilməsinə dair iclas keçirtdi. Bu iclasın qərarı Azərbaycan tarixinə qanla yazılmış qara bir ləkə saldı ki, indi bizim nəsil (XX əsrdə) bunun əziyyətini çəkir. Milli Şura Azərbaycan xalqının rəyini belə bilmədən (16 nəfər) bu qərarı qəbul etmişdir. Bunun nəticəsində azərbaycanlılar tədricən Ermənistandan, öz dədə-baba yurdlarından çıxarıldı.



1988-ci ildə isə birdəfəlik bütün azərbaycanlılar silah gücünə Ermənistandan qovuldu. İndi görəsən kimdir günahkar? Xalq, yoxsa onunla hesablaşmayan dövlət məmurları? Bir də onu qeyd etmək istəyirəm ki, zaman kimin günahkar olduğunu göstərəcəkdir.

Biz həmişə M.Bağırovu tənqid etmişdik. Lakin hər bir insanın mənfi xüsusiyyətləri ilə yanaşı, müsbət xüsusiyyətləri də vardır. Bu mənada M.Bağırov o, vaxtlar, yəni 1945-ci ildə Ermənistanın birinci katibi Q.Arytyunovun və SSRİ Xalq Komissarı Şurası sədrinin müavini Mikoyanın Dağlıq Qarabağın Ermənistana verilməsi təklifi əsasında, Ümumittifaq K(b) PMK-nın katibi Q.Malenkovun təklifinə qarşı, Bağırov cavab məktubunda bu təklifin reallaşacağı təqdirdə, Ermənistan SSR-nin azərbaycanlılar yaşayan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının, habelə Gürcüstan SSR və Dağıstan MSSR-də azərbaycanlıların cəm halda yaşadıqları rayonların da Azərbaycana verilməsinin vacibliyini bildirdi. Biz M.Bağırovun bu tarixi xidmətlərini qiymətləndirməyə bilmərik. O, vaxt M.Bağırovun bu xidməti nəticəsində Qarabağ torpaqları ermənilərə verilmədi.

Vaxtı ilə A.S.Qriboyedov Rusiya imperatoruna məktub yazaraq bildirmişdir ki, əlahəzrət, olmaya, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfalardırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır.

Bu amilləri erməni alimi Zaven Korkotyan etiraf edərək demişdir: «1883-cü ildə İrəvan şəhərinin 18,776 nəfər əhalisinin 15,992 nəfəri, 1886-cı ildə isə 27,246 nəfərindən 23,626 nəfəri, yəni 85,2%-i azərbaycanlı olmuşdur». (3,2)

İlham Əliyev demişdir: Biz heç kimin torpağını zəbt etməmişik. Halbuki, indiki Ermənistan dövləti tarixi Azərbaycan torpağında formalaşıbdır. İrəvan şəhərini Xalq Cumhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək o da böyük bir səhv idi. 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti yarananda İrəvan şəhərini Ermənistana bağışlamışdır.

İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdilər. Ona görə haqq-ədalət, tarixi həqiqət, beynəlxalq hüquq, iqtisadi imkanlar, hərbi potensial-bütün bu amillər tərəzinin bir gözündə, Ermə\nistanın qeyri-kolnstruktiv və heç bir beynəlxalq normalara sığmayan siyasəti tərəzinin başqa gözündədir. (5,3)

Qeyd etdiyimiz kimi Ermənistan rusların hesabına Ermənistan olmuşdur. Rusiya imperiyası işğal etdiyi Şimali Azərbaycan torpaqlarında möhkəmlənmək və burada İrana və Osmanlı dövlətinə qarşı bufer zolağı yaratmaq üçün əhalinin ermənîləşdirilməsi siyasətini həyata keçirirdi. Hələ 1783-cü il mayın 19-da knyaz G.A.Potyomkin «Yekaterinaya yazdığı məktubda tövsiyə edirdi: «Fürsət tapınca Qarabağı ermənilərin nəzarətinə vermək və bunnula da Asiyada bir xristian dövləti yaratmaq üçün lazım olanları etmək vacibdir». (5,2)

Bəli, lazım olanları rus dövləti etdi və Azərbaycan torpaqlarına erməniləri köçürməklə, H.Cavidin «İblis» dramında yazdığı kimi öz iblis simasını Rusiya dövləti bir daha açıq şəkildə bəyan etdi.

İblis nədir?

- Cümlə xəyanətlərə bais!

Ya hər kəsə Xain olan insan nədir? (21,319)

Lakin biz sanki 70 il Rusiyanın ermənilərə havadarlıq edən İblis, aləmini dərk etməmişik. Zahirdə dost, daxildə düşmən olduqlarını təəsüflər olsun ki, gec dərk etmişik.

## § 2. 13. TERRORİZM TƏHLÜKƏSİZLİYİ.

Milli təhlükəsizliyin əsas elementlərindən biri terrorçuluğa qarşı mübarizədir. Şərqlə Qərbi birləşdirən tranzit dəhlizlərinin, qlobal enerji layihələrinin təminatçısı, mülli-etnik, dini tolerantlığına görə fərqlənən Azərbaycanda terrorçuluğa qarşı mübarizə dövlətin diqqət mərkəzindədir.

Cənubi Qafqaz respublikalarında terror təhlükəsinin artmasının əsas səbəblərindən biri bu rayonlardan qeyri-leqal miqrasiya, yaraqlıların üçüncü ölkəyə keçirilməsi, silah və narkotik maddələrin alınıb-satılması üçün dəhliz kimi istifadə edilməsidir. Azərbaycanın Qərblə Şərqin kəsişdiyi bir məkanda yerləşməsi, Cənub Qafqazda iqtisadi-siyasi cəhətdən güclü bir dövlətə çevrilməsi, sözsüz ki, terrorçu təşkilatların maraqlarına səbəb olmuşdur. Bu, terrorçu təşkilatların ən qabaqcılı erməni terror təşkilatıdır. Belə ki, Azərbaycan xalqı tarix boyu erməni terrorunun qurbanı olmuşdur. Erməni terrorçuluğu nəinki, Azərbaycanın milli maraqlarını, eləcə də regional və beynəlxalq təhlükəsizliyini təhdid edir. Təkcə 1988-1994-cü illər ərzində ermənilər tərəfindən nəqliyyat və kommunikasiya obyektlərində 373 terror aktı törədilmiş və nəticədə 2000-dən artıq dinc sakin həlak olmuşdur. Həlak olanların əksəriyyəti qadın, uşaq və qocalar olmuşdur, minlərlə insan əlil qalmışdır. Ermənilər 1992-ci ilin fevralın 25-dən 26-a



keçən gecədə isə Xocalı soyqırımını törətməklə, tarixin qara səhifələrini yazmış oldular. Bu zaman 613 nəfər öldürülmüş, 100-lərlə adam şikəst olmuşdur. 1275 nəfər isə əsr aparılmışdır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ölkəmizdə həbs edilmiş terrorçuların əksəriyyəti Ermənistanda təlim keçmişlər. Onlar Azərbaycanın mühüm strateji obyektlərinə qarşı terror aktları törətmişlər. Bu sahədə MTN-inin əməkdaşları xüsusi fəallıq göstərmişlər. 2005-ci ildə MTN-nin həyata keçiridiyi əməliyyat nəticəsində bir qrupp terrorçu zərərsizləşdirilmişdir. Onlar şəhərdə ictimai asayişi pozmaq, dəhşətli partlayışlar törətməyi qarşılarına məqsəd qoymuşlar.

XXI əsrdə beynəlxalq terrorçuluğun qarşısının alınmasında Azərbaycanın hüquq mühafizə orqanları beynəlxalq təşkilatlarla əlbir hərəkət edir. Bu mənada Azərbaycan beynəlxalq terror təşkilatlarına qarşı mübarizəni nəzərdə tutan bir sıra konvensiyalara, müqavilələrə qoşularaq respublikamızın qanunvericiliyinin həmin sənədlərə uyğunlaşdırılması istiqamətində bir sıra ciddi tədbirlər həyata keçirmişdir. Belə ki, rəsmi Bakı terrorizmlə mübarizə sahəsində BMT-nin 11 beynəlxalq-hüquqi. o cümlədən 1970-ci il «Hava nəqliyyatının qanunsuz zəbtinə qarşı mübarizə haqqında», 1971-ci il «Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş qanunsuz aktlarla mübarizə haqqında», 1973-cü ildə «Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında», 1997-ci ildə «Bomba terrorizmi ilə mübarizə haqqında», 1979-cu «Girovların götürülməsi ilə mübarizə haqqında» beynəlxalq konvensiyalara və digər tədbirlərə qoşulmuşdur. Azərbaycan Respublikası həmçinin terrorizmə qarşı mübarizə sahəsində 10 avropa sənədinə imza atmışdır. Cinayət Məcəlləsinin 214-cü maddəsində terrorçuluğa görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Maddədə sadalanan hərəkətlər öz xarakteri və ictimai təhlükəli dərəcəsi ilə bağlı ağır və xüsusilə ağır cinayətlərə aid edilmişdir.

Qərb dövlətləri çox vaxt islam dinini terrorçuluqla əlaqələndirirlər. Əslində bu belə deyildir. Heç bir din xüsusilə islam dini terror aktlarına haqq qazandırmır. Bu mənada Azərbaycan prezidenti İ.Əliyev İslam Konfransı təşkilatı ölkələrinin xarici işlər nazirlərinin Bakıda keçirilmiş 33-cü konfransında islamı sülh, qardaşlıq və mehribanlıq dini adlandırmış, terrorizmin din və millət faktoru ilə heç bir əlaqəsi olmadığını vurğulayaraq demişdir: «Bizi narahat edən məsələ bəzi ölkələrdə islama nifrət meyillərinin güclənməsidir. Biz indi sivilizasiyalar arasında dialoqdan çox danışırıq amma əslində real həyatda bunun əksini görürük. Onu görürük ki, müxtəlif ölkələrdə din zəminində ayrı seçkilik halları artır, islam dininə mənsub olan

insanlara münasibət bəzi hallarda lazimi səviyyədə deyil və bu dini ayrıseçkiliyə biz yox deyirik. İndi biz qloballaşmadan söhbət açırıq, demakratik dəyərlərə daha sürətlə yiyələnirik. Belə olan halda, biz hər hansı bir zəmində - dini yaxud da ki, milli zəmində ayrı-seçkiliyin olması, yaxud da hansısa dinin nümayəndələrinə mənfi münasibət göstərilməsi ilə heç cür barışa bilmirik. (3,2)

Beləliklə, qeyd etmək lazımdır ki, Azərbaycan hakimiyyətinin ilk gündən beynəlxalq terrorizmə qarşı tutduğu, prinsipial mövqe bu dəhşətli bəlaya qarşı bütün istiqamətlərdə apardığı sistemli və ardıcıl mübarizə Qərb dövlətləri, xüsusilə də ABŞ tərəfindən daim təqdir edilmiş, dəstəklənmişdir. Bütün bunlar isə bir daha göstərir ki, respublikamızın terrorizmə qarşı apardığı mübarizə kifayət qədər uğurlu nəticələr verir və beynəlxalq əməkdaşlıqda prioritet mahiyyət kəsb edir.

Müasir dünyada acınacaqlı haldır ki, terorizmi doğuran səbəblərin mahiyyətində bəzən dövlətlərin öz siyasi maraqlarını həyata keçirməsi, habelə milli-etnik, dini zəmində baş vrən münaqişələrə münasibətdə ikili standartın tətbiqi, ikinci dərəcəli ölkələrin iradəsini nəzərə almaması kimi neqativ hallar dayanır. Məsələn, Ermənistanın Azərbaycana qarşı yertidiyi soyqırımı və terror siyasəti bunun bariz nümunəsidir. Təssüflər olsun ki, Qərb dövlətləri və eləcə də bizim müsəlman dövləti adlandırdığımız İran dövləti erməni vəhşiliyini dəstəkləyən qüvvələrdir. Məsələn, 2005-ci ildə Vaşinqton yaxınlığında ABŞ prezident Corc Buşa sui-qəst etmək cəhdinə görə həbsə alınmış terrorçu – Norayan Arbeqişyan da milliyətcə ermənidir. Kaliforniya ştatından olan 27 yaşlı N.Arbeqişyan ABŞ prezidentinə qarşı terror aktı keçirmək üçün öz maşınında Vaşinqtona partlayıcı maddə apararkən tutulmuşdur. O, külli miqdarda partlayıcı qurğu ilə ağ evi partlatmaq istəmişdir. (3,3) Qeyd etmək lazımdır ki, erməni terrorçularının törətdikləri bu kimi faktlardan çox danışmaq olar. Məhz bu mənada respublikamız xalqın milli maraqları, onun təhlükəsizliyi naminə beynəlxalq terrorizmə qarşı mübarizədə ardıcıl olaraq mübarizəni davam etdirir və sivill dünyanın ümumi təhlükəsizlik sisteminə öz töhvəsini verir. Terroru dəstəkləmək zəhərli ilanı bəsləmək deməkdir. Zəhərli ilanı nə qədər saxlasan o yenə də zəhər buraxacaqdır. Bu hal-hazırki qlobalaşma dövründə PKK-nın törətdiyi terror aktlarını əyani surətdə sübut edir. Neçə illərdir ki, Türkiyə dövlətçiliyinə qarşı terrorçuluqla məşğul olan kürd separatçıları yüzlərlə insanı qətlə yetirmişlər. Məhz 2007-ci ildən Türkiyə dövlətinin terrorçulara qarşı ciddi hücum cəhdləri edilmişdir. Nəticədə, xeyli sayda terrorçu



öldürülmüşdür. Türkiyə dövlət rəhbərliyi terroru dəstəkləyən qüvvələrə xəbərdarlıq edərək, terrorçuları dəstəkləməyi son qoymağa çağırmışdır.

XX əsrin əvvəllərindən başlayaraq dünya iqtisadiyyatının vahid şəkildə inkişafı, böyük əhəmiyyət kəsb edir. Bu da ki, qloballaşma üçün zəmin yaradır. Nəticədə dünyada dövlətlər arasında yaranan münasibətlərdə dərin dəyişikliklər baş verir ki, bunlar da beynəlxalq münasibətlərə təsir edir. Belə şəraitdə bəşər sivilizasiyasının inkişafını müşayiət edən terrorizm onun sonrakı tərəqqisinə böyük təhlükə yaradır.

XX əsrin əvvəllərindən başlayaraq terrorizm daha da beynəlxalq xarakter kəsb etməyə başlayaraq qloballaşmadadır. Ona görə də beynəlxalq terrorizm bu gün bütün dünya dövlətləri üçün təhlükəlidir. Beynəlxalq terrorizm «sərhəd tanımayan qlobal bir cinayət», «bəşəriyyətə qarşı meydan oxuyan XXI əsrin faciəli taunu»dur. Bu terrorizm xalqları birləşməyə, ondan yaxa qurtarmaq üçün təcili tədbirlər görməyə çağırır.

11 sentyabr 2001-ci il tarixində ABŞ-da törədilmiş dəhşətli terror aktları nəticəsindəminlərlə dinc vətəndaş həlak olmuşdur. Bu terror basqınları bir daha göstərdi ki, beynəlxalq təhlükəsizlik sistemləri müasir dövrün tələblərinə cavab vermir. Buna görə də dünya sistemində müəyyən dəyişikliklər etmək lazımdır. A.Arbatovun qeyd etdiyi kimi hücum obyekti, onu həyata keçirmək vasitəsini seçmək və onun mənəvi, siyasi təsirinə görə kütləvi qırğın silahından istifadə etmədən daha dağıdıcı nəsə başqa bir şey təsəvvürə gətirmək çox çətindir. Məlum mənada biz KQS-nin tətbiqi ilə də olmasa, hər halda insanların və maddi sərvətlərin kütləvi qırğın aksiyası ilə qarşılaşmışıq. Bu baxımdan həm terrorizmin özünün inkişafı, həm də onun sivil cəmiyyət üçün təhlükəsi nöqteyi nəzərindən yeni eranın başlanmasından danışmaq olar. Müasir dövrdə ayrı-ayrı dövlətlər digər dövlətlərin ərazilərini tutmaq üçün terror aktları törədərək başqa cinayətkar qruplarla birləşir və terror əməliyyatları keçirirlər. Məsələn; Ermənistan Milli Təhlükəsizlik İdarəsi digər terrorçu təşkilatlarla əlaqə yaradaraq respublikamızda bir neçə terror aktları törətmişlər. Nəticədə Azərbaycanda yüzlərlə vətəndaş həlak olmuşdur. Ermənistan ASALA terrorçu təşkilatı işğal edilmiş əraziləri beynəlxalq terrorçular üçün sığınacağa çevirərək istədikləri cinayətləri törədirlər. Xarici dövlətlərin terrorçu təşkilatları ilə əlaqə saxlayan «DQS» rejimi hər an beynəlxalq ədalət məhkəməsindən gizlənmək üçün müxtəlif hiylələrə əl atırlar. Terrorçu dövlətlərin siyasəti çoxtərəflidir. Onlar həmişə özlərinə mütəşəkkil dəstələr yaratmaq üçün ümümidil tapa və qarşılıqlı fəaliyyət göstərə bilirlər. Onlar vahid mövqedənçıxış edir, daha geniş planlar işləyib hazırlayaraq hakimiyyəti ələ keçirməə və nəticədə qarmaqarışıqlıq

yaradaq, əhalini sıxışdırıb çıxarmağa və nəhayət dövlətlərin ərazisini işğal etməyə çalışırlar.

Qeyd etmək lazımdır ki, terrorizm adətən zəiflərin silahı olmuş və onun imkanları iri miqyaslı qələbələr qazanmağa kifayət etmirdi. Onlar hər hansı dövlət çevrilişləri etməyə nail olmamışlar. Lakin son dövrlərdə qloballaşma ilə əlaqədar beynəlxalq terrorizm dövlət terrorizmi siyasəti aparan dövlətlərlə birləşmişdir. Beynəlxalq terrorizmə qloballaşma üçün hər hansı ərazilərdən kənar zonalar lazım idi. Bu ərazilərdə onlar özlərini sərbəst hiss edərək istədikləri manevrləri həyata keçirirlər.Dövlət terrorizmi siyasəti yeridən dövlətlər bu işdə onlara kömək edirlər. Necə ki, respublikamızın 20 %-ni işğal edən erməni quldurları Qarabağ torpaqlarını terrorizm yuvasına sevirmişlər. Onlar bu ərazilərdə narkotik maddələr yetişdirir, xüsusi laboratoriyalar yaradaraq, əsir və girovlar üzərində xüsusi təcrübələr aparırlar. Beləliklə, XIX əsrin əvvəllərindən Azərbaycan xalqı bu günə kimi erməni terrorizmin qurbanı olmuş, ərazilərindən qovulmuşdur. Lakin bütün bu terror cinayətləri cəzasız qalmış və dünya birliyi buna lazımi qiymətini verməmişdir. ABŞ prezidenti C.Buş bildirib ki, ölkənin milli təhlükəsizliyi üçün hər hansı bir təhlükə yaranarsa, heç bir xəbərdarlıq etmədən hücum edəcəyini bildirib. Onun sözlərinə görə, artıq beynəlxalq terrorizmlə mübarizə hücum mərhələsinə keçib və ABŞ hökuməti öz vətəndaşlarını qorumaq üçün heç kimdən icazə almaq niyyətində deyil. «Ölkə üçün hər hansı bir təhlükə yaranarsa, Birləşmiş Ştatlar müharibəyə birinci başlamaq hüquqlarından istifadə edəcək». (3, 2) ABŞ prezidentinin belə kəskin bəyanatı, görəsən torpaqlarının 20 %-dən çoxunun ermənilər tərəfindən işğal edilmiş, hər cür əzab işgəncələrə məruz qalan, yurd-yuvasından didərgin düşən, görkəmli şairimiz Sabirin sözləri ilə desək «bədbəxt tükəzbanları»mızı əsirlikdən qurtarmaq

Heç yuxarı dairələri düşündürürmü? Görəsən belə bir kəsin bəyanatla bizim rəhbərliyimiz nə vaxt çıxış edəcəkdir. Məgər bunun vatxı çatmayıbdır?



# II FƏSİL

## QLOBALLAŞMA VƏ MİLLİ MƏNƏVİ DƏYƏRLƏR MİLLİ TƏHLÜKƏSİZLİK KONTEKSTİNDƏ

### §1 Qloballaşma şəraitində dil və din milli təhlükəsizliyin başlıca amilidir.

Müasir qloballaşma dövründə dil və din sivilizasiyanın mərkəzi yerlərindən birində durur. Mənəvi əxlaqi və mədəni dəyərlərimizin təməl daşı məhz bunlardır. Dil və din adət-ənənələrimizin qorunub saxlanmasında milli-mənəvi keyfiyyətlərimizin daşıyıcı-sıdır.

Vaxtı ilə görkəmli dramaturq, yazıçı, publisist və dövlət xadimi olan N.Nərimanov yazırdı: "Ana dilində mahnı, musiqi və şeri dinlədikcə qəlbində bütün vüjudunla, ruhunla şad olursan. (71,25)

Həqiqətən də dil hər bir xalqın milli-əxlaqi şüurunun formalaşmasında mühüm rol oynayır. Görkəmli alim Hümbolt demişdir: "Dil xalqın ruhudur. (105,54)

Müasir qloballaşma şəraitində dil və din milli adət-ənənələrimizin, şifahi xalq ədəbiyyatımızın, milli musiqimizin qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb edir. Biz başqa dillərə və dinlərə hörmətlə yanaşmaqla bərabər öz milli koloritliyimizi də qoruyub saxlamalıyıq.

Qloballaşma dövründə Qərb dünyanın hər yerində öz dili və dinini təbliğ edir. Müasir gənclərimiz gərək heç bir təbliğata uymasınlar. S.Hantinqton "Sivilizasiyaların toqquşması əsərində "bütün bəşəriyyətə məxsus olan, universal olan, nə varsa, hamısını Qərblə əlaqələndirərkən Şərqdə universal düşüncənin intelektin, elmin varlığını tamamilə inkar etmək məqsədimi güdür? Görünür, məqsəd bundan ibarətdir ki, bölgünün özü Şərq və Qərb kimi yox, Qərb və qeyri-Qərb kimi aparılır və qeyri Qərb üçün ancaq universalizmdən kənar olan amillər saxlanılır. (48,90)

Düzdür indi dünyada ingilis dili hegemonluq edir. Belə ki, bu dillə dünyanın hər bir siyasi, iqtisadi və kommunikasiya imkanlarından istifadə etmək olar. Bunu biz yalnız öz dövlətimizin xeyrinə istifadə edə bilərik. Əgər bir nəfər azərbaycanlı ingilis dilində yazırsa, bu o demək deyildir ki, Hantinqtonun yazdığı kimi o, Qərb sivilizasiyasını təmsil edir. Yox, bu belə deyildir. Hər bir insanın öz düşüncə tərzi vardır. Lakin mən qeyd etmək istəyirəm ki, bəzən bizlər Qərbin təsirinə tez düşürük. Hal-hazırda bəzi mağazalarda, reklam agentliklərində birinci ingilis, sonra azərbaycan dili yazılır. Unutmamalıyıq ki, Sovetlərin tərkibində olarkən də belə idi. İndi isə

Qərbə üz tutmuşuq. Bəzən gənclərimiz pula-dövlətə aldanıb ingilisə ərə gedir. Bu da ki, gələcək nəsillərimizin bir azəri balası kimi itib-batması deməkdir.

Hal-hazırda din həyatın bütün sahələrinə təsir edir. Belə ki, Qərb dili ilə bərabər dinini də geniş yaymağa başlamışdır. Bunun üçün "küllü" miqdarda vəsait ayırır. Bu vəsaitin hesabına aztəminantlı ailələr müxtəlif dini təriqətlərə üzv olurlar. Bu dini təriqətlər insanların mənəvi-əxlaqi simasının formalaşmasına təsir edərək incəlləşdirmək məqsədi güdürlər. Vaxtı ilə Atatürk demişdir: Dindən maddi mənfəət təmin edənlər iyrənc adamlardır. Biz bu işə müxalifik və buna icazə vermirik. 1997-ci ildə "Dini etiqad haqqında qanun da xaricilərin Azərbaycan ərazisində missionerlik fəaliyyəti ilə məşğul olmasını qadağan edən dəyişikliklər ölkənin incilləşdirilməsi təhlükəsinin qarşısını qismən alsa da, bu dini qurumların qeyri-qanuni fəaliyyəti və cəmiyyətin dini identikliyi problemi hələ də qalır. (67,171)

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda məscidlərin sayı artmağa başlandı. İran tərəfindən maliyyələşdirilən mədrəsələr açıldı. Düzdür biz İranla dostluq münasibətləri yaratmışıq. Lakin onun Ermənistanla hədsiz dərəcədə yaxınlıq etməsi, ona iqtisadi cəhətdən hərtərəfli köməklik göstərməsi, məni onların dostluğuna şübhə etməyə vadar edir.

Əhali arasında dinin bu dərəcədə təbliği Azərbaycanın yuxarı dairələrini düşündürməlidir. Çünki əhalisinin əksəriyyəti müsəlman olan ölkə üçün qlobal qərbləşmə müstəmləkəçiliyi cəmiyyətdə islamın rolu və yeri haqqında dəqiq müəyyən edilmiş xəttin olmaması ciddi mənfi nəticələrə gətirib çıxara bilər. Görkəmli islam alimi Yusif əl-Kərdavi yazır: "Müstəmləkəçiliyin növlərindən ən təhlükəsi ideya müstəmləkəçiliyidir. O, torpaqları deyil, zehinləri zəbt edir, zəka isə toplardan deyil, qələmdən istifadə edir. (112,223)

Məhz qloballaşmanın bu xüsusiyyəti heç də xoşa gələn deyildir. Müxtəlif dini təriqətlərin Azərbaycana yol açması, özü də ki, Ermənistanla müharibə vəziyyətində olduğu bir şəraitdə bu cür siyasət milləti parçalamağa xidmət etmirmi? Biz 70-ci ildən də çox SSRİ-nin tərkibində olmuşuq. O, vaxtın ideologiyası başqa idi. Belə ki, dini qadağalar qoyulmuşdur. Lakin hər bir müsəlman istədiyi vaxtlar dini ayinlərə əməl edir və bunu nəsildən-nəsilə keçirirdi. Ona görə də dindən bir silah kimi yox, cəmiyyətin xeyrinə istifadə etmək lazımdır. Təəssüflər olsun ki, bu belə deyildir. Belə ki, qərb dövlətləri dindən müsəlman ölkələrinə qarşı qloballaşma adı altında bir silah kimi istifadə edirlər. Əgər ötən əsrin ortalarında bəşəriyyət SSRİ ilə ABŞ arasında müharibə təhlükəsi qarşısında durmuşdursa, hazırda bu



təhlükə sivilizasiyalı dünya ilə müsəlman dünyası arasında (terrorizm adlandırılan) müharibəyə çevrilmişdir.

Dünyada islamın rolunun artması məhz bu müharibəni sürətləndirir. S.Hantinqton yazır: "Xristianlıq ilk növbədə başqa dinlərin tərəfdarlarını döndərmək yolu ilə islam isə həm döndərmək hesabına, həm də əhalinin yüksək artımı vasitəsi ilə genişlənir. Ötən əsrin 80-ji illərində dünyada sayı ən yüksək həddə çatan - 30%-ə çatan xristianların faiz nisbəti bərabərləşmişdir, hazırda isə aşağı düşür və yəqin ki, 2025-ci ildə onların sayı dünya əhalisinin 25%-i təşkil edəcəkdir. Əhalinin son dərəcə yüksək templə artması nəticəsində dünyada müsəlmanların sayı böyük sürətdə artmaqda davam edərək, üçüncü minilliyin əvvəlində dünya əhalisinin 20%-nə çatacaq və sonrakı bir neçə il ərzində xristianların sayını ötərək ehtimal ki, 2025-ci ildə 30%-ə çatacaqdır. (48,175)

Məhz buna görə Qərb ölkələri hər vasitə ilə İslam dövlətlərinə qarşı açıq-aşkar təcavüzkar müharibələr aparırlar. Hal-hazırda qloballaşma dövründə din geniş əhali kütləsi içərisində yayılmağa başlamışdır. Lakin bu dindən siyasi məqsədlər üçün istifadə etmək olmaz. Təəssüflər olsun ki, ona siyasi don geydirərək hər kəs öz məqsədləri üçün istifadə edir. Məsələn, Qərb İslam dinindən öz məqsədləri üçün istifadə edir. Bunun üçün müsəlmanların dini məzhəblərindən istifadə edərək onların arasında təfriqə törədir. İraq dövləti buna əyani misaldır.

İslam hal-hazırda Azərbaycan xalqının ictimai-siyasi şüuruna güclü təsir göstərir. Qloballaşma müsəlmanların həmrəyliyini möhkəmləndirir və islam mədəniyyətinin dünyada geniş vüsət almasına şərait yaradır. Artıq Qərbi Avropa ölkələri "islamın dirçəlişi»-ndən qorxuya düşürlər. Ona görə də müsəlman dövlətlərinə qarşı hər cür təxribatlar törədir və onu daxildən dağıtmağa can atırlar.

Qloballaşma dövründə dinin modernləşməsi kütləvi şüurda onun rolunun güclənməsinə səbəb olur. Lakin keçid dövründə olan Azərbaycan üçün mədəni və mənəvi dini dəyərlər təməlçiliyə çevrilməməlidir. Təcrübə göstərir ki, "təməlçilik daha çox əhalinin islam irsini bilən və bununla fəxr edən savadlı təbəqələrinin ideologiyasıdır. Bu, savadsız xalq kütlələrinin səfərbər edilməsində səmərəli vasitə ola bilsə də, onların dini deyildir. (48,168)

İslamın modernləşdirilməsinə onun sıxışdırılıb aradan çıxarılması kimi baxmaq olmaz. Qərbin hazırda respublikamıza tətbiq etdiyi ideya cəmiyyət və dövlət həyatının modernləşməsi, vətəndaş cəmiyyəti, hüquqi dövlətin qurulmasına kömək və s. qloballaşmanın tələbidir. Lakin Qərbin bu siyasəti hamıda şübhə doğurur. Həyat göstərir ki, bu şübhələr əsassız deyil-

dir. Çünki, bütün dünyada dilini və dinini təbliğ edib yaymağa çalışan ABŞ-ın işğalçılıq siyasəti göz qabağındadır. Görəsən qloballaşma adı altında dini sektaların sayını artıraraq, genişləndirən ABŞ-ın məqsədi nədir? Vaxtı ilə Sovet hökuməti də müxtəlif respublikaları vahid ailə altında birləşdirərək özündən asılı vəziyyətə salıb, bir mərkəzdən idarə edirdi. Deməli, mən deyərdim ki, tarix təkrar olunur.

Hal – hazırda ölkəmizdə qeydiyyatdan keçmiş 260 dini icmanın 28-i qeyri-islam yönümündədir. Onlar respublikamızda islama qarşı yönəlmiş təbliğat-təşviqat işləri aparırlar. Bu sektalar dindarları bütün qalan insalara qarşı müqəddəs müharibəyə hazırlayır və bu dəfə bütün vasitələrdən istifadə edirlər. Dini ədəbiyyatların əks təbliği, din adından dinə aid olmayan zərərli ideyalarla insanların beyinlərini zəhərləmək ilk növbədə dinə zərərdir və bu din qarşısında bağışlanılmaz günah hesab olunur. Müsəlman qardaşları bir-birinə qarşı qoymaq böyük cinayət hesab olunur. Buna görə də bu işdə ayıq-sayıq olmalı və heç bir təxribata uymamalı geniş əhali kütləsi içərisində maarifləndirmə işi aparılmalıdır.

Bu gün islamda parçalanmaya səbəb ola biləcək dini təriqətlərdən biri də vəhabizmdir. Bunun ideya çalarları, mənbələri və həqiqi mahiyyəti haqqında danışan Rusiyanın baş müftisi Falqat Facəddin deyir: «Vəhhabizmlə islam arasında heç bir ortaq cəhət yoxdur. İslam və terror bir araya sığmır. Vəhhabizm, hələ XVI əsrdə, ingilis imperialistləri tərəfindən özlərinin Şərq müstəmləkəçilərindəki müsəlmanları cilovda saxlamaq üçün düşünülmüşdür. Bu, küllü məbləğdə vəsait tələb edən qoşun saxlamaqdan daha faydalı idi. Buna görə də onlar, «parcala və hökmranlıq et» prinsipini rəhbər tutaraq, islamdakı bu süni cərəyanın vasitəsilə dindarlar arasında parçalanmaya nail olurlar. Bu məqsədlə onlar Məhəmməd bən Əbdül Vəhhab adlı bir satqın adam da tapdılar. Sonradan onun «təlimini» hətta Məhəmməd peyğəmbərin vətənində də yaymağa cəhd göstərdilər. Vəhhabizm qılınc gücünə hətta Məkkədə və Mədinədə də bərqərar edildi. Vəhabistlər bizə belə bir fikri zorla qəbul etdirməyə çalışırlar ki, min ildən artıq müddətdə islam, guya murdarlanmışdır və buna görə də bu etiqadı «təmizləmək» lazımdır». Qeyd etmək lazımdır ki, vəhhabizim islamı daxildən parçalamağa çalışır və xaricdən dəstək alır.

## §2 QLOBALLAŞMA VƏ DEMOKRATİYA

Müasir qloballaşma dövründə, azadlıq və demokratiyaya çağırışın əks-sədasının, yer kürəsinin bütün nöqtəsində eşidildiyi bir şəraitdə biz yaşayı-



rıq. Biz Sovetlər İttifaqının 75 illik rejimindən azad olduq. Kommunist partiyasına son qoyuldu. Azad, suveren respublikalar yarandı. Yüzlərlə insanın qanı bahasına azadlıq əldə etdik. İndi bütün respublikalar yeni demokratik qaydaların qurulması uğrunda mübarizə aparırlar. Lakin Avropada fövqəladə siyasi dəyişiklikləri əhatə edən dramatik hadisələr dünyanın hər yerində bəşəriyyəti bürümüş demokratiya üzərinə kölgə salır. Şimali və Cənubi Amerika əslində demokratik sistemli yarımkürədir. Afrika misli görünməmiş demokratik islahatlar dövrü keçirir, Asiyada isə demokratik sistemlər kök salır. Bu hadisə dünyanın hər yerinə yayılmışdır. Belə ki, Yaponiya, İtaliya və Venesuella kimi müxtəlif demokratik dövlətlərdə azadlıq və özünüidarənin həyata keçirilməsini tələb edirlər.

1990-1991-ci illər ərzində müəyyənləşdirilmişdir ki, 165 suveren dövlətin bütün dünya əhalisinin 39%-dən çoxunun sakini olduğu 65-i tam azaddır.

Demokratik dəyərlərin bərpa olunduğunu bu gün demək olar, lakin XVIII əsrin sonlarından Fransa inqilabından başlamış bu günə kimi bəşər tarixi göstərir ki, demokratik qurumun əksəri az və qısa ömürlü olub. Bu fakt heç də insanlarda pessimiz yaratmamalıdır. Belə ki, 1918-ci ildə ilk Azərbaycan demokratik cumhuriyyətinin yaranması buna əyani sübutdur. 23 ay yaşayan bu hökümət, nəhayət 1991-ci ildə yenidən bərpa olundu.

Söz və fikir azadlığı hər bir demokratiyanın şah damarıdır. Demokratik sistem vətəndaşları belə bir əqidə ilə yaşadır ki, hər bir kəs öz fikir və rəylərini açıq ifadə etməklə cinayət və saxtakarlığa qalib gəlsin. Amerika yazıçısı E.B.Uayt yazır: «Bizim azad ölkəmizdə mətbuat öz səviyyəsi ilə yaxşı olduğuna görə deyil, onun böyük özünəməxsusluğu ilə etibarlı və faydalıdır. Nə qədər ki, hər birinin öz xüsusi həqiqət meyarı olan çoxsaylı mətbuat sahibləri var, biz adamların da həqiqətə nail olmaq və işıqlı dünyada yaşamaq imkanları var. təhlükəsizlik saydadır». Təəssüflər olsun ki, 10 ildən artıqdır ki, erməni işğalçıları tərəfindən zəbt edilmiş ərazilərimizdən qovulmuş insanların demokratik hüquqları pozulmuş və dünya ictimaiyyəti çox yerdə onların səslərinə səs vermirlər.

Demokratiya savadlı və bilikli vətəndaşlardan asılıdır. Onların geniş şəkildə məlumat almaq imkanları onlara öz cəmiyyətinin ictimai- siyasi həyatında yaxından iştirak etməyə şərait yaradır. Dini cəhalət, biganəlik geriliyə səbəb olur.

Biz hazırda müharibə vəziyyətindəyik və ona görə də hər bir gəncin vətənə xidmət etməsi sərhədlərimizi qoruması və torpaqlarımızın azğın düşmənlərdən azad edilməsi üçün əsgəri borcunu yerinə yetirməsi onun müqəddəs vəzifəsidir. Məhz demokratik sisitemdə əsgər- vətəndaş, belə bir

inamla xidmət edir ki, o, onun öz cəmiyyətinin azad şəkildə qəbul etdiyi vəzifə borcunu yerinə yetirir. Bundan əlavə, demokratik cəmiyyətin üzvləri kollektiv şəkildə hərəkət etmək və bu vəzifə borcunu dəyişdirmək səlahiyyətlərinə malik olduqlarını bilirlər.

Demokratiya iqtisadi azadlığa üstünlük verir. Belə iqtisadi azadlıq demokratik cəmiyyətin açarı hesab olunur. Bildiyimiz kimi respublikamızda belə demokratik açarın nümayəndələri olan azad sahibkarları geniş fəaliyyətə başlamışdırlar. Onlar iqtisadiyyatın bütün sahələrində öz sözlərini gördükləri işlərlə yerinə yetirirlər. Qloballaşma dövründə bu sahibkarlar digər xarici ölkələrin sahibkarları ilə əlaqə yaradaraq, respublikamızın hər tərəfli inkişafı üçün geniş planlar işləyib hazırlayırlar.

Demokratik cəmiyyətdə iqtisadi azadlıq ən zəruri ünsür olaraq qalır. Belə ki, iqtisadi azadlığa müvafiq olaraq, siyasi azadlıq üçün də adamların tələbləri ödənilir.

Axırda deməliyik ki, Demokratiya ya uğur qazanmaq imkanı, ya da uğursuzluq imkanı verir. Biz layiq olduğumuz hökümətə malikik.

Rəhmətlik M.Ə.Sabir demişkən, kim nə deyir, bizdə olan qeyrətə,
Qeyrətimiz bəllidir hər millətə.

## § 3 QLOBALLAŞMA DÖVRÜNDƏ DÖVLƏTİN TƏHLÜKƏSİZLİYİ

Qloballaşma dövlətin iqtisadi, siyasi cəhətdən inkişafında mühüm rol oynayır. Eyni zamanda qloballaşma təhsilin, mədəniyyətin beynəlmiləlləşməsi və vahid qlobal sosiomədəni mühitin yaradılması vasitəsilə sosiomədəni məkanın dəyişməsi deməkdir. Bu mənada Çexiyanın sabiq prezidenti Vatslav Havelin mülahizələri çox maraqlıdır: «Bizim adətən, sivilizasiya kimi başa düşdüyümüzün tarixi və coğrafi kökləri vardır və yüksək muxtariyyat dərəcəsi ilə səciyyələnir. Sözün ənənəvi mənasında, adətən sivilizasiyaların bir-biri ilə əlaqələri çox məhdud olmuş və bir-birlərinə təsir göstərilərsə də bu proses çox ləng və dolayısı ilə getmişdir. Bir çox sivilizasiyalar başqalarının mövcudluğundan xəbərsiz olmuşlar. İndi vəziyyət kökündən dəyişmişdir. Əslində bütün müasir dünya minlərlə siyasi, iqtisadi, informasiya şəbəkələri və əlaqələri ilə əhatə olunmuşdur. Biz hamımız bir-birimizi tanıyırıq, minlərlə ümumi vərdişlərlə, texnologiyalarla, davranış modelləri, sivilizasiya, forma və məqsədləri ilə bir-birimizə bağlıyıq. Ona görə də məncə, bu günkü dünyanı qlobal sivilizasiya kimi başa düşmək daha



doğru olardı və mən bizi gələcəkdə təhdid edəcək münaqişələri fərdi mədəniyyətlərin yaxud sivilizasiya sahələrinin münaqişələrindən başqa bir şey adlandırmazdım». (74,150)

Həqiqətən də qloballaşma bu günkü dünya ölkələrini bir-birinə istər iqtisadi, istərsə də siyasi cəhətdən yaxınlaşdırır, onların bir məkanda birləşdirir. Qloballaşmanın gətirdiyi müsbət elementlərlə bərabər, mənfi amilləri də az deyildir.

70 il ərzində SSRİ -nin tərkibində yaşamış Azərbaycan müstəqillik qazandı. Nəhayət, xalqımız azadlıq, suverenlik əldə etdi. Lakin bununla yanaşı qloballaşma milli dövlət suverenliyinin itirilməsi, dünyanın hüquqsuz ucqarları sırasına düşmək təhlükəsi gətirdi. Əslində qloballaşma siyasi baxımdan möhkəmlənmiş müstəqil dövlətləri siyasət və iqtisadiyyatın modernləşməsi prosesinə başlamaq imkanından məhrum edirdi.

Qloballaşma yeni qlobal siyasi-iqtisadın əsasını qoymaqla, milli sərhədləri dağıdır, dövlətin milli suverenliyinin dayaqlarını sarsıdır. Dünya bazarı «milli hökumətlərin fəaliyyət dairəsini daraldaraq, onların manevr etməsinə daha az yer saxlayır, milli parlamentin qanunları deyil, azad bazar qanunları fəaliyyət göstərməyə başlayır». (74,151) Qloballaşma müstəqil dövlətlər arasında sədləri dağıdır, daxili sosial münasibətləri dəyişdirir, milli özünüdərki silərək, onu dünya standartlarına uyğunlaşdırır. Qloballaşma cəmiyyəti tarixi keçmişindən və mədəniyyətindən ayırır, coğrafi mövqeyindən və siyasi quruluşundan asılı olmayaraq onu qərbləşdirir. Qərbləşmə modernləşmə əlaməti altında gedir. Onun açıq və qapalı cəmiyyətlərə təsiri əhəmiyyətli dərəcədə fərqlənir. Əgər o, bəzi ölkələrdə cəmiyyətin siyasi və sosial-iqtisadi həyatına təsir edərək onu təkmilləşdirirsə, digərlərində isə tarixən sabitləşmiş normalar, adət-ənənələr gözə görünmədən yox olub gedir.

Qərbləşmə qeyri-qərb məkanları «udaraq», müəyyən məkanlardarda siyasi düzümün xarakterini dəyişdirir. Onun məqsədi yeni qlobal iqtisadi baxışların və siyasi ideyaların «desantı üçün meydan hazırlamaqdır. Tanınmış tarixçi Arnold Toynbi özünün məşhur «Sivilizasiya tarixin məhkəməsi qarşısında» kitabında yazırdı ki, qərb mədəniyyəti ünsürlərinin qəbul olunması əslində elə bir təsirdir ki, bir müddətdən sonra o, ənənəvi cəmiyyətə nüfuz edəcək və onu amansızcasına ikiyə paylayacaqdır». (112,280)

Qərbləşmənin əsas mahiyyəti nədir? Nəyə görə bəziləri onda yığılıb qalmış problemlərin həllini, digərləri isə təhlükə görür? Qərbləşmənin əsasında qlobal fikir yekdilliyin formalaşdırılması durur. Bura hər şeydən əv-

vəl Qərb dövlətlərinin strukturlarının, texnologiyalarının, həyat tərzinin qeyri-Qərb cəmiyyətlərinə köçürülməsi ideyası daxildir. Həmçinin qərbləşmə qeyri-Qərb ölkələrinin xalqlarında Şimali Amerika, Qərbi Avropa ictimai sistemlərinin şəksiz üstünlüyünə inam formalaşdırmaq cəhdidir. Beləliklə, qərbləşmə konsepsiyasının mühüm özəyini Avropa yönümlülük, daha dəqiqlə Amerikanlaşmaq təşkil edir. Bu isə milli mədəniyyətlərin tədricən dəyişməsi onun qloballaşmanın prinsiplərinə uyğunlaşmasıdır. Qərbləşmə milli mədəniyyətin mahiyyətini onun simasını kökündən dəyişir. Qərbləşmənin tərəfdarları göstərirlər ki, bu proses dönməzdir. Düzdür, elmin, texnikanın sürətli inkişafı bunun doğruluğunu sübut edir. Lakin bu nailiyyətlərin bir çoxu Qərb inkişaf modelinin tətbiqi ilə avtomatik surətdə gerçəkləşmir.

Sivilizasiyaların qarşıdakı toqquşmasından xəbər verən amerika politoloqu S.Hantinqton «Qərbləşməsiz modernləşmə» düsturunu təklif etmişdir. Bu düsturda «üçüncü dünya» ölkələrinin sosial-iqtisadi və texnoloji inkişaf problemlərinə yeni yanaşma təsvir olunur. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, ölkələrin sosial, siyasi və təsərrüfat strukturlarının dəyişməsinin və inkişafının obyektiv zərurət olduğunu başa düşən həmin ölkələr Qərbin ardınca kor-koranə getməkdən imtina edirlər. Əksinə, onlar Qərb texnologiyalarından onun sırf liberal ideoloji yozumlarından təcrid olunmuş şəkildə - özlərinin ənənəvi (dini, sosial, siyasi və s.) milli dəyərlər sistemində istifadə etməyə çalışırlar. Şərq elitasının Qərbdə ali təhsil alan bio nümayəndələri ən yeni müasir biliklərə yiyələnərək öz vətənlərinə qayıdaraq, bilik və bacarıqlarını milli ictimai-dövlət sistemlərinin qüdrətinin möhkəmlənməsinə sərf edirlər. Lakin millətçiliyin üstünlük təşkil etməsi qloballaşma problemlərinin həlli yolunda başlıca əngəllərdən biri olaraq qalır. BMT-nin baş katibi Kofi Annan bu məsələyə toxunaraq yazır: «Bütün dünyada milyonlarla insan qloballaşması tərəqqi vasitəsi kimi deyil, həyatı, əməli və ənənvi məhv etməyə qadir olan qasırğayabənzər viranedici qüvvə sayır. İnsanların bir çoxu üçün bu prosesə mane olmaq və millətçilik, təməlçilik, digər «çiliklər» timsalında xəyali təskinliyə üz tutmaq kimi qızğın istək səciyyəvidir».(81,4)

Keçid dövrünü yaşayan Azərbaycan ümumdünya inteqrasiyasının taleyüklü perspektivlərini başa düşərək, dünya birliyinə inteqrasiyanın strateji yolunu seçmişdir. Bu mənada Prezident İ.Əliyev 2004-cü il martın 19-da Slovakiyanın paytaxtı Bratislavda keçirilən «Daha geniş Avropaya doğru yeni gündəlik» mövzusunda beynəlxalq konfransda Azərbaycanın inteqrasiya perspektivlərini xarakterizə edərək demişdir: «Milyardlarla



dollar dəyəri olan enerji layihələri bizim müstəqil ölkələrin həm birbirlərinə, həm də Avratlantik məkanına inteqrasiyasına şərait yaradacaqdır. Bu, bizim həqiqi istəyimiz və strateji məqsədimizdir. Azərbaycan öz gələcəyini Avratlantik məkanına daha geniş inteqrasiyada görür. Biz bu istiqamətdə böyük addımlar atırıq və əminəm ki, Avropa strukturları və beynəlxalq strukturlarla əlaqələr gələcəkdə daha da möhkəmlənəcəkdir». (3.2)

Qloballaşan dünyanın bir hissəsi olan Azərbaycan Qərbin nailiyyətlərindən istifadə etməklə yanaşı, öz milli mentalitetinin bütün xüsusiyyətlərini, adət-ənənələrini, milli tarixini qayğı ilə qoruyub saxlamağa çalışır.

Hal-hazırda Azərbaycan dünyanın bütün ölkələri ilə qlobal nəqliyyat-kommunikasiya layihələrinin iştirakçısıdır, dünya bazarlarına neft və neft məhsulları göndərir. Artıq Azərbaycanla avropa dövlətlərinin əksəriyyəti müqavilə imzalamış və bu ölkəyə küllü miqdarda sərmayə ayırmışlar. Bu da ki, Azərbaycanın sosial-iqtisadi inkişafına güclü təsir göstərir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilişi Azərbaycanın inteqrasiya proseslərində və qlobal iqtisadi layihələrdə fəal iştirakına sübutdur.

Azərbaycanın Şərqlə Qərbi, habelə Şimalla Cənubu birləşdirən əsas nəqliyyat dəhlizlərinin yolu üstündə yerləşməsi qloballaşma prosesləri baxımından onun təkcə regional deyil, həm də beynəlxalq layihələrdə əhəmiyyətini artırır. Mərhum prezidentimiz H.Əliyevin təşəbbüsü ilə LUÖ-AM təşkilatlarının yaradılması bir sıra dövlətlərin siyasi və iqtisadi mənafelərinin birləşdirilməsi yolunda ilk addım olmuşdur.

Avropa birliyinin dəstəyi ilə həyata keçirilən «Böyük İpək Yolu» proqramı Azərbaycan bölgələrinin iqtisadi dirçəlişinə zəmin yaratmışdır. Bu layihə Azərbaycanda yeni iş yerlərinin açılmasına, tikinti işlərinin və şəhərsalmanın sürətləndirilməsini tezləşdirdi, Azərbaycanı Qərb və Şərqlə bağladı.

Qloaballaşma dövlətlərin iqtisadi göstəricilərinin təkmilləşdirilməsinə böyük rəvac Verdi. Azərbaycan bununla yanaşı siyasi cəhətdən də iki böyük Avropa qurumunun – Avropa şurasının və Avropada Təhlükəsizlik və əməkdaşlıq Təşkilatının üzvüdür. Eyni zamanda NATO ilə əməkdaşlıq etmək ərəfəsindədir.

Qloballaşma dövründə Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna nail olunmuş söz, mətbuat, fikir, iradə, dini azadlığı müasir ictimai siyasi inkişafının öncül istiqamətlərindən biri olmuşdur.

Şəffaflıq, dialoq və konstruktiv əməkdaşlıq dövründə «açıq cəmiyyət» ideyaları və dövlətin inkişaf səviyyəsi ölkənin qloballaşma prosesində işti-

rakının əsas amilinə çevrilmişdir. Hazırda Azərbaycanın ümdə məsələlərindən biri dövlətin təhlükəsizliyinin əsas qarantı olan torpaqların işğalından azad olunmasıdır. Bu məqsədlə bütün xalq dövlətin, xalqın və gələcək nəsillərin naminə bütün ayrı-seçkiliyə son qoymalı və prezidentin ətrafında sıx birləşməlidir.

## § 4 QLOBALLAŞMA DÖVRÜNDƏ İSLAM MƏNƏVİ DƏYƏRLƏRİ MİLLİ TƏHLÜKƏSİZLİK KONTEKSTİNDƏ

*Dəhşətli müharibə və ya zəlzələ ölkənin bir hissəsini xaraba edər, mənəviyyatsızlıq və elmsizlik isə hər yerini.*
*Hz. Məhəmməd*

Hal-hazırda biz çətin və mürəkkəb dövrdə yaşayırıq. Dünyanın hər tərəfində günahsız qanlar axıdılır, insan mənəviyyatı alçaldılır. Hər yerdə haqsızlıq hökm sürür. Qadın və uşaqların hüquqları pozulur, onlar bir əşya kimi alınıb satılır. Bu gün insan alveri ilə məşğul olan, cəmiyyəti dərin uçuruma aparan heysiyyatsız, mənəviyyatsız insanları islam əxlaqi dəyərlərindən bəhrələnməyə çağırıram. Çünki pozğunluğun, fahişəliyin, narkomanlığın geniş vüsət aldığı bir şəraitdə islam əxlaqi dəyərləri onlara gözəl nümunə ola bilər.

Müasir elmi texnikanın sürətli inkişafı birtərəfdən xalqın maddi vəziyyətinin yaxşılaşmasına doğru aparırsa, digər tərəfdən onun mənəvi aləminin puçluğuna gətirib çıxarır.

Əgər bu gün dünyada qanlı toqquşmalar minlərlə insanların məhvinə səbəb, amansız müharibələr aparılırsa, onda biz hansı gözəl əxlaqi keyfiyyətlərdən danışa bilərik.

Düzdür, bəşəriyyət maddi həyatın müxtəlif sahələrində yüksək səviyyədə inkişaf etmiş bir çox problemlərini həll edə bilmiş və nəticədə əhalinin yaşayışı və rifahı yüksək həddə çatmışdır. Lakin mənəvi sahədə axsamalara yol verilmişdir.

İslam əxlaqi dəyərləri insanlara ən yüksək əxlaqi keyfiyyətləri aşılayır. Ata -anaya, bacı-qardaşa hörmət və məhəbbət,onun qayğısına qalmaq. vətəni sevmək və s. bura daxildir. Bu gün cəmiyyətdə baş verən bütün mənfi keyfiyyətlər islam əxlaqına ziddir. Lakin təəssüflər olsun ki bu gün biz cəmiyyətdə çoxlu əxlaqsızlıqlarla rastlaşırıq ki,bu da qloballaşmanın bir mənfi xüsusiyyətidir. Belə ki qərbin bütün mənfi əxlaqi keyfiyyətləri bizim



cəmiyyətə də sirayət etmişdir. Bu gün narkomanların, fahişə qadınların sayının artması buna misaldır.

Respublikamızda ilbəil boşanmaların və qeyri-qanuni uşaqların sayının artması bu gün gündəmdə duran ən mühüm məsələlərdən biridir. Bəzən bunu biz maddi vəziyyətin pisləşməsi, işsizlik, əmək haqqının son dərəcə aşağı səviyyədə olması ilə əlaqədar əlaqələndiririk. Lakin qeyd etmək istəyirəm ki, yüksək mənəviyyatlı olan insan heç vaxt öz ləyaqətini, namus və şərəfini bir para altunlara satmaz.

Yaddan çıxartmaq olmaz ki, aclıq bir il çəkər, ləkə illər boyu deyilmiş atalar sözü buna misaldır.

Hal-hazırda dünya ölkələlərində aclıqdan ölən milyonlarla insanlara kömək əlini uzatmayan, lakin demokratiyadan dəm vuran ABŞ-ın qeyri-insani keyfiyyətləri, hansı əxlaq normalarına uyğunlaşır.

ABŞ hansı ölkəyə müdaxilə edirsə orada yalnız öz siyasi maraqlarını güdür. Latın Amerikası ölkələrinin başçılarından biri vaxtilə ABŞ prezidenti Trumenə müraciət edərək demişdir: «Dünyadakı aclığın qarşısını almaq və milyonlarla insanı ölümdən qurtarmaqdan ötrü yaxşı olardı ki, ABŞ dövləti öz ixtiyarında olan kənd təsərrüfatı və ərzaq məhsullarının artıq qalan və anbarlarda çürüyən hissəsini beynəlxalq təşkilatların ixtiyarına versin və onlar da həmin məhsulları ac əhali arasında paylasın».

Trumen isə belə cavab vermişdir: «ABŞ prezidenti kimi bu təkliflə razılaşa bilmərəm. Çünki, bizim başqalarına etdiyimiz kömək və yardımlar siyasi maraq və mənafelərimizdən ayrıla bilməz". (95,288)

Deməli, ABŞ-ı hansı ölkəyə yardım göstərirsə oradan öz məqsədləri üçün istifadə edir.

İslam əxlaqi isə kasıb-kusuba yardım etməyi ən ali insani keyfiyyətlərdən biri hesab edir və quranda göstərilir ki, kiməsə kömək edirsənsə elə etməlisən ki, onu heç kəs bilməsin.

Bildiyimiz kimi hal-hazırda dünyada baş verən kiçik müharibələr nəinki içtimai, siyasi və iqtisadi ziddiyyətlərin, habelə əxlaqi çatışmazlıqların nəticəsidir. Bu müharibələrkiçik olsa da minlərlə, on minlərlə insanın məhvinə, kənd və şəhərlərin dağılmasına səbəb olur.

Xirosima, Naqasaki şəhərlərinə atılan bomba neçə min əhalinin həyatına son qoymuşdur. Görəsən bu hansı əxlaqi hərəkətlərə uyğundur. Bütün bunlar ABŞ -ın yuxarı dairələrində əxlaqına təsir etməmiş əksinə dünyapərəstlik və alkoqoldan məst olan bu əxlaq dəyişilməmiş, keçmiş bəlalardan ibrət götürülmüşdür.

Qloballaşma əxlaqi dəyərlərdən yan keçmir. Müasir dövrümüzdə Qərb əxlaqının gənclərimizə təsiri, şou-biznesin gətirdiyi bəlalar təlim-tərbiyəyə güclü təsir göstərir. Qərbin bütün əxlaqi keyfiyyətləri islam əxlaqi dəyərlərinə mənfi təsir göstərir. Beləki, gənclərimizin bəziləri heç bir əxlaq normalarına sığmayan, ədəb-ərkan gözləmədən yanlış mövqedə dururlar. Necə zəmanədir ki, oğul atanı, ananı, qardaş qardaşı öldürür. Bütün bu cinayət əməlləri, əxlaqi pozğunluqlar sanki qloballaşmanın bizə bəxş etdiyi hədiyyələrdir. Gərək bizim gənclər pis yox, yaxşı insanların faydalı məsləhətlərinə qulaq asalar. Hal-hazırki dövrümüzdə böyük-kiçik tanıyalar, kobudluğa yol verməyələr. Təəssüflər olsun ki, özünü cəmiyyətdə apara bilməyənlər çoxdur.

Nəyə görə qızlarımız xaricə satılır və nəhayət asan yolla bəziləri küllü miqdarda pul qazanırlar. Görəsən insan alveri ilə məşğul olanlar, nə vaxtsa özlərinə bir hesabat verəcəklərmi?

Nə qədər ki şəhvət tufanı bəşər əqlini qaranlıq zindanda məhbus edib və əxlaqi pozğunluqlar onun əl-ayağını zəncirləyib, o heç vaxt səadətə çatmayacaq. Bir sözlə bəşəriyyət öz təfəkküründə inqilab etməyincə və hazırki əxlaqi fəsadlar həqiqi, mənəvi əvəz olunmayınca xoşbəxtliyə çatmaq qeyri-mümkündür.

İslam əxlaqi insanları düzgünlüyə, ədalətə çağırır, ən yüksək mənəviyyat qazanmaq üçün lazım olan qayda-qanunları çox dəqiqliklə göstərir.

İslam əxlaqi dəyərlərindən biri də kasıblara maddi cəhətdən kömək etmək, onların yoxsulluq və aclığına biganə qalmamaqdır. Bu böyük əxlaqi əhəmiyyət kəsb edir. İslam varlı adamların əyyaşlığı və israfçılığı ilə də barışmır. Həmçinin varlıların öz mallarını kasıblar arasında bölüşdürməmələrini də pisləyir.

İslamın ən ümdə əxlaqi keyfiyyətlərindən biri də bəşər nəslinin bir-birinə hörmət etməsi, heç kəsə aşağıdan yuxarı baxmamasıdır. İslam hər bir kəsi təcavüzdən və hər hansı pislikdən kənar olmağa çağırır. İslam bildirir ki, insanı öldürmək bəşər nəslinə cinayətdir: Qurani-Kərimdə deyilir: "Hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o bütün insanları öldürmüş kimi olur".(63,32)

İrqçilik, yerliçilik, regionçuluq və s. kimi insani keyfiyyətlər islam əxlaqına ziddir. O insan ləyaqətini alçaldır. Odur ki, insanlar arasında din, dil, irq ayrıseçkiliyi olmamalıdır. Çünki hamısını Allah yaratmışdır. Quranda deyilir: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır. Həqiqətən, Allah hər



şeyi biləndir, hər şeydən xəbərdardır".(63,13) Məhz buna görə də insanlar, millətlər, xalqlar arasında heç bir dini ayrıseçkilik olmamalıdır. Lakin təəssüflər olsun ki, qloballaşma dövründə bu xüsusiyyətlərə qərbin yeritdiyi antimüsəlman, "İslam fundamentalizmi formasında rast gəlirik. Son illər ABŞ-ın islam dünyasına qarşı yeritdiyi mənəm-mənəmlik ideyası bu cəhətdən özünü büruzə verir. Görəsən özünü yer üzərində "demokratiyanın, haqqın, ədalətin,, carçısı kimi qələmə verən ABŞ-ın yalnız müsəlman dövlətlərinə qarşı yeritdiyi qanlı cinayətlər, onların ərazisində apardığı müharibələr hansı qanun çərçivəsinə sığır.

İslama görə ədalət olan yerdə bəraət də olar. Hər bir kəs özünə xoşlamadığını başqasına da məsləhət bilməz. Lakin bu gün qloballaşma dövründə Qərblə Şərq arasındakı münasibətlər bu prinsipi pozur.

ABŞ-ın Şərq xalqlarına, xüsusilə islam dünyasına qarşı apardığı müharibələr buna misaldır. "Dünya əxlaqı haqqındakı bəyanat,, da İslam sülhü alqışlayır. "Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə gəlin! Şeytanın dalınca getməyin, çünki o sizin açıq-aşkar düşməninizdir!"(65,11) (Əl-Bəqərə, 208). Sülh yaratmağın mümkün olduğu yerdə qan çıxarılmamalıdır: "Əgər onlar sülhə meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla (Əl-Ənfal, 61).,, Müharibəyə yalnız müstəsna hallarda - təcavüzün qarşısını almaq, məzlumu müdafiə etmək məqsədilə bəraət qazandırmaq olar: "Zülmə məruz qaldıqlarına görə vuruşanlara izn verilmişdir!"(65,12) (Əl-Həcc, 39)

İslam əxlaqi dəyərlərindən biri də insanların bir-birinə yaxşılıq etmələri, kömək göstərmələri, pis əməllərdən çəkinmələridir. İnsanlar nə özlərinə, nə də başqalarına zərər vurmamalıdır. İnsanlar xəyanətə yol verməməlidirlər. İslamda deyilir ki, qonşular arasında xoş münasibət olmalıdır.

Buradan belə nəticəyə gəlmək olar ki, qloballaşma dövründə islam bütün xalqları birliyə, sülhə, ədalətə çağırır, amansız müharibələrə, qanlı toqquşmalara son qoymağa tələb edir.

İslam dininin əsas məqsədi insanların xoşbəxtliyini təmin etməkdir. İslam əxlaqi dəyərləri beynəlmiləl xarakter daşıyır. Quran ayələrindəki əxlaqi dəyərləri millətindən, irqindən asılı olmayaraq bütün insanlara şamil edilir.

İslam dünyada ədalətin bərqərar olunmasını daşıyıcısıdır. İslam əxlaqi dəyərlərini yüksək dəyərlərindən Hans Künq və Karl Kuşel yazır: "Şəxsi təcrübələrdən və dünyanın əzab-əziyyətlə dolu tarixindən öyrənmişik ki, tək başına qanunlar və ənənələr yolu ilə yaxşı bir dünya sistemi qurula bilməmişdir; bu məcburiyyətlə də qurula bilməyəcəkdir. Sülhün, ədalətin və yer üzünün qorunmasının təmin tedilməsi üçün, insanların ədalətin təmin olunmasında həmfikir və əməkdaşlıq etməyi əsas şərtdir. Ədalətin və

hürriyətin həqiqətə çevrilməsinə kömək, bir öhdəlik və vəzifə məsuliyyətin dərki və bunun üçün həm beyinlərinə, həm də qəlblərinə xitab olunmalıdır. Əxlaqi davranış olmadan hüququn daimiliyini təmin edəcək hər hansı bir dayaq mümkün deyildir və buna görə beynəlmiləl dünya əxlaqi olmadan yeni bir dünya sistemi olmayacaqdır".(39,16)

Beləliklə, qeyd etməliyik ki, islam əxlaqi dəyərləri insanlığa sülh, əmin-amanlıq, xoşbəxtlik, sosial ədalətin bərpası, fikir və vicdan hürriyyəti bəxş edir.

Bu gün gənclərimizin əxlaqına təsir edən, onu düz yoldan sapdıran Qərbin əxlaqi keyfiyyətləri çox acınacaqlı halların baş verməsinə səbəb olur. Gənc qızların papiros çəkməsi, narkotik maddələr qəbul etməsi çox dəhşətlidir. Bu bizim sosial bəlamızdır. Belə ki, bu qızların gələcəkdə ana olacağı və onlardan olan uşaqların xəstə halında dünyaya gəlməsi bizim millətin faciəsidir.

## § 5 QLOBALLAŞMA VƏ MİLLİ MENTALİTET TƏHLÜKƏSİZLİYİ

Artıq XX əsrin sonu XXI əsrin əvvəllərindən etibarən bəşəriyyət yeni bir dövrə-Qloballaşma dövrünə qədəm qoymuşdur. Biz qloballaşmanın müsbət tərəflərini alqışlayır və onu bəyənirik. Azərbaycanın timsalında qloballaşmanın şərh edək.

Qloballaşma Azərbaydanın Avropaya inteqrasiyasını gücləndirdi. Xarici dövlətlərin respublikaya kapital qoyuluşu artdı. Bu mənada xüsusilə də ABŞ-ın Azərbaycana sərmayə qoyuluşu ilbəil çoxalır. Xarici biznesmenlərin bu ölkəyə marağı artır. Sözsüz ki, Azərbaycan kimi təbii sərvətləri bol olan bir ölkə xarici kapitalistlərin nəzər diqqətindən yayına bilməzdi.

Sovet sisteminin məhvi Azərbaycanı bütün dünyaya tanıtdı. Qloballaşma iri sənaye müəssisələrinin, nəqliyyatın, energetikanın vahid axında birləşməsinə və onun inkişafına imkan yaradır. Qloballaşma bazarla müəyyən edilir. Qloballaşma dünya iqtisadiyyatının vahid məkanda birləşdirilməsi deməkdir. Qloballaşma həyatın bütün sahələrinə müdaxilə edir. Qloballaşma təkcə dünyadakı iqtisadi prosesləri deyil, eyni zamanda onun strukturunu da dəyişdirir. Maraqlıdır ki, qloballaşma SSRİ-nin vaxtı ilə yerinə yetirdiyi siyasətin davamı deyilmidir? Belə ki, SSRİ bütün on beş respublikanı özünə tabe etmişdir. Bunlar bir mərkəzdən idarə olunurdu. Dövlət dili bütün respublikalar üçün bir dil idi. Respublikaların adı müstəqil olsalar da ondan asılı idilər. Bəs indii necədir? İndi isə qloballaşma adı altında ABŞ



bütün dünya dövlətlərinə öz siyasətini yeridir, özü də ki, bu siyasəti elə incə yollarla həyata keçirir ki, heç kəs bundan inciməsin. Belə ki, qloballaşma adı altında öz dilini adət ənənələrini həyata keçirir. Bununla ABŞ qlobal qarşılıqlı asılılıq münasibətlərini formalaşdırır.

Dünya iqtisadiyyatı sadəcə olaraq qarşılıqlı asılılq vəziyyətinə düşmür, o praktiki olaraq vahidə, tama inteqrasiya edir. Qarşılıqlı asılılıqda olan iqtisadiyyatla qloballaşmış iqtisadiyyat arsında keyfiyyətli fərqin olması heç kimdə şübhə doğurmur.

Söhbət təkcə genişlənmiş ticarətdən getmir, dünya bazarından getmir, vahid dövlətin bazarı təsəvvürü yaradan bazardan gedir.(102,55)

Həqiqətən də qloballaşma suveren dövlətlər arasında sosial münasibətləri dəüişdirir, milli mentalitetimizi şübhə altına salır. Bildiyimiz kimi milli mentalitet milli qürur hissi, milli psixologiya milli siyasi şüurun ilkin mərhələsi olmaqla milli xarakter, milli mənlik şüuru milli psixolgiya, milli qürur hissi, milli maraqlar milli təhlükəsizlik problemləri və s. amilllərlə bağlıdır.

Bu kiçik məqalədə mənim açıqlama vermək istədiyim məsələməhz qloballaşmanın milli təhlükəsizlik məsələlərindən biri olan milli şüur, milli mentalitet problemidir. Qloballaşma hal-hazırda bizim milli psixologiyamıza, milli mənlik şüurumuza, milli musiqimzə, milli adət-ənənələrimizə sirayət etməyə başlayır. Qərb öz bayağı musiqiləri, teleserialları, tükürpədirici filmləri ilə gənclərimizə güclü təsir göstərməyə başlamışdır. Bu nə deməkdir ki, böyüməkdə oan gənclərimiz- bizim davamçılarımız böyük, kiçik, ağsaqqal-ağbirçək tanımırlar, adətlərimizə hörmət etmirlər, şit qərb musiqisinin aludəsinə çevrilərək, muğam musiqimizə hörmət etmirlər.

Qloballaşma nəinki milli musiqimizə, eyni zamanda milli mənəviyyatımıza, dinimizə də təsir göstərir. Belə ki, hal-hazırda Azərbaycanın müxtəlif rayon və şəhərlərində o cümlədən Bakı şəhərində dini sektorlar fəaliyyətə başlamışlar. Onlar 17-18 yaşlı gəncləri bu dini sektorlara cəlb edirlər. Bunun üçün külli miqdarda maliyyə vəsaiti ayırmışlar. Onlar bu işdə qeyri-hökümət təşkilatlarından məharətlə istifadə edirlər. Qloballaşmanın lideri olan ABŞ-öz siyasətini nəinki dindən, eyni zamanda dildən də istifadə edir. Belə ki, o birinci olaraq SSRİ-nin tərkibndən çıxmış respublikalarda «demokratiya» adı altında ingilis dilinin təbliğinə başlamışdır. Əvvəllər uşaqlarını rus məktəbinə qoyan elita indi ingilis dilini öyrənmək üçün uşaqlarını ingilis dilli litseylərə qoyurlar. Əcəba görəsən bu xalq daha kimin dilini öyrənməyə can atacaqdır. Mən dil öyrənməyin əleyhinə deyiləm. Çox yaxşı haldır ki, bir uşaq və yaxud bir gənc bir neçə dili öyrənməyə çalışır. Bu millətin tərəqqisidir. Düşməni məhv etmək üçün onun dilini bilmək lazımdır.

Lakin bu o demək deyildir ki, öz ana dilini bilməyəsən. Şəhərin bəzi yerlərində ingilis dilinin 1-ci, anna dilinin isə 2-ci yerdə yazıldığını gördükdə adamı dəhşət bürüyür. Görəsən bu reklam xaraterli yazıları yazanlar azərbaycanlıdır yoxsa yox. Azərbaycanlı var ki, öz ana dilində danışa bilmir. Biz sevinirdik ki, nəhayət SSRİ dağıldıqdan, müstəqillik əldə etdikdən sonra dövlət dili azəri dili (türk dili) olacaqdır. Təəsüflər olsun ki, bəzi ingilislərin açdıqları firmalarda dil ingiliscədir. Yazıq millət nə etsin ki, yaxşı iş yerləri ( öz dillərində olan ) tapa bilmirlər. ABŞ dünyada «qlobal demokratikləşmə» siyasəti yeritməklə dünyanın başqa millətlərini mənəvi-psixoloci cəhətdən öz təsiri altına salır. Bu cəhətdən professor Yusif Rüstəmova görə qloballaşma prosesi bilavasitə siyasi təzyiq vasitəsi ilə hökümətlərin yaxud beynəlxalq maliyyə təşkilatlarının fəaliyyəti sayəsində baş verir. (87,53)

Qloballaşma sanki yeni bolşevizm, kommunizm siyasətidir. Bəlkə də zaman gələcək bu siyasətin də sonu puç olacaqdır. Bu siyasətin arxasında ABŞ-ın dünya hökmranlığı siyasəti durur.

Təəssüflər olsun ki, onun ən ağır, acınacaqlı və dəhşətli siyasəti müsəlman ölkələrində, minlərlə insanların həyatı üzərində həyata keçirilir. Azərbaycan xalqı gərək ABŞ-ın heç bir hiyləsinə uymasın, biz ayıq-sayıq olmalıyıq ki, fitnə-fəsada uymayaq, Milli-mənəvi dəyərlərimizi, dövlətçiliyimizi, dilimizi, adət-ənənələrimizi yad ünsürlərdən qorumalıyıq. Yoxsa ki, qızlarımız var-dövlət naminə ingilisə ərə getməklə gələcək nəsillərimizin qanına ingilis qanı qataraq yadlaşacaqlar və onların övladları sözsüz ki, ingilisin sözünü deyəcək, onun siyasətini yeridəcəklər. Necə ki, indi erməni dayılarına güllə atmayanlar olacaqlar. Bu cümlələri yazarkən mənim gözlərimin qarşısından Xocalı kimi dəhşətli faciəni törədənlər gəlib çıxır. Vaxtı ilə görkəmli şairimiz M.Ə.Sabir demişkən: "Tacirlərimiz sonyalara bənd olacaqmış bədbəxt tükəzbanları neylərdin ilahi !". (91,78)

M.Ə.Rəsulzadə yazır: "Madam ki, biz millətçiyik, madam ki, biz milli dövlət istiqlalını müdafiə edirik, bizim üçün nə kosmopolit liberalizm, nə də internasional sosializm və ya kommunizmə təhəmmül caiz olmaz. Müdafiə etdiyimiz və edəcəyimiz yeganə sosial sistem milli təsanüd (qarşılıqlı yardım, birlik) sistemidir. " (86,80)

Qloballaşma milli mentalitetlə bərabər milli şüura, milli ideologiyaya da təsir edir. Milli ideologiya milli mentalitetlə qarşılıqlı əlaqədə olur. Milli mentalitetin inkişaf səviyyəsi milli ideologiyadan, yəni millətin ideya və baxışlarından asılıdır. Müasir qloballaşma dövründə sözsüz ki, cəmiyyətin ictimai-siyasi həyatında baş verən dəyişikliklər milli ideologiyaya da təsir etməyə bilməzdi. Belə ki, həyatın bütün sahələrinə müdaxilə edən qloballaşma müasir gənclərimizin mənəvi-psixoloci dünyasından da yan keçmir. Bütün bunlar onların ideya-siyasi baxışlarına güclü təsir göstərir. Əsrimiz informasiya əsridir. Kompyuter, internet gənclərin milli maraqlarına, dünya görünüşünün genişlənməsinə güclü təsir göstərir. Nəticədə onların ideya siyasi baxışlarında böyük dəyişiklik yaranır. Belə ki, müasir gənclərimizin dünyagörüşü 70-ci illərin gənclərinin dünyagörünüşündən qat-qat üstündür. Buna səbəb qloballaşma, sərhədlərin açıq olması, avropaya inteqrasiya və nəhayət informasiya axının güclənməsidir. Sözsüz ki, bütün bunlar milli şüura, milli ideologiyaya da təsir etməyə bilməzdi. Görkəmli professor Ə. Tağıyevin yazdığı kimi hazırki şəraitdə milli ideyanın inkişafı üç əsas təmələ arxalanır: azadlıq, dövlətçilik və mədəniyyət.(104,115)



Müasir qloballaşma dövründə milli mentalitetin, milli şüurun qorunub saxlanılması məhz milli təhlükəsizliyimizin qarantının ümdə məsələlərindən biridir. Görkəmli professor Ə.Tağıyev yazır: "Hələ XX əsrin ilkin ziyalı mühacirlərindən olan Ə.Hüseynzadə və Ə.Ağayev Milli şüurun oyadılmasında, xalqın öz milli mənliyini dərk etməsində, mənəviyyat, dil, ədəbiyyat, mədəniyyət sahələrinin inkişaf etdirilməsində bütün türk-islam dünyasında böyük rol oynamışlar. Onların milli məsələ problemləri sahəsindəki tədqiqlərin sonrakı ictimai-siyasi fikir üçün böyük əhəmiyyəti var idi."(105,171)

Müasir qloballaşma dövründə şəxsiyyətin azadlığı onun milli mentalitetinin tərkib hissələrindən biridir. İnsanın hüquq və azadlıqlarının qorunub saxlanılması milli təhlükəsizliyin əsas amillərindən biridir.

Qloballaşma insanların milli psixologiyasına, milli xarakterinə də təsir göstərir. Bu onların hərəkətlərində, başqalarına münasibətdə özünü göstərir.

Qloballaşma dinimizə də təsir göstərir. Belə ki, müxtəlif dini sektaların respublikamızda fəaliyyəti gənclərimizin mənəvi-əxləqi aləminə mənfi təsir göstərərək onları cəmiyyətdə pis hərəkətlər törətməyə sövq edir.

Müasir qloballaşma dövründə dil və din sivilizasiyanın mərkəzi yerlərindən birində durur. Mənəvi əxlaqi və mədəni dəyərlərimizin təməl daşı məhz bunlardır. Dil və din adət-ənənələrimizin qorunub saxlanmasında milli-mənəvi keyfiyyətlərimizin daşıyıcı-sıdır.

Vaxtı ilə görkəmli dramaturq, yazıçı, publisist və dövlət xadimi olan N.Nərimanov yazırdı: "Ana dilində mahnı, musiqi və şeri dinlədikcə qəlbində bütün vücudunla, ruhunla şad olursan".

Həqiqətən də dil hər bir xalqın milli-əxlaqi şüurunun formalaşmasında mühüm rol oynayır. Görkəmli alim Hümbolt demişdir: "Dil xalqın ruhudur"

Müasir qloballaşma şəraitində dil və din milli adət-ənənələrimizin, şifahi xalq ədəbiyyatımızın, milli musiqimizin qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb edir. Biz başqa dillərə və dinlərə hörmətlə yanaşmaqla bərabər öz milli koloritliyimizi də qoruyub saxlamalıyıq.

Qloballaşma dövründə Qərb dünyanın hər yerində öz dili və dinini təbliğ edir. Müasir gənclərimiz gərək heç bir təbliğata uymasınlar. S.Hantinqton «Sivilizasiyaların toqquşması» əsərində «bütün bəşəriyyətə məxsus olan, universal olan, nə varsa, hamısını Qərblə əlaqələndirərkən Şərqdə universal düşüncənin intelektin, elmin varlığını tamamilə inkar etmək məqsədimi güdür? Görünür, məqsəd bundan ibarətdir ki, bölgünün özü Şərq və Qərb kimi yox, Qərb və qeyri-Qərb kimi aparılır və qeyri Qərb üçün ancaq universalizmdən kənar olan amillər saxlanılır».

Düzdür indi dünyada ingilis dili hegemonluq edir. Belə ki, bu dillə dünyanın hər bir siyasi, iqtisadi və kommunikasiya imkanlarından istifadə etmək olar. Bunu biz yalnız öz dövlətimizin xeyrinə istifadə edə bilərik. Əgər bir nəfər azərbaycanlı ingilis dilində yazırsa, bu o demək deyildir ki, Hantinqtonun yazdığı kimi o, Qərb sivilizasiyasını təmsil edir. Yox, bu belə deyildir. Hər bir insanın öz düşüncə tərzi vardır. Lakin mən qeyd etmək istəyirəm ki, bəzən bizlər Qərbin təsirinə tez düşürük. Hal-hazırda bəzi mağazalarda, reklam agentliklərində birinci ingilis, sonra azərbaycan dili yazılır. Unutmamalıyıq ki, Sovetlərin tərkibində olarkən də belə idi. İnd isə Qərbə üz tutmuşuq. Bəzən gənclərimiz pula-dövlətə aldanıb ingilisə ərə gedir. Bu da ki, gələcək nəsillərimizin bir azəri balası kimi itib-batması deməkdir.

Hal-hazırda din həyatın bütün sahələrinə təsir edir. Belə ki, Qərb dili ilə bərabər dinini də geniş yaymağa başlamışdır. Bunun üçün «küllü» miqdarda vəsait ayırır. Bu vəsaitin hesabına aztəminantlı ailələr müxtəlif dini təriqətlərə üzv olurlar. Bu dini təriqətlər insanların mənəvi-əxlaqi simasının formalaşmasına təsir edərək incilləşdirmək məqsədi güdürlər. Vaxtı ilə Atatürk demişdir: Dindən maddi mənfəət təmin edənlər iyrənc adamlardır. Biz bu işə müxalifik və buna icazə vermirik. 1997-ci ildə «Dini etiqad haqqında qanun» da xaricilərin Azərbaycan ərazisində missionerlik fəaliyyəti ilə məşğul olmasını qadağan edən dəyişikliklər ölkənin incilləşdirilməsi təhlükəsinin qarşısını qismən alsa da, bu dini qurumların qeyri-qanuni fəaliyyəti və cəmiyyətin dini identikliyi problemi hələ də qalır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda məscidlərin sayı artmağa başlandı. İran tərəfindən maliyyələşdirilən mədrəsələr açıldı. Düzdür biz İranla dostluq münasibətləri yaratmışıq. Lakin onun Ermənistanla



hədsiz dərəcədə yaxınlıq etməsi, ona iqtisadi cəhətdən hərtərəfli köməklik göstərməsi, məni onların dostluğuna şübhə etməyə vadar edir.

Əhali arasında Dinin bu dərəcədə təbliği Azərbaycanın yuxarı dairələrini düşündürməlidir. Çünki əhalisinin əksəriyyəti müsəlman olan ölkə üçün qlobal qərbləşmə müstəmləkəçiliyi cəmiyyətdə islamın rolu və yeri haqqında dəqiq müəyyən edilmiş xəttin olmaması ciddi mənfi nəticələrə gətirib çıxara bilər. Görkəmli islam alimi Yusif əl-Kərdavi yazır: «Müstəmləkəçiliyin növlərindən ən təhlükəsi ideya müstəmləkəçiliyidir. O, torpaqları deyil, zehinləri zəbt edir, zəka isə toplardan deyil, qələmdən istifadə edir».

Məhz qloballaşmanın bu xüsusiyyəti heç də xoşa gələn deyildir. Müxtəlif dini təriqətlərin Azərbaycana yol açması, özü də ki, Ermənistanla müharibə vəziyyətində olduğu bir şəraitdə bu cür siyasət milləti parçalamağa xidmət etmirmi? Biz 70-ildən də çox SSRİ-nin tərkibində olmuşuq. O, vaxtın ideologiyası başqa idi. Belə ki, dini qadağalar qoyulmuşdur. Lakin hər bir müsəlman istədiyi vaxtlar dini ayinlərə əməl edir və bunu nəsildən-nəsilə keçirirdi. Ona görə də dindən bir silah kimi yox, cəmiyyətin xeyrinə istifadə etmək lazımdır. Təəssüflər olsun ki, bu belə deyildir. Belə ki, qərb dövlətləri dindən müsəlman ölkələrinə qarşı qloballaşma adı altında bir silah kimi istifadə edirlər. Əgər ötən əsrin ortalarında bəşəriyyət SSRİ ilə ABŞ arasında müharibə təhlükəsi qarşısında durmuşdursa, hazırda bu təhlükə sivilizasiyalı dünya ilə müsəlman dünyası arasında (terrorizm adlandırılan) müharibəyə çevrilmişdir.

Dünyada islamın rolunun artması məhz bu müharibəni sürətləndirir. S.Hantinqton yazır: "Xristianlıq ilk növbədə başqa dinlərin tərəfdarlarını döndərmək yolu ilə islam isə həm döndərmək hesabına, həm də əhalininyüksək artımı vasitəsi ilə genişlənir. Ötən əsrin 80-ci illərində dünyada sayı ən yüksək həddə çatan - 30%-ə çatan xristianların faiz nisbəti bərabərləşmişdir, hazırda isə aşağı düşür və yaqin ki, 2025-ci ildə onların sayı dünya əhalisinin 25%-i təşkil edəcəkdir. Əhalinin son dərəcə yüksək templə artması nəticəsində dünyada müsəlmanların sayı böyük sürətlə artmaqda davam edərək, üçüncü minilliyin əvvəlində dünya əhalisinin 20%-nə çatacaq və sonrakı bir neçə il ərzində xristianların sayını ötərək ehtimal ki, 2025-ci ildə 30%-ə çatacaqdır".

Məhz buna görə Qərb ölkələri hər vasitə ilə İslam dövlətlərinə qarşı açıq-aşkar təcavüzkar müharibələr aparırlar. Hal-hazırda qloballaşma dövründə din geniş əhali kütləsi içərisində yayılmağa başlamışdır. Lakin bu dindən siyasi məqsədlər üçün istifadə etmək olmaz. Təəssüflər olsun ki, ona siyasi don geydirərək hər kəs öz məqsədləri üçün istifadə edir. Məsələn,

Qərb İslam dinindən öz məqsədləri üçün istifadə edir. Bunun üçün müsəlmanların dini məzhəblərindən istifadə edərək onların arasında təfriqə törədir. İraq dövləti buna əyani misaldır.

İslam hal-hazırda Azərbaycan xalqının ictimai-siyasi şüuruna güclü təsir göstərir. Qloballaşma müsəlmanların həmrəyliyini möhkəmləndirir və islam mədəniyyətinin dünyada geniş vüsət almasına şərait yaradır. Artıq Qərbi Avropa ölkələri «islamın dirçəlişi»-ndən qorxuya düşürlər. Ona görə də müsəlman dövlətlərinə qarşı hər cür təxribatlar törədir və onu daxildən dağıtmağa can atırlar.

Qloballaşma dövründə dinin modernləşməsi kütləvi şüurda onun rolunun güclənməsinə səbəb olur. Lakin keçid dövründə olan Azərbaycan üçün mədəni və mənəvi dini dəyərlər təməlçiliyə çevrilməməlidir. Təcrübə göstərir ki, "təməlçilik daha çox əhalinin islam irsini bilən və bununla fəxr edən savadlı təbəqələrinin ideologiyasıdır. Bu, savadsız xalq kütlələrinin səfərbər edilməsində səmərəli vasitə ola bilsə də, onların dini deyildir".

İslamın modernləşdirilməsinə onun sıxışdırılıb aradan çıxarılması kimi baxmaq olmaz. Qərbin hazırda respublikamıza tətbiq etdiyi ideya-cəmiyyət və dövlət həyatının modernləşməsi, vətəndaş cəmiyyəti, hüquqi dövlətin qurulmasına kömək və s. qloballaşmanın tələbidir. Lakin Qərbin bu siyasəti hamıda şübhə doğurur. Həyat göstərir ki, bu şübhələr əsassız deyildir. Çünki, bütün dünyada dilini və dinini təbliğ edib yaymağa çalışan ABŞ-ın işğalçılıq siyasəti göz qabağındadır. Görəsən qloballaşma adı altında dini sektaların sayını artıraraq, genişləndirən ABŞ-ın məqsədi nədir? Vaxtı ilə Sovet hökuməti də müxtəlif respublikaları vahid ailə altında birləşdirərək özündən asılı vəziyyətə salıb, bir mərkəzdən idarə edirdi. Deməli, mən deyərdim ki, tarix təkrar olunur.

## § 6 QLOBALLAŞMA, İSLAM MƏNƏVİ DƏYƏRLƏRİ VƏ QƏRB

Müasir qloballaşma dövründə bəzi qərb alimləri islamın elmdən, mədəniyyətdən geri qaldığını iddia edirlər. Onlar bildirirlər ki, islam texnologiyanı sənayeni mənimsəməkdə Qərbdən geri qalır, əslində bu belə deyildir. Belə ki, müsəlman alimlərinin bir çox ixtira və kəşfləri avropalılardan yüz illərcə əvvəl olmuşdur.

Avropada elm adamlarının cəhalət içərisində boğulduğu və öldürüldüyünü bir vaxtda müsəlman alimləri elmi axtarışlar və kəşflər etmişlər. İlk kağız fabrikası 794-cü ildə Bağdadda Harun – ər – Rəşidin vəzirinin oğlu



İbni Fəzl tərəfindən quruldu. Belə bir fabrik 800-cü ildə Misirdə 950-ci ildə Əndəlüsdə (İspaniyanın cənubu) inşa edildi. Avropada isə sonralar belə fabriklər inşa edilməyə başlandı. Kağız fabriklərinin qurulması islam dünyasında elmin sürətli inkişafı demək idi.

İbni Sina tibb sahəsində bir çox yeniliklər etmişdir. Onun «Qanun» adlı kitabı bütün islam dünyasında olduğu kimi Avropada da tibbin əsas kitabı olmuşdur. İlk xəstəxana da müsəlman hökmdarlarından biri tərəfindən açılmışdır.

Riyaziyyat elmi də müsəlmanlar tərəfindən inkişaf etdirilmişdir. Astronomiya elmi müsəlman alimləri tərəfindən (C. Bruno, Qaliley və Kopernikdən qabaq) kəşf edilmişdir. Dünyanın yuvarlaq olub fırlandığını, müsəlman alimləri avropalılardan qabaq bilirdilər. Görkəmli alim Biruni dünyanın həm öz ətrafında, həm də Günəşin ətrafında fırlandığını təsdiq etmişdi. Fərabi səsin fiziki izahını vermişdi. İlk təyyarəni 880-ci ildə İbni Firnans adında bir islam alimi qurmuşdu. Yerin cazibə qüvvəsinin Nyuton tərəfindən kəşf edildiyini iddia edən Qərb alimləri bilmirlər ki, bunu ilk dəfə Biruni kəşf etmişdir.

Botanika, zoologiya və digər elm sahələrində ilk kəşfləri müsəlman alimləri etmişlər. Lakin təəssüflər olsun ki, sonralar bunu inkişaf etdirməmişlər. Qərb alimləri isə islam alimlərinin kəşflərini inkişaf etdirərək öz adlarına çıxartmışlar.

Din bizim əxlaq və mənəviyyatımızın əsasını təşkil edir. Dövlət üç sütun-hakimiyyət, əxlaq və mənəviyyat üzərində dayanır. Bu üç elementin harmoniyası, hakimiyyət, əxlaq və mənəviyyatın vəhdəti insanlar üçün normal şərait yaradır. Məhz bu normal şəraiti qorumaq üçün mənəvi dəyərlərimizi qiymətləndirməyi bacarmalıyıq. Mənəviyyat, əxlaq və milli-mənəvi dəyərlər qloballaşma dövründə mühüm məsələlərdən biridir. Mənəviyyatı olmayan xalq yaşamağa layiq deyildir.

Müasir qloballaşma dövründə Qərb açıq-aşkar öz adət-ənənələrini, mədəniyyətini təbliğ edir. Qərbin əsas məqsədi bu gün Şərq ölkələrində islam mənəvi dəyərlərini məhv edib Qərb standartlarını bərpa etməkdir. Biz yuxarıda qeyd etdik ki, müsəlman alimləri elmdə, mədəniyyətdə, sənayedə ilk kəşflər etmişlər. Lakin bu gün Qrb bunları inkar edərək öz mənəvi dəyərlərini həyata keçirmək istəyir. Xatəmi yazır: «Qərb maddi cəhətdən irəlidədir, lakin mənəviyyatca kordur». (47,100) Təbii ki, müasir Qərb texniki elmlərdə, hərbi texnologiyada, kompüter texnologiyasında, iqtisadiyyatın aparıcı sahələrində müsəlman ölkələrindən qat-qat irəlidədir. Hər bir müsəlman ölkəsi bu nailiyyətlərdən bəhrələnməlidir. Lakin milli-

mənəvi dəyərlərimizi texnikaya, texnologiyaya qurban verməliyik. M.Xatəmi yazır: «Qərb qocadır, lakin bununla belə o siyasi, iqtisadi, hərbi sosial və təbliğat işi baxımından hələ də kifayət qədər güclüdür. Dünyanın bütün iqtisadi vasitələri «Qərbin əlindədir» və Qərb özünün siyasi mövqeyində bizləri heç bir başqa millətləri müstəqil, azad və öz taleyinin sahibi kimi görmək istəmir». (47,113)

Biz yuxarıda islamın elm sahəsindəki irəliləyişlərindən danışdıq. İndi isə islam əxlaqi dəyərlərindən danışaq. Belə ki, insanın mənəvi xüsusiyyətlərindən biri də onun əxlaqi dəyərləridir. İnsanın cəmiyyətdə əxlaqi dəyərləri formalaşır. Belə ki, o burada ya tərbiyələndirilir, ya da dəyişdirilir. İnsan çox mürəkkəb məxluqdur. Onun daxili aləmində nələrin mövcud olduğu heç kəsə məlum deyildir. Cəmiyyətdə, ictimai mühitdə onun daxili aləmi qismən də olsa açılır. Deməli, ictimai mühit insanın daxili xüsusiyyətlərinin açılmasında mühüm rol oynayır. Eyni zamanda cəmiyyət əsrlər boyu insan amilinin formalaşmasında, onun yaxşı, pis xüsusiyyətləri qazanmasında böyük rol oynayır. Məhz islam insana ən gözəl əxlaqi keyfiyyətləri mənimsəməyə təlqin edir. Allah insanı yaradarkən onun nəyin yaxşı, nəyin pis və zərərli olduğunu ondan gözəl bilir. Məhz islam insanları yollarından azmamağa, həmişə onlara bəxş edilən dünyanın gözəlliklərindən zövq almağa çağırır. İslam insanlara öz ağılları il hərəkət etməyi, heç kəsə pislik etməməyi, kin-küdurətdən uzaq olmağı bildirir. İslam heç bir xalqın dininə pis münasibətdə deyildir. O, bütün xalqları sülhə, əmin-amanlığa çağırır. Bu mənada isveç kralı III Qustav özünün «Hicazda islam» kitabında yazır: «Siz Quranda indiki dövrün elmlərinə zidd olan heç bir şey tapa bilməzsiniz. Bu din, ona riayət etməyə dəyər». (40,58)

Dahi rus yazıçısı və mütəfəkkiri Lev Tolstoy öz dünyagörüşünü belə açıqlayır: «Məhəmmədin şəriəti ağıl və hikmətlə uyğun olduğundan gələcəkdə bütün dünyada hökmranlıq edəcək… Xahiş edirəm mənə xeyirxah müsəlman kimi baxasınız». (40,28) Dahi yazıçının bu sözləri hal-hazırda Qərbin müsəlman dövlətlərinə qarşı yetirdiyi anti-islam siyasətində özünü büruzə verir. Belə ki, Qərb artıq başa düşür ki, islam yer üzərində hakim qüvvəyə çevrilməkdədir. Buna görə də Qərb bütün təbliğatını, təşviqatını islama qarşı çevirir. Eyni zamanda islam ölkələrinin daxilində çaxnaşma salaraq, qardaş qırğını törədir. Məgər Qərbin əxlaqi dəyərləri budurmu? Sözsüz ki, Qərb maddi cəhətdən varlıdır, mənəviyyatca isə kordur. Məhz buna görə də müsəlman ölkələrində fitnə - fəsad törətməklə onları daxildən məhv edir, bunun üçün milyonlarla kapital xərcləyir. Burada rəhmətlik M.Ə.Sabirin bir şeri yadıma düşdü. M.Ə.Sabir yazır:



«Fitneyi – iblis məlum oldu, nagah aşikar
Gör cəhalətdən nə şəkildə düşdü vəzü-ruzikar».

Sabirin bu fikirləri bu günümüzlə çox gözəl səsləşir. Həqiqətən də qərbin müsəlman ölkələrinə raqşı yetirdiyi vəhşiliklər müsəlmanlar arasında birliyin olmamasından, onların cahilliyindən, cəhalətdə qalmasındar irəli gəlir. Axı, nəyə görə vaxtı ilə bütün elmlərin bünövrəsini qoyan, kəşflər, ixtiralar edən Şərq indi Qərbin qarşısında susmuşdur. Çünki, bir daha qeyd etmək istəyirəm müsəlman ölkələri arasında milli birlik yoxdur.

Fransız yazıçısı və filosofu, Fransa Kommunist Partiyası MK-nin keçmiş üzvü «Humanite» qəzetinin baş redaktoru, Marksizm nəzəriyyəçilərindən olan Roce Harodinin 1982-ci ildə islamı qəbul etməsi qərb ictimaiyyətini, xüsusilə Sovet İttfaqı rəhbərliyini şok vəziyyətinə salmışdır.

Sorol Davenport «Allahın xeyir – duasını almış Məhəmməd və Quran» kitabında yazır: «İslamın sürtələ yayılmasının əsas səbəblərindən biri onun mənəviyyata aid məsələlərdə çox ciddi tələbkarlığıdır. İslam uydurmalar və yalanlar çirkabında çabalayan başqa dinlərin arasından pak gül kimi qalxmış, qüvvət və zəka rəmzinə çevrilmişdir. İslam elmə maddi dəyərlərdən daha çox üstünlük verir». (55,58)

İngilis alimi Riçard Bel yazır: «Avropa böyük tənəzzül qarşısındadır. Üzdə olan dəbdəbənin və cəhalətin arxısında özünə qəsd, ruhi xəstəliklər, əxlaqsızlıq, narkomaniya və alkoqolizm, qarət, zorlama, zöhrəvi xəstəliklərin görünməmiş vüsəti durur. Ziyalılar təbəqəsi mənəviyyat boşluğunda fəaliyyətsiz qalıblar. Xilas olmaq üçün yeganə yol islamdır». (55,59)

Həqiqətən də bu gün bütün Avropa dərk edir ki, islam yeganə dindir ki, insan daxilindəki mənəvi boşluğu əxlaqi dəyərləri ilə zənginləşdirir.

Tanınmış ingilis dramaturqu Bernard Şou «Məhəmməd Allahın elçisidir» kitabanda yazır: «Nəzərimizcə, islam yeganə dindir ki, bütün əsrlərdə həyatın bütün sahələrində yaşayış üçün ən düzgün yollar göstərir. Mən bu dinin gələcəkdə hətta Avropada qəbul ediləcəyi xəbərini indidən söyləyirəm». (50,9) Bu sözlərdə bir həqiqət vardır. Həqiqət odur ki, bu gün Aropa ölkələrində yaşayan bəzi insanlar artıq islama səcdə edirlər. Məhz islama olan bu maraq Avropanı qoruxudur, şoka salır. Ona görə də o islam ölkələrinə qarşı var qüvvəsi ilə mübarizəyə başlayır, onları məhv edərək yer üzündən azaltmağa çalışır.

İslam mənəvi dəyərləri hər şeydən üstündür. İslamda deyilir ki, insan nəfsinin qurbanı olmamalıdır. Bu onu həyatda kor edib, lazımsız bir şeyə çevirər. Bəzən insanlar maddi təlabatlarını ödəmək üçün həddən artıq nəfsi istəklərə, ehtiraslara varır. Bu axırda onu cinayət etməyə belə sövq edir.

İslam bildirir insan öz ağlına, iradəsinin gücünə arxalanaraq heyvan dərəcəsinə çatmamalıdır. Bu meyllər onu həyatda insani keyfiyyətlərdən məhrum edərək lazımsız bir əşyaya çevirər, bəzən də xisləti itirilmiş vəhşiyə dönər. Belə ki, mənəviyatı olmayan insan fikri düşüncəsində kamil ola bilməz. Belə insan cəmiyytə xeyir verə bilmədiyi kimi ətrafındakılara da bir ləkə olar.

Böyük filosof, alim M.Mütəhhəri «Kamil insan» kitabında yazır: «İnsan bəzən öz batinini istəkləri tərəfindən aldadır. İnsanın nəfsi bir şey istəyəndə, həmin şeyi ona elə bəzəyib-düzəyir, zinətləndirərək elə cilvələndirir yalandan elə göstərir ki, insan həmin şeyin doğrudan da həmin cür olmasını düşünür. Amama əslində bu işi insanın nəfsi onu aldatmaq üçün görür». (48,59)

Həqiqətən də bəzən insanın daxilində pisliklər və şər yatır. Bu şər qüvvələr daxilində olduğu üçün onun mövcudluğu bilinmir. Lakin bu müəyyən əsəbi hallarda özünü büruzə verir. Doğrudan da daxilində şər qüvvələr olan insanlar həyatın müəyyən anlarında insanlara qarşı pisliklərini göstərirlər. Ümumiyyətlə, qeyd etmək istərdim ki, insan çox mürəkkəb məxluqdur. Onda açılmamış elə səhifələr vardır ki, uzun müddət insan problemi ilə məşğul olan alimlər belə hələ də bu sirli aləmi tədqiq edib aça bilməmişlər. Burada yalnız islam mənəvi dəyərləri insanın daxilinə riayət edərək ona düz yol göstərir, kamil insana çevirir. Qeyd etmək lazımdır ki, insanın təlim-tərbiyə, əxlaqında, davranışında, adət- ənənələrə, valideynlərə münasibətdə islam meyar olmalıdır.

İslam dünyanın əşrəfi olan insanı onun bəxş etdiyi gözəlliklərdən zövq almağa çağırır. İnsanın mənəvi aləminin zənginləşməsində böyük rol oynayan incəsənətin bütün növlərindən istifadə etməyi bildirir. İncəsənət insan psixikasına güclü təsir edərək, onun ictimai-əxlaqi tərbiyəsində böyük rol oynayır. İslam ilahinin yaratdığı bütün gözəlliklərdən faydalanmağa əqlin kamilliyini artırmağa çağırır. İncəsənət insanın nəfsi istəklərinə yox, mənəvi aləminin zənginləşməsinə xidmət etməlidir. Əgər mənəvi dəyərlərə xələl gətirirsə, onda islam bunu qəbul etmir və belə hallara qarşı mübarizə aparır, islam birinci əxlaqi dəyərlərə, sonra zahiri gözəlliklərə üstünlük verir. Çünki hər hansı bir incəsənət növü insanın əxlaqını saflaşdırıb, onun intellektual səviyyəsinin artmasına kömək edirsə, mənəviyyatının zənginləşməsini yüksəldirsə, bu müsbət qəbul olunur və ona heç bir manea ola bilməz. Lakin təəssüflər olsun ki, hazırkı qloballaşma dövründə Qərbin bəzi şit, tərbiyəsiz, gənclərin əxlaqına mənfi təsir göstərə biləcək incəsənət növləri təbliğ edilir. Bu isə sözsüz ki, islam əxlaqi dəyərlərinə ziddir. Gəncərimizin



gələcəkdə kamil bir insan kimi yetişməsində mənfi rol oynayır. Pozğun, əxlaqsız zövqlər təbliğ edilərək yeniyetmələrin zehnini korlayır. Əxlaqi tərbiyəsini pozur. Bu sahədə dövlət səviyyəsində müəyyən tədbirlər görməyin vaxtı çatmışdır, bəlkə də buna gecikmişik.

Qərb filosoflarınlan biri olan Q.F.Hegel yazırdı: «İslam artıq xeyli vaxtdır ki, ümumdünya tarixi səhnəsindən çıxmış və yenidən Şərqə – ətalət və hərəkətsiz vəziyyətinə qayıtmışdır». Mən Hegelin bu fikirləri ilə razı deyiləm. Belə ki, islam heç də hərəkətsiz vəziyyətdə qalmamışdır. Əgər islam ətalət halında qalmış olsaydı, onda hal-hazırkı, dövrümüzdə Qərb niyə əl-ayağa düşərək islam dövlətlərinə qarşı mübarizəyə başlamışdır? Deməli, islamın tərəfdarları bütün ölkələrdə fəaliyyətə başlamışdır. Hətta Qərbin özündə belə bir çox insanlar islamın sülh, ədalət dini olduğunu dərk edərək onu sidqi ürəkdən qəbul edirlər. Bax, budur Qərbi narahat edən. Ona görə də Qərb islama qarşı mübarizədə bütün vasitələrdən istifadə edir. Bunlardan biri də məqalənin əsas məğzini təşkil edən Qərbin öz dilini, dinini təbliğ etməsidir. İslam Hegelin dediyi kimi ətalətdə qalmadı dünya dininə çevrildi. İslama itaət edən insanların sayı ildən-ilə artır, əgər tarixi vərəqləsək, görərik ki, Şərq dini-mənəvi dəyərləri Qərbdən çox-çox qabaqlar elmi aləminə yeni töhfələr bəxş etmişdir. Vaxtilə Hegel özü Şərqin bütün dünyanı fəth etməsini etiraf etmişdir. Lakin Qərb təəssübkeşliyi onu bəzən tutduğu mövqedən çəkindirmişdir. O yazırdı: «Məhəmməd ümmətindəabstraksiya (mücərrədlik) hökm sürürdü: onların məqsədi – mücərrəd dini etiqadın təntənəsinə nail olmaqdan ibarət idi və onlar çox böyük bir ruh yüksəkliyi ilə bu məqsədə can atırdılar. Bu ruh yüksəkliyi fanatizm idi. Fanatizm yalnız o mənada əhəmiyyətlidir ki, o konkret mövcud olanları puç edir, dağıdır; lakin Məhəmməd hümmətinə xas olan fanatizm o dövrdə ən ülvi məqsədlərə nail olmağa qadir idi və bu ülvi məqsədlər hər hansı cılız mraqlardan uzaq olub, alicnablığı və mərdliyi səciyyələndirən bütün xeyir əməllərləbağlıdır».

Göründüyü kimi filosof islamın alicənab və mərdlik xüsusiyyətlərini, xeyir əməllərlə bağlı olduğunu etiraf edir.Həqiqətən də islam dini-mənəvi dəyərləri bu gün bütün dinlər içərisində ən etibarlı və ülvi məqsədlərəxidmət edən dinlərdən biridir. Biz yada salaq Kərbəla döyüşünü və burada dünmənlərə qarşı igidlik göstərən Hüseyn və onun dəstə üzvlərini. Bu döyüş qəhrəmanlıq və vətənpərvərlik məktəbidir. O xalqımızı düşmənlərə qarşı barışmaz olmağa çağırır. Bax, islamın bu cəhətlərinin nəyi pisdir ki?

Hegel etiraf edirdi ki, «Məhəmmədin Şərq dünyasını fəth etmək prinsipi zorakılığa və qabalığa qarşı birinci etiraz çıxışı idi. Bu mövqe xristianlı-

qdan daha sonra, ondan daha artıq formada və daha böyüksürətlə inkişaf etmişdi, çünki bu sonuncunun dünya miqyaslı qüvvə kimi formalaşması üçün səkkiz əsr lazım gəlmişdi».

Deməli, Hegel özü etiraf edir ki, Məhəmməd Şərqi işğal etmək yox, onu zorakılıqdan, qəddarlıqdan xilas etmək üçün yürüş etmişdi. O islamın necə ədalətli, sülhsevər, bir din olduğunu yaymaq məqsədni güdmüşdür. Professor S.Xəlilov yazır: «Elmin, mədəniyyətin, ilk bəşəri dəyərlərin beşiyi olmuş Qocı Şərq e.ə. I minilliyin I yarısında öz əvvəlki inkişaf tempini və öncül mövqeyini tədricən itirmiş, Qədim Yunanıstan elm və mədəniyyətin inkişafı sahəsində irəli çıxmışdır, lakin antik sivilizasiya boş yerdə yaranmamış, Qədim Şərq sivilizasiyasından bəhrələnmişdir. Antik sivilizasiyadan sonra bəşər tarixində ən parlaq dövr islamın yaranması və başlanmasıdır. Elm və mədəniyyətin inkişaf mərkəzi yenidən Şərq dünyasına köçmüşdür. Bu dövrdə islamla sıx surətdə bağlı olan yeni sivilizasiya dalğası özündən əvvəlki elmi nailiyyətlərin, mədəni-mənəvi dəyərlərin dağılmasına yol verməmiş, onları qoruyub saxlamış, inkişaf etdirmiş və qərb dünyasının yeni intibahı üçün zəmin yaratmışdır».

Göründüyü kimi sivilizasiya elə Şərqdən başlanmışdır. Şərq milli-mənəvi dəyərlərindən bəhs edən tanınmış İran alimi Zərrinqub yazır: «İslam əsrlər boyunca mütərəqqi mədəniyyətlərə yardımçı olmuşdur və kimin islamı necə səciyyələndirməsindən asılı olmayaraq, o bəşər cəmiyyətinin inkişafının bütöv bir dövrünü təşkil etmişdir». Riyaziyyat elminin tarixini yazmağa başlayan tanınmış italyan alimi CinoRomeya bu elmi «Ərəb möcüzəsi», «islam möcüzəsi» adlandırmışdır».

Böyük alman filosofu Şpenqler yazır: «Qərb-Şərq və xristian - islam əlaqə və münasibətləri dövründə Şərq şəhərlərində günəş kimi parlayan Ərəb sivilizasiyası Qərb ölkələri üzərinə nur saçmışdır». Heç təsadüfi deyildir ki, R. Bekon öz həmvətənlərinə fəlsəfəni ərəb kitabları əsasında öyrənməyi tövsiyə etmişdir.

Rusiyalı şərqşünas, akademik S.F.Oldenburq yazırdı: «Biz bilirik ki, böyük rüh yaradıcısıolan qoca Şərq bizə elə bir əbədi örnək bəxş etmişdir ki, o insan üçün gerçəkliyini heç bir zaman itirməmişdir».

Həqiqətən də bu gün nə qədər çətinliklər görsə də Qərbin ona qarşı apardığı mübarizələrə (siyasi və ideoloci cəhətdən), müharibələrə baxmayaraq, islam mənəvi dəyərləri yaşayır və yaşayacaqdır.

Müasir qloballaşma şəraitində İslam təkcə müsəlman Şərqində deyil, eyni zamanda Qərbi Avropa ölələrində geniş yayılmaqdadır. Uzun illərdən bəri aparılan tədqiqatlar işlərindən aydın olur ki, islam istər maddi, istərsə



də mənəvi dəyərləri nöqteyi- nəzərindən Qərbdən üstün olmuşdur. Artıq yaşadığımız həyat, gördüyümüz hadisələr bunu sübut edir. Lakin təəssüflər olsun ki, uzun illərdir Şərq xalqları Qərbin texnolci və iqtisadi tərəqqisi qarşısında həqarət hissi ilə dayanmış, özünə etimad və inam hissini əldən verib, ruhsuz və tüfeyli bir cəmiyyətə çevrilmişdir. Qərb təfəkkür tərzi insanlara hakim olmuşdur və onlar elə düşünürlər k, hökmən buna tabe olmalıdırlar. Xeyr, bu belə olmamalıdır. Çünki, Şərq elm, mədəniyyət, incəsənət sahəsində böyük irəliləyişlərə nail olarkən Qərbdə hələ iməkləmə dövrü idi. Bunu aparılan tədqiqat işləri sübut edir. Belə ki, İslam Şərqində əl- Kindi, İbn Rüşd, Əl-Qəzali, Əl-Fərabi, İbn- Sina və s. kimi görkəmli alim- filosoflar yaşayıb- yaradarkən Qərb onlara həsrətlə baxırdı. İslam Şərqinin fəlsəfəsi güclü təsir qüvvəsinə malikdir. İbn Rüşdün, İbn Sinanın, İbn Əl- Ərəbinin, İbn Xaldunun və başqa müsəlman filosoflarının oricinal elmi- fəlsəfi fikirləri Qərbi Avropada geniş yayılmış və istifadə edilmişdir.

İslam Şərqinin elmi və fəlsəfəsi antik dünya elminin və fəlsəfəsinin Avropaya ötürülməsində mühüm rol oynamışdır. Bütün bunları Qərbi Avropa alimi fon Qrünbebaum «Klassik islam» (600-1258) əsərində hərtərəfli izah etmişdir. Görkəmli şərqşünas və islamşünas Qrünebaum müsəlman mədəniyyətinə sosial- iqtisadi həyatdan təcrid olunmuş bir anlayış kimi baxmamış, əksinə «islam mədəniyyəti» anlayışı adi altında, IX-XIII əsrlərdə islam cəmiyyəti, dövlət quruculuğu, iqtisadiyyatı, hərbi, fəaliyyəti, o cümlədən elmi, ədəbiyyatı, incəsənəti və s. nəzərdə tutulmuşdur.

İndi bütün dünyada islamın ardıcıllarının sayı getdikcə artır, bşqa dinlərə etiqad edən yüz minlərlə adam islamı qəbul edir. İslamın birləşdirici və həmrəylik gücü zəifləməmiş, əksinə son dövrlərdə daha da artmışdır. Fn Qrünebaum «Klassik islam» əsərində islam mədəniyyətinin çiçəklənməsini, klassik islam dövlətinin meydana çıxmasını müəllif IX əsrdən sonrakı dövrlərdə Abbasilər xilafətinin IX-X əsrlərdəki tarixi ilə 873-903-cü illərdə Səfəvilərin, 879-999-cu illərdə Samanilərin, 890-1008-ci illərdə Həmdanilərin, X-XII əsrlərdə isə Fatimilər, Büveyhilər, Qəznəvilər, Səlcuqlar və başqalarının hökmranlığı dövrləri ilə bağlı təhlil edir. İslamın birləşdirici gücü və inkişaf imkanları, insanları sosial ədalətə, mənəvi saflığa səsləyən ideyaları müasir zəmanəmizdə də milyonlarla insanın mənəviyyatını yüksəldir. Fon Qrünebaum «Klassik islam» əsərində islamın müxtəlif ictimai mənafeyi olan siniflər, təbəqələr, etnik qurumlar arasında ümumi müsəlman birliyi və həmrəyliyi yaratması qabiliyyətini göstərmişdir. O, qeyd edir ki, etnik qurumlar və siyasi cəhətdən müxtəlif «müstəqil dövlətlər»ə parçalanmış

mərkəzləşmiş Xilafət dövləti uzun əsrlər boyu öz birliyinin saxlanması üçün islam dini etiqad və ayinçilik ənənələrinə minnətdar olmalıdır.

Q.E.Fn Qrünebaem ərəb-müsəlman mədəniyyətinin dünya sivilizasiyasına təsirini onda görür ki, xristian dünyası elmdə, fəlsəfədə klassik Antik irsin tərcümə olunub yayılması, qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün «İslama minnətdardır». (68, 35)

Qrünebaum islam mədəniyyəti tarixinin, memarlıq və peoziyasının, elm və fəlsəfəsinin xristian-Avropa mədəniyyətinə təsirindən yazaraq demişdir: «Ərəb- müsəlman dünyası» xristian dünyasına gündəlik məişət əşyalarından, heraldika hissələrindən və silah nümunələrindən tutmuş, biliklərin hamılıqla genişləndirilməsinədək olduqca böyük mədəni sərvət bəxş etmişdir, əlbəttə bəxşişin haqqı ödənilməmişdir».

Göründüyü kimi bu bəxşişin əvəzinə müsəlman dünyası həmişə xristianlardan acı hərarətlər və göz yaşları görmüşlər. Hal- hazırda ABŞ-ın Yaxın Şərqdə islam dövlətlərinə qarşı aprdığı dəhşətli müharibələr, qırğınlar buna misal ola bilər.

Fn. Qrünebuam yazır: «Müsəlman fəlsəfəsinin nailiyyətləri islam kontekstində qiymətləndirilə bilər, böyük ərəb filosofu Əl-Kindi (950-ci ildə vəfat etmişdir) öz dövrünün möhtac olduğu həqiqətin zərrəciklərini yunanların yaradıcılığını öyrəndiyi vaxt məhz belə etmişdir. O, öz vəzifəsini yunanların işlərini başa çatdırmaqda və onların baxışlarını ərəblər kimi ərəb dilində və ərəb təfəkkürü tərzində ifadə etməkdə görürdü. Lakin ondan ötrü peyğəmbərin əməllərini və yaradıcılığını bilmək fəlsəfəni bilməkdən vacib idi. Quranda əksini tapmış həqiqət filosofların baxışlarından, dünyagörüşündən daha ülvüdür.

Göründüyü kimi fon Qrünebaum islamın necə həqiqi, düzgün, ülvi bir din olduğunu əsər boyu izah edir.

Qloballaşma və islamdan danışarkən biz bu dinin dünya xalqlarının həyatının bütün sahələrinə necə sirayət etdiyinin şahidi oluruq.

İslam hal-hazırkı dövrümüzdə nəinki Şərq mənəviyyatına güclü təsir göstərir, eyni zamanda Qərb mənəviyyatına da güclü təsir göstərir. Qərb alimləri özləri etiraf edirlər ki, Qərb mənəviyyatı sahəsində Şərqə möhtacdır. Şərqin mənəviyyatı Qərbinkindən daha zəngin və dolğundur. Əgər Şərqlilər müasir elm və sənayedə qərblilərdən istifadə edirlərsə, qərblilər də mənəviyyat sahəsində şərqlilərdən istifadə etməlidirlər. Həqiqətən də bəşəriyyət öz yaşayışında müasir sənaye və texnoloci avadanlıqdardan başqa digər vasitələrə də ehtiyaclıdır. Əgər cəmiyyətin ictimai – siyasi qurumları həyatın əsl fəlsəfəsindən ayrılsa və yaşayış mənəvi dəyərlərə əsaslanmayaraq, yalnız



maddi tələbatların ödənilməsinə yönəlsə, onda həyata zalım bir rəhmsizlik hakim olar.

Böyük İslam mütəfəkkirlərindən biri deyir: «Biz demirik ki, düşüncə və rəftarımızda özünütəcrid yolunu seçək və tarixin sivilizasiyalı inkişafından geri qalaq. Biz də bu karvanın sərnişinləriyik və orda öz payımız var. Daha doğrusu, biz müsəlmanlar bəşər mədəniyyətinə misilsiz töhfələr vermişik. Amma təəssüflər olsun ki, bu gün öz qədir- qiymətimizi bilmirik. Parlaq və şanlı keçmişimizi düzgün qiymətləndirməyincə, dünya ictimaiyyəti arasında öz layiqli yerimizi tutmayınca, fikir və düşüncələrimiz köləlikdən azad olmayacaqdır. Yadlara əl açmaq adətini tərk edə bilsək, onların bizlərə necə itaət etdiyinin şahidi olarıq». (47, 28)

Bu fikirlər hal- hazırda Qarabağ torpaqlarının erməni qəsbkarları tərəfindən işğalına gözəl nümunədir. Belə ki, biz azərbaycanlılar da erməniləri həmişə yuxarı vəzifələrdə işə qəbul etdik. Hər yerdə onlara hörmət edirdik. Şəhərin ən yaxşı yerlərində onlara mənzillər verilirdi. Biz öz qədir- qiymətimizi bilmədik. Dost- qardaş deyə- deyə bizim bərəkətli gözəl torpaqlarımız əsrin əvvəllərindən bu günə qədər ermənilərə bağışlanıldı. Bu həm də bizim ağılsız, maymaq rəhbərlərimizin ucbatından oldu. İndi bütün bu çətinliklərin əzabını «qaçqın» və «köçkün» adlandırdığımız sadə, «qara camaat» çəkir.

Doğrudan da biz gərək öz parlaq keçmişimizi əldən verməyək və daimi yaşayış prinsiplərimizi həyat təcrübəmizlə uyğunlaşdıraq və qoruyaq. Biz öz mədəni dəyərlərimizin qiymətləndirilməsinə hər yerdə çalışmalıyıq. Biz hələ də islamın dünyada tam təbliğinə nail ola bilmirik. Bir də ki, müsəlman xalqları və dövlətləri arasındakı münaqişə və çəkişmələr onların zəifləyərək dünyanın böyük ölkələrinin təsiri altına düşmələrinə səbəb olur. İslam dövlətləri arasında birliyin olmaması onların ABŞ və digər dövlətlər tərəfindən müdaxiləsinə səbəb olur. Rəhmətlik M.Ə.Sabir demişən, «iblis» kimi ortalığa düşən mənfur simalı əcnəbilər müsəlmanlar arasınd nifaq törətməyə çalışırlar.

Heç təsadüfi deyildir ki, Roma papası Vatikanda Keşişlər Şurasının açılışı zamanı söylədiyi nitqində demişdir: «Afrikada xristianlıq və Qərb üçün real təhlükə olan İslam dünyadakı kommunizm təhlükəsindən daha qorxuludur».

Həqiqətən də hal- hazırda islam dini dünyada sürətlə yayılmaqdadır. Çünki xalqlar bu dinin necə sülhsevər, ədalətli, insanpərvər bir din olduğunu dərk edirlər. Parisdə çıxan curnallardan birində Şərqşünas Marsel Karder yazır: «Əvvəllər hökmdarların və şahzadələrin dini olan İslam, bu gün

ümumxalq məzhəbinə çevrilmişdr. Sel kimi çoşqun olan xalqlar onun bayrağı altında birləşirlər. İslam Şimalı Afrikadan həmin qitənin cənubuna doğru sürətlə və ardıcıllıqla irəliləməkdədir. Statistika da bu inkarolunmaz faktı təsdiq edir».

Bu gün əcnəbi təşkilatlar İslam ölkələrində illərlə güclü təbliğat aparsalar da həmin dini xalqdan ayıra bilməmişlər. Görəsən bu dinin daxilində hansı möcüzələr var ki, onu xalqdan ayrıa bilmirlər. Elə islamın sirri də bundadır.

Görkəmli filosof Volter demişdir: «Məhəmmədin gətirdiyi din şübhəsiz xristianlıqdan üstündür. Onun ayinində heç vaxt məsihitlisdə olduğu kimi dəlilik dərəcəsinə çatan küfr mövcud olmayıb. İslamda tək allahı üç allah və ya üç Allahı tək Allah saymayıblar. Yeganə allaha inam bu dinin əsasıdır. İslam dini öz vücudu ilə həmin etiqadların banisinə borcludur. Xristianlıq qılınc və odla öz ayinlərini başqalarının boynuna yükləyir. Ey Rəbbim, kaş bütün Avropa xalqları özləri üçün müsəlmanları nümunə hesab edəydilər». (47, 48)

Volter xristianlıqda protestant məzhəbinin banisi sayılan Martin Lüter haqqında belə deyir: «Lüter, Məhəmmədin ayaqqabısının bağını açmağa belə layiq deyil». Daha sonra yazırdı: «Şübhə yoxdur ki. Məhəmməd çox böyük şəxsiyyət olmuş və həm də böyük şəxsiyyətlər yetişdirmişdir. O çox ağıllı başçı, ədalətli hakim, gözəl əxlaqlı bir peyğəmbər olduğu üçün yer üzündə ən böyük inqilab etmişdi».

L.Tolstoy isə belə deyirdi: «Məhəmməd üçün təkcə vəhşi və qaniçən bir milləti yüksək tərəqqi və mədəniyyətə çatdırmaq işi kifayət qədər iftixarlı hesab edilə bilər. Məhəmədin şəriəti ağıl və hikmətə uyğun olduğundan gələcədə bütün dünyada hökmranlıq edəcək».

İslam ədaləti və sülhü təkcə müsəlmanlar üçün yox, eyni zamanda bütün qeyri- müsəlmanlar üçün də bərqərar etmişdir.

Vaxtı ilə görkəmli filsof Əl-Kindi «bizim dil əhli»- əhli lisanin üçün çalışırdı. Bu hər halda bir çox sahələrdə dini separatizmi tarazlaşdırmış ümumi mədəniyyətin hamı tərəfindən başa düşülməsi zərurətinin yaranmasına çox mühüm sübutdur. Böyük müsəlman filosfları Əl-Fərabinin və ibn Sinanın bir fəlsəfi dildə danışmaları bundan xəbər verir. Məhz islamın vasitəçiliyi ilə yəhudilik də yunan fikri ilə ilk dəfə geniş ümumi əlaqə yaratdı.

Fon Qrünebaum «Klassik İslam» əsərində İslam mədəniyyətinin tarixi inişaf yolunu izləmiş, sosial- iqtisadi münasibətlərin təhlilini vermiş, Şərq-Qərb şəhərlərinin ticarət, pul, mülkiyyət məsələlərinin şəhər əhalisinin milli-



etnik xüsusiyyətlərinin, hərbi quruculuq və siyasi idarəetmə aparatının müqayisəli təhlilini göstərmişdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Qrünebaum İslamın irəli sürdüyü qayda- qanunların tam demokratik olduğunu və bundan bütün dünya ölkələrinin quruculuq işlərində istifadəsini tam məqbul saymışdır.

F.Qrünebaum yazır: «Xristian dünyası yalnız bir şeydə- fəlsəfədə və elmdə islamın əxz etdiyi və ərəb dilində ifadə olunmuş, XII əsrdən başlayaraq təzədən xristian mərkəzlərinə çevrilmiş mərkəzlərdə, ilk növbədə geniş tərcüməçilik işinin aparıldığı Toledoda diqqətlə öyrənildikdən sonra latın dilinə tərcümə edilmiş klassik irsin qorunub saxlanılmasına görə minnətdardır». (68, 102)

İslam dövlət dili olan ərəb dilinin tənəzzülünə hec də mane olmadı. Fəlsəfi və elmi konsepsiyaların ifadə olunmasında fars dili ərəb dilindən geri qalırdı.

Tarixi faktlara nəzər yetirərkən, görürük ki, islamı qəbul edən xalqlar elm və mədəniyyət sahəsində yeni konsepsiyalar işləyib hazırlamağa başladılar. Məhz bunun qarşısını almaq üçün S.Hantinqton müsəlman ölkələrinin daxildən məhv edilməsinə Avropa ölkələrini çağırırdı. O, yazır: «İqtisadi cəhətdən Qərb digər sivilizasiyalarla müqayisədə daha zəngindir, lakin təbii artımın çox zəif olması, mənəvi durğunluq, mədəniyyətin geriyə doğru inkişafı, zəif iqtisadi artım, qeyri- Qərb xalqlarının qeyri- Qərb ölkələrinə kütləvi immiqrasiyası və s. kimi problemlər» Qərbin öz mövqeyini itirmək təhlükəsi yaratmışdır. Həqiqətən də İslamın sürətlə inkişafı Qərbi vəlvələyə salmışdır. Məhz buna görə də bütün islam dünyası vahid bir bayraq altında birləşməlidir. İslam dünyası ölkələri öz siyasətlərini elə qurmalıdırlar ki, Qərb ölkələri onların daxili işlərinə qarışa bilməsinlər. İslamın sürətli inişafı sözsüz ki, Qərbin beynəlxalq aləmdə nüfuzuna xələl gətirə bilər. Buna görə də əsas hədəfi İslam ölkələridir.

Qərbi digər sivil ölələrinə qarşı qoyan S.Hantinqton yazır: «Demoqrafik artım, sənayeləşmə, urbanizasiya, zəngin yeraltı sərvətlər ümumi savad və təhsil səviyyəsinin artması, çoxsaylı islam təşkilatlarının və institutlarının olması və s. İslam ölkələrinin gələcəkdə Qərb üçün böyük təhlükə olduğunu sübut edir». (48,37) Qeyd etmək lazımdır ki, İslam Avropaya təkcə yeni biliklərin əxz edilməsinə yox mədəniyyətin inkişafına təsir göstərərək, yeni Avropa şüurunun formalaşmasında böyük rol oynamışdır. İslam orta əsrlərdən başlayaraq Avropa cəmiyyətinin məişətinə, ticarət-iqtisadiyyatına, ədəbiyyatına, texnikasına, siyasətinə, fəlsəfəsinə, dininə az ya çox dərəcədə müxtəlif səviyyələrdə təsir göstərmişdir.

A.V.Juravksinin yazdığı kimi XII-XIII əsrlərdə müsəlman alim və filosofları Avropa xristian məktəblərində böyük nüfuza malik idilər».

Belə ki, optika, botanika, əczaçılıq və praktik təbabət bir çox işlərə görə islam tədqiqatlarına borcludurlar. Müasir qloballaşma dövründə İslam bütün dünya dövlətlərini sülh və qardaşlıq şəraitində yaşamağa çağırır. Bu Onun müqəddəs kitabı olan Quranda öz əksini tapmışdır. Lakin İslam ona qarşı müharibə aparanlara müharibəyə (cihada) çağırır. Bu isə Qərb dairələrini narahat edir. Məsələn, necə illərdir ki, torpaqları İsrail işğalçıları tərəfindən zəbt edilmiş Fələstin xalqları nə etməlidirlər? Əlbəttə ki, gördüyümüz imi uzun illərdir ki, Fələstinin uşaqdan tutmuş böyüyədək bütün hamısı mübarizəni dayandırmırlar. Təbii ki, bu belə də olmalıdır. Bunu islam «fundamentalizmi» adlandırsalar da bu belə deyildir. Onu şərait doğurmuşdur. Rus şərqşünası A.V.Kudryavtsev yazır: «Yaxın Şərq probleminin həll edilməmiş olması İslam fundamentalizminin meydana gəlməsinin mühüm səbəblərindən biri olsa da onun başlıca səbəbi deyildir. Bu prosesdə sosial - iqtisadi böhranlar daha mühüm rol oynayır». (72,23)

Deməli, buradan belə bir nəticəyə gəlmək olar ki, bu prosesi əhalinin kütləvi surətdə yoxsulluğa, aclığa, işsizliyə və s. olan etirazı doğurur.

## § 7 QLOBALLAŞMA VƏ MİLLİ İDEOLOGİYA TƏHLÜKƏSİZLİYİ

*Millətin əsasında ideya dayanır*

*Q. Spenqer.*

Biz milli ideologiyadan danışmazdan əvvəl onu qeyd etməliyik ki, 70 ildən də çox sovet ideologiyası, kommunist ideologiyası ruhunda tərbiyə almışıq. Əlbəttə ki, insanların şüurundan bu ideologiyanı çıxartmaq çox müşkül bir məsələdir. Biz bu ruhda böyümüşük. Bizim cəmiyyətə, dünyaya baxışlarımız bu ruhda formalaşmışdır. İndi isə müstəqil dövlət qurmaqla bərabər qloballaşma şəraitində yaşayırıq. Azərbaycan istəsə də, istəməsə də qloballaşma prosesinə qoşulmuşdur. Bəs nə etməliyik ki, bu qloballaşma prosesindən üzü ağ, alnı açıq çıxaq? Bunun üçün modernləşmənin mahiyyətini və əsasını təkcə elmi bazanın və sənaye kompleksinin möhkəmlənməsi ilə deyil, həm də milli ideologiyanın təkmilləşdirilməsi yolu ilə dərk etmək olar. Dövlətin xarakterini, mahiyyətini, ona yol göstərən milli ideologiyanı formalaşdıran alimlər, sosioloqlar həmişə ön cərgədə olmuşlur. Milli ideologiya iqtisavdi və siyasi strategiyanın gerçəkləşdirilməsinə imkan yaradır, xalqın xeyrinə olan ideyalar yalnız indiki nəslin yox, eyni zamanda



gələcək nəsillərin yolunu işıqlandırır. Biz qərb dəyərlərini qəbul etməklə yanaşı, eyni zamanda öz milli əxlaqi dəyərlərimizi, adət ənənələrimizi qoruyub saxlamalıyıq.

Görkəmli şairimiz M.Ə.Sabir demişkən «Çalxalandıqca, bulandıqca zaman nehrə kimi». Yağı, yağ üstə çıxır, ayranı ayranlıq olur. Bax, biz zamanın bu axarından elə çıxmalıyıq ki, bütün kəm-kəsirimiz üzə çıxdıqda, onu yaxşı mənada, milli dəyərlərimizi qoruyub saxlamaqla, zamanın tələbinə uyğunlaşdıraq.

Sovet sistemi 70 il öz ideologiyasını təbliğ etdiyi kimi Qərbə də hal-hazırda öz siyasətini necə istyirsə o cürə təbliğ edir. Bu istər siyasət, istərsə də mədəni-mənəvi tərbiyə sahəsində özünü büruzə verir. Buna görə də biz ideologiyamızı elə qurmalıyıq ki, gələcək nəsillər bizi lənətləməsinlər.

Müasir qloballaşma dövründə milli ideyanı elə qurmaq lazımdır ki, o hər bir xalqın, etnosun mənafelərini əks etdirə bilsin və onun şüuruna, zəkasına hakim olsun. Bir sözlə ictimai və fərdi şüurun bütün sahələrini əhatə edə bilsin. Bildiyimiz kimi, ideologiya bu və ya digər sinfin cəmiyyətə, dövlətə olan ictimai, siyasi baxışlar sistemidir.

İdeologiya intellektualların yaratdıqları konsepsiyalarda məhdudlaşır və elmi biliklərdən tutmuş, dinə qədər və həqiqiliyindən, yaxud saxtalığından asılı olmayaraq, gündəlik məqbul davranış təsəvvürlərinədək ictimai və fərdi şüurun bütün sahələrini əhatə edir. (97, 283) Müasir qloballşama şəraitində Qərbin təsirinə düşməyərək dini baxışlarda, ictimai və fərdi şüurda, dövlət sənədlərində, tərbiyə və təhsildə, mədəniyyətdə milli ideologiyamızı qoruyub saxlamalıyıq.

Mərhum prezidentimiz H.Əliyevin Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsit, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2001-ci ildə imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanması məsələləri barədə Azərbaycan xalqına müraciəti təkcə keçmişə ehtiram əlaməti yox, eyni zamanda bu zamanın tələblərinə, qloballaşmanın tələblərinə cavab idi. (74, 205)

Milli ideologiyanın əsasını, milli mənlik şüuru, öz xalqının tarix və mədəniyyətinin miloli mentalitet və nəhayət, milli «mən»inin qorunub saxlanması təşkil edir.

Azərbaycançılıq ideologiyası hər bir azərinin qanında, canında olmalıdır. Azərbaycan xalqı 1988-ciildə mitinq, nümayişlərdə öz milli birliyini göstərdi. Lakin bununla iş bitmir. Belə ki, millət, öz gücünü göstərməklə yanaşı «Milli mentalitetini, milli mənlik şüurunu da qoruyub saxlamalıdır. Bəs qloballaşma dövründə Qərbləşməni rədd edərək və milli «mən»i saxlaya-

raq modernləşə bilərikmi: Bu yolu Cənub-Şərqi Asiyanın bütün ölkələri keçmişdir. Yaponlardı belə bir aforizm işlədilir. Qərb texnologiyaları, yapon ruhu».

Azərbaycan dövləti də qloballaşmanın bütün üstünlüklərindən istifadə etməklə yanaşı, eyni zamanda öz milli Azərbaycançılıq ideologiyasını hər cür neqativ təsirlərdən qoruyub saxlamalıdır. Belə ki, özünəməxsus ideologiyası olan xalqın milli dövləti ola bilər. Azərbaycan 70 ildən sonra məhz öz ideologiyasını yarada bildi. Mərhum prezidentimiz məhz bu mənada Azərbaycanlıların I qurultayında demişdir: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı–Azərbaycan dilini, mədəniyyətini, milli–mənəvi dəyərlərini adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır». (24, 185)

Həqiqətən də milləti yaşadan onun dili, adət-ənənələri, dini, əxlaqi dəyərləridir. Millətin millət olması üçün onun məqsədi, özünü tanıması gərəkdir. Bu mənada böyük mütəfəkkir N. Nərimanov yazırdı: «Bir millət özünü tanımazsa, özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmazsa, xüsusi məsləki dalıncaaaa yeriş edə bilməz. Bu yolda yeriş edə bilməzsə, ümummüqəddəs məslək nə olduğunu da düşünməz» (N.Nəromanov seçilmiş əsərləri. M.K.Atatürk yazırdı: «Ölkəsinin yüksək istiqlaliyyətinin qorunmasını başa düşən türk milləti dilini də yabancı dillər boyunduruğundan çıxarmalıdır». (67, 151)

Bu gün milli ideologiyanı sırf milli zəmində qəbul etmək olmaz. Çünki biz qloballaşma şəraitində yaşayırıq. Düzgür biz dilimizi, adət-ənənələrimizi, milli ruhumuzu qorumaqla yanaşı, digər xalqların və milli maraqlarına da hörmətlə yanaşmalıyıq. Bizim ideologiyamız Şərq və Qərb dəyərləri arasında körpü yaradan bir ideologiyadır. Hazırkı dövrümüzdə Qərb müxtəlif təbliğat, təşviqat vasitələri və s. yollarla öz ideologiyasını geniş surətdə təbliğ edir. Bu mənada biz ayıq-sayıq olmalı və milli ideologiyamızı qorumalıyıq. Qərb siyasətçiləri üz tutduqları ölkələrin milli xüsusiyyətlərini və problemlərini nəzərə almadan onları öz standartlarına uyğunlaşdırmaq siyasəti yürüdürlər. Bəlkə də onlar yeni ideologiya təlqin etdiklərini ağıllarına belə gətirmirlər. Lakin onlar hazır reseptlər şəklində elə təlqin olunur ki, bunlar ideologiya rolunu oynayır. Belə ideologiya xüsusilə gənclərə tez təsir edə bilər. Buna misal olaraq müxtəlif şou-oyunlarının təşkili, dini sektaların açılması, dilin (xarici təbliği, reklam məlumatlarının genişləndirilməsi və s.-dir. Vahid milli ideyanın təsiri ilə istiqamətləndirilməyən, qlobal miqyasda



yayılmış qərb ideyaları millətin şüuruna yeridilərək onu öz təsir dairəsinə alır. Məhz buna görə də qloballaşma şəraitində milli mənəvi dəyərlərimizi, əxlaqın, adət-ənənələrin qorunub saxlanılması milli ideoloji təhlükəsizliyin mühüm qarantıdır.

Müasir qloballaşma dövründə Qərb dövlətləri, xüsusilə ABŞ-ı dindən bir ideologiya vasitəsi kimi istifadə edir. Xüsusilə ABŞ-ı «islam fundamentalizmdən», «islam təhükəsindən» danışır. Həqiqətən də din müasir dövrdə ideologiyaya çevrilir və siyasətdə aparıcı rol oynayır. ABŞ-ın müsəlman ölkələrinə qarşı apardığı dağıdıcı müharibələr buna əyani misaldır.

Bildiyimiz kimi ideologiya müxtəlif formalarda (siyasi, iqtisadi, dini, hüquqi və s.) həyatımıza daxil olur. Müasir qloballaşma şəraitində ideologiya önəmli məsələlərdən biridir. Belə ki, mənfi ideologiyalar gənclərimizə tez sirayət edilir. Onları düz yollarından sapdırır. Gənclərin mənəvi-əxlaqi tərbiyəsinə təsir edən mənfi ideologiyalar bəzi hallarda kütlələr içərisində də geniş yayılır. Son vaxtlar geniş vüsət almış vəhabilik dini təriqəti geniş əhali kütləsi içərisində yayılmağa başlamışdır. Xarici informasiya vasitələri bundan bir ideoloji vasitə kimi istifadə edirlər. Bu təriqətin nümayəndələri hər yerdə öz dini kitablarını yaymaqla məşğuldurlar. Müharibə şəraitində yaşayan bir respublika üçün sözsüz ki, bu ideologiya qeyri-qənaətbəxşdir. Düşmənlərimizə qarşı mübarizə apardığımız bir şəraitdə vəhabiliyin təbliği onlar qarşısında təslim olmaq deməkdir. Deməli, Qərb ermənilərə təslim olmaq, torpaqlarımızı itirmək üçün ideologiyanının bütün formalarından istifadə edir. Necə ki, son vaxtlar bəzi telekanallarda ermənilərlə barış aparmaq üçün «sapı özümüzdən olan baltaları»ın yaltaqlıq edərək dəridən-qabıqdan çıxdıqları göz qabağındadır. Bu da məlum məsələdir ki, belə siyasəti xalq içərisində təbliğ edənlərin əksəriyyətinin qanı qarışıqdır.

Mən ideologiyadan danışarkən bizim xalqın şüuruna sirayət etmiş, ona məxsus milli mentallıqdan da danışmaq istəyirəm. Belə ki, bildiyimiz kimi azəri xalqı ta qədimdən igid, qoçaq, ana-bacı, qadın qeyrəti çəkən bir xalq olmuşdur. Bizim gənclərimiz vətənpərvərdir, satqın deyildirlər. Lakin qloballaşma dövründə həm Qərbin, həm də özümüzün bəzi üzdəniraq ideologiya sahibləri Azərbaycan xalqına xas olan milli qürur hisslərini məhv etməyə çalışırlar. Məni dəhşətə gətirən budur. Biz belə ideologiyaya qarşı cəsarətlə maübarizə aparmalıyıq. Yeganə düşmənimiz olan ermənilər qarşısında təslimçilik mövqeyində durmamalıyıq.

Vaxtı ilə görkəmli dövlət xadimi N.Nərimanov yazırdı: «Şərq Qərbin imperialist siyasətinin namussuzluğundan, zülmündən, ədalətsizliyindən və yalanından yorulmuşdur». (71, 235) Bu fikirlər həqiqətən də hal-hazırkı

dövrümüzdə səsləşir. ABŞ bütün dünyaya xüsusilə müsəlman ölkələrinə qarşı hərb maşını ideoloji bir silaha çevirərək daxildən onları məhv edir.

Qərb dövlətlərinin antimüsəlman siyasətinə qarşı mübarizədə görkəmli dövlət xadimi, publisist N.Nərimanovun böyük xidmətləri olmuşdur. O, Qərbin Şərqə qarşı təcavüzkar siyasətini tənqid edərək, Azərbaycanın, o cümlədən bütün müsəlmanların Avropanın köləsi olmasının əleyhinə çıxmışdı. O, yazırdı: «Avropa cahangirliyi davam etdirsə, biz sakit ola bilmərik və bir əlimizdə çəkic, bir əlimizdə tüfəng saxlamalıyıq». Hal-hazırkı qloballaşma dövründə baş verən hadisələr N.Nərimanovun müsəlman ölkələrinə xəbərdarlığını bir daha sübut etdi ki, islam dinli xalqlar Qərbin antimüsəlman siyasətinə qarşı mübarizədə ayıq olmalı, silahı əldən verməməlidir. Həqiqətən də bu belədir. Hazırkı dövrümüzdə ABŞ-ın müsəlman dövlətlərinə qarşı apardığı qanlı müharibə və qırğınlar göz qabağındadır. Fəqət, təəssüflər olsun ki, müsəlman dünyası ayılmır, onların arasında birlik yoxdur. N.Nərimanov 1906-cı ildə yazırdı: «Yetər aldanmaq! Yetər bu qədər tökülən qanlar! Bəsdir vətənin xeyirxahları ilə hürriyyətin səmimi mücahidləri ilə qazamatlarıdoldurmaq! Bəsdir acliğa davam etmək! Bəsdir! Bəsdir!». (49,7)

N.Nərimanovun bu dahiyanə sözləri vaxtında deyilmiş və bu günümüzlə səsləşir. O, yazırdı: «mən öz evimdə oturarkən, öz əkdiyimi özüm biçərkən, biçdiyimə yoldaş olmağın mənasını anlamıram». Hazırkı qloballaşma dövründə Azərbaycanın təbii sərvətlərini (yeraltı, yerüstü) mənimsəyən, ondan külli miqdarda gəlir qazanan ABŞ sərmayədarlarının fəaliyyəti buna misaldır. Axı, nəyə görə xarici kapitalistlər bizimlə ortaq olmalıdırlar? Bizim sərvətlərimiz hesabına onlar varlandığı halda, yerli əhalinin əksər hissəsi dilənçi vəziyyətində yaşamağa məhkumdurlar. Vaxtı ilə görkəmli yazıçı Ə.Firdovsinin yazdığı kimi odu vaxtında söndürməsən o alovlanıb cahanı məhv edəcəkdir.

«Odu qığılcımkən söndürmək gərək,
Alovlanarsa, cahanı məhv edəcək».

Xatəmi Qərb dövlətlərinin xüsusilə də Amerikanın dünya hökmranlığı ideologiyasına qarşı çıxaraq, baxış və mövqeyini çıxarır və yazırdı: «Sivilizasiyaların dialoqu onun indiki formasında o zaman meydana çıxmış və qəbul olunmuşdur ki, bizlər bütün müharibələri, sarsıntıları, qəsbkarları və hüquqsuzluqları arxada qoymuşuq». Həqiqətən bu gün dövlətlər arasındakı ziddiyyətlər heç də asanlıqla həll olunmur. Amerika dünya xalqları, xüsusilə müsəlman dövlətləri üzərindəki hegemonluq siyasətindən əl çəkməmişdir.



N.Nərimanov yazırdı: «Şərq Qərbin siyasətinin ədalətsizliyindən yorulmuşdur. Şərq Avropa mədəniyyətinin faydalı və xeyirli qüvvəsinə artıq etibar etmir və hərgah bizə olan etibarını da itirsə, o vaxt «müsəlman Şərqi nicatı panislmizmdə axtaracaqdır». Böyük mütəfəkkirin vaxtı ilə söylədiyi fikirlər bu günün gerçəkliklərini əks etdirir. Nərimanov yazırdı: «...İslam dövlətlərində hüriyyət olmasa, «quzğunların» əlindən xilas olmaq qeyri mümkündür». «tezliklə qoca Şərq oyanacaq və zülmü asanlıqla öz üzərindən rədd edəcəkdir».

Əhməd Ağaoğlu yazırdı: «islam Şərqi bütün Asiyanı, Afrikanı öz arxasınca dartaraq, bütün Qərbi də onun qarşısında səcdə etməyə məcbur edəcəkdir». Bu dahiyanə deyilmiş sözlər vaxt gələcəkdir ki, özünü həyatda doğruldacaqdır

# NƏTİCƏ

Qloballaşma şəraitində Azərbaycanda milli təhlükəsizliyinin qorunması vacib, prioritet məsələlərdən biridir. Belə ki, Azərbaycanın müsətiqillik əldə etdikdən sonra xarici dövlətlərin bu ölkəyə marağı günbəgün artır. Respublikamızın zəngin təbii ehtiyatları – nefti, qazı Avropa ölkələrinin buraya axınını gücləndirir. Xarici şirkətlərin azərbaycana səmərmayə qoyuluşu ilbəil artır. Dünya iqitisadiyyatı sahəsində hökmranlıq etməyə başlamış ABŞ-ının artıq Azərbaycanda ən böyük şirkətləri fəaliyyətə başlamışdır. BVF-u Azərbaycana kredit ayrılmasını ilbəil artırır. BTC-boru kəmərinin çəkilişi, «Böyük İpək yolu» və digər strateji əməhiyyətli tikintilərin Azərbpaycanda yerləşdirilməsi, ölkənin beynəlxalq aləmə inteqrasiyası, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi milli təhlükəsizliyin qorunmasını tələb edir. Bu mənada Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə təhdidlər edilir. Müxtəlifı separatçı, etnik qruplar və dini ekstremist qüvvələr hər an respublikada çaxnaşmalar törətməyə çalışırlar. Bundan başqa regional münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın genişlənməsi, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal altında qalması milli təhlükəsizlik üçün təhdidlər yaradır. İnsan alveri, narkotik malddələrin alınıb-satılması, qeyri-qanuni silah alveri və Azərbaycan respublikasının milli təhlükəsizliyinin qorunmasını tələb edir.

Azərbaycan qloballaşma şəraitində bütün daxili və xarici təhdidlərə qarşı əzmlə mübarizə aparır, dövlət sərhədləri sərhədçilərimiz tərəfindən sayqılıqla qorunur. Kitabda son nəticə olaraq qeyd etmək lazımdır ki, Azərbaycan qloballaşmadan məharətlə istifadə edir. Belə ki, öz milli köklərinə söykənərək və xalqın milli maraqlarına uyğun olaraq qloballaşmanın müsbət cəhətlərini özündə əxz edərək, mənfi xüsusiyyətlərə qarşı mübarizə aparır.

Fransa prezidenti Jak Şirak demişdir ki, «Qloballaşma, vəd edilmiş müsbət dəyişikliklərə daha çox ehtiyac duyan insanların həyatını heç də yaxşılaşdırmamışdır».(100,28)

Kitabda respublikamızın iqtisadiyyatının, siyasətinin inkişaf tempi hərtərəfli göstərilmişdir. azərbaycan dövləti qloballaşma şəraitində milli təhlükəsizliyinin qorunması üçün bütün imkanlarından istifadə edir.



Vaxtilə Türkiyə Cumhuriyyətinin başqanı Mustafa kamal Atatürk demişdir: «Nə qədər zəngin və rifah içində olur-olsun, istiqlaliyyətdən məhrum olan bir millət sivilizasiya dünyası qarşısında əl buyruqçusundan, yüksək bir mövqeyə layiq ola bilməz. Yalançı bir millətin himayə və ağalığını qəbul etmək, insanlıq keyfiyyətindən məhrumluğu, ağılsızlıq və miskinliyi etiraf etməkdən başqa bir şey deyildir. Belə bir millət əsir yaşamaqdansa, məhv olsa yaxşıdır. Milli mübarizənin şüarı «Ya istiqlal, ya ölüm» olacaqdır». (36,129)

Məhz Azərbaycan bu mənada, öz müstəqilliyini xarici müdaxilələrdən qorumaq üçün bütün vasitələrdən istifadə edərək, indiki və gələcək nəsillər qarşısında məsuliyyət daşıyır. Mərhum prezidentimiz bu mənada deyirdi: «Bizim böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt heç bir yana əyə bilməsin, heç bir böyük dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin. Bunun üçün də hər kəs bu müstəqilliyi qorumaqdan ötrü sadiq olmalı və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır»///. (51,115)

Bu gün Xəzər dənizi təkcə antik sərvətinə görə yox, həm də yüksəkliyinə və yerləşdiyi coğrafi mənafeyinə görə irili-xırdalı bütün dövlətləri məşğul edir. Xəzər dənizi həqiqətən də NATO üçün (başda ABŞ olmaqla) dünyanın getdikcə formalaşan ikinci OPEK kimi qiymətlidir. Bütün bunlar respublikamızın milli təhlükəsizliyinin qorunmasını tələb edir.

ABŞ Milli Təhlükəsizlik Şurasının hazırladığı «Amerikanın XXI əsr strateji doktrinası»nda göstərilir: «Dünyada bütün istiqamətlərdə artan maraqlarımıza qarşı həll edilməmiş problemlər var. Beynəlxalq terrorizmin artması, inkişaf etməsi, bir neçə yerə şaxələnməsi, eləcə də xarici dövlətlərin yeni hücum taktikalarının işlənib hazırlanması diqqət mərkəzində olmalıdır. ABŞ-a qarşı nüvə, bioloji terror aksiyaları, güclü partlayış qurğularının hazırlanması bizi narahat etməyə bilməz. Biz dövlətin bütün atributlarından, vasitələrindən istifadə edərək başqa dövlətlərə dərs olsun deyə, özümüzün qlobal təhlükəsizliyimizi, milli maraqlarımızı təmin etməliyik. Bu bizim bütün sahələrdə milli maraqlarımıza uyğun gəlməlidir. Yaddan çıxarmamalıyıq ki, bizim xüsusi xidmət orqanlarımız hələ ki, bizə qarşı olan xarici kəşfiyyatın çoxşa-

xəli işlərinə, plan və fəaliyyət proqramlarına düzgün qiymət verə bilmir. Çox məsələlərdə uduzuruq və yaxud gecikirik». (78,103)

Bütün bu fikirləri təbii ki, bizim respublikamıza da aid etmək olar. Çünki Xəzərin neft və qaz sərvətinə malik olması respublikamıza olan təhdidləri artırır. Çünki neft ABŞ «Milli təhlükəsizlik konsepsiyası»nın əsas strateji xəttidir. O yoxdursa Amerika üçün həyat da yoxdur.

Neft Azərbaycan xalqının taleyüklü məsələsidir. Bu məsələnin həll edilməməsi milli təhlükəsizliyinin məhvinə apara bilər. ABŞ yaxşı bilir ki, Fars korfəzi və Xəzər nefti onun döyünən ürəyidir. Əgər ABŞ Azərbaycana olan maraqlarını itirsə, onda Fars körfəzindəki maraqları da təhlükə altına alına bilər.

Azərbaycanın neft strategiyası və təhlükəsizlik məsələlərini araşdıran, Uilyam Odom deyir: «Azərbaycanın neft sərvətini əlində saxlaması, dünya bazarlarındakı rəqabətlərindən üzü ağ çıxması üçün qüdrətli kəşfiyyatı olmalıdır, yüksək kadr potensialı olan təhlükəsizlik qüvvəsi olmalıdır. Belə olmazsa, onda regiondan var-dövlət axını başlayar, neft strategiyasının iflasa uğramasına gətirib çıxara bilər». Məhz bütün bu təhdidləri nəzərə alaraq Respublikamız da milli təhlükəsizliyin qorunmasında nəinki dövlət orqanları, eyni zamanda qeyri-hökumət təşkilatları da ardıcıl mübarizə aparır.



## ƏDƏBİYYAT SİYAHISI

1. Aydın A. Ziya Göyalp. B, 2006
2. Azərbaycan Respublikası Milli Təhəlkəsizlik Konsepsiyası Azərbaycan, 24 may, 2007
3. Azərbaycan 2001, 4 aprel, 2007 2 noyabr, 22 noyabr, 2006, 10 sentyabr. 9 noyabr, 23,24,30,27 noyabr, 2008 5 fevral, 16 yanvar, 2004 23 mart.
4. Azərbaycan Respublikası Milli Təhlükəsizlik haqqında qanun 29 iyun, 2004
5. Azadlıq 5 fevral, 2008,
6. Azərbaycan Dövlət Statistika Komitəsinin materialları, B, 2007
7. Az.Res. Konstitusiyası B, Adiloğlu, 2007.
8. Azərbaycan əsrin astanasında elmi-praktiki konfransın materialları. B, 1998
9. Azərbaycan 2002, 14 may
10. Aİ-ı Azərbaycan Fəaliyyət Planı materiallar. 2004,
11. Ağır cinaytlərə dair işlər üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin materialları 2002-2005-ci illər.
12. «Artsax» televiziyası Xankəndi, 22 sentyabr, 2000-ci il.
13. Axundova Z.Ə. Azərbaycan Respublikası beynəlxalq təhlükəsizlik sistemində. B, 2004, 1839.
14. Ayna. B, 16 may 2003.
15. Baxışov M.Ə. Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələr. B, 1992, 1683
16. Bəzi ümumi qayğılar. B, 2003,
17. Q.C.Cavadaov Azərbaycanın azsaylı xalqları və milli azlıqlar. B, Elm, 2000.
18. H.Cavid Dram əsərləri. B, Azərnəşr 1975.
19. Cəmiyyət və cəza. 2007 №3,4,5,6.
20. Dirçəliş əsr 2004 № 71-72, 2006 №104,105, 102-103, 96-97, 2007 № 106-107, 110-111, 2003 №70
21. Dövlət və din İctimai fikir toplusu. B, Azərbaycan 1997.
22. Dini Qurumlaprla iş üzrə Dövlət Komitəsinin bülleteni. B, 2001. №1
23. Ekologiya və Təbii sərvətlər Nazirliyinin materialları. 2006.

24. H.Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və prespektivlər. B, Əbilov, Zeynalov və oğulları Nəşriyyat-Poliqrafiya evi, 2007, şəkilli, s 424

25. H.Əliyev Müstəqilliyimiz əbədidir. I-IX kitablar. B, 1997-2002

26. H.Əliyev Azərbaycanda Milli siyasət və strateji inkişaf XXI əsrin astanasında (sosial-siyasi və ideoloji aspektlər) B, 2005

27. Əliyev İlham AŞPA-da çıxış. Strasburq 25 sentyabr, 2001-ci il sivilizasiya və terror. B, 2002

28. H.Əliyev Müstəqilliyimiz əbədidir. B, Azərnəşr, 2006.

29. Əliyev.Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. B, Qismət, 2003,s 248.

30. H.Əliyev Atatürk haqqında B., Az.Atom, 2003

31. Əhmədli N. Mustafa Kamal Atatürk. Dirçəliş XXI 2006 № 100-101.

32. Həsənov H., Bəhərçi F. qərb-Şərq münasibətləri xristian və islam təfəkkürü baxımından. B, Təknur, 2005.

33. Həmidov H.A, İpək Yolu və Azərbaycanın strateji maraqları. B, Qartal, 2001.

34. Xəlilov S. Şərq-Qərb: Ümumbəşəri ideala doğru. B, Azərbaycan Universiteti, 2004.

35. Xəlilov S. Təhsil, təlim, tərbiyə. B, Azərbaycan Üniversiteti 2005.

36. Xəlilov S. Milli təhlükəsizlik, Milli mənlik şüurundan. B, Azərb. Universietit, 2006.

37. Xalqa bağışlanan ömür. B, Şəms, 2004.

38. Xalq 2003, 14 oktyabr

39. İsgəndərov F.H. Əliyevin Milli təhlükəsizlik fenomeni dirçəliş. XXI 2004 №74-75

40. İnsan alverinə məruz qalmış İnsanların irqi Həcm - Xüsusən qadınlar və uşaqlar irqçiliyə qarşı dünya konfransı, B, 2001

41. İslam təhriflərə cavab. Azərbaycan dövlət kitab Palatası, B, 197, s 136

42. Qarabağ dünən, bu gün, sabah. IV ümumrespublika elmi-əməli konfransın tezislər toplusu. B, 2005

44. Qasımov M. Azərbaycanın xarici siyasəti B, Mütərcim 1997,

45. Qurani-Kərim B, Çıraq, 2005, Əl-maidə 32, s 636

46. Qloballaşma və Azərbaycan mədəniyyəti. B, 2004

47. Qloballaşan dünyada islam (Beynəlxalq konfransın materialları) B, 30-31 may, 2005, s 176.



48. Qloballaşma və islam (Elmi konfransın materialları) B, 12-13 may, 2004, s45.

49. Qocatürk U. Atatürk, B, Elm, 1991,

50. Qrünebaum Q.E. Klassik islam. 600-1258 tarixinə dair oçerq. B, Az ensiklopediyası, Poliqrafiya birliyi, 1999

51. Məmmədov A. İslam fundamentalizmi: mahiyyəti əsas prinsipləri və təzahür formaları. B, Nurlan, 2004.

52. M.Ə.Sabir Hophopnamə. B, Azərnəşr, 1968

53. Mehdiyev R. XXI əsrdə Milli dövlətçilik B., «XXI – Yeni Nəşrlər Evi», 2003.

54. Mürsəlov R.Ə. Müasir islam fundamentalizmi. B, 2004

55. Münxen təhlükəsizlik konfransı. 2008, 10 fevral Wap Mobil az

56. Məmmədov M.N. Nərimanov və ana dili. B, Elm, 1971.

57. London Strateji Araşdırmalar Mərkəzinin hesabatı Kompas. 2004, №44.

58. Novruzoğlu R. Azərbaycan neft strategiyası xarici kəşfiyyatın maraq dairəsində və Milli təhlükəsizlik problemləri. B, Qanun, 2001

59. Novruzoğlu R. XXI əsr Azərbaycan dövlətçiliyinin təhlükə mənbələri. Vcilddə (II cild) B, Planet-Press, 2005

60. Narkotik vasitələr, psixatrop maddələr və prekursallar. Sənədlər toplusu. B, 2003.

61. Olaylar. 20 fevral, 2008.

62. Piriyev A. Siyasi strategiya və Milli təhlükəsizlik B, BDU, 2005

63. «Post-Sovet prospekti» büllüten Vaşinqton, may 2001.

64. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. B, 1990.

65. Rüstəmov Y. Fəlsəfə və sosial-siyasi elmlər B, 2003

66. Sərdarov M.Ə. Azərbaycanda miqrasiya prosesləri. B, 2004

67. Sosial-siyasi problemlər. XI bur. B, 2004.

68. Sosial-siyasi problemlər. XXII bur. B, 2005

69. Şükürov A.M. Qloballaşma mahiyyəti və perspektivləri. B, Adiloğlu. 2001.

70. Tağıyev Ə.M və Qasımova R.Q. ABŞ Dünyanın sonuncu fatehi. B, 2005.

71. Tağıyev Ə.M; Şükürov M.A. Etnopolitologiya. B, Elm, 2000.

72. İki əsrin qovşağında Azərbaycan: Milli və millətlərarası problemlərin həlli yollarında. B, Adiloğlu, 2004.

73. «Təmiz dünya» Vətəndaş Hüquqları uğrunda İctimai Birliyin materialları. 2000-2005. s 102. UKD

74. Zahidov B. Narkotizmlə mübarizə siyasətinin bəzi aspektləri. Qloballaş ma və Azərbaycan mədəniyyəti. Res. Elmi-praktiki konfransın materialları. B, 2004

75. Füzuli seçilmiş əsərləri. B., 1996

## XARİCİ DİLDƏ

76.Аберкромби Н., Хилл С.. Тернер С. Социологический словарь Казан, 1997.с.283.

77. Axundova. Немцы – колонисты Азербайджана XIX нач XX в. Б, Шуша, 1999, с 122

78. Балер И.С. «Религия и Кафказ» М, 2000.

79. Бисезинский З. Выбор. Глобальное господство или глобальное лидерство. М, 2004

80. Цалих С. каспийские нефтаные доходы: кто окажется в выигрыше? Ъентрол еревисио Прожеът.

81. Экологическая безопасность России м, 1994.

82. Toreqn Affairs jurnalı Nyu-York 19 aprel, 1992

83. Hans Künd, Karl Kusel «Evrensel bir ahlaka doğru, tərcümə edən. N.Aşıkoğlu. İ.Tosun – R.Doğan Ankara, 1995.

84. Xatəmi Strax pered burey. M, 2001

85. Xantinqton Stolknovenie üivilizaüii. M, AST, 2003, s 603

86. Xarrinson dj. Komitet M. Terra, 200

87. İran Daily jürnalı 2002, №19,

88. «İran» qazeti 4 fevral 2003, 2002 19 may.

89. Исуравский А.В, христианство и ислам М, наука, 1999

90. Р.Кеохан «Фонд за национальный прогресс» М, 2003

91. Covert Action İnfor Bülliteni, Vaşiqton, may 2001

92. Компьютерные технологии в юридической деятельности. М, 1994.

93. Гадисиев К.С. Введение в чеополитику. М, Логос 1999

94. Гечел Г.Ф.Лекции по философии истории. Санкт-петербург, 2000

95. Международная Организация по Миграции. Информационные документ. Иссенева, июнь, 1992,

96. A.Moeller Das drite Reich. Hamburq. 1995.

97. «Независимая газета» 4 нойабр, 2002

98. «Невсдай» Нйу-Йорк, 26 йанвар, 2003

99.Рогимов.А.А. Гасанов.Р.М. трансформационные процессы и проблема националбной безопасносты а Азербайджанс. Б, 2003.



100. Reyhan, Tehran. 10 mart 2002

101. RFMEA-nın elmi məcmuəsi. 2001 №4

102. Серов Г.П. Вайдаков С.Л. Правовое обеспечение национальной безопасносты Расии экономической сфере. М, 1999

103. Sevdimaliev R. Mejdunarojnıy terrorizm – qlobalğnaə problema sovremennosti. B, Elm, 2004

104. Seyid Müstəmba Musəvi Larin İslam və Qərb mədəniyyəti. Darulbəşir, 2004

105. Sebastian S. 1998. Allahs Mountains, pub B. Tauris (London and Nev York)

106. Советская Россия М, 2003

107. Stiqlitz. C.E. Qloballaşma və onun doğurduğu narazılıqlar. (M.Güləliyev tərcümə etmişdir) İqtisadi İslahatlar Mərkəzi. Xəzri Ekspress. B, 2004

108. Дж Смит «Национальные интересы» М, 2001.

109. Unver Günay. Din sosiologiyası. İnsan yayınları.

110. Volter P. Siyasi portretlər. London 2000. fransız dilində tərcümə K.Abuşova məxsusdur.

111. Васток 2000. №4

112. Власть М, 2005 №5.

113. М.Вейджемент «Тайный мир». М, Русский Вестник, 2002.

114. Yusif əl-Kərdavi. Əl-həll al islam Farida va dərurə Beyrut, 1974.

115. Ловцов Д. Проблема информайионной безопасности. М, 1998

116. Зарринкуб исламская цивилизации. М, 2004

# MÜNDƏRİCAT

**Giriş**........................................3
**I Fəsil:** Azərbaycanın milli təhlükəsizliyinin mahiyyəti..........7
§1. Milli təhlükəsizlik və milli maraqlar..........8
§2 Milli təhlükəsizliyin xarici siyasət vasitələrilə təmin edilməsi. (Beynəlxalq təşkilatlarla əməkdaşlıq)..........9
§1.2 Regional əməkdaşlıq..........14
§2.1. Milli təhlükəsizliyin daxili siyasət vasitələrilə təmini. (Enerji nəqliyyat, miqrasiya, ekologiya və s)..........19
§2.2. Korrupsiya təhlükəsizliyi..........20
§2.3. Sərhəd təhlükəsizliyi..........28
§2.4. Nəqliyyat təhlükəsizliyi siyasəti..........31
§ 2.5 Miqrasiya təhlükəsizliyi..........35
§ 2.6 Elm, təhsil və mədəniyyətin təhlükəsizliyi..........50
§2.7 İnformasiya təhlükəsizliyi siyasəti..........60
§ 2. 8. Enerji təhlükəsizliyi siyasəti..........69
§2.9. Milli tolerantlıq və dini separatizm təhlükəsizliyi..........74
§ 2. 10 Ölkənin sosial-iqtisadi təhlükəsizliyi..........83
§2. 11 Ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi..........94
§ 2. 12. Ərazi bütövlüyünün qorunması milli təhlükəsizliyin əsasını təşkil edir..........109
§2. 13. Terrorizm təhlükəsizliyi..........114
**II Fəsil.** Qloballaşma və milli mənəvi dəyərlər milli təhlükəsizlik kontekstində. §1. Qloballaşma şəraitində dil və din milli təhlükəsizliyin başlıca amilidir..........119
§2.Qloballaşma və demokratiya..........122
§3.Qloballaşma dövründə dövlətin təhlükəsizliyi..........124
§4.Qloballaşma dövründə islam mənəvi dəyərləri milli təhlükəsizlik konteksdində..........128
§5.Qloballaşma və milli mentalitet təhlükəsizliyi..........132
§6.Qloballaşma, islam mənəvi dəyərləri və Qərb..........138
§7.Qloballaşma və milli ideologiya təhlükəsizliyi..........150
**Nəticə**........................................156
**Ədəbiyyat siyahısı**........................................159

Çapa imzalanmışdır 22.12.2008
Kağız formatı 60x84 1/16
Həcmi 10,2 5 ç.v.
Tiraj 100
*Təknur MMC-nin mətbəəsində çap edilmişdir*
*Ünvan: H.Cavid 31*